AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# QLOBALLAŞAN İQTİSADİYYAT VƏ MÜHASİBAT UÇOTU: MÖVCUD VƏZİYYƏT, REALLIQLAR VƏ PROBLEMLƏR

**ELMİ KONFRANS**
**22 aprel 2019- cu il**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**
**İQTİSAD FAKÜLTƏSİ**

# QLOBALLAŞAN İQTİSADİYYAT VƏ MÜHASİBAT UÇOTU: MÖVCUD VƏZİYYƏT, REALLIQLAR VƏ PROBLEMLƏR

**ELMİ KONFRANS**

**22 aprel 2019-cu il**

Naxçıvan Dövlət Universitetinin Elmi şurasının 29 mart 2019-cu il tarixli qərarı ilə (protokol № 8) çapa tövsiyyə olunmuşdur.

**Naxçıvan-2019**

Qloballaşan iqtisadiyyat və mühasibat uçotu: mövcud vəziyyət, reallıqlar və problemlər. Elmi konfransın materialları, Qeyrət 2019, 110 səh.

**Buraxılışa məsul:** **Teymur Abbasov**
*Mühasibat uçotu və maliyyə kafedrasının müdiri.*
*İqtisad elmləri doktoru,professor*

**Redaktor:** **Amar Qasımov**
*Mühasibat uçotu və maliyyə kafedrasının*
*müəllimi*

**SALEH MƏHƏRRƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

# DÜNYA İQTİSADİYYATI, QLOBALLAŞMA VƏ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARI

## XÜLASƏ

*Elmi məqalədə dünya iqtisadiyyatında baş verən dəyişikliklər,qlobal dünya iqtisadiyyatının müasir vəziyyəti, Azərbaycanın dünya iqtisadiyyatında tutduğu yer, qloballaşmanın əsas məqsədi, ölkənin dünya iqtisadiyatına inteqrasiyası geniş sərh edilmişdir. Eyni zamanda elmi məqalədə qloballaşan dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan iqtisadiyyatında mühasibat uçotunun beynəlxalq standartları geniş tədqiq olunmuşdur.*

**Açar sözlər:** *iqtisadiyyat, beynəlxalq standartlar, qloballaşma, maliyyə, beynəlxalq bazarlar*

Dünya iqtisadiyyatı müasir cəmiyyətin fəaliyyətini şərtləndirən maddi təməldə müxtəlif millətləri və xalqları birləşdirməyə imkan verən, beynəlxalq əmək bölümünə əsaslanaraq ayrı-ayrı ölkələrin iqtisadi, elmi texniki, istehsal, maliyyə-valyuta və pul-kredit əlaqələrini özündə ehtiva edən çox funksional bir sistemdir. Eyni zamanda daha qısa ifadə etsək dünya iqtisadiyyatı mürəkkəb sosial iqtisadi sistemdir.

O elmi tədqiqat obyekti olaraq digər elmlərlə yanaşı insan cəmiyyətinin praktik tələbatları ilə sıx rabitədə meydana gəlib və inkişaf edir. Qeyd etmək lazımdır ki, XXI əsrdə dünya təsərrüfatının sosial iqtisadi siması xeyli dəyişmişdir. Dünya sosialist düşərgəsi dağılmış, soyuq müharibə sona çatmış, iki sistemin rəqabəti bitmiş, bir sıra ərazi təsərrüfat quruluşunun yeni tərəqqi yoluna qədəm qoyaraq industrial ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsinə çatmışdır.

Qlobal çağırışlarına uyğun olaraq hazırda dünya iqtisadiyyatı yeni texnoloji dönüş zamanını yaşayır. Elmi texniki tərəqqinin təsiri altında dünyada məhsuldar qüvvələrin keyfiyyət dəyişiklikləri baş verir.

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatı, konteksində sürətlə inkişaf edir. Eyni zamanda ölkəmiz dünya iqtisadiyyatına sürətlə inteqrasiya olunur həm də dünya bazarına qovuşmaq yolunda mühüm addımlar atır.

Qloballaşmanın əsas məqsədi dünyanı vahid bir mexanizmdə idarə etməkdir. Ulu öndər Heydər Əliyev 2002-ci ildə Nyu Yorkda keçirilən tədbirlərin birində demişdir ki, Azərbaycan qloballaşmanın müsbət və mənfi nəticələrini öyrənməlidir, onları araşdırmalıdır. Nə varsa onu qəbul etsək nə olar? Ulu öndər Heydər Əliyev və cənab prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində biz dünyaya qoşulub inkişaf edərək öz milli maraqlarımızı qorumuşuq.

Qlobal dünya iqtisadiyyatının müasir vəziyyəti Azərbaycanın dünya iqtisadiyyatında tutduğu yer və gələcək istiqamətlər ölkəmizdə uçot sisteminin təkmilləşdirilməsi və eyni zamanda mühasibat uçotunun Beynəlxalq Standartlar əsasında aparılmasını tələb edir.

Qloballaşan dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan iqtisadiyyatının inkişafında mühasibat uçotunun Beynəlxalq Standartlara uyğunlaşması və mühasibat uçotunun Beynəlxalq Standartlar əsasında aparılması xüsusi aktuallıq kəşf edir.

Məlum olduğu kimi mühasibat uçotu və hesabat inzibati amirlik sistemində prinsipcə tamamilə başqa vəzifələr yerinə yetirirdi. Qloballaşma şəraitində isə uçot və hesabat sahəsində dünya praktikasında qəbul edilmiş qaydalara uyğun islahatlar aparılması problemi qarşısında duran vəzifədir. Bu ona görə vacibdir ki, ölkənin müəssisələri beynəlxalq bazarlara çıxdıqda, onun tam hüquqlu üzvü ola bilsinlər, mühasibat uçotunun mövcud standartları isə hər bir müəssisənin fəaliy-

yətini və əmlak vəziyyətini obyektiv əks etdirsin. Qeyd etmək lazımdır ki, uçot və hesabat sisteminin standartlaşdırılması əslində qlobal xarakter daşıyır. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Avropa Birliyi çərçivəsində bu iş 50 ilə yaxındır ki, həyata keçməkdədir.

Son dövrlərdə müasir kommunikasiya texnologiyasının geniş tətbiqi ilə əlaqədar nəzərə almaqla maliyyə hesabatının vahid qaydada formalaşması da ön plana çıxmışdır. İnvestisiya qoyuluşları getdikcə daha çox ümumdünya elektron şəbəkəsi vasitəsilə həyata keçdiyi üçün uçot və hesabat standartlarının intifikasiyası problemləri də aktuallıq kəsb edir.

Mühasibat uçotunun Beynəlxalq Standartları üzrə komitə tərəfindən işlənib hazırlanan maliyyə hesabatının Beynəlxalq Standartları müəssisənin fəaliyyəti haqda şəffaf və anlaşıqlı informasiya verilməsini ən səmərəli forması kimi bütün dünya ölkələri tərəfindən tanınır və əksəriyyət ölkələr onu qəbul etmişdir. Hal-hazırda Azərbaycanda maliyyə hesabatının Beynəlxalq Standartlarına 41 standart, milli mühasibat uçotu standartlarına isə 37 standart daxildir. Maliyyə hesabatlarının beynəlxalq standartlarının hər biri maliyyə hesabatlarını hazırlayan zaman onların tərkibinin formalaşmasına təsir göstərir. Ona görə də maliyyə hesabatlarının beynəlxalq standartlarının hər biri barədə müəyyən biliklərin olması vacibdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda maliyyə hesabatlarının Beynəlxalq Standartları həm kommersiya təşkilatlarında həm də büdcədən maliyyələşən təşkilatlarda tətbiq olunur.

## ƏDƏBİYYAT


1. S. Qafarov. “Müasir iqtisadi sistem və qloballaşma”, Bakı, 2005, 631 səh
2. M.A.Əhmədov. “Qloballaşma və milli iqtisadiyyatın formalaşması”, Bakı, 2003, 434 səh
3. Z.Ə.Səmədzadə Dünya iqtisadiyyatının iqtisadi məcmuəsi, Bakı Gənclik 2001, 317 səh.
4. T.A.Abbasov, Mühasibat uçotunun Beynəlxalq və Milli Standartlarının əsaslı, Dərs vəsaiti, Bakı 2010, 524 səh.
5. T.A.Abbasov Büdcədən maliyyələşən təşkilatlarla mun. və hesabatlı, Dərs vəsaiti (CAAP və İRFS əsasında)

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

# QLOBALLAŞAN İNNOVASİYALI İQTİSADİYYATDA MÜHASİBAT UÇOTUNUN AKTUAL PROBLEMLƏRİ

**XÜLASƏ**

*Elmi məqalədə qloballaşan innovasiyalı iqtisadiyyatda mühasibat uçotunun təşkilində maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqi geniş şərh edilmişdir. Eyni zamanda elmi məqalədə qloballaşan iqtisadiyyat, dünya təsərrüfat əlaqələrinin inkişafında transmilli şirkətlərin rolu, kapital bazarlarının inkişafına mühasibat uçotunun təsiri və mühasibat uçotunun regional problemləri geniş tədqiq olunmuşdur.*

**Açar sözlər:** *innovasiyalı iqtisadiyyat, kapital bazarları, qloballaşma, transmilli şirkətlər, Beynəlxalq Standartlar.*

Müasir şəraitdə Azərbaycan həm dünya iqtisadiyyatına inteqrasiya olunur, həm də dünya bazarına qovuşmaq yolunda mühüm addımlar atır. Son 10 ildə dünya iqtisadiyyatında dörd mühüm istiqamət müşahidə olunur. Qloballaşmanın nəticəsi olaraq liberallaşma baş verir. Liberalizmin təsiri altında olan ölkələr öz realizminə əsaslanan siyasət yeridirlər. Liberalizmin təsiri altında dünyanı vahid bir mexanizmdə idarə etmək qloballaşmanın əsas məqsədidir.

Qlobal çağırışlara uyğun olaraq, hazırda dünya iqtisadiyyatı yeni texnoloji dönüş zamanını yaşayır, ETT-nin təsiri altında dünyada məhsuldar qüvvələrinin keyfiyyət dəyişiklikləri baş verir, iqtisadi proseslərdə internetin, İKT-nin geniş tətbiqi zaman amilinin əhəmiyyətini azaldır, məhsul istehsalının siması və xarakteri dəyişikliklərə uğrayır, dünya istehsalı əhali artımını üstələyir, internətləşmə inqilabı yeni mərhələyə qədəm qoyur.

Uçot və hesabat sahəsində beynəlxalq standartların işlənib-hazırlanmasına və tətbiq edilməsinə tələbat aşağıdakı əsas səbəblərlə şərtlənmişdir:

1) dünya təsərrüfat əlaqələrinin inkişafında transmilli şirkətlərin rolu;
2) kapital bazarlarının inkişafına mühasibat uçotunun təsiri;
3) mühasibat uçotunun regional sistemləri.

Məhz transmilli şirkətlərin xarici iqtisadi fəaliyyətindən əksər inkişaf etmiş ölkələrin ixracatının həcmləri və istiqaməti asılıdır. Etiraf etmək lazımdır ki, transmilli şirkətlər bütün dünyada iqtisadi inkişafın hərəkətvericisi kimi çıxış edir. Transmilli şirkətlər üçün müxtəlif ölkələrin şirkətlərinin birləşməsi və udulması prosesi səciyyəvidir, məsələn, yapon investorları ABŞ milli şirkətlərinin səhmlərini fəal surətdə alırlar, müxtəlif Avropa ölkələrinin şirkətlərinin birləşməsiprosesi gedir, onlar, öz növbələrində, Asiya regionu şirkətləri ilə səhmlərini mübadilə edirlər və s. Transmilli şirkətlər xammal, işçi qüvvəsi, kapital bazarlarının daim dəyişən şərtlərinə yüksək uyğunlaşma dərəcəsi ilə fərqlənir, onların ehtiyat qüvvələri olduqca çevikdir. Həmçinin transmilli şirkətlərinin fəaliyyətində firmadaxili ticarətin və transfert qiymət əmələ gəlməsinin rolunu da qeyd etmək lazımdır [4, s.15].

Transmilli şirkətlər öz kapitallarını investisiya etdikləori müəssisələrin maliyyə vəziyyəti barədə kifayət qədər tam və etibarlı informasiyaya malik olmadan öz iqtisadi və maliyyə siyasətlərini uğurla həyata keçirə bilməzlər. Dürüst maliyyə informasiyası olmadan transmilli şirkətlərin resurslarının yerləşdirilməsi üzrə müxtəlif ölkələrin bazarlarının təklif etdiyi alternativlərin təhlili mümkün deyil. Müxtəsər desək, transmilli şirkətlərin menecerləri bütün səviyyələrdə qərarlarqəbul edilməsi prosesini təmin edən inkişaf etmiş daxili informasiya və hesabat sisteminə ehtiyac duyurlar. Ancaq bu cür sistem yaradılarkən, məsələn, yerliuçotsisteminin qavranılmamasını, eləcə də kifayət qədər olmayan peşə hazırlığını və müəyyən anlayışlara, metodlara və formalara uyğunlaşa bilməməsini təyin edən mədəni və sosioloji amilləri nəzərə almaq zəruridir.

Mühasibat uçotunun firmadaxili aspektlərindən savayı, qəbul edən ölkələrin uçot və hesabatformaları və metodlarını bilmək böyük əhəmiyyət kəsb edir. Hər şeydən öncə, transmilli şirkətlərin törəmə şirkətləri milli normalara və standartlara əməl etməyə borcludurlar. Daha sonra, transmilli şirkətlərinin filialları və törəmə şirkətləri olduqları ölkənin iqtisadi infrastrukturu banklarla, maliyyə orqanları ilə qarşılıqlı fəaliyyətdə olurlar və yerli istifadəçilər üçün məqbul formada hesabat təqdim etməlidirlər. Eyni zamanda baş şirkətin xarici firmalarının hesabatı təqdim edilərkən hesabatların tərcüməsi və miodifikasiyası zərurəti yaranır. Ümumi (cəmləşdirilmiş) hesabat tərtib olunarkən böyük mühasibat uçotunun və hesabatının hesabat məlumatlarının qarşılıqlı uzlaşdırılması zəruridir. Bu zaman fərqlər həm formal xarakterə (balansın təqdim olunmasının, nəticələrin hesabının müxtəlif modelləri), həm də əslində, zahirən eyni anlayışların şərhində fikir ayrılıqlarına malikdir.

Transmilli şirkətlərin xarici iqtisadi fəaliyyəti, digər şirkətlərin xarici ticarət əməliyyatları, beynəlxalq investisiya prosesi, dünya fond birjalarındakı əqdlər xarici valyutada onu milli valyutaya çevirməklə hesablaşmalar aparmaq zərurəti yaradır. Bu cür çevirmələr transmilli şirkətlərinin ümumi (cəmləşdirilmiş) hesabatı tərtib olunarkən də zəruridir. Prinsipcə bu, texniki uçot problemləridir, lakin onlar da mühasibat uçotunun beynəlxalq standartlaşdırılması vasitəsi ilə həll edilməməlidir [6, s.25].

Burada bir nəticə çıxırki, transmilli şirkətlər obyektiv olaraq uçotun beynəlmiləlləşməsinə təşəbbüs edir və onun beynəlxalq standartlaşdırılmasına fəal yardım göstərir.

Beynəlxalq kapital bazarları milli bazarlardan əmələ gəlmişdir.Yaxın keçmişdə müəssisələrin borc kapitalına olan tələbatları milli kapital bazarları vasitəsi ilə ödənilirdi. Nümunə kimi müəssisələrin onlara lazım olan kapitalları ölkə daxilində ilkin və təkrar kapital bazarları vasitəsi ilə toplamaq imkanları olan ABŞ göstərilə bilər. ABŞ-ın qiymətli kağızların təkrar bazarı - dünyada ən böyük bazardır.

İkinci Dünya müharibəsindən sonra maliyyə bazarında vəziyyət köklü surətdə dəyişdi. Xüsusilə Amerika yardımı proqrammı və öz iqtisadiyyatını bərpa edən müharibədən sonrakı Avropada dollar «aclığı» amerikan müəssisələrinin xarici investisiyalarının artımına səbəb oldu.

Hal-hazırda bir sıra amillər üzündən beynəlxalq kapital bazarlarının sürətli inkişafı və onların mövqelərinin möhkəmlənməsi müşahidə olunur. Bu cür amillərə aşağıdakılar aiddir: inkişaf planlarını və milli gəlirlərin dəstəklənməsi üzrə proqramlar həyata keçirən ölkələrin xarici maliyyə mənbələrinə artan tələbatı, maliyyə bazarlarında rəqabət, ölkələrin artıq maliyyə resurslarına malik olan və xarici investisiyalara ehtiyac duyan ölkələrə bölünməsi.

Digər tərəfdən, beynəlxalq standartlar bir çox birjaəməliyyatlarını sadələşdirir və bununla da onların inkişafına təkan verirlər.

Qeyd etmək mühümdür ki, mühasibat uçotu heç vaxt onun tətbiqi dairəsini hər hansı bir sahə və ya ayrıca ölkə ilə məhdudlaşdırılmamışdır. «İtalyan mühasibatı» çox sürətlə Almaniyanı, Fransanı, niderlandı, sonra isə Böyük Britaniyanı fəth etdi. Böyük Britaniyanın 17-18-ci əsrlərdə hökmran üstün mövqeyi mühasibat uçotunu nəinki Şimali Amerikada, həm də Britaniya Birliyi ölkələrində yaymağa kömək etdi. Holland təsiri uçotun İndoneziya və Cənubi Afrikada «mənimsənilməsinə» imkan yaratdı. Fransız uçot sistemi Polineziyada və Afrikada fransız təsir zonasında yayılmışdır, Almaniya və Yaponiyada, İsveçdə və keçmiş çar Rusiyasında uçotun inkişafına təsir göstərdi.

Birləşmiş ştatların iqtisadi qüdrətinin bizim yüzilliyin birinci yarısında artması amerikan modelinin nəzəri mövqelərinin və təcrübənin təkcə Almaniyada və Yaponiyada yox, həm də inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Braziliyada, İsraildə, Meksikada və Filippində təsirinin artması ilə nəticələndi [7, 58].

Bu təsir hal-hazırda da xeyli hiss olunan dərəcədə qalır. Birləşmiş Ştatlar mühasibat uçotu sahəsində elmi işləmələrə maliyyə ayırmaları və nəşrlərin sayına görə öndə gedirlər., onlar həmin profilyönümlü universitet təhsilinin yüksək inkişaf etmiş sistemınə malikdirlər. Eyni zamanda heç də bütün ölkələr uçotun amerikan standartlarını və prinsiplərini həvəslə qəbuletmirlər.

Mühasibat uçotu mahiyyətcə universaldır, onun dili - «beynəlxalq ünsiyyət dilidir», «balans», «debet», «kredit», «konto»(hesab) kimi kateqoriyalar bütün dünyada başa düşülür və tətbiq olunur.

Artıq deyilmişdir ki, dünya təcrübəsində aktivlər qiymətləndirilərkən daha çox ilkin maya dəyərindən istifadə edirlər, baxmayaraq ki, bu metod modifikasiyaedilmiş şəkildə tətbiq edilir. Belə bir nöqteyi-nəzər mövcuddur ki, balansda aparılan qiymətləndirmə əmlakın o zaman real dəyərinə

maksimum yaxın olmalıdır, buna görə də cari dəyəri tətbiq etmək, yaxud gələcək əməliyyatlardan ehtimal olunan itkiləri və gəlirləri nəzərə almaq, qiymətlərin dəyişməsini əks etdirmək və s. vacibdir.

İnflyasiya ümumdünyahadisəsi olduğundan, onun nəticələri isə həm mikro, həm də makro səviyyələrdə duyulduğundan bu məsələ üzrə uçot problemlərinin həlli üçün maksimum səy göstərilməlidir. Aydındır ki, bu, Azərbaycanda müasir iqtisadi vəziyyət üçün də xeyli aktualdır [8, 210].

Eləcə də balansa hansı vəsait və resurs növlərinin daxil edilməsi barədə məsələnin birmənalı olmayan həllini qeyd etmək lazımdır, xüsusilə də bu «firmanın qiyməti» və ETTKİ-nə xərclər kimi aktivlər barəsindəsəciyyəvidir. Buradan bu kateqoriyalı vəsaitlərin silinməsinə müxtəlif baxışlar ortaya çıxır:bir qisim ölkələrdə onların faydalı istifadə müddəti ərzində amortizasiyasına, yaxud da öz kapitalının azaldılması hesabına dərhal silinməsinə icazə verilir. Bir sıra ölkələrdə alternativ seçimə yol verilmir (məsələn, ABŞ-da, Kanadada və Yaponiyada «firmanın qiymətinin» dərhal silinməsinə icazə verilmir, onun aktivdə məcburi «kapitallaşması» tələb olunur). Amortizasiya müddətlərinin təyin edilməsi təcrübəsi də fərqlənir. Ayrı-ayrı ölkələrdə «firmanın qiymətinin» silinməsinin maksimum müddətin məhdudlaşdırılması müəyyən edilir, məsələn ABŞ-da 40 il, Avstraliyada - 20 il, Hollandiya və İsveçdə - 10 il, Almaniya və Yaponiyada - 5 il. Ticarət markaları, ticarət nişanları, EHM üçün proqram təminatı və sair kimi duyulmayan aktivlərin uçotu vəamortizasiyası zamanı da fərqlər mövcuddur [9, s.402 ].

Eynilə və öhdəliklərin uçot təcrübəsi də fərqlənir. Məsələn, Argentinada vergilər üzrə öhdəliklər hesablanmırlar, onlar yalnız kassa metodu üzrə hesaba alınırlar və əks olunurlar. Hollandiyada təxirə salınmış gəlir vergisinin məbləği (faktiki vergi ilə maliyyə uçotda müəyyən edilmiş mənfəətə uyğun hesablanmış vergi arasındakı fərq) diskontlaşır.

«Öhdəliklər» anlayışının müxtəlif təfsir edilməsi ona gətirib çıxarır ki, ayrı-ayrı Avropa ölkələrində və Cənubi Afrikada, məsələn, qiymətləndirmə ehtiyatları yaranılmır (hətta pensiya öhdəlikləri üçün də), əksinə, Almaniya vəİsveçrə «öhdəlik» termininin «gizli» ehtiyatlara tətbiq edilməsinin nümunəsidirlər, bununla da onlar həmin ehtiyatların yaradılmasına bəraət qazandırırlar. Bu ölkələrdə ehtiyatlılıq prinsipi ifrat ifadəsini tapır vəbir sıra hallarda gələcəkdə mümkün itkilərin yenidən qiymətləndirilməsi mövcuddur.

Əməliyyatların xarici valyutada yenidən hesablanma zamanı da beynəlxalq uçotda ziddiyyətli problemlər yaranır: hesablama zamanı hansı mübadilə məzənnəsi və hansı ana istinadən tətbiq edilməlidir, bunun nəticəsindəyaranmışfərqləri necə şərh etməli vəs.

Beləliklə, aydındvr ki, beynəlxalq uçot sisteminin yaradılması üzrə iş aparılması üçün obyektiv tələbat və ilkin şərtlər mövcuddur. Bu iş müxtəlif ölkələrə mövcud olan uçot sistemlərinin tədqiqindən, müqayisəsindən və təsnifatından, uçotun, hesabatın və auditin unifikasiyası üzrə işləmələrdən və tövsiyyələrdən ibarətdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Qanun, 1997.
2. Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanunu.Bakı 2004.
3. «Mühasibat uçotu haqqında Qanunun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli fərmanı.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyun 2005-ci ildə təsdiq olunmuş 2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqramm»ı.
5. Milli mühasibat uçotu standartları. «Qanun», 2008.
6. «Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda büdsə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarınf uyğun olaraq mühasibat uçotunun təşkili və aparılmasına dair təlimat».Bakı, 2012.
7. Abbasov Q.Ə. Mühasibat uçotunun nəzəriyyəsi (dərslik), Bakı, 2009.
8. Abbasov T.A., Bağırov M.S. «Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili». Bakı, ADPU, 2005, 221 s.
9. Abbasov T.A., Bağırov M.S. «Mühasibat (idarəetmə) uçotu», (dərs vəsaiti). Bakı, ADPU, 2007, 523 s.

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*
*rustamov.aqarza@mail.ru*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AQRAR SAHƏ MƏHSULLARININ DÜNYA BAZARINA ÇIXARILMASININ SÜRƏTLƏNDİRİLMƏSİ VƏ XARİCİ TƏCRÜBƏDƏN İSTİFADƏ

**Xülasə**

*Məqalədə qloballaşma şəraitində Azərbaycanda aqrar sahənin intensiv yolları, kənd təsərrüfatı məhsullarının ixracı yolları geniş işıqlandırılmışdır.*

***Açar sözlər:*** *aqrar sahə, qloballaşma, bazar qiymətləri,maya dəyəri,kənd təsərrüfatı məhsulları çeşidləri*

Müstəqillik dövründə respublikanın sabit və dayanıqlı inkişafının təmin olunması üçün onun dünya təsərrüfatında tutduğu müəyyənləşdirilməsi, xarici iqtisadi əlaqələrin milli iqtisadi mənafelər baxımından inkişaf etdirilməsi və onun mexanizminin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində ölkəmizin xarici iqtisadi əlaqələrinin inkişaf qanun və qanunauyğunluqlarının dərk edilməsi, qarşıya çıxan problemlərin həlli yollarının tapılması,göstərilən istiqamətlərdə elmi araşdırmaların davam etdirilməsi zəruriliyini yaradır.Müasir qloballaşma şəraitində dünya ölkələri arasında iqtisadi münasibətlər özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya iqtisadiyyatının formalaşması,dünya bazarının təşəkkülü,eyni zamanda qlobal problemlərin kəskinləşməsi və onların həllinin yalnız ümumbəşəri səviyyədə mümkünlüyü beynəlxalq iqtisadi münasibətlərin bir sistem halında bərqərar olunmasına gətirib çıxarmışdır.

Dünya bazarında qiymətlərin dinamikası ayrı-ayrı ölkələrin ixrac potensialında və idxal tələbatında baş verən dəyişikliklər, dünya iqtisadiyyatında struktur irəliləyişlər və beynəlxalq inhisarların fəaliyyəti hər bir ölkənin mənafeyinə toxunur. Yuxarıda göstərilən amil ölkələrin sosial-iqtisadi inkişafın əhəmiyyəti dərəcədə təsir göstərir.Ərzaq problemi dünyanın qlobal problemlərində biri olmaqla bəşəriyyəti həmişə narahat edir tədqiqatlar göstərir ki, bu problem hələ yaxın gələcəkdə də öz aktuallığını saxlayacaqdır.Belə ki, əgər son 30 ildə yer kürəsində taxıl istehsalı 2 dəfə artsa da, əhali 1,8 dəfə artmışdır. Xüsusi ilə son dövrlərdə ölkəmizdə aparılan iqtisadi islahatların aparılmasının nəticəsidir ki, iqtisadiyyatımızın inkişafında müsbət meyllər baş vermiş, sahibkarlıq subyektləri daha da inkişaf inkişaf etmişdir. Son dövrlərdə respublikamızın iqtisadi qüdrəti artdıqda,maliyyə imkanları yüksəldikcə,sahibkarlara xüsusi diqqət artmışdır.Belə ki, sahibkarlara güzəştli kreditlərin verilməsi,onlara maddi stimul yaranmışdır.Son dövrdə aqrar sahəyə xüsusi diqqət yetirilir ki, bu da zərurətdən irəli gəlir.Əhalinin ərzaq təhlükəsizliyinin qorunmasında aqrar sektor mühüm əhəmiyyətə malikdir. Aqrar sahə iki mühüm vəzifəni yerinə yetirir :

- Birinci,əhalinin ərzaqa olan tələbatını;
- İkinci,yeyinti və yüngül sənayesinin xammala olan təlbatını təmin edir.

Ölkə əhalisinin ərzaq təminatında yaranmış vəziyyətlə əlaqədar olaraq,ölkə Prezidenti tərəfindən xüsusi “Azərbaycan respublikasının ərzaq təhlükəsizliyi Proqramı” qəbul edilmişdir. Proqramda birmənalı göstərilir ki, ərzaq təhlükəsizliyi insan hüquqlarından biridir və insan ləyaqətinin başlıca aspekti hesab edilir .Sivil dövlətlərin ali qanunları vətəndaşların təmin olunması məsələsini hökümət qarşısında təxirəsalınmaz işi məcburi vəzifə kimi qoyulur.

Bu proqramda bir-biri ilə bağlı bağlı tale yüklü iki vəzifə qoyulmuşdur:

-yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

-kəskin ərzaq qıtlığı hallarının aradan qaldırılması və təminatlı ərzaq sisteminin yaradılması;

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısa və orta müddətli keçici tədbirlər tətbiq olunması zəruridir. Bu əsasən özəl sektorun və sahibkarlığının inkişafı ilə təmin olunmalıdır və aşağıdakı istiqamətləri əhatə etməlidir.

-ərzaq məhsulları istehsalçılarının idxalından müdafiəsi;

-istehlakçıların müdafiəsinin gücləndirilməsi ;

-ərzaq təhlükəsizliyi sahəsində müvafiq məlumat sisteminin yaradılması yolu ilə fövqəladə vəziyyətə hazırlıqla bağlı əlavə tədbirlərin həyata keçirilməsi

Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi azərbaycanın kənd təsərrüfatının gəlirliliyini və rəqabət qabiliyyətini eləcə də onun beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutmalıdır. Ərzaq təhlükəsizliyi əsasən kənd təsərrüfatının inkişaf etdirilməsi hesabına təmin edilməlidir.

Respublikanın ərzaq təhlükəsizliyini təmin etməsi üçün daxili ehtiyatların üzə çıxarılması olduqca müsbət haldır. Belə ki, ərzaq təhlükəsizliyi eyni zamanda respublikanın siyasi və sosial-iqtisadi cəhətdən isə istehsalın elmi əsaslarla təşkil edildiyi şəraitdə yerli məhsulların ekoloji cəhətdən daha təmiz olur, az nəqliyyat xərci ilə bazara cçıxarılır və uzaq regionlardan gətirilən məhsullara nisbətən maya dəyəri aşağı olur ki, bu həmin məhsulları bazarda ucuz satmağa imkan verir. Respublikamızda,hazırda əhalinin qidalanmasına,sənayenin xammalla təmin olunmasını, ixracın tərkibinin isə kənd təsərrüfatı və aqrar sahə məhsulları ilə zənginləşdirilməsi üçün əlverişli şərait mövcuddur.Dünya kənd təsərrüfatı bazarına ancaq istehsalın yüksək səmərəliliyini təmin etməklə bərabər hüquqlu subyekt kimi daxil etmək olar.Çünki, kənd təsərrüfatı müəssisələri düzgün idarəetmə mexanizminin yaradılması və istifadə edilməsi təsərrüfat fəaliyyətinin nəticələrinə yüksək səviyyədə nail olmaq olar. Ölkə iqtisadiyyatının dinamikasını və strukturunun formalaşdırılması əhəmiyyətli dərəcədə ixrac və idxal münasibətlərindən asılıdır. Araşdırmalar göstərir ki, Azərbaycanın xarici bazarlara iqtisadi əlaqələri onun iqtisadi potensial imkanları,təbii-iqlim, iqtisadi -coğrafi şərtləri ilə həm də onun milli strateji maraqları ilə üst-üstə düşür.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, zəngin xammal bazasına malik olan kənd təsərrüfatı məhsullarını və onların ixracı ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə ciddi yardım edir.

Qloballaşma şəraitində Azərbaycanın iqtisadi cəhətdən daha güclü bir ölkəyə çevrilməsi, onun dünya iqtisadi sisteminə inteqrasiyasının təmin edilməsi üçün kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədi ilə,fikrimizcə aşağıdakıların yerinə yetirilməsi məqsədəuyğundur:

-kənd təsərrüfatı məhsullarının istehsalını dövlət tərəfindən tənzimlənməsinə xüsusi fikir verilməlidir;

-kənd təsərrüfatı məhsullarının şatış və qiymətlərində sabitlik təmin edilməli, bu məhsulların satışı və ixracı üzrə ixtisaslaşdırmaların yaradılması stumullaşdırılmalıdır ;

-aqrar sahənin inkişafı proseslərində elmi-texniki tərəqqinin nailiyyətləri tətbiq edilməlidir;

-aqrar sahə məhsullarının daxili və beynəlxalq bazarlarda rəqabət qabiliyyəti təmin edilməlidir;

-Azərbaycan höküməti ixracın strukturunda kənd təsərrüfatı məhsullarının payının artırılmasına çalışmalıdır;

-kənd təsərrüfatı məhsullarının regional inkişafına diqqəti artırılmalıdır;

-kənd təsərrüfatı məhsullarının dünya bazarı ilə əlaqələrinin hərtərəfli sifarişi üçün çevik gömrük siyasəti yeritməli gömrük faizləri daxili bazarın tələblərinə uyğun daim təkmilləşdirilməlidir.

-təbii fəlakətlərin riski böyük olduğu üçün sığorta işinin təşkili sürətləndirilməlidir.

Bu baxımdan son illərdə ölkəmizdə meyvə,tərəvəz, qoz, fındıq və digər bitki mənşəli məhsulları xeyli miqdarda milyon ABŞ dolları həcmində xarici ölkələrə ixrac edilmişdir.Böyük ixrac potensialına malik olan sahələrin:pambıq,tütün,çay,üzüm, nar, fındıq, xurma,alma tərəvəz məhsulları,onların konservləri, şirələr,bitki yağları və s.istehsalı artırılmalıdır.

## ƏDƏBİYYAT

1. Alıyev İ.H.İbadov S.A.Azərbaycan iqtisadiyyatı.Bakı-1998.
2. E.Bağırov."Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı".Bakı-2015.səh.193
3.Alıyev İ.H."Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi ".Bakı.Elm,2003, 315 s..

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN REGİONUNDA AQRAR MƏSƏLƏLƏRİN TƏDQİQİNƏ DAİR

**Xülasə**

*Tədqiqatda region qəzalarında torpaq mülkiyyəti formaları, dövlət, sahibkar, kəndlilərin vəziyyəti,icarədarlıq problemləri və kənddə kapitalist münasibətlərinin inkişafının tədqiqinə çalışılmışdır.*

***Açar sözlər**: kənd, torpaq, sahibkar, aqrar münasibətlər, muzdlu əmək icarədarlıq*

XIX əsrin ikinci yarısında Naxçıvanda o cümlədən bütün Azərbaycanda olduğu kimi aşağıdakı torpaq mülkiyyəti formaları mövcud idi.

1.Xəzinə torpaqları- Bu torpaqlar xəzinəyə məxsus olub həmin torpaqlarda yaşayan, dövlət kəndliləri adlanan kənd istehsalçılarının istifadəsinə idi.

2.Sahibkar-mülkədar-bəy torpaqları. Bu mülkiyyətə daxil olan torpaqları iki hissəyə bölmək lazımdır: a) Onun bir qismi mülkədar torpaqlarında yaşayan sahibkar kəndliləri adlanan kənd istehsalçılarının pay torpaqları idi: b) Bilovasitə mülkədar bəylərin ixtiyarında mülkiyyətində olan torpaqlar:

3.Vəqf torpaqları- ruhani idarələrinə, məscidlərə məxsus torpaqlar.

Azərbaycanın bütün başqa qəzalarından fərqli olaraq Naxçıvanda tiyul şərti mülkiyyəti də mövcud idi. Naxçıvanda torpaqların böyük əksəriyyəti, dövlət xəzinəsinə məxsus olan torpaqlar idi.

Xəzinə torpaqları Naxçıvan xanlığı Rusiyaya birləşdirilənə qədər də mövcud idi. Bilavasitə xanın mülkiyyətində idi. Xanlıq ləğv edildikdən sonra onun mülkiyyəti çar dövlət xəzinəsinin mülkiyyətinə keçdi və bu torpaqların sahəsi Rusiyadan üz döndərib İrana və Türkiyəyə qaçmış bəylərin və digər torpaq sahiblərinin mülkiyyəti hesabına xeyli genişləndi.

XIX əsrin 80-ci illərinin ortalarına aid məlumata görə Naxçıvan qəzasında olan 59 kənddən yalnız 15-i, Şərur-Dərələyəz qəzası üzrə isə 124 kənddən yalnız 3-ü mülkədar kəndləri idi[1]. Deməк, Naxçıvandakı 183 kənddən yalnız 18-i, yəni
10%-dən bir qədər azı mülkədar kəndləri, qalan 165-i, 90%-ə qədəri isə dövlət kəndləri idi. Buradan belə nəticəyə gəlmək olar ki, Naxçıvanda Azərbaycanın bütün başqa qəzalarından çox dövlət kəndləri var idi. Tədqiq etdiyimiz dövrdə Naxçıvanda dövlətə, bəy-mülkədarlara və dini idarələrə məxsus olan əkin üçün yararlı torpaqlar aşağıdakı qaydada bölünürdü.(desyatin hesabı ilə)[2]

| | **Naxçıvan qəzası:** | **Şərur-Dərələyəz:** | **Cəmi:** |
|---|---|---|---|
| Dövlət torpaqları. | **22719** | **33613** | **56382** |
| Ali silkə məxsus xüsusi şəxslərin torpaqları. | 10044 | 4463 | 44407 |
| Mülkədar hüquqlu torpaqlar. | -- | 1924 | 1924 |
| Müxtəlif silklərə məxsus olanların torpaqları. | -- | 5455 | 5455 |
| Dini idarələrə məxsus. | 1 | 1 | 2 |
| Vergi verən silkə məxsus olanların. | 3085 | 482 | 3567 |
| Şəhər torpaqları. | 139 | -- | 139 [1] |

Cədvəldən göründüyü kimi xəzinənin mülkiyyətində 56332 des. xüsusi şəxslərin, 0 cümlədən ali silkə məxsus olan bəy-mülkədarların, tiyuldarların mülkiyyətində 21786 des. varlı kəndlilərin və kənddə əllərinə torpaq sahəsi keçirmiş şəhər varlılarının 3706 des. dini idarələrin mülkiyyətində isə cəmi 2 des. torpaq var idi.

Digər mənbədən gördüyümüz məlumatdan belə məlum olur ki, 1893-cü ildə Naxçıvanda hər iki qəza üzrə əkin üçün yararlı torpaqlar aşağıdakı qaydada bölünmüşdür. /desyatinlə/

| | Dövlətə məxsus | Ali silkə məxsus | Xüsusi şəxslərə məxsus | Kəndlilərə məxsus | Dini idarə məxsus | Mülkədar hüquqlu mülklər |
|---|---|---|---|---|---|---|
| Əkin yeri | 33715 | 5772 | 1100 | 414 | 1 | 425 |
| Bağ yeri | 348 | 34 | 5 | 32 | -- | 55 |
| Bostan yeri | 6 | 5 | -- | -- | -- | -- [1] |

Göründüyü kimi tədqiq etdiyimiz dövrdə xəzinənin mülkiyyətində olan torpaqlar bəy-mülkədarların mülkiyyətində olan torpaqlardan azı 4 dəfə çox idi və kənd istehsalçılarının böyük əksəriyyətini dövlət kəndliləri təşkil edirdi.

XIX əsrin 80-ci illərinə dair məlumata görə Naxçıvan qəzasında 122, Şərur-Dərələyəz qəzasında isə 135 kəndli tamamilə torpaqsız idi. Hər iki qəzada bu 257 torpaqsız kəndli 18 kəndə səpələnmişdi[2]. Beləliklə orta hesabla hər kənddə 16 kəndli torpaqsız idi.

Tədqiq etdiyimiz dövrün sonunda Naxçıvan dövlət kəndində sosial təbəqələşmə dərin kök atmış, dövlət kəndində bir tərəfdə kənd varlıları, qolçomaqlar, digər tərəfdə torpaqsız və az torpaqlı kəndlilər meydana çıxmış yeni kapitalist cəmiyyətinin sinifləri formalaşmışdı. Dövlət kəndində torpaq mülkiyyəti forması da dəyişmiş, torpaq sahibi olan xəzinə, artıq əslində icarədara çevrilmişdi. Xəzinə dövlət kəndlilərindən istifadə etdikləri torpaqlara görə icarə haqqı alırdı. Dövlət kəndliləri isə əslində özlərini, əllərində olan torpaqların sahibi, ödədikləri haqqı isə torpaq vergisi hesab edirdi, bütün sahibkarların dövlətə torpaq vergisi ödədikləri kimi.

Beləliklə 1870-ci il islahatı öz mahiyyətinə görə bu dövrə qədər mövcud olan münasibətləri özündə saxlayıb təhkimçilik münasibətlərinin saxlanılmasına daha geniş şərait yaradıb, iri torpaq sahiblərinin mənafeyini müdafiə etməklə kəndlilərə nə torpaq, nə azadlıq vermiş və nə də onları islahata qədər olan mükəlləfiyyətlərdən xilas etmişdir.

Azərbaycanda keçirilən kəndli islahatı onun ayrı-ayrı qəzalarında olduğu kimi Naxçıvan qəzasında da o nəinki mülkədarlar tərəfindən kəndli torpaq sahələrinin kəsilib götürülməsinə şərait yaratmış, bu islahat həmçinin 1870-ci ilə
qədər torpaq üzərində xüsusi mülkiyyətin rəsmiləşdirməsi işini tam qaydaya salıb onu yerli hakim dairələrin daimi mülki elan etməklə torpağın əsil istehsalşıları olan yoxsul kəndliləri tamamilə torpaqsızlaşdırıb onları ali silkə mənsub olan istismarçıların zülmünə düçür etmişdir.

V.İ.Lenin kəndli islahatının həyata keçməsi nəticəsində mülkədarlar tərəfindən kəndlilərin vəhşicəsinə istismar olunub talan edilməsinə yaranan şəraiti xarakterizə edərək yazır ki, "kəndlini elə" "azad etdilər" ki, boğazı dərhal mülkədarın kəndirinə keçdi. Mülkədarın zəbt etdiyi torpaqlar kəndlini elə sıxışdırmışdır ki, o ya acından ölməli, ya da əsarət altına girməlidir".

İslahat nəticəsində bir ovuc xan, bəy və digər sahibkarların, eləcə də çar çinovniklərinin istismarına məruz qalan minlərlə kəndlilər islahat nəticəsində tamamilə yoxsullaşmış və onların 180 faizdən çoxu islahatdan kənarda qalmışdır.

Torpaq almaq haqqında 1873-cü il qaydasının kəndlilər üçün həddən artıq çətin olduğunu təkcə yoxsullar deyil, hətta Qafqaz canişini Voronsov-Daşqovun özü də etiraf etməyə məcbur olub. O, İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının Keşdaz kəndi barədə yazırdı ki, "Son 34 il ərzində heç bir kəndli ailəsi bu qayda əsasında torpaq ala bilməmişdir. Hərçənd hər bir kəndli təsərrüfatı həmin qanun daxilində torpaq almağa cəhd göstərsə də, lakin hər dəfə bu əməliyyatı puda çevirdikdə kəndlilər onlara verilən hüquq əsasında, nəinki torpaq almaqdan, hətta pudu mükəlləfiyyətlərə çevirməkdən də imtina edirdilər. Çünki bu əməliyyatın özü də kəndlilərin dərhal müflisləşməsinə səbəb olur.

1870-ci il kəndlili slahatına hazırlıqla əlaqədar olaraq Zaqafqaziya canişinliyinin göstərişi ilə bəy, xan və digər sahibkarların torpaq üzərindəki hüquqlarını müəyyənləşdirib onlarla kəndlilər arasındakı münasibətləri "qaydaya " salmaq məqsədi ilə quberniyanın başqa qəzalarında oladuğu kimi tədqiq etdiyimiz qəzalarda da bəy komissiyaları deyilən təşkilat yaradılır. Bu komissiya yaranmış vəziyyətdən istifadə edərək yaxın adamlarının adlarını bəy, xan kimi "yüksək silkə" mənsub ağalar sinfinə daxil edərək öz tərəfdarlarının sayını artırmağa səy göstərirdilər.

Belə bir vəziyyət təqdqiq etdiyimiz Naxçıvan və Ordubad qəzalarında xüsusi ilə geniş yayılmışdır. Belə ki 1867-ci ildə komissiyanın verdiyi məlumata görə quberniya qəzalarından 586 nəfər bəylik hüquqi haqqında sənəd toplamışdır. Yoxlama nəticəsində bunun yalnız 282 nəfərinin həmin hüquqa mənsub olması təsdiq olunmuşdur ki, bunun da 140 nəfəri Naxçıvan və Ordubad qəzalarına aiddir[1] . Göründüyü kimi bu qəzalarda xanlıq silkinə mənsub olan ağaların sayı bütün quberniyada olan "yuxarı" qurup təbəqələrinin yarısından azacıq çoxluqda fərqlənir. Deməli Naxçıvan və Ordubad qəzalarında bununla əlaqədar olaraq az torpaqlı kəndlilərin sayı çoxalmaqla bərabər, onlar həm də torpaq sahibkarları, çar çinovnikləri tərəfindən daha çox istismara məruz qalıb, ağır vergi və mükəlləfiyyətlərin ödənilməsi məcburiyyətində olurdular.

Yuxarıda qeyd edildiyi kimi bir çox feodallar " bəy" komissiyaları"nın sədrinə və onun üzvlərinə küllü miqdarda pul verib rüşvətxorluqla bəylik hüququna mənsub olmadıqları halda buna bəzən nail olurdular. Əksər vaxtlarda isə bəylik hüquqi ilə əlaqədar verilmiş ərazə və şikayətlərə cavab olaraq komissiyanın üzvləri heç nədən çəkinməyərək sahibkarlara bəylik hüququnun verilməsi müqabilində onlardan pul tələb edirdilər. Məsələn: Ordubad qəzasının İndlidar kənd sakinlərindən Zal bəy, Kamran bəy, Rüstəm bəy, İsmayıl bəy və İsa bəy Musa bəy oğlu komissiyanın rüşvətxorluğundan geleylənərək şikayət ərizələrində yazırdılar ki, onlar bəy nəslinə mənsub olmalarına baxmayaraq komissiya üzvləri onları qəsdən get- gələ salıb bu məqsədlə onlardan pul tələb edirdilər.Onlar qeyd edirdilər ki, həmin şəxslərin bəylik hüququna daxil
edilməliri üçün Kiryakov onlardan 1500 manat pul hazırlamalarını tələb etmişdirsə də bəylər bunu ödəmək istəmədiklərinə görə rədd cavabı almışdılar. Ümumiyyətlə, bu məqsədlə Naxçıvan və Ordubad qəzalarından 35000 manat pul mənimsənilmişdir.

1870-ci il kəndli islahatı başlıca olaraq iri torpaq sahiblərinin mənafeyinə xidmət edib onların kəndlilər üzərindəki zülmünü qüvvətləndirdiyi üçün bəy, xan və ağa kimi iri mülk sahibləri əsasnamənin onlara verdiyi geniş hüquqlardan istifadə edərək yerlərdəki çar orqanlarına arxalanıb daha geniş torpaq sahələri ələ keçirib böyük var-dövlət sahibinə çevirmişdilər. Məsələn İrəvan xəzinə palatası

1890-cı il iyulun 4-də qubernatora yazdığı məlumatında bildirir ki, "Ehsan xan öldükdən sonra onun Təzəkənd, Camaldın, Culfa, Ərəzin, Sirab, Parağa, Nors, Bist, Ələqi,Badamlı, Şahbuz, Keçili, Xok və Nehrəm kəndlərində hərəkətdə olmayan əmlakının ümumi dəyəri 52004 m. 50 qəpikdir"[2]. Bu münasibətlə həmin ilin oktyabr ayının 13-də Naxçıvan qəza rəisi isə qubernatora yazır ki, onun (Ehsan xanın Z.Ş.) Xokdə 35550, Təzəkənddə 17.850, Norsda 500, badamlıda 8100, Şahbuzda 5100, Keçilidə 2200, Çamaldın-Dizədə 200, Dcində 300, Cənnəbdə 34000, Nehrəmdə 950, Araqində (Ərəzində Z.Ş.) 11500, Sirabda 300,

Parağada 297 m. 50 qəpik, Alanda 1350 man 25 qəpik və Bist kəndində 1840 manat gəliri və mülkiyyəti vardır.

Beləliklə, Ehsan xanın yuxarıda göstərilən kəndlərdəki hərəkətdə olan və hərəkətdə olmayan mülkiyyətinin ümumi gəliri 172072 manat 25 qəpik təşkil etmişdir.

Tədqiq olunan qəzalarda iri torpaq mülkiyyətçiləri özlərinin geniş sahə torpaqları ilə kifayətlənməyib XIX əsrin 80-ci illərində dövlət kəndlilərinin iqtisadi vəziyyətini öyrənən dövlət məmurunun etiraf etdikləri kimi yerli feodallar çar çinovniklərinin köməkliyi ilə onlar həm də hələlik sərhəd məsələlərinin dəqiqləşdirilməsi mümkün olmayan mübahisəli şəkildə qalmış torpaqlarında zəbr edilməsinə əl atırdılar. Məsələn Qarababa kəndində olan bu cür 240 desyatin torpaq sahəsi general mayor İsmayıl xan tərəfindən, Culfa kəndində 45 desyatin və Künzüt kəndində isə 400 desyatin torpaq sahələrinin Kalbalı xan tərəfindən tutulmuşdur[1].

1870-ci il islahatını həyata keçirməkdən ötrü İrəvan quberniyasında 1870-ci il noyabrın 8-də kəndli idarələri açıldı. Naxçıvanda üç mirovoy şöbə üzrə 126 belə mülk müəyyən edildi.

1871-ci ildən Naxçıvanda torpaq nizamnamələri tərtib olunmağa başladı və bu iş 1878-ci ildən başa çatdırıld[1]. Naxçıvan qəzasında 3804 həyati əhatə edən 104 kənd, Şərur-Dərələyəz qəzası üzrə isə 816 həyəti əhatə edən 34 kənd üzrə torpaq nizamnaməsi tərtib edild[2].

Torpaq sahiblərindən Kəlbalıxanovlar nəslinin mülkiyyətində üç min desyatinə yaxın, İsmayıl xan Naxçıvanskilərin və Yekizarovların min desyatinə qədər, Tumanovların üç min desyatinə yaxın İsmayıl bəy Səfiyevin 1270 des. torpağı var idi.

1870-ci il 14 may kəndli islahatına görə Naxçıvan kəndləri torpaq almaq üçün həmin yerlərini vıkup etmək üçün pul ödəməli idilər.

Əlbəttə kəndlilərin öz torpaqlarını vıkup etmələrə o qədər pulları yox idi. Bunun nəticəsi idi ki, 1887-ci ilə dair məlumata görə həmin il Naxçıvanda sahibkar kəndlilərində vıkup əməliyyatı keçirilməmişdir. Həmin il 2-ci Naxçıvan miravay şöbəsinin sülh münsifi yazırdı ki, “ kəndlilərin vəsaiti olmadığından öz pay torpaqlarını müstəqil vıkup eləyə bilmirlər.

Məlum olduğu kimi 1870-ci ildə kəndli islahatı haqqında qanun verildisə də, çar hökuməti Rusiyanın daxili quberniyalarında kəndlilərə borc pul (kredit) buraxılması haqqında qaydanı Zaqafqaziyaya şamil etməmişdi. Bu çarizmin milli-müstəmləkə siyasətinin təzahürlərindən biri idi.

Azərbaycan şəraitində, əkin üçün yararlı torpaqların suvarılan torpaqlar olması, su olmadığı təqdirdə həmin torpaqların heç nəyə dəymədiyi nəzərə alınarsa, suvarma suyunun kəndlidən ötrü torpaq payı qədər əhəmiyyətə malik olması aşkar olar.

Bu münasibətlə Yerevan qubernatorunun 1899-cu ilin iyul ayının 26-da Kavkaz ali baş komandanlığına 27 №-li yazmış olduğu məktubunda göstərilir ki, sərəncamında olan quberniya ərazisində xüsusən Şərur-Dərələyəz qəzasında süni suvarma işi həddən artıq pis vəziyyətdə olması və havaların isti keçməsi ilə əlaqədar olaraq nəinki kənd təsərrüfatı məhsulları hətta belə yaylaqlar da quraqlıq nəticəsində məhv olmuşdur. Yerli əhali nəinki süni suvarmadan, hətta belə içməli sudan da məhrumdur. Onlar, xüsusən aran ərazisində yaşayan əhali içməli suyu yalnşz uzun müddət arxların kiçik gölməçələrində qalan kirli, palçıqlı sudan istifadə etməyə məcbur olur.Belə bir hal əhalinin kütləvi surətdə xəstələnib məhv olmasına, süni suvarmanın isə çatışmaması nəticəsində dövlət vergi və mükəlləfiyyətlərinin ödöəmək qabiliyyətinə malik olmamasına şərait yardır.Bəzi müstəsna hallarda isə çar hökuməti suvarma işlərini yaxşılaşdırmaq üçün müəyyən tədbirlərin həyata keçirilməsi naminə layihələr hazırlayırdısada bu nəticə etibarı ilə kağız üzərində qalırdı.

Məsələn, Naxçıvan qəzasının vətəndaşı, geoloji işlərdən yaxşı baş çıxaran, su işlərində məşhur mütəxəssis kimi tanınan Baba Məlik Babaxanov həmin qəzanın suya olan böyük ehtiyacından bəhs edərək ürək ağrısı ilə 1891-ci il iyulun 30-da Kavkaz və Zaqafqaziya vətəndaşlıq şöbəsinin rəisinə bu barədə yazdığı məktubunda qeyd edirdi ki, “50 min əhalisi olan Naxçıvan qəzasının kənd təsərrüfatı bu yerin qızğın yay isti günlərində məhv olub əhalinin həddən artıq yoxsullanması və hökumətdən narazı düşməsinin ən başlıca səbəblərindən biri məhz süni suvarmaya olan ciddi tələbatla əlaqədardır.

Müəllif bu barədə hazırladığı layihəsindən bəhs edərək daha sonra yazır: “Göl yaratmaq üçün Naxçıvan şəhərindən 20 km. şimala “Çalxan” /qədim insan məskəni olmuş xarici təhlükədən qorunmaq üçün tikilən qala daşları indi də mövcud olub xalq arasında “çalxan qala” kimi tanınmaqdadır. Z.Ş/ deyilən dövlət torpaqlarına məxsus nəhəng qala və dağlarla əhatə olunmuş Lizbirt / indi həmin kəndin xarabalıqları qalmaqdadır (Z.Ş). və Kərməçataq /indiki Babək rayonu ərazisində/ kəndlilərin ərazisini əhatə edən dağ keçidlərinin qabağını kəsib Buzqov / yenə həmin rayonda/ çayının suyunu toplamaq mümkündür. Həmin çay payız və qış fəslində 6 ay əhəmiyyətsiz yerə Araz çayına axır. Həmin bəndi tikib uzunluğu və eni 15 verst olan rölü yaratmaqla burada su qıtlığının qarşısını almaq olar”.

Əlimizdə olan mənbələrə əsasən deyə bilərik ki, həmin təşəbbüs dövlət tərəfindən yenə də həyata keçirilməmişdir.

XIX əsrdə kənddə icarə məsələləri də mürəkkəb olaraq qalırdı. Kəndlilər torpaqları müxtəlif şərtlərlə icarəyə keçirdirlər. Bütün icarə formalarını icarə haqqının ödənilməsindən asılı olaraq iki kateqoriyaya bölmək olar. 1. Pulla ödənilən icarə 2. Natura ilə ödənilən icarə. Pulla bağlar, otlaqlar icarəyə götürülıdü. Əkin yerlərini pulla icarəyə götürənlərə çöx az hallarda rast gəlmək olurdu. İcarə haqqı torpaqdan, onun su ilə təmin olunmasından və nə əkilməsindən asılı olaraq desyatini 5 manatdan 72 manata qədər idi. Məsələn XIX əsrin axırlarında tədqiq olunan qəzalarda suvarılan payızlıq taxıl əkin sahələrinin hər desyatini 22 manat 40 qəpik, suvarılmayan sahələrin hər desyatini 90 manat həmin müqabildə yazlıq əkin sahələrinin hər desyatini isə 23 manat 7 qəpik və 9 manat 2 qəpik idi. Biçənək yerlərinin qiyməti 10 manat 64 qəpiyə qədər, otlaqlarınkı isə 20-52 qəpik idi. Kəndlilər torpaqları əsasən yarıdarlığa götürürdülər. Lakin daha baha yaxud ucuz icarəyə də rast gəlinirdi. Məhsulun 4/30, 5/30 yaxud 19/30-na icarə də geniş yayılmışdır.

Torpaq sahəsi kiçik olub eyni zamanda iş aləti və heyvanı olmayan kəndlilər torpaqlarını öz tavanalı həmkəndlilərinə yarıdarlığa icarəyə verirdilər.

Kəndlilər torpağı əsasən mülkədarlardan qismən isə xəzinədən icarəyə götürürdülər. Məsələn 1894-cü ilin məlumatına görə Şərur-Dərələyəz qəzasında 144 mülkdə 9362 des. torpaq var idi. Torpaqların 1969 des. əkin yeri, 7393 des. isə otlaq idi. Onların 4080 des. sahibkarların şəxsi istifadəsində olub, 5282 des. kəndlilərə icarəyə verilirdi.

Kəndlilərin iqtisadi məişətinin tədqiqatçısı yazırdı ki, "iş heyvanı olmayan kəndlilər öz torpaqlarını müxtəlif şərtlərlə çox vaxt məhsulun bir hissəsinə, yaxud pulla icarəyə verirlər. Belə kəndlilərin bəziləri özünün varlı həmkəndlisi yanında muzdla işləyib, muzd əvəzində öz pay torpağını onun iş heyvanı və aləti ilə becərir"[1].

Dövlət kəndlilərin istifadəsində olmayan torpaqları dövlət kəndliləri ilə yanaşı məmurlara, şəhər varlılarına icarəyə verilirdi. Məsələn 1870-ci ildə dövlət xəzinəsi Şərur-Dərələyəz qəzasında olan "Kir" adlanan 1950 des. yeri Akim Şan-Kirey adlı əyana ildə 292 m. 50 qəp. icarəyə vermişdir. Bu torpaqlardan 1659 des. əkin üçün yararlı, 291 des. isə otlaq idi. Şan-kirey 1659 əkin üçün yararlı yerləri öz növbəsində yarıdarlığa icarəyə verilmişdir. Bundan başqa, torpağı icarə etmiş kəndlilər Şan-Kreyə məxsus olan su arxlarını təmizləmək üçün bir həftə əvəzi ödənilmədən işləməli idi.

Bu məqsədlə Şan-Kiyev icarə olunan torpaqları süni suvarma ilə təmin etmək üçün məşhur "Kir" adlı arxı çəkdirmişdir. Bundan başqa Şərur-Dərələyəz qəzasının 3600 desyatin[2] torpaq sahəsini bu məqsədlə 4 nəfər iri icarədar ələ keçirmişdir. Bunlarla yanaşı tədqiq etdiyimiz qəzalarda çoxlu iri və kiçik icarədarlar da meydana çıxmışdır.

Kəndliləri istismar etmək hesabına bu torpaqlardan külli miqdarda gəlir götürən Şan-Kirey icarə vaxtı bitəndən sonra icarə haqqını 970 manata qaldırmaq, yəni hər desyatin torpaq üçün ildə 50 q. vermək şərti ilə icarə müddətini 30 il uzatmaq haqqında məsələ qaldırdı və ildə 5000 manat ödəmək şərti ilə yenə 24 illiyə icarəyə götürdü. Şan-Kirey bu böyük sahənin 400 desyatinində buğda və pambıq əkdirirdi.

Rusiyanın cənub quberniyasında belə yetişdirilməsi mümkün olmayan bəzi məhsulların yalnız buradan əldə edilib Rusiyaya daşınıb, daha tez satılması da həmin sahənin inkişafına böyük təkan vermişdir. Düzdür tədqiq etdiyimiz qəzalar mərkəzi şəhərlərdən, eləcədə dəmir və su yollarından uzaqda yerləşdiyi üçün məhsulun tər şəkildə aparılmasına maneçilik törətdisə də 1865-ci ildən "Çar yolu" adı ilə tanınan İravan- Culfa şosse yolunun inşasına başlanılıb, sonralar onun istifadəyə verilməsi az da olsa bu işi sürətləndirdiyindən Zaqafqaziyanın mərkəzi şəhərlərinə buradan isə Rusiyanın başqa rayonlarına məhsul daşınması işi xeyli yaxşılaşmışdır.

XIX əsrin ikinci yarısında tədqiq etdiyimiz qəzaların iqtisadi həyatında mərkəzi Rusiya sənaye müəsisələrinin tələbatı ilə əlaqədar olaraq təsərrüfatın ayrı-ayrı sahələri əvvəlki illərə nisbətən dirçəlimişdirsədə ticarət əkinçiliyinin əsl istehsalçısı olan zəhmətkeş kəndlilər torpaqsızlıq və az torpaqlılıqdan əziyyət çəkir, torpaq sahiblərinin ağır istismarına məruz qalırdılar. Vergilərin, icarə şərtlərinin ağırlığı, sələmşilərin soyğunçuluğu, yerli hakimiyyət orqanlarının, çar məmurlarının özbaşınalığı əməkçi kəndlilərin onsuzda ağır keçən həyatını daha da dözülməz edir, onları bəyxanlara, çar hakimiyyətinə qarşı mübarizəyə təhrik edirdi. Hələ XIX əsrin 30-cu illərində çarizmin müstəmləkəçilik siyasəti və yerli feodalların zülmünə qarşı çevrilmiş zəhmətkeş kəndlilərin çıxışları çarizmi narahat etməsi hakim dairələr yerlərdəki idarə sisteminin vəziyyətini öyrənmək, lazım gəldiyi təqdirdə dəyişikliklər etmək üçün öz nümayəndələrini həmin sahələrə göndərib ətraflı məlumat toplamışdılar.

Naxçıvan əyalətinə göndərilmiş çar məmuru Nefedeyev 1837-ci il noyabrın 22-də yazdığı məlumatında göstərir ki, bu əyalətin ərazisinə daxil olan və xanın (Ehsan xan nəzərdə tutulur Z.Ş.) mülkü hesab edilən ilk sərhəd kəndi Qıvraqdan başlayaraq bütün yerlərdə feodalların özbaşınalığı və ağır vergi siyasəti əhalini tamamilə taqətdən salmışdır. Kəndlilərin iri dövlət nümayəndəsinə şikayət edəcəklərindən ehtiyat edən xanın yaxın adamları Nefedeyevi "mühasirə" edilmiş halda Naxçıvan şəhərinə gətirilib xanın sarayında əvvəlcədən düzəldilmiş xüsusi mənzilə aparılmışdırsa da dövlət nümayəndəsinin ciddi etirazı nəticəsində bu mümkün olmamışdır. Müfəttiş bu münasibətlə yazır: "Xan adamlarının mənə qarşı bu kimi "qayğıkeşliyinin" səbəbini onların məni xalqdan ayrılmaq məqsədi ilə yeritdikləri siyasət kimi qiymətləndirirəm(2).

Nedefeyev ilk əvvəllər bu yerlərin vəziyyəti ilə tanış olmaq üçün məhdudlaşdırılmışdırsa da sonralar çar çinovniklərinin köməkliyi ilə ayrı-ayrı kəndləri gəzib çətinliklə də olsa yerli feodalların ağır işgəncələrinin şahidi olmuşdur. O, münasibətlə açıq etiraf etməyə məcbur olur ki, polkovnik Ehsan xanın bu əyalətdəki hakimiyyəti demək olar ki, qeyri məhdud3 xarakter daşıyır. O hər bir

kəndə öz yaxın adamını təhkim edərək məhsul vergisindən başqa kəndlilərdən istədiyi qədər müxtəlif yollarla pul da toplayır. Məhkəmə və digər inzibati orqanlar onun şəxsən özünə məxsus olduğu üçün bu yerlərdə əyalət və polis məhkəmələri demək olar ki, formal xarakter daşıyır. Ehsan xan nəinki bütün vergi və mülkyəti öz əllərində cəmləşdirmişdir, hətta belə o mərkəzi idarə təşkilatları tərəfindən buraya göndərilmiş pristavlar üzərində də ağalıq edib, onların öz vəzifələrini yerinə yetirmələrinə imkan vermirdi. Belə ki, ilk əvvəllər Ordubadda, Ehsan xanın qardaşı Şeyx Əli bəyin yanına təhkim olunmuş Kirilov onun göstərişi əsasında vəzifədən kənar edilib Naxçıvana gətirilmiş, o burada da öz hüquqlarından məhrum edilib Ehsan xanın əlaltısına çevrilmişdir. Ordubada göndərilmiş polisleyester Orjexoveki də Şeyx Əli bəyin özbaşınalığını aradan qaldıra bilməmişdir. Ehsan xanın Qafqaz ali baş komandanlığında böyük nüfuz sahibi olmasından bəhs edən Nedefeyev pərəstiş etdiyi Orjexovakinin sözləri ilə yazır ki, "burada xanın böyüklüyünə hamı inanır. Onun Qafqaz ali baş komandanlığına hər bir işarəsi, hərəkəti, təklifi və sözü dərhal hər hansı bir məmurun məhv edilməsi üçün kifayətdir"(1)

## ƏDƏBİYYAT


1. Ermənistan SSR MDTA fond 10 siyahı iş 73 vər.4
2. M.A.Adonç Экономическая развития Армении в XIX лв. Эреван 1972, səh.290.
3. M.A.Ismayılov О сочиално економической структуре Азербаджана в начале XXв. Azərb. SSR.EA. Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. №1, 1979, ыэр 35-36.
4. Nax.MSSR MDA, f.24.op 6, ed.X.1593, səh.3-6.
5. Naxçıvan MRDA. Fond 314, siy 5, iş 36, vərəqə 4-7.
6. S.P.Aqayan 1870 Крестянская реформа в Азербаджан. Ваку 1967, səh. 200-201.
7. V.İ.Lenin Əsərlərinin tam külliyatı 5- ci nəşr. 15 cild səh.114, Bakı 1978-ci il.
8. В.А.Парсамян, Историл Армянского народа. Ереван 1972-ci il səh. 235. /rusca/
9. В.А.Парсамян. История Армянского народа. Эриван 1972, səh.251.
10. Из истории аграрный политики царизма в Грузии, Азербайджане и Армении Сборник архивних материалов. Ереван 1954, səh.11-14.
11. Кавказский календар за 1895, V şöbə, səh. 80.
12. Колониальная политика российского царизма в Азербайджане в 20-60 годах XIX в. Част I М-Л 1936, səh. 334
13. Крес Закавказского кран тот Т.Тифлис 1885-ci il səh. 543.
14. Материалы изучении економического быта государственных
15. Сбор. Стат, данных землев. и способах хоз. в пйати губер. Закавказскогокрая Т. 1899 səh 96.
16. Свод материалов поизучении економического быта гос. Крестян Заквказская края /sonralar SMİEBQK/ II cild, 1878-ci il səh.103-106.
17. Свод материалов...том II, Тибилиси,1888,səh. 15.
18. СМИЭВГК. V cild səh. 226, МИЕВГК. 1-cild, səh.679.
19. Учениу записок АН.СССР ст.215 №-12.

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

# REGİONAL SİYASƏT VƏ DÖVLƏTİN TƏNZİMLƏYİCİ ROLU

**Xülasə**

*Məqalədə ölkəmizin, eləcə də onun ayrı-ayrı regionlarının inkişafında dövlətin tənzimləyici rolundan söhbət açılır. Qeyd edilir ki, ölkə başçısı cənab İlham Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair qəbul etdiyi üç mühüm Dövlət proqramı və burada qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün dövlət tənzimlənməsindən istifadə edilməsi mühüm rol oynayır. Bu baxımdan regionlarının sosial-iqtisadi inkişafında dövlətin yeritdiyi regional siyasət və tənzimləmə prosesləri əsas prioritetlər sırasındadır. Məqalədə habelə regional siyasət nəticəsində muxtar respublikada qazanılan uğurlardan söhbət açılır.*

***Açar sözlər**: regionların inkişafı, əlverişli investisiya mühiti, dövlət tənzimlənməsi, regional siyasət.*

Məlum olduğu kimi ölkəmizin regionlarının sosial-iqtisadi inkişafının təmin olunması onun iqtisadi təhlükəsizliyinin və müstəqilliyinin, eləcə də milli iqtisadiyyatının inkişaf etdirilməsi dövlətin daim diqqət mərkəzindədir. Regionların iqtisadiyyatın şaxələndirilməsi, məşğulluq səviyyəsinin daha da artırılması, iqtisadi inkişafın təşviqi və iqtisadi artımın sürətləndirilməsini nəzərə alaraq dövlət daima bu prosesə fəal müdaxilə edir və müxtəlif metodlarından istifadə edərək onu tənzimləyir.

AMEA-nın İqtisadiyyat İnstitutu İqtisadiyyatın sağlığı indeksini təhlil edərək ortaya qoyduqları göstəricilər bunu deməyə əsas verir ki, hansı dövlətin hansı quruluşda yaşamalarına baxmayaraq, bütün dövrlərdə və siyasi quruluşlarda iqtisadiyyatın inkişafının tənzimlənməsi proseslərində dövlətin iqtisadiyyata müdaxiləsi qaçılmazdır.

Regionların sosial-iqtisadi inkişafının təmin olunması üçün bir çox hallarda regional siyasəti yalnız regionlararası fərqlərin mövcudluğu və onların aradan qaldırılması zərurəti ilə izah edirlər. Lakin özlüyündə ərazi fərqlərinin olması hələ avtomatik olaraq regional siyasətin meydana çıxması demək deyildir. Regional siyasətin meydana çıxması üçün iki hal mümkündür. Birinci halda, verilmiş regionu özlərinin maraq zonası hesab edən, öz iqtisdadi və sosial proqramlarını bu regionun ərazisində reallaşdıran kifayət qədər ciddi siyasi qüvvələrin olmasıdır. İkinci halda isə, regionun özündə elə sosial təbəqə və qrupların formalaşmasıdır ki, onlar regionun sosial-iqtisadi inkişafını özlərinin siyasi məqsədləri kimi elan edirlər. Regionların idarə olunması və tənzimlənməsi bütövlükdə ölkə iqtisadiyyatının müstəqil bir sahəsi olmaqla ərazi əmlak bölgüsünün formalaşması baxımından regional iqtisadiyyatın formalaşması zəruriliyinin, istehsalın idarə olunmasının müstəqil bir sahə kimi fəaliyyəti baxımından regional idarəetmənin vacibliyini və ümumi idarəetmənin sahə və ərazi altsistemlərinin bölünməsindən irəli gələrək obyektiv zərurətə çevrilir. Ona görə regional iqtisadiyyatın tənzimlənməsi regionların sosial-iqtisadi institusional həyatına dövlətin məqsədyönlü təsiridir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 10 iqtisadi rayonu və Bakı şəhərini özündə birləşdirir. Bunlar aşağıdakılardır:

1.Naxçıvan iqtisadi rayonu (Naxçıvan MR).
2.Bakı şəhəri.
3.Abşeron iqtisadi rayonu.
4.Gəncə-Qazax iqtisadi rayonu.
5.Şəki-Zaqatala iqtisadi rayonu.
6.Lənkəran iqtisadi rayonu.
7.Quba-Xaçmaz
8.Aran iqtisadi rayonu.
9.Yuxarı Qarabağ iqtisadi rayonu.

10.Kəlbəcər-Laçın iqtisadi rayonu.
11.Dağlıq Şirvan iqtisadi rayonu.

Regionların özlərinin potensialına, təbii sərvətlərinin miqyasına və çeşidinə, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənir. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonları fərqləndirən amillər əsasən aşağıdakılardır:

- iqtisadi-coğrafi mövqeyi;
- təbii şəraiti və ehtiyatları;
- əhalinin məskunlaşması səviyyəsi;
- regionun sahə və ərazi quruluşu;
- tarixi inkişaf xüsusiyyətləri.

I.Ölkənin sosial-iqtisadi inkişafının tənzimlənməsində ərazinin regionlara bölgüsü və bu bölgünün iqtisadi, milli, ekoloji və sosial meyarlara görə təsnifatının aparılması zəruridir. İqtisadi inkişaf nöqteyi-nəzərindən regionlar aşağıdakı tiplərə bölünür:

1.İnkişaf etmiş regionlar.

Bu regionlara iqtisadi cəhətdən inkişaf etmiş və iqtisadiyyatın bir çox sahələrinin olduğu regionlar aid edilir. Belə regionlarda məşğulluğun səviyyəsi yüksək olur. Əhalinin tələbatının xeyli hissəsi yerli istehsal hesabına ödənilir. Bu regionlar inkişaf etmiş sosial, iqtisadi və bazar infrastrukturuna malik olur.

2.Zəif inkişaf etmiş regionlar.

Bu regionlara iqtisadiyyatın bir və ya bir neçə sahəsi inkişaf edir. İşsizliyin səviyyəsi respublikanın orta göstəricisinə yaxın olur. Bu regionların inkişaf etdirmək üçün dövlət iqtisadi mexanizmlərə üstünlük verir.

3.Depressiv regionlar.

Bu regionlar ümumi ölkə inkişaf səviyyəsindən geri qalmış regionlara aid edilir. Bu regionlarda əsasən məşğulluq səviyyəsi çox aşağı olur.

4.Sərhəd boyu regionlar.

Ölkənin milli maraqları çərçivəsində belə regionlarda sosial və iqtisadi problemlərin həllinə xüsusi diqqət yetirilir. Regional inkişaf strategiyası və onun reallaşması olan regional siyasətin əhatə dairəsinə görə ayrı-ayrı regionların ümumi sosial-iqtisadi inkişaf strategiyası və istiqamətlərini özündə əks etdirir.Regional siyasətin həyata keçirilməsində əsas kimi ədalətlilik və səmərəlilik prinsipi göstərilir. Məqsədlər kimi isə istehsal və infrastrukturun inkişafı baxımından tarixən yaranmış regional disproporsiyaların minimuma endirilməsi, keyfiyyətli və rəqabətqabiliyyətli regional məhsul istehsalının genişləndirilməsi, regional təminatın artırılması, regional iqtisadi, ekoloji və sosial təhlükəsizliyin təmini, regionlararası və regiondaxili ziddiyyətlərin və uyğunsuzluqların azaldılması və s. çıxış edir.

Regional siyasətin vəzifələri kimi isə regionların innovasion və davamlı inkişafına zəmin yaradılması, regional asılılıqların azaldılması istiqamətində işlərin aparılması, yeni şəhər, qəsəbə və təsərrüfat kompleksləri salınmaqla ərazilərin mənimsənilməsi və inkişafı, kəndlə şəhər arasında kəskin fərqin azaldılması, bütün regional bazarların qarşılıqlı əlaqə və inkişafı baxımından milli bazarın inkişafında yeri və rolunun dəqiqləşdirilməsi, sənaye müəssisələrinin səmərəli yerləşdirilməsi, regional məşğulluğun təmin edilməsi və s. qarşıya qoyulur.

II.Bazar iqtisadiyyatında göstərilən tiplər üzrə regionların fəaliyyətinin və sosial-iqtisadi inkişafının tənzimlənməsində birbaşa və dolayı (iqtisadi) metodlardan istifadə olunur. Birbaşa metodlara aşağıdakıları aid etmək olar:

1.Dövlət büdcəsindən regional büdcələrə dotasiyaların verilməsi.
2.Dövlət səviyyəli regional proqramların qəbul edilməsi.
3.Regionlarda dövlət sifarişlərinin reallaşdırılması.

Bu metodlardan başqa dövlət iqtisadi metodlara da üstünlük verir. Onlara aşağıdakılar aid edilir:

1.İqtisadi cəhətdən inkişaf etmiş regionlar üzrə:

a) Kredit güzəştlərinin cüzi olması;
b) Əməkhaqqında minimum həddin müəyyənləşdirilməsi;
c) Əhalinin mənzil və ərzaq təminatına diqqət yetirmək üçün bu sahələri inkişaf etdirmək.

2. Zəif inkişaf etmiş regionlarda:

a) Kredit və vergi güzəştlərinin yüksək olması;
b) Məşğulluğun səviyyəsini artırmaq üçün yeni iş yerlərinin açılmasında sahibkarlara xüsusi güzəştlərin edilməsi;
c) Əhalinin miqrasiyasının qarşısını almaq məqsədilə inkişaf etmiş regionla bu region arasında əməkhaqqında yüksəldici əmsalların tətbiq edilməsi;
d) Dövlət müəssisələrinin açılmasl və yeni iş yerləri ilə əhalinin işlə təmin etmə;
e) Xarici və yerli investorlara güzəştlərin və zəmanətlərin verilməsi.
3.Depressiv və inkişafdan geri qalmış rayonlarda:
a) Dövlət sığortasının güclü olması;
b) Azad iqtisadi zonaların yaradılması;
c) Xüsusi mərkəzləşdirilmiş kreditlərin verilməsi;
d) Vergidən azadetmələr.
4.Sərhədboyu rayonlarda:
a) Aralıq iqtisadi ticarət bazarlarının yaradılması;
b) Əhalinin sosial müdafiəsini təşkil etmək məqsədilə xüsusi kompensasiyaların tətbiq edilməsi;
c) Əhalinin maarifləndirilməsi və milli maraqlar çərçivəsində tərbiyələndirilməsi;
d) Kredit və vergi güzəştlərinin orta səviyyədə tətbiq edilməsi.

"Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri hazırda respublikamızda regionların inkişafının idarə olunması sahəsində görülən işlərin mahiyyətini açıqlayır. Onun rəhbərliyi ilə son illərdə həyata keçirilən iqtisadi siyasət, bütövlükdə ölkənin və regionların kompleks inkişafına, ölkə üzrə makroiqtisadi göstəricilərdə regionların xüsusi çəkisinin yüksəlməsinə, regionlarda infrastruktur təminatının yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına, nəticə etibarilə yoxsulluğun azaldılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur. Bu sahədə qarşıda duran vəzifələri ölkə Prezidentinin sözləri ilə aşağıdakı kimi ifadə etmək olar: "Bizim məqsədimiz və amalımız – Azərbaycanda sosial-iqtisadi problemləri tezliklə həll etmək, ölkəmizin bölgələrdəki mövqelərini daha da möhkəmləndirməkdir".

Regionların inkişafının dəstəklənməsi regional siyasətin ən başlıca funksiyalarından biridir. Regional siyasətdə onun reallaşdırılmasının iqtisadi mexanizmlərinə böyük diqqət verilməlidir. Problemli regionlar dövlət tənzimlənməsinin obyektinə çevrilməli, onların rəsmi statusu müəyyənləşdirilməli, müxtəlif tipli və miqyaslı regional problemlərin həlli mexanizmləri işlənib hazırlanmalıdır.

Yuxarıda qeyd edildiyi kimi Naxçıvan Muxtar Respublikası ölkənin iqtisadi rayonlarından biridir. Bir əsrə yaxındır ki, respublikamızın əsas ərazisindən ayrı düşüb və hazırda anklav (qapalı) vəziyyətdədir. Türkiyə və İranla həmsərhəd olan Naxçıvan işğalçı Ermənistan tərəfindən blokadaya alınmış və əlverişsiz coğrafi-iqtisadi vəziyyətə düşmüşdür.

Lakin ümummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana olan xüsusi diqqət və qayğı muxtar respublikanın yaşamasında və inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur.Ulu öndərimiz Naxçıvan MR-ə ardıcıl səfərləri, burada müşavirələr keçirməsi, ayrı-ayrı nazirliklərə konkret tapşırıqlar verməsi, iqtisadiyyatı dirçəltmək üçün investisiyalar cəlb etməsi, zəngin təbii ehtiyatlardan səmərəli istifadəyə nail olması, infrastrukturu yenidən və müasir səviyyədə qurması bu qədim diyarın sosial-iqtisadi inkişafına gətirib çıxarmışdır.

Statistik rəqəmlərin təhlili göstərir ki, muxtar respublikada 2018-ci ildə ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 63 dəfə, sənaye məhsulunun həcmi 108 dəfə, əsas kapitala yönəldilən investisiyalar 333 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 12 dəfə, nəqliyyat sektorunda yük daşınması 26 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 122 dəfə, pərakəndə əmtəə dövriyyəsi 46 dəfə, ixracın həcmi 219 dəfə, əhalinin gəlirləri isə 59 dəfə artmışdır.

Ulu öndərimiz Heydər Əliyevin regional siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Naxçıvanda hər bir sahədə uğurlu inkişaf

gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".

## ƏDƏBİYYAT


1. Əhmədov N.H.Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, 2008, 452
2. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı, "Elm və təhsil", 2010, 148 s.
3. Qasımov Ə.C., İsrafilov H.A., Hacızadə E.M., Ağayev E.A. Regionların sosial-iqtisadi inkişaf problemləri. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2006.
4. Allahverdiyev H.B., Qafarov K.S, Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2007.
5. "Şərq qapısı" qəzeti. 2019-cu il, 12 yanvar.

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*

# TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ VƏSAİTLƏRİ HAQQINDA MƏLUMATLANDIRMA VƏ MALİYYƏ HESABATLARI ÜZRƏ İZAHAT TƏYİNATLI SƏNƏDLƏRİN HAZIRLANMASI

**Xülasə**

*İşdə təsərrüfat subyektləri tədqiqatın əsas obyekti kimi seçilmişdir. Mühasibat uçotu hər bir istehsal vahidinin fəaliyyətinin qeydə alınması, onun məlumat bazasının formalaş-ması üçün mühüm iqtisadi alətlərdən hesab olunur. Uçotun kəmiyyət-keyfiyyət xarakterli göstəricilərinin ümumiləşdirilmiş şəkildə ifadə olunması maliyyə hesabatının ayrı-ayrı formaları vasitəsilə həyata keçirilir. Lakin hesabatın bir çox maddələri mövcuddur ki, onlar özünün mühüm tərkib elementləri haqda idarəetmə və digər məqsədlərə xidmət edən zəruri informasıyaları fərdi şəkildə aydın göstərə bilmir. Bu məqsədlə təyinatdan asılı olaraq izahat xarakterli sənədlərin tərtib olunması zəruridir. Hesabatların maliyyə kəmiyyətləri üzrə məlumatlandırma istiqamətlərinə aydınlıq gətirmək üçün sadə analitin cədvəl formalarından müxtəlif məlumat sənədlərinədək olan arealda formaları tətbiq etmək mümkündür.*

***Açar sözlər:*** *təsərrüfat subyektləri, uçot məlumatı, maliyyə vəsaitləri, maliyyə hesabatları, izahat sənədi.*

Müasir şəraitdə təsərrüfatın səmərəli idarə olunması, istehsal proqramları və tapşırıqlarının yerinə yetirilməsi üzərində nəzarətin tələblərə müvafiq təşkili və təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan subyektlərin zəruri informasiya ilə təmin olunması təsərrüfat uçotu, o cümlədən onun tərkib hissəsi hesab olunan mühasibat uçotu istiqamətində müşahidənin aparılmasını tələb edir. Mühasibat uçotu ayrı-ayrı müəssisələrin, idarələrin, təşkilatların və digər quruluşa, idarəetmə mexanizminə, müxtəlif mülkiyyət formalarına aid subyektlərin təsərrüfat fəaliyyəti haqqında cari və yekun məlumatlar əldə etmək məqsədilə fasiləsiz müşahidə və nəzarət sistemidir. O, tam və arasıkəsilməz qaydada təşkil olunmalı, baş vermiş təsərrüfat əməliyyatları ardıcıl şəkildə əks olunmalıdır.

Mühasibat uçotunun köməyilə müəssisələrdə mal-material resurslarının və hazır məhsulun həcmi, malsatanlar və malalanlarla hesablaşmaların vəziyyəti, satılan məhsulların həcmi, gəlirlərin, xərclərin və maliyyə nəticələrinin məbləği və s. müəyyən edilir. O, bazar iqtisadiyyatı şəraitində həm qeydiyyat, həm də sonrakı təhlil fəaliyyəti kimi ortaya çıxır. Belə ki, artıq bərqərar olmuş rəqəmlərin qarşılıqlı əlaqələndirilməsi və ya eyni göstəricinin dinamik vəziyyətdə, tarixən araşdırılması təsərrüfat subyektlərinin fəaliyyəti haqda daha əsaslı fikir söyləməyə imkan verir. Uçot maddi istehsal sferasına aid hər bir vahiddə təsərrüfat hesabının, maliyyə resurslarından səmərəli istifadənin və özünümaliyyələşdırmənin həyata keçirilməsini təmin etməlidir. Buna isə aşağıdakıların mövcudluğu şəraitində mümkündür:

- təsərrüfat subyektinin maliyyə resurslarının ümumi həcmlərinə aydınlıq gətirməklə yanaşı, onların yaranma, mövcudolma və istifadə obyektləri üzrə həqiqi vəziyyətinin öyrənilməsi və dəqiqləşdirilməsi;
- maliyyə resurslarının sintetik və analitik uçot səviyyələrində sənədləşdirilməsinin təşkili;
- müvafiq resursların maliyyə hesabatı formalarının ayrı-ayrı ümumiləşdirilmiş maddələrinə aydınlıq gətirilməsi;
- maliyyə resurslarının istifadəsinin konfiqurativlik baxımından "iştirakçı tərəflər" üzrə optimallaşdırılması və səmərəlilik səviyyəsinin artırılması;
- subyektlərdə gəlir və xərclərin düzgün uçota alınması;
- gəlir və xərclərin bir-biri ilə müqayisəliliyinin təmin edilməsi;
- müəssisələrin maliyyə nəticələri üzrə həqiqi vəziyyətin təyin edilməsi;

- ➢ onların fəaliyyətinə manatla nəzarətin qaydalara müvafiq həyata keçirilməsi və s.

Mövcud olan informasiyaların idarəetmə və nəzarət-yoxlama sistemlərində faydalı istifadə olunmasını təmin etmək üçün isə mühasibat uçotunun elə bir sistemli təşkili lazımdır ki, o müasir dövrdə dünya ölkələrində istifadə olunmuş qabaqcıl mühasibat uçotu və beynəlxalq standartların metodu və prinsiplərindən istifadə edilməsinə uyğunlaşmaqla, hesablama texnikasından geniş istifadə edilməsinə şərait yaratsın. Mühasibat uçotunun tələblərə müvafiq həyata keçirilməsinin mühüm məsələlərindən biri də müəssisələrdə uçotun təşkili formasının seçilməsindən ibarətdir. Uçotun ümumi qəbul edilən prinsiplərinə əsaslanaraq hər bir təsərrüfat subyekti özünəməxsus cəhətləri əsas götürməklə özündə mühasibat fəaliyyətini sistemləşdirir. Mühasibatlıq sahəsində mövcud olan təcrübəyə müvafiq bir sıra amillər mövcuddur ki, onlar da qeyd olunan formalardan birinin seçilməsinə şərait yaradır. Bu amillər geniş tərkibə malik olsa da, onlardan ilkin sənəd məlumatlarının ümumiləşdirilməsini, yiğma cədvəllərinin işlənməsi xüsusiyyətlərini, mühasibat hesabatlarının tərtib edilməsi yerinin seçilməsi və s. əsas olanlarını sadalamaq zəruridir.

Sadalanan məsələlər digər məqamlarla, komponentlərlə yanaşı resursların ifadə olunan ümumi həcmləri ilə yanaşı, onların daxili tərkib maddələri üzrə bölüşdürülməsinin həyata keçirilməsi və aydın sürətdə göstərilməsi də mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, bəhs olunan fəaliyyət resurslar üzrə sərfiyyatın kəmiyyət zaman kəsikləri baxımından kənarlaşmalarının "səbəb-nəticə" qarşılaşdırılmasına, ümumi pul daxilomanın və maliyyə nəticələrinin səviyyələrinin təhlil və qiymətləndirilməsinə təsirsiz ötüşmür. Problemin miqyasının, onun əhatə etdiyi məsələlərinin geniş əhatəyə malik olması birmənalı sürətdə qəbul olunmalıdır. Bununla belə təqdim olunan yazının adından irəli gələn iki tədqiqat mərkəzi – "maliyyə resursları" və "izahat məzmunlu sənədlər", - xüsusi diqqəti cəlb etməkdədir.

Qeyd olunduğu kimi, əsas "iştirakçı" tərəflərdən biri maliyyə resurslarıdır. Ümumiyyətlə, maliyyə resursları dedikdə birbaşa və ya dolayı formada pul vəsaiti (həcmi) şəklində ifadə olunan resurs növü başa düşülməkdədir. Müvafiq resurs növü subyektlərdə mövcud olan həqiqi pul kütlələri ilə yanaşı edilmiş və ya edilməli olan (bir çox hallarda maddiləşmiş) məsrəfləri, debitor və kreditor borcları üzrə qeydiyyat alınan müvafiq resursları, maliyyə nəticələrini səciyyələndirən və s. analoji resursları özündə birləşdirməkdədir. Aparılan (öncəki cümlədə ifadə etdiyimiz) birinci mərhələ qruplaşdırması öz növbəsində əməliyyatlar, tarixlər, sənəd nömrələri əsasında daha ibtidai bölüşdürülmələrə məruz qala bilər ki, bu da dövriyyədə hərəkəti görünən maliyyə resurslarının istiqamət və mənbəyi haqda daha müfəssəl fikir söyləməyə imkan verir. Məsələyə sistemli yanaşma bir çox amillərin nəzərə alınması və bu əsasda kompleks mənzərənin yaradılması haqda fikir söyləməyə imkan yaradır. Belə ki, ilk növbədə tədqiqatın obyekti ilə bağlı zəruri əlamət və amil təsnifatların hazırlanması həyata keçirilməlidir. Məsələn, əlamətlər sırasında aşağıdakıların sadalanmasını zərur hesab etmək məqsəduyğundur:

1. maliyyə resursunun aidiyyat obyekti;
2. maliyyə resurslarının istifadə məqsədləri və istiqamətləri;
3. maliyyə resurslarının hadisə və proseslərdə iştirak qanunauyğunluqları;
4. maliyyə resursu üzrə hərəkətlənmə mərhələləri;
5. maliyyə resursu üzrə istifadə qayda və formaları ;
6. maliyyə resurslarının məbləğlərinin rəsmiyyətə salınması şəkli, xüsusiyyətləri və s.

Maliyyə resurlarının obyekti haqda fikirlərin bildirilməsi onun aşağıdakı qrupları üzrə ümumiləşdirmələrin aparılmasına şərait yaradır:

- ✓ müxtəlif iqtisadi-idarəetmə, təşkilatlanma, texniki-texnoloji yeniliklərin mənimsənilməsi və tətbiqi üzrə, digər analoji əməliyyatların icrası ilə bağlı edilmiş məsrəflər (xərclər);
- ✓ istehsal olunmuş və reallaşdırılmış məhsul (iş, xidmət) həcmlərinə görə pul daxilolmaları;
- ✓ müvafiq hesablamaların həyata keçirilməsi nəticəsində məsrəflərin ayrılması ilə müəyyənləşən, həqiqi həcm, məzmun və tərkib ifadələri dəqiqləşdirilən maliyyə nəticələri;
- ✓ müxtəlif təyinatlı (subyektin və ya subyektə olan) borc vəsaitləri (kreditlər, borclar və s.).

Maliyyə resurslarının formalaşması və istifadəsi üzrə mənzərinin daha aydın əks etdirilməsində istər istehsal məsrəfləri (xərcləri), istər əməliyyatlardan ümumi pul daxilolmaları, istərsə də ma-

liyyə nəticələri özünəməxsus yer tutur. Onların vəziyyətinin sadələşdirilməsinə səbəb olacaq sxem 1-i nəzərdən keçirək.

Sxem 1. Maliyyə vəsaitlərinin və mənbələrinin maddələri üzrə məlumatlandırma mənbələrinin nümunəvi tərkibi




Mənbə: sxem müəllif tərəfindən tərtib olunub.

Sxem 1-də göstərilən məsrəflərin geniştərkibli təsnifatı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş 16 avqust 1996-cı il tarixli 116 saylı "Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında Əsasnamə" əsasında tərtib olunmuşdur. Məsrəflərin kompleks şəkildə öyrənilməsi məqsədilə "təchizat (tədarük)– istehsal (hasilat) – satış (mübadilə, digə şəkildə reallaşdırma)" marşrutunun mərhələlərindən istifadənin "üfuqi" və "şaquli" qaydaları təmin olunmalıdır. Belə ki, istər məsrəflərin hər birinin fərdi şəkildə öyrənilməsi, istərsə də məsrəflərin daxil olduğu maya dəyərinin uyğun forma və növlərinin uçot xüsusiyyətləri nəzərə alınmaqla istifadəsi uçotun təşkilinə öz təsirini göstərməkdədir.

Məsrəf maddələrinin kəmiyyət ifadələrinin sintetik uçot vasitəsilə ümumiləşdirilmiş şəkildə ifadə olunması maliyyə uçotu baxımından əsasən müsbət qiymətləndirilsə də, idarəetmə uçotu, maddələrin səviyyələrində müxtəlif zaman kəsikləri üzrə baş verən dəyişikliklərin təsir amilləri və onların dərəcələri baxımından fərdi qiymətləndirmə və təhlil işlərinin aparılmasında heç də tammənalı arzuolunan nəticələr vermir. Bu baxımdan izahat xarakterli ibtidai (analitik təyinatlı) sənədlərin istifadəsi məqsədəuyğun olardı. Bu sənədlərə nümunə olaraq "Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında Məlumat" göstərilə bilər. (forma 1).

"Məlumat" üzrə nəzərdə tutulan maliyyə təməlli informasiya 60-cı və 73-cü maddələr üzrə altı sətrə bölüşdürülərək daha aydın ifadələnməyə şərait yaradır. Bununla belə təsərrüfat subyektlərində daha ibtidai hesablama-nəzarət cədvəllərinin köməyindən də istifadə oluna bilər. Belə ki, məsələn, 60-cı maddənin 2 sətrində müəssisənin əsas 2 istiqamət üzrə kapital qoyuluşları haqqında

Forma 1.

XƏRCLƏRİN XÜSUSİYYƏTLƏRİ ÜZRƏ TƏSNİFAT
ƏSASINDA ƏMƏLİYYAT XƏRCLƏRİ HAQQINDA
**MƏLUMAT**

| **Bölmə/ Maddə №-si** | **Maddədaxili sətrin** | | **Mahasibat hesabının №-si** | **Qeydlərə istinad** | **(x)-ci il** | **(x+1)-ci il** |
|---|---|---|---|---|---|---|
| **60** | (1) | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | *Son qalıqları – ilk qalıqları* | | x(*x*) | |
| | (2) | Müəssisə tərəfindən yerinə yetiril-<br>miş və kapitallaşdırılmış işlər | 103 və 113 saylı hesabların DT dövriyyələri | | (*x*) | |
| | (3) | İstifadə edilmiş material ehtiyatları | 201 saylı hesabın KT dövriyyəsi | | x | |
| | (4) | İşçi heyəti üzrə xərclər | 533 saylı hesabın KT dövriyyəsi | | x | |
| | (5) | Amortizasiya xərcləri | 102,112, 122, 132, 142 saylı hesabların KT dövriyyələri | | x | |
| **73** | (1) | Sair əməliyyat xərcləri | 731 | | x | |
| | | ***Cəmi əməliyyat xərcləri*** | | | x | |

Mənbə:[ 4 ]

informasiya öz əksini tapmışdır. Zərurət yarandəqda isə istər əsas vəsaitlər, istərsə də eyri-maddi aktivlər üzrə sintetik heasblardan fərdi çıxarış qaydalı izahat sənədlərindən istifadə oluna bilər. Bu formanın 60-cı maddəsinin 5-ci sətri isə beş hesabın ümumi nəticəsini sərgiləməkdədir ki, bu da amortizasiya xərclərinin istehsal obektlərinə aid edilməsində bir sıra xüsusiyyətlərin gözlənilməsini şərtləndirir.

Yaddan çıxarmaq lazım deyil ki, maliyyə hesabatının ayrı-ayrı formaları üzrə informasiyanın ümumiləşdirilmə dərəcəsi "Məlumat"la müqayisədə daha yüksək səviyyədədir ki, bu da xüsusilə də istehsal məsrəflərinin müxtəlif amilli qeydiyyata alınmasında anlaşılmazlıqlar yarada bilər.

Digər tərəfdən, maya dəyərinə müstəqim və dolayı daxil edilən xərclərin birbaşa istehsal, kommersiya, inzibati, sair əməliyyat qrupları üzrə bölüşdürülməsi, bir sıra xərcləmələrin isə müəssisənin gəlirləri hesabına qarşılanması qaydaları mühasibat uçotu qanunvericiliyi əsasında həyata keçirilməkdədir.

Sxem 1-də ifadə olunan maliyyə nəticələrinin tərkibi üçün mənbə olaraq Kommersiya Təşkilatları üçün nəzərdə tutulan 1№-li MMUS istifadə olunmuşdur. Xərclər üzrə olduğu kimi, maliyyə nəticələri də kifayət qədər geniş tərkibə malikdir. Eyni zamanda qeyd etmək zəruridir ki, maliyyə nəticələrinin sintetik uçot formastında ifadə olunması da bır sıra mürəkkəb məqamlarla müşayət oluna bilər.

Yaddan çıxarılmamalıdır, "xərclər" maddəsinin səviyyəsi "gəlirlər" ifadəsinə də təsir etməkdədir. Məsələyə ümumi baxışın təmin edilməsi "məsrəf – pul daxilolması – maliyyə nəticəsi" üçbucağının hər bir maddəsinin digər iki maddə ilə qarşılıqlı əlaqə və asılılıq şəklində mövcudluğu haqda fikir formalaşdırmaqdadır (belə əlaqənin pozulması ahəngdar fəaliyyətin pozulması ilə nəticələnə bilər). Məhs buna görə "Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərclərin haqqında Məlumat" "Mənfəət və zərərlər haqqında Hesabat" formasından (ikinci hesabat forması) çıxarış şəklində hazırlanmışdır.

Sxemdəki ara həlqəni təşkil edən "əməliyyatlardan pul daxilolmaları" maddəsi öz növbəsində maliyyə hesabatında ümumi şəkildə göstərildiyi halda, onun daxilolma "ünvanı" (onun nəqd və nəqdsiz formada hesablaşmasından asılı olaraq), səbəbi (məhsul satışı, işlərin görülməsi, xidmətlərin göstərilməsi, təcrübə mübadiləsi və s. proseslər üzrə), şəkli (nağd pul və ya onu əvəz edən limitləşdirilmiş çek və s. şəklində) və digər spesifik cəhətləri də zərurət yarandıqda, izahat xarakterli sənədləşmənin əhatə arealına daxil ola bilər.

## ƏDƏBİYYAT


1. Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu, 2004.
2. 1№-lı Milli Mühasibat Uçotu Standartı. // Mühasibat işi. Bakı: UNEC-in nəşriyyatı. 2018, s. 178-216.
3. Bağırov M.S. Mühasibat uçotu nəzəriyyəsi. Mühasibat uçotu üzrə çoxcildlik, I və II hissə. / Naxçıvan: İdeya, 2012.
4. Bağırov M.S. Mühasibat uçotu nəzəriyyəsinin beynəlxalq təcrübəsi. / Naxçıvan: İdeya 2010
5. Bağırov M.S. Maliyyə hesabatları (monoqrafiya). / Naxçıvan: İdeya, 2013.
6. Abbasov T.A, Bağırov M.S. Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili. / Bakı: ADPU, 2005
7. Fətullayev R.R. Beynəlxalq mühasibatlığa giriş. (İFRS) / Bakı: Nurlar 2015
8. Mehdiyev V.M. Milli Mühasibat Uçotu Standartları və kompyuter mühasibatı: mahiyyəti, formalaşması və tətbiq edilməsi problemləri. / Bakı: Sabah 2014.
9. Cəfərov A.M. Mühasibat uçotu./ Bakı: Monitor Konsaltinq Servis MMC, 2011.
10. Sadiqov Ə.A.və b. Mühasibat uçotu. / Bakı: "Təhsil İşçisi Mətbəəsi"MMC, 2012

11 www.maliyye.gov.az

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ İNKİŞAFDA İNVESTİSİYALARIN ROLU

**Xülasə**

*Müasir dövrdə aparılan tədqiqatlardan məlum olur ki, investisiya anlayışı geniş məzmuna və tərkibə malikdirMəlumdur ki, makroiqtisadiyyatda investisiya qoyuluşları ümumi (məcmu) xərclərin tərkib elementərindən biridir. Bazar iqtisadiyatı şəraitində müxtəlif təsərrüfatçılıq formalarının inkişafı və onların yüksək gəlir əldə etməsi, məhz investisya qoyuluşlarından tam və səmərəli şəkildə istifadəsindən asılıdır.*

*Məqalədə iqtisadi inkişafın, iqtisadi təhlükəsizliyin təmin edilməsində investisiya qoyuluşlarının mahiyyəti və önəmi açıqlanmış, bu sahədə dünya təcrübəsi öz əksini tapmışdır.*

***Açar sözlər**: qloballaşma, iqtisadi inkişaf, tarazlı inkişaf, investisiya, bazar iqtisadiyyatı*

İqtisadiyyatda prioritet hədəflərə çatmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlərin mühüm tərkib hissələrindən biri də investisiya qoyuluşudur. Belə tədbirlər nəticəsində ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına nəzarətin gücləndirilməsi, iqtisadi artım, həyat səviyyəsinin yüksəlməsi və xüsusilə elmtutumlu innovativ sahələrin inkişafında yüksək nəticələr əldə olunur ki, bu da dövlətin investisiya siyasətinin əsas hədəflərindəndir. İnvestisiya siyasətini işləyib hazırlamaqla dövlət, ölkə və region iqtisadiyyatının investisiya aktivliyini artırmaq və bununla da sosial-iqtisadi inkişaf üçün tələb olunan resursların cəlb edilməsinə və onlardan səmərəli istifadəyə şərait yaradır.

Ölkəmizin uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Respublikamızda investisiya mühitinin yaxşılaşdırılması, bu sahəyə dövlət qayğısının artırılması məqsədilə bir sıra qurumlar fəaliyyət göstərir. Bu istiqamətdə yerli istehsalın inkişafı ilə ölkənin ixrac qabiliyyətinin artırılması və investisiyaların cəlb edilməsini stimullaşdırmaq məqsədilə 2003-cü ildə Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmışdır. AZPROMO xarici investorlara öz investisiya layihələrini həyata keçirmək üçün müvafiq sahələrin müəyyənləşdirilməsində və onların Azərbaycana gəlməsini asanlaşdırmaqda yardım edir. Yerli müəssisələr də AZPROMO-nun məsləhət xidmətləri və xarici bazar tədqiqatlarından faydalanırlar.

2006-cı ildə isə ölkəmizdə investisiya cəlbediciliyinin daha da artırılmasını təmin etmək məqsədilə Azərbaycan İnvestisiya Şirkəti yaradılmışdır. Şirkətin başlıca vəzifəsi ölkə iqtisadiyyatına investisiyaların təşviqini təmin etmək, bu sahədə mövcud problemlərin aradan qaldırılmasına çalışmaqdır. Şirkətin investisiya fəaliyyətinin məqsədi əsasən ölkə iqtisadiyyatının qeyri-neft sahələrində fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin və digər kommersiya təşkilatlarının nizamnamə kapitalındakı iştirak payını, o cümlədən səhmlərini almaqla müddətli investisiya qoyuluşunun həyata keçirilməsindən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində investisiya mənbələrinin üzə çıxarılması, onların lazımi istiqamətə yönəldilməsi dövlət investisiya siyasətinin əsas məqsədlərindən biridir. Planlı şəkildə həyata keçirilən bu siyasət bəzi sahələrdə dərhal, bir sıra sahələrdə isə uzunmüddətli perspektiv üçün öz səmərəsini hökmən verir. Bu sahədə ölkəmizin regionları arasında lider mövqeyini möhkəmləndirmiş Naxçıvan Muxtar Respublikasında düşünülmüş şəkildə həyata keçirilən

investisiya siyasəti də, son nəticədə özünü real sektorun inkişafında və maliyyə potensialının artırılmasında göstərir.

Muxtar respublikada təbii sərvətlərin, əmək ehtiyatları və turizm potensialının iqtisadi dövriyyəyə cəlb olunması nəticəsində bir zamanlar həyata keçirilməsi mümkünsüz görünən iqtisadi layihələr artıq reallığa çevrilmişdir. Son dövrdə aparılan iqtisadi islahatlar çərçivəsində muxtar respublikada biznes və investisiya mühiti yaxşılaşdırılmış, regionun investisiya cazibədarlığı daha da artmışdır. Muxtar respublikada investisiya fəaliyyətinin genişləndirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" və 2016-cı il 29 aprel tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi xüsusi vurğulanmalıdır. Qeyd edilən sənədləri əldə edən sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergilər Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştlərdən istifadə hüququ əldə edirlər. Belə ki, sahibkarlıq subyektinin əldə etdiyi gəlirin və mənfəətin 50 faizi 7 il müddətinə müvafiq vergilərdən, əmlakı isə 7 il müddətində əmlak vergisindən tam azad olunur. Həmçinin sahibkarlıq subyektləri tərəfindən xaricdən gətirilən texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumları və ƏDV-dən azad edilirlər.

Həmçinin qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası investisiya fəaliyyətinin həyata keçirildiyi inzibati ərazi vahidləri üzrə təsnifatda 5-ci regiona daxil edilib. Bu isə o deməkdir ki, muxtar respublikamız investisiya qoyuluşlarına tətbiq edilən minimal məbləğ baxımından ən yüksək güzəştlərə malik olan region hesab olunur.

Muxtar respublikada süd emalı və xama, zərgərlik məmulatları, melamin piltələr, tütün məmulatları, plastik tikinti materialları, tekstil məhsullarının istehsalı və bir sıra digər iqtisadi fəaliyyət sahələri üzrə investisiya təşviqi sənədi və təsdiqedici sənəd verilmişdir.

İnvestisiyalar, xüsusən uzunmüddətli infrastruktur investisiyalar cəmiyyətdə yaranmış sabitliyin məhsulu, eyni zamanda yeni sərmayə qoyuluşlarının amillərindəndir. Nəqliyyat, rabitə, içməli su təminatı, idman, sağlamlıq, turizm kimi əhali rifahına birbaşa təsir edən sahələrə yatırılmış investisiyalar iqtisadiyyatın digər sahələrinə də öz təsirini göstərməkdədir. Bu gün muxtar respublikanın kəndlərinə çəkilmiş abad yollar, müasir kənd və xidmət mərkəzləri, beynəlxalq standartlara cavab verən hava limanı, avtomobil zavodu, təhsil, səhiyyə və mədəniyyət kimi yüzlərlə obyektlər məhz düzgün şəkildə həyata keçirilmiş bu siyasət nəticəsində həyata vəsiqə qazanmışdır. Artıq demək olar ki, ərzaq və enerji təhlükəsizliyi məsələsi Naxçıvanda tam şəkildə həll olunmuş, ümumi gücü 241,4 meqavat olan 9 elektrik stansiyası, müasir texnologiyalarla təchiz edilmiş yüzlərlə istehsal və emal müəssisələri yaradılmışdır.

Bu gün muxtar respublikada sənaye, kənd təsərrüfatı və xidmət müəssisələrinin sayı 1049-ə çatmışdır. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci ildə ümumi daxili məhsul istehsalı 2 milyard 773 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata 2 çatmışdır. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlə sənaye tutmuş və maddi istehsalın payı 58,6 faiz təşkil etmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,4 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz artmışdır.

Bildiyiniz kimi turizm də investisiya cazibədarlığı baxımından ən uğurlu sahələrdən biridir. Naxçıvan bugün artıq 400 mindən çox turistin səyahət etdiyi turizm məkanına çevrilmişdir. Regionda turizm sektorunun hərtərəfli inkişafı üçün görülən işlər, xüsusən müalicə və qış turizm məkanlarının yaradılması istiqamətində yatırılan sərmayə iqtisadi və humanitar sahədə əhəmiyyətli olmaqla Naxçıvanın müsbət imicinin daha da yüksəldilməsinə mühüm töhfə verəcəkdir.

Bütün bu sadalananlarla birgə, ümumilikdə, son illər muxtar respublika iqtisadiyyatına 9 milyard manatdan çox investisiya yönəldilmiş, 12 mindən çox müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş və muxtar respublika bir çox göstəricilər üzrə investisiya cazibədarlığı reytinqində ölkəmizin regionları arasında lider mövqeyinə çatmışdır.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” tərəfindən hazırlanan investisiya reytinqində ölkəmizin regionları arasında 2017-ci və 2018-ci illərdə ölkənin iqtisadi rayonları arasında sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 parametr üzrə ən yüksək ümumi bal toplayaraq lider olmuşdur.

Qeyd etmək lazımdır ki, “Caspian European Club” dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. “Caspian European Club”un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. İnvestisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilmişdir. Xüsusilə muxtar respublikada alternativ və bərpa olan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması, yüksək standartlara uyğun yeyinti məhsullarının istehsal olunması, müasir turizm infrastrukturu, biznes və investisiya mühiti üçün yaradılan şərait ekspertlər tərəfindən düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirilmişdir.

Xarici investorlar üçün Naxçıvan Muxtar Respublikasının bir çox üstünlükləri vardır. Bu gün xarici investisiyalar üçün münbit şərait, sürətlə inkişaf edən və açıq iqtisadiyyat, rəqabət qabiliyyətli yerli işçi qüvvəsi, MDB ölkələri ilə sərbəst ticarət sazişi və bir çox faktorlar muxtar respublikanı xarici investorlar üçün daha da cazibədar bir regiona çevirmişdir.

## ƏDƏBİYYAT


1. S.Z. İsayev “İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi” Dərs vəsaiti. Bakı. 2010.
2. Paşayev T.N. İnvestisiya və müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafında onun rolu. Lənkəran 2001
3. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları. Metodik vəsait. Bakı: “İqtisad Universiteti” – 2011.
4. Şəkərəliyeva Z. A. Keçid iqtisadiyyatında xarici investisiya qoyuluşunun zəruriliyi və onun nəzəri aspektləri . Bakı 2003
5. İbrahimov F.M. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatın dirçəlməsində rolu. Bakı 2007
6. Əliyev A.L. Azərbaycan sənayesində xarici və daxili investisiyalardan səmərəli istifadə problemləri. Bakı 2004
7. Məmmədov İ.S. Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi.Bakı 2005
8. www.economy.gov.az
9. www.economics.com.az
10. www.banker.az

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

# İQTİSADİ QLOBALLAŞMA PROSESİ VƏ REGİONAL TARAZLI İNKİŞAF: QARŞILIQLI ƏLAQƏ VƏ ASILILIQ

**Xülasə**

*Məqalədə qloballaşma prosesinin mahiyyəti araşdırılmış, onun əsas təzahür formalarından biri olan iqtisadi qloballaşmanın məzmunu açıqlanmış, iqtisadi qloballaşma ilə regional tarazlı inkişaf arasındakı qarşılıqlı əlaqə və asılılıq tədqiq edilmişdir.*

*Elmi məqalədə, həmçinin ölkəmizin dünya iqtisadiyyatına fəal surətdə inteqrasiyası zamanı yaranan problemlərin regionlararası sosial-iqtisadi inkişaf fərqlərinin meydana gəlməsinə təsiri nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *qloballaşma, iqtisadi qloballaşma, regional fərqlilik, regional tarazlı inkişaf, iqtisadi inteqrasiya.*

“Yeni dünya”nın kəşfi (1492) ilə ilk dəfə özünü büruzə verən qloballaşma prosesi ciddi miqdarda insan köçü (Avropadan təşəbbüskarların və Afrikadan qulların Amerika qitəsinə köçü) və lokal qaynaqların ələ keçirilməsi (müstəmləkəçilik) ilə müşahidə olunmuşdur. Zamanla yeni keyfiyyət dəyişikliklərinə uğrayan qloballaşma prosesi XX əsrin 80-ci illərindən başlayaraq dövlətlər arasındakı maneələrin tamamən ortadan qaldırılması ilə ölkələrin intensiv inteqrasiyasını təmin etməyə, özünü əsasən iqtisadi, siyasi, mədəni, hüquqi, sosial, hərbi və texnoloji kimi sahələrdə göstərməyə başladı [1, səh.97-98].

Postsənaye dövrünə yeni çalarlar (qeyri-müəyyənlik və gözlənilməyən dəyişikliklərin artması, sürətlə yayılması) verən qloballaşma prosesinin əsas təzahür formalarından biri olan iqtisadi qloballaşdırma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi (qloballaşma prosesində milli hakimiyyət orqanlarının səlahiyyətlərində olan bəzi məsələlərin, xüsusən qərar qəbulu üzrə səlahiyyətlərin beynəlxalq və transmilli qurum və təşkilatlarla bölüşdürülməsi) və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır.

Qloballaşma prosesinin iqtisadi aspekti özünü beynəlxalq ticarətin (əmtəə və xidmətlərin sərbəst hərəkəti), beynəlxalq maliyyə kapitalı hərəkətlərinin (sərmayələrin hərəkətinin de-requlyasiyası) və beynəlxalq istehsalın sərbəstləşdirilməsi kimi üç əsas sahədə göstərməkdədir. Burada bir parantez açaraq qeyd etmək istəyirəm ki, istehsalın qloballaşması da, öz növbəsində özünü üç sahədə göstərməkdədir:

-  birbaşa xarici investisiyalar;
-  əməyin sərbəst hərəkəti (mobilliyi);
-  elmin, biliyin qloballaşması.

Bildiyimiz kimi, iqtisadi qloballaşmanın əsasını ölkələrin qarşılıqlı iqtisadi inteqrasiyası təşkil edir. İqtisadi inteqrasiya milli təsərrüfatlar arasındakı əmək bölgüsünün müxtəlif səviyyələrdə həyata keçirilməsidir. Belə ki, bir firmanın dünyanın fərqli ölkələrindəki fabriklərindən təmin edilən hissələrin son quraşdırma üçün bir başqa ölkədə toplanması və istehsal prosesinin müxtəlif mərhələlərində maliyyələşmənin bir çox ölkənin kapital bazarlarından təmin edilməsi qloballaşma prosesini əks etdirən ən uyğun nümunədir.

Müasir dövrdə elmi-texniki və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq heç bir ölkə xarici ticarət-iqtisadi əlaqələrə girmədən və digər ölkələrlə qarşılıqlı iqtisadi əməkdaşlıq etmədən öz milli iqtisadiyyatının optimal inkişafını, eyni zamanda, dünya iqtisadiyyatına inteqrasiyasını təmin edə bilməz. Dünya ölkələrinin təcrübəsi də onu göstərir ki, iqtisadiyyatı açıq və dünya təsərrüfatı

sisteminə daha fəal inteqrasiya olunmuş ölkələrin iqtisadiyyatları qapalı ölkələrə nisbətən daha çox inkişaf etmişdir.

Beynəlxalq ticarətin və istehsal amillərinin beynəlxalq hərəkətinin inkişafı nəticəsi olmaqla iqtisadi inteqrasiya, öz növbəsində bu proseslərdə iştirak edən dünya ölkələrinin istehsalının və təsərrüfat həyatının bütün sahələrinin beynəlmiləlləşməsi prosesini sürətləndirir, beynəlxalq əmək bölgüsünü dərinləşdirir, istehsal amillərindən daha səmərəli istifadə olunmasına şərait yaratmaqla ölkələrin ən mühüm sosial-iqtisadi göstəricilərinin yaxınlaşmasına və onların regionlarının inkişaf səviyyəsinin tarazlaşmasına səbəb olur.

Məhz bu baxımdan beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi Azərbaycan Respublikasının xarici iqtisadi inkişaf strategiyasının başlıca istiqamətlərindən biri müasir dünya əlaqələri sisteminin inkişaf xüsusiyyətlərini nəzərə almaqla ölkəmizin dünya iqtisadiyyatına fəal surətdə inteqrasiyasının təmin edilməsidir. Bu vəzifənin yerinə yetirilməsi olduqca müxtəlif xarakterli amillərin və dəyişənlərin, ölkələrin və regionların maraq və qarşılıqlı əlaqələrinin nəzərə alınmasını tələb edərək öz mürəkkəbliyi ilə fərqlənsə də, nəticə etibarilə milli iqtisadiyyatın formalaşması və inkişafında xarici iqtisadi amillərdən maksimum istifadə edilməsinə və respublikanın beynəlxalq əmək bölgüsündə layiqli mövqe tutmasına imkan yaradır.

Müstəqilliyin ilk illərində Azərbaycanın iqtisadi dəyişiklik və dirçəliş baxımından hələ yolun başında olması, dövlət büdcəsinin mövcud vəziyyətinin daxili ehtiyatlar hesabına respublikanın sosial-iqtisadi inkişafının təmin edilməsinə imkan verməməsi iqtisadiyyatında kapitala ehtiyac duyulan ölkələrdə olduğu kimi Azərbaycanda da xarici sərmayəni ölkəyə cəlb etməyi zərurətə çevirmişdi. Dünya təcrübəsi göstərir ki, xarici kapital özü ilə birlikdə texnologiya və müasir idarəçilik təcrübəsi gətirir, elmi tədqiqat işlərini təşkil edir, yerli kadrların hazırlanmasına xidmət edir. Qloballaşma şəraitində Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası xarici investisiyaların cəlb olunması hesabına daxili kapital qoyuluşu çatışmazlıqlarının aradan qaldırılmasına, dövlətin xarici borcu yaranmadan texnika və avadanlıqların alınmasına, məşğulluğun artmasına və büdcə gəlirlərinin çoxalmasına səbəb olmuşdur. Lakin ölkəyə qoyulan xarici investisiyaların 80%-nin paytaxtın və ona yaxın ərazilərin payına düşməsi Azərbaycanda regionlararası inkişaf fərqliliyinin və ya qeyri-tarazlığın ilkin təzahürlərini meydana gətirdi ki, bu problem bu gün də ölkəmiz qarşısında duran həlli vacib məsələlərdən biri kimi qalmaqdadır.

Düzdür, qloballaşma prosesi respublikamızın beynəlxalq əlaqələrinin səmərəli inkişafına şərait yaratmaqla əmtəə və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılmasını, texniki səviyyəsinin yüksəldilməsini təmin etsə də, qlobal şirkətlərin və iqtisadi birliklərin şəxsi mövqedən çıxış edərək atdıqları addım bəzən cəmiyyətimizin məqsəd və mənafeyi ilə uzlaşmamışdır. Başqa sözlə desək, qlobal şirkətlərin gəlir əldə etmək məqsədinə xidmət edən investisiya qoyuluşu qərarlarında onların şəxsi mənafeyi ilə cəmiyyətin maraq və mənafeləri toqquşmaqdadır. Belə ki, qlobal şirkətlərin qısa müddətdə məhsuldar olan və dolayısı ilə yüksək gəlir əldə edə biləcəyi sahələrə meyl etməsi, investisiya qoyuluşlarını daha çox mərkəzi regionlara yönəltməsi regionlararası sosial-iqtisadi inkişaf fərqlərinin artmasına şərait yaratdı.

Fikrimizcə, qloballaşma prosesi və regional tarazlı inkişaf arasında sıx qarşılıqlı əlaqə və asılılığın olduğunu birbaşa xarici investisiyalar baxımından nəzərə alaraq bəzi bölgələrdə regional fərqliliyin səbəb olduğu problemləri həll etmək üçün dövlət-qlobal şirkətlər əməkdaşlığı formalaşdırılmalı, bu əməkdaşlığın səmərəsi əsaslandırılmalı, regionları hərəkət gətirəcək birgə investisiyalı infrastruktur layihələri reallaşdırılmalıdır.

Azərbaycan regionlarının tarazlı inkişafında qloballaşma prosesinin təsirini əks etdirən meyarlardan biri xarici investisiyaların yönəldiyi regionlarda, o cümlədən sahələrdə əmək haqqının yüksək olmasıdır. Məsələn, Azərbaycanda neft hasilatı sahələrində çalışan işçilərin əmək haqqı respublika üzrə orta aylıq əmək haqqından təxminən 2-2,5 dəfə yüksəkdir. Əmək haqlarının yüksəkliyi, dolayısı ilə həyat səviyyəsinin rahatlığı ilə fərqlənən region (Bakı şəhəri, Abşeron iqtisadi rayonu) digər regionlardakı əhalinin diqqətini özünə cəlb edir. Qeyd edək ki, ətraf regionlardan inkişaf edən regiona doğru olan bu axında gizli və açıq işsizlərlə yanaşı, ilk əvvəl iqtisadi fəal əhali kateqoriyasına daxil olan ixtisaslı kadrlar iştirak etməkdədirlər. Xüsusən gənc və işgüzarlıq ruhuna sahib fəal və peşəkar kadrlarını itirən ətraf regionlar inkişaf potensiallarını itirərək

mövcud inkişaf səviyyələrini belə qorumaqda çətinliklərlə qarşılaşırlar. Reallıqda yaranmış bu situasiya regionlar arasında baş verən beyin axınından başqa bir şey deyildir [2, səh.85-86]. Qeyd etdiyimiz bu situasiyanın daha ağır cəhəti qloballaşma prosesinin meydana gətirdiyi əməyin sərbəst hərəkəti (mobilliyi) faktoru nəticəsində yüksək ixtisaslı kadrların respublikamızı tərk edib xarici ölkələrə getməsidir.

İqtisadi fəal əhali kateqoriyasına daxil olan yüksək ixtisaslı kadrların axınının bir digər təsiri işçi axını ilə üzləşən regiondan köç edən işçilərin istehsaldakı səbəb olduqları əlavə dəyərin və buna əlavə olaraq istehlak həcminin azalmasıdır ki, son nəticədə, işçi axını ilə üzləşən regionun gəlirləri azalacaqdır. Tam əksinə olaraq işçi axınını qəbul edən regionun gəlirləri axın edən insanların istehlak səviyyəsi ilə əlaqədar artır. Beləliklə, işçi axını ilə üzləşən regionun gəliri azalır, işçi axınını qəbul edən regionun gəlirləri artır. Bu da regionlar arasındakı regional fərqliliyin bir forması olan gəlir bərabərsizliyinin daha da artmasına səbəb olur.

Qloballaşma və iqtisadi əlaqələrin genişlənməsi ölkədə iqtisadi inkişafı təmin etməklə yanaşı, eyni zamanda, qabaqlayıcı tədbirlər həyata keçirilmədikdə, regionlararası tarazlı inkişafın pozulmasına səbəb olur. Belə ki, müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların əsas hissəsinin neft və təbii qaz hasilinə istiqamətlənməsi respublikamızın xarici iqtisadi fəaliyyətdə əsasən neft hasilatı sahəsinin iştirakı ilə nəticələnmişdir ki, bu da ölkə iqtisadiyyatını enerji daşıyıcılarından, xüsusilə də neftin dünya bazarındakı konyukturundan asılı vəziyyətə salmışdır. Bu isə onu sübut edir ki, Azərbaycanın gəlirləri neftdən, neft gəlirləri isə dünya bazarında baş verən qiymət konykturundan birbaşa asılıdır. Fikrimizcə, məhz bu baxımdan ümumi daxili məhsulun davamlı olaraq inkişafı üçün iqtisadi artımın neft gəlirlərindən asılılığını minimuma endirmək lazımdır.

Xarici ticarət-iqtisadi əlaqələrdə Azərbaycanın qeyri-neft sektoruna aid məhsulların ixracın cüzi bir hissəsini təşkil etməsi respublikamızın regionları arasında sosial-iqtisadi inkişaf fərqlərinin mövcud olmasının bariz nümunəsidir. Qeyd edək ki, əgər bir ölkədəki regionlararası inkişaf fərqləri nəzərə çarpacaq səviyyəyə çatmışsa, deməli inkişaf baxımından geri qalmış regionlardakı istehsal amillərindən tam istifadə olunmur və bu səbəbdən tam məşğulluqdan söhbət belə gedə bilməz. Əgər bir ölkədə tam məşğulluq təmin edilə bilməmişsə və işsizlik problemi varsa, sözü gedən ölkədə ÜDM-nin həcmi və dolayısı ilə rifah səviyyəsi aşağı düşəcəkdir. Nəticə etibarilə bir ölkənin geri qalmış regionlarında işsizliyin var olması rifah itkisinin başlıca göstəricisidir.

Beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi Azərbaycanın xarici iqtisadi əlaqələrdə xam neft və təbii qaz ixracına əsaslanması respublikamızın iqtisadi qloballaşmanın təsirini dollar və evro arasındakı kursun tez-tez dəyişməsi ilə hiss etməsinə səbəb olmuşdur. Bildiyimiz kimi, Azərbaycanda ixrac dollara əsaslansa da, idxalın müəyyən hissəsi evro ilə həyata keçirilir. Evronun dollara nisbətən məzənnəsinin dəyişməsi bilavasitə idxal edilən xammal, material və avadanlığın qiymətinə və idxalçıların gəlirlərinə təsir göstərir. Belə ki, istehsalı xammal idxalına əsaslanan durğun regionlardakı istehsalçıların istehsal etdikləri əmtəələrin baha başa gəlməsi özünə alıcı tapmamasına, bu istehsalçıların iflasa doğru sürüklənməsinə səbəb olur. Xam neft və təbii qaz ixracı ilə məşğul olan regionların dollar və evro arasındakı kursun tez-tez dəyişməsindən daha az təsirlənməsi regionlararası sosial-iqtisadi inkişaf fərqlərinin meydana gəlməsinə və regional tarazlığın pozulmasına səbəb olur [3].

Zəngin təbii ehtiyata və əlverişli coğrafi mövqeyə malik olan regionun ətrafında top-lanmağın verdiyi üstünlüklərdən yararlanmaq üçün müəssisələr eyni bir regionda toplanmağa meyl göstərirlər. Başqa sözlə desək, yeni yaradılan və ya formalaşdırılan müəssisələr xarici ticarətin formalaşdığı regionlarda toplanmağa meyl edirlər. Qloballaşma prosesinin üstünlüklərindən yararlanan bəzi regionlarda ixracyönümlü iqtisadiyyatın formalaşması yeni bir coğrafi toplanma təsiri yaradır. Buna "toplanma təsiri (effect d′ agglomeration)" adı verilir. Bu toplanmanın təsiridir ki, müəssisələrin fəaliyyət göstərməsi üçün zəruri olan çoxlu sayda xidmət növlərinin (dərzi, reklam şirkətləri, hüquq məsləhətxanaları, bərbərxana və s.) var olduğu böyük məskunlaşma mərkəzləri qurulur. Qeyd edək ki, bu böyük mərkəzlərdə bir ailənin bütün üzvləri öz ixtisaslarına uyğun iş tapa bilərlər. Bu da gələcək köç üçün başlıca zəmindir. Çeşidli boş iş yerlərinin olması ilə fərqlənən regiona doğru baş verən köç əhali sıxlığının artmasına, hüquqpozma hallarının çoxlamasına,

infrastruktur, elektrik, su və təbii qaz xidmətlərindən istifadədə ciddi axsamalara və s. bir çox problemlərin meydana gəlməsinə səbəb olur.

Qloballaşma və ölkənin regional tarazlı inkişafı arasındakı qarşılıqlı əlaqə və asılılığın digər təzahür formalarına ölkədən kapital axının baş verməsi, yerli müəssisələrin xarici rəqabətə tab gətirə bilməməsi, beynəlxalq təşkilatların və qlobal şirkətlərin ölkə siyasətinə təsir imkanlarının artmasını və s. misal göstərmək olar [4].

Yuxarıda qeyd olunanları yekunlaşdıraraq söyləməliyik ki, beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi Azərbaycan Respublikası istər ikitərəfli əlaqələr yaratmaqla, istərsə də beynəlxalq iqtisadi təşkilatlar çərçivəsində fəaliyyət göstərməklə dünya təsərrüfatına fəal surətdə inteqrasiya olunmaqdadır. Bu sahədə ən böyük problem isə iqtisadi əlaqələrin strukturunun qeyri-təkmil olmasıdır. Məhz bu baxımdan, fikrimizcə, Azərbaycanda iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri ixracın strukturunda hazır məhsulların xüsusi çəkisinin artırılması və ölkə iqtisadiyyatında qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi olmalıdır. Qeyd etdiyimiz bu addımların atılması qloballaşma prosesinin mənfi təsirlərini aradan qaldırmaqla regional tarazlı inkişafın təmin edilməsinə xidmət edəcəkdir. Bu zaman bir faktı unutmaq olmaz ki, bütün mənfi tərəflərinə baxmayaraq ölkəmizin qloballaşma prosesində iştirakı regional tarazlı iqtisadi inkişaf üçün başlıca və ya əsas şərtdir.

## ƏDƏBİYYAT

1. Natiq Sabiroğlu. Qloballaşma və xarici investisiyalar. Bakı, 2006, 287 səh.
2. Mahmudov C.İ. Regionların inkişaf səviyyəsindəki fərqlər və onun iqtisadi, sosial-siyasi nəticələri. NU-nun Elmi əsərləri, № 1(1), Nuh, 2015, səh. 84-90.
3. Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər. A.K.Ələsgərovun ümumi redaktəsi ilə. Bakı, 2015, 332 səh.
4. Qəribov A.H. Beynəlxalq iqtisadi inteqrasiya və iqtisadi təhlükəsizliyin tənzimləmə mexanizmləri. Naxçıvan, 2013, 192 səh.

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

# QLOBALLAŞAN İQTİSADİYYATA MƏHSULUN İSTEHSALI VƏ SATIŞININ İQTİSADİ TƏHLİLİ

**Xülasə**

*Məhsul istehsalı və satışının həcminin təhlili, bir qayda olaraq, təhlil edilən dövr ərzində planın yerinə yetirilməsi dərəcəsənin və dəyər ifadəsində ümumi və əmtəəlik məhsulun göstəricilərinin dinamikasının qiymətləndirilməsindən başlanır. Bu zaman dövr ərzində göstəricilər üzrə mütləq kənarlaşmalar, onların inkişafı və ratım templəri, planın yerinə yetirilməsi səviyyəsi müəyyən edilir.*

*Ümumi, əmtəəlik və realizə edilmiş məhsulun planlaşdırılması və uçotu planda qabul topdan satış qiymətlərilə və müəssisənin qüvvədə olan topdan satış qiymətlərilə həyata keçirilir. Bu göstəriciləin tərkibində konkret müəssisədə sərf edilmiş canlı əmək məsrəfləri deyil, həm də istifadə edilmiş materialların, alınan yarıçfabrikatların, kompleksləşdirici məmulatların. Yanacağın, enerjinin, amortizasiya olunan qeyri-maddi aktivlərin və əsas fondların dəyərinin bir hisəsi şəklində maddiləşmiş əmək məsrəfləri nəzərə alınır.*

***Açar sözlər**: istehsal, rəqabət, sifariş, satış, biznes-plan, proses.*

Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirilir və bu islahatlar çərçivəsində iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun stimullaşdırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində kompleks tədbirlər görülür.

Təsərrüfat subyektlərinin fəaliyyətinin təhlili məhsulların istehsalı və satışının öyrənilməsindən başlanır, çünki məhsul istehsalı və satışı onların fəaliyyətinin ən mühüm aspektləridir. Təşkilatın məsrəfləri, mənfəəti, rentabelliyi, rəqabət qabiliyyəti və bazarda fəallığı buraxılan və realizə edilən məhsulun həcmindən, çeşidindən və keyfiyyətindən asılıdır.

Məhsul istehsalı və satışının məasədləri aşağıdakı əsas məsələlərin həlli ilə əlaqədardır:

- müəssisənin istehsal edə biləcəyi məhsulların seçilməsi;
- müəssisə üçün ən perspektivli məhsul növlərinin müəyyən edilməsi, malların bazarda hərəkətinin və reklamının təşkili;
- sifarişlər portfelinin formalaşdırılması və istehsalın həcmi üzrə planların əsaslandırılması;
- məhsulun satışı bazarının və yayılma üsullarının axtarılıb tapılması;
- satışın zərərsizliyi səviyyəsinin qiymətləndirilməsi;
- məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri haqqında qərarların qəbul edilməsi;
- müəssisənin qiymət siyasətinin seçilməsi.

İşlənib hazırlanmış və sistemləşdirilmiş informasiya əsasında aparılan təhlil həmin məsələlərin həllini təmin etməlidir. Bu istiqamətdə aparılan təhlilin məqsədləri aşağıdakılardır:

1. işə yekun vurulması və onun əsaslandırılmış stimullaşdırılması üçün istehsal- təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi;
2. istehsal prosesinin gedişinə operativ təsir etmək məqsədilə məhsulun istehsalının və satışının təhlili;
3. mümkün nəticələrin proqnozlaşdırılması üçün istehsal proqramının yerinə yetirilməsinin təhlili.

Aparılan təhlilin nəticələri aşağıdakı hallarda konkret idarəçilik qərarları qəbul edilməsi üçün istifadə edilə bilər:

- sifarişlər portfelinin formalaşdırılması;

- dəqiqləşdirilmiş istehsal planının tərtib edilməsi və onun istehsal güclərinə uyğunlaşdırılması;
- istehsal xərclərinin smetasının tərtib edilməsi;
- maddi-texniki ehtiyyatlar təchizatı, əsas fondların və istehsal güclərinin işə buraxılması planlarının formalaşdırılması;
- əmək ehtiyyatlarına tələbatın qiymətləndirilməsi.

Məhsul istehsalı və satışının təhlilinin əsas vəzifələri aşağıdakılardır:

- məhsulun istehsalı və satışı üzrə planın yerinə yetirilməsinin və göstəricilərin dinamikasının, onun tərkibində və keyfiyyətində dəyişmələrin qiymətləndirilməsi;
- məhsul istehsalı və satışı həcminə təsir göstərən amillərin müəyyən edilməsi və onların təsirinin kəmiyyətcə hesablanması;
- məhsul istehsalının və satışının artırılmasının təsərrüfatdaxili ehtiyatlarının müəyyən edilməsi;
- aşkar edilmiş ehtiyatların səfərbər edilməsi üzrə tədbirlərin işlənib hazırlanması.

Məhsul istehsalı və satışının təhlil üçün istifadə olunan informasiya mənbələri aşağıdakılardır:

- təşkilatın biznes-planı, məhsulun istehsalı və göndərilməsi üzrə operativ planlar;

“Məhsulların istehsalı və göndərilməsi haqqında hesabat”, “Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat” adlı 2 saylı forma üzrə hesabatlar və s. məlumatlar.

Faktiki informasiyanın ən əsas bloku-mühasibat uçotu məlumatlarıdır. Onlara məhsulun uçotu sənədləri və siyahılar təhvil-təslim qaimələri, ay ərzində məhsul buraxılması cədvəlləri, anbar uçotu vərəqələri, məhsulun göndərilməsi qaimələri, hesab-fakturalar və s. daxildir.

Məhsulların alıcıları ilə bağlanmış təsərrüfat müqavilələri təhlil üçün mühüm ilkin sənədlərdir. Onlara məhsulun nomenklaturası, həcmi, keyfiyyəti, komplektliliyi, qablanması, qiyməti, müqavilənin məbləği, göndərmə qaydası və müddətləri, hesablaşmalar və çatdırilma qaydası, müqavilənin müdətləri, şərtləri pozulmasına görə sanksiyalar haqqında informasiya daxildir.

Müəssisələr müqavilələr əsasında məhsulun həcmi və nomenklaturası üzrə sifarişlər portfeli formalaşdırır və özlərinin istehsal imkanlarını nəzərə almaqla məhsulun istehsalının həcmini planlaşdırır, onun anbara verilməsi və alıcılara göndərilməsi qrafiklərini tərtib edir.

Məhsul buraxılışının həcminin və müddətlərinin müfəssəl şərh edilməsi plan istehsal proqramı adlanır.

İstehsalın və satışın həcminin səciyyələndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə edilir: ümumi məhsul, əmtəəlik məhsul və realizə edilmiş məhsul.

Ümumi məhsul müəssisənin müəyyən dövr ərzində sənaye istehsalının ümumi həcmini səciyyələndirir.

Əmtəəlik məhsul müəssisənin satış məqsədi ilə hazırladığı məhsulun həcmini səciyyələndirir. O, ümumi məhsuldan onunla fərqlənir ki, ona bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin qalıqlarının dəyişmələri, habelə təsərrüfatdaxili dövriyyə daxil edilmir.

Realizə edilmiş məhsul alıcılara göndərilmiş və mədaxili mühasibat uçotunda qəbul edilmiş məhsulun həcmini səciyyələndirir. Sadalanmış göstəricilərin hamısı aşağıdakı kimi qarşılıqlı əlaqəlidir:

$$ÜM=ƏM+(Bİ_{d.ə}-Bİ_{d.s}),$$

Burada $Bİ_{d.ə}$ və $Bİ_{d.s}$ - bitməmiş istehsalın, öz istehsalı olan yarımfabrikatların və alətlərin müvafiq olaraq dövrün əvvəlinə və sonuna qalıqlarıdır;

$$RM = ƏM + (HMQ_{d.ə.} – HMQ_{d.s}),$$

Burada $HMQ_{d.ə.}$ və $HMQ_{d.s}$ – anbarlarda hazır məhsulun müvafiq olaraq dövrün əvvəlinə və sonuna qalıqlarıdır.

İqtisadi təhlildə istehsalın və satışın həcmlərinin ölçülməsi üçün müxtəlif göstəricilərdən:

1. dəyər göstəricilərindən:

a) tam dəyər göstəriciləri;

b) elementlərin dəyəri (normativ əmək haqqı, normativ emal dəyəri, normativ xalis məhsul, xalis məhsul) göstəricilərindən;

2. natural göstəricilərdən (ədəd, metr, ton və s.);
3. şərti natural göstəricilərdən (şərti yanacaq-saatları) istifadə edilir;
4. əmək göstəricilərindən (əmək sərfi normal-saatları) istifadə edilir.

Məhsul istehsalı və satışının həcminin təhlili, bir qayda olaraq, təhlil edilən dövr ərzində planın yerinə yetirilməsi dərəcəsənin və dəyər ifadəsində ümumi və əmtəəlik məhsulun göstəricilərinin dinamikasının qiymətləndirilməsindən başlanır. Bu zaman dövr ərzində göstəricilər üzrə mütləq kənarlaşmalar, onların inkişafı və ratım templəri, planın yerinə yetirilməsi səviyyəsi müəyyən edilir.

Ümumi, əmtəəlik və realizə edilmiş məhsulun planlaşdırılması və uçotu planda qabul topdan satış qiymətlərilə və müəssisənin qüvvədə olan topdan satış qiymətlərilə həyata keçirilir. Bu göstəriciləin tərkibində konkret müəssisədə sərf edilmiş canlı əmək məsrəfləri deyil, həm də istifadə edilmiş materialların, alınan yarıçfabrikatların, kompleksləşdirici məmulatların. Yanacağın, enerjinin, amortizasiya olunan qeyri-maddi aktivlərin və əsas fondların dəyərinin bir hisəsi şəklində maddiləşmiş əmək məsrəfləri nəzərə alınır.

Müəssisələrin topdan satış qiymətinə yalnız maya dəyəri deyil, həm də mənfəət daxildir. Müxtəlif məhsul növlərinin topdan satış qiymətində canlıvə maddiləşmiş əmək məsrəflərinin nisbətləri, həmçinin mənfəətin payı eyni olmur. Məhsul növləri material tutumu, əmək tutumu, rentabellik üzrə fərqlənirlər. Hesabat dövründə məhsulun strukturunun dəyişilməsi ÜM, ƏM və RM dəyər göstəricilərində məhsulun fiziki həcminin dəyişilməsinə, habelə təşkilatın işçilərinin əmək məsrəflərinə müvafiq olmayan dəyişilmələrəsəbəb olur.

Bununla əlaqədar olaraq məhsul istehsalı həcminin qiymətləndirilməsi üçün sadalanlalarla yanaşı digər göstəricilər: normativ əmək tutumu (NƏT), normativ əmək haqqı (NƏH), normativ emal dəyəri (NED), normativ xalis məhsul (NXM), xalis məhsul (XM) göstəricilərindən də istifadə edilir.

Normativ əmək tutumu (NƏT) göstəricisi məhsulun hazırlanması üçün zəruri olan canlı əməyin miqdarını səciyyələndirir. Əgər hər məhsul növü vahidlərinin sayını $q_i$, vahidin normativ əmək tutumunu $t_i$ ilə işarə etsək, onda onların vurma hasilinin cəmi $\sum q_i t_i$ həmin dövr ərzində məhsulun ümumi normativ əmək tutumunu təşkiledəcəkdir.

Beləliklə, hesablanşmış göstərici fəhlələr tərəfindən sərf edilmiş əməyin həcmini ifadə edir. Məhsulun plan üzrə və faktiki buraxılışına normalaşdırılmış vaxt sərfləri plan-istehsal şöbəsi tərəfindən hesablanır və cari planların hesablamalarında və məhsul buraxılışı cədvəllərində olur.

## ƏDƏBİYYAT


1. R.İ.Əliyev "İqtisadi təhlil nəzəriyyəsi" dərslik Bakı 2012.
2. H.Cəfərli "İqtisadi təhlil" dərslik Bakı 2000
3. H.Namazəliyev "Sənaye müəssisələri təsərrüfat fəaliyyətinin iqtisadi təhlili"
4. S.Seyfullayev, İ.Abbasov "Bazar münasibətlərində iqtisadi təhlil"
5. F.Quliyev "İqtisadi təhlil" dərslik 2012.
6. Müəssisənin illik mühasibat hesabatları və onların tərtibi qaydaları. Bakı-1995
7. T.A. Abbasov., M.S Bağırov. "Mühasibat hesabatları və audit işinin təşkili". Bakı-2005
8. S.M Səbzəliyev "Mühasibat hesabatları" Bakı-2003

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*marketinq05@mail.ru*

# BEYNƏLXALQ MÜHASİBAT UÇOTU STANDARTLARINA KEÇİD VƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR

**Xülasə**

*Elmi məqalədə Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçidin zəruriliyi, xüsusiyyətləri araşdırılmış, maliyyə hesabatlarının yeni slandartlara uyğun olaraq hazırlanmasının məqsədi və vəzifələri müəyyənləşdirilmiş, keçid zamanı qarşıya çıxan əsas problemlər araşdırılmış və həlli yolları göstərilmişdir. Mühasibat Uçotunun Beynəlxalq Standartlara uyğunlaşdırılasının həm müəssisə, həm də mühasib üçün faydaları şərh eilmişdir. Sonda qeyd edilmişdir ki, nuçot və hesabat sisteminin beynəlxalq slandartlara uyğunlaşdırılması mürəkkəb bir prosses olmaqla, Avropa Birliyi çərçivəsində belə uzun illərdir ki, həyata keçirilməkdədir.*

***Açar sözlər:*** *Mühasibat Uçotunun Beynəlxalq Standartları, maliyyə hesabatları, mühasibat uçotunun prinsipləri, idarəetmə uçotu*

Son illər iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, mühasibat uçotu sahəsində də beynəlxalq tələblərə cavab verməklə ənənəvi milli mühasibat uçotu sisteminin təkmilləşdirilməsi və yenidən qurulması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iqtisadi islahatlar həyata keçirilmişdir. 2005-ci il 07 fevral tarixdə "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının Prczidentinin Fərmanı, 2004-cü il 02 senlyabr tarixdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində aparılan islahatların məntiqi davamı hesab olunur (7,5). Mühasibat uçotunun Beynəlxalq Standartlara uyğunlaşdırılmasında əsas məqsəd ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının möhkəmləndirilməsi, dünya bazarına çıxışı, müəssisələrin fəaliyyətinin şəffaflığının təmin edilməsindən ibarət idi.

İnzibati amirlik sistemi ilə makroiqtisadiyyatın idarə edilməsi zamanı mövcud olan uçot metodları və üsullarının yeni şəraitdə qəbul ediməsi mümkünsüz idi, çünki mühasibat uçotu və hesabat inzibati-amirlik sistemində prinsipcə tamamilə başqa vəzifələr yerinə yetirirdi. Xarici investorlar uçot və hesabatın şəffaflığında maraqlı olduğu üçün maliyyə hesabatının beynəlxalq standartlarına keçilməsi xarici investisiyaların neft sənayesi ilə yanaşı digər sahələrə də geniş şəkildə cəlb olunmasına stimul yaratdı.

Uçot qarşısında duran vəzifələri yerinə yetirmək üçün Beynəlxalq standartlara uyğun səviyyədə qurulmalı və bir sıra ümumi prinsiplərə cavab verməlidir. Həmin prinsiplər mühasibat uçotunun konsepsiyasının əsasını təşkil edir. Statistika sübut edir ki, dünyada eyni mühasibat uçotu tamamilə eyni olan iki ölkəyə rast gəlmək çox çətindir. Lakin sosial-iqtisadi şəraiti oxşar olan ölkələrdə uçot sisteminin ümumi cəhətləri kifayət qədərdir. Hazırda dünya ölkələrində mühasibat uçotunun beynəlxalq sisteminin müxləlif modellərindən istifadə olunur. Qərb ölkələrinin iqtisadçılarının araşdırmalarına görə dünya öikələrində mühasibat uçotunun aparılmasının bir neçə modeli daha geniş yayılmışdır. Bunların içərisində İngilis-Amerikan, Kontinental (qitə) və Cənubi Amerika modelləri üstünlük təşkil edir. Müsəlman ölkəbrində mühasibat uçotunun islam modeli təşəkkül tapmaqdadır. Respublikamızın uçot sistemi isə Kontinental (qitə) modelinə daha çox uyğun gəlir (8, 12).

MHBS-nın formalaşması məhz qeyd olunan zərurətdən meydana çıxmışdır. 70-ci illərdə dünyanın aparıcı Trans Milli Korporasiyaları öz ölkələri qarşısında belə bir məsələ qaldırdılar ki, biz xarici dövlətlərin müəssisələrinə investisiya qoyduğumuz zaman düzgün qərar qəbul edə

bilmirik. Bunun səbəbi həmin ölkəklərə aid olan müəssisələrin maliyyə məlumatlarını oxuya bilməmələri idi. Nəticədə, 1973-cü ildə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsi (MHBSK) formalaşdırılır və bu problem o vaxtdan indiyə qədər həll edilməkdədir (10,23).

Maliyyə Hesabatın Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq maliyyə hesabatının başlıca məqsədi pul axınlarının hərəkətini proqnozlaşdırmağa imkan verən iqtisadi qərarlar qəbul etmək üçün istifadəçilərə zəruri informasiya verməkdən ibarətdir. Mühasibat uçotunun Beynəlxalq Standartları üzrə Komitə tərəfindən işlənib hazırlanan bu standartlar müəssisələrin fəaliyyəti haqda şəffaf və anlaşıqlı informasiya verilməsinin ən səmərəli forması kimi bütün dünya ölkələri tərəfindən tanınır.

Beynəlxalq Mühasibat Uçotu Standartlarının səmərəliliyinə müəssisə və mühasibə olan faydaları nöqtei-nəzərindən baxmaq olar. BMUS-nın sahibkara verə biləcəyi faydalarının sayı çox olsa da onlardan ən vacibləri aşağıdakılardır:

1. **İdarəetmənin keyfiyyətinin artırılması.** Maliyyə hesabatları idarəetmədə mühüm rol oynayır və müəssisə rəhbərinə daha səmərəli və çevik qərarlar qəbul etməsinə imkan yaradır.

2. **Resurslardan qənaətlə istifadə etmək.** Gəlir və xərclərin tanınma prinsipi aktivlərdən qənaətlə istifadə etməyə və daxili maliyyə nəzarətinin həyata keçirilməsinə zəmin yaradır.

3. **Hesabatlılığın təmini.** Daxili sənədləşmə sisteminin səmərəli qurulması və resurslara nəzarət üçün hesabatlılıq çox önəmlidir. Beynəlxalq Mühasibat Uçotunun prinsipləri olan uyğunluq (matching principle) və gəlirlərin tanınması (revenue recognation) prinsipi hesabatlılığı təmin edənən prinsiplərdir.

BMUS-nun mühasibin işi ilə bağlı əsas faydaları ondan ibarətdir ki, hesablar planı çox sadədir və maliyyə hesabatlarının elementləri ilə birbaşa əlaqədar deyil. Həmçinin hesabların təsnifləşdirilməsi hər bir ölkənin uçot siyasətindən asılıdır. Əməliyyatların uçotu ilə hesabatların hazırlanması arasında əlaqənin olması sadə əməliyyatın qeydiyyatının apararılması zamanı eyni anda ən azı 3 hesabatın sınaq formasının hazırlanmasına səbəb olur. Gəlirlərin və xərclərin tanınması zamanı hesablama metodundan istifadə isə maliyyə hesabatlarının daha dəqiq olmasına gətirib çıxarır.

Rəqabət mühitinin tam formalaşmaması, qiymətli kağızlar bazarının zəif inkişafı, istifadəçilərin maliyyə hesabatları haqqında lazımi biliklərinin olmaması MHBS-nın yerli şirkətlərdə tətbiqinin ləngiməsinə şərait yaradır. Digər səbəblərdən biri uzun illərdir köhnə sistemi tətbiq etməyə vərdiş etmiş mühasiblərin əksəriyyətinin təzə sistemə uyğunlaşma çətinliyindən və qavraya bilməməsindən irəli gəlir. Müəssisə rəhbərinin uçot məlumatlarından tam istifadə etmə qabiliyyətlərinə malik olmaması mühasibat uçotu siteminə səhf yanaşmaya gətirib çıxarır. Nəzərə almaq lazımdır ki, müəssisədə daxili və xarici qərarların verilməsi məhz mühasibat (maliyyə) informasiyasına əsaslanır.

Maliyyə hesabatları müəssisənin maliyyə vəziyyəti, maliyyə nəticələri və maliyyə vəziyyətindəki və kapitalındakı dəyişikliklər əks etdirdiyi üçün onların düzgün qiymətləndirməsi xüsusi əhəmiyyətə malikdir. Vaxtında və düzgün verilmiş qərar isə müəssisənin fəaliyyətinin əsasını təşkil edir.

MHBS müəssisənin resurslarından səmərəli istifadə olunmasına ciddi təsir göstərir. Buradakı “hesablama” və “uyğunluq” prinsiplərinin tələbləri müəssisədə uçot və hesabat sisteminin ədalətli qurulmasına xidmət edir. Belə ki, “hesablama” prinsipinə görə gəlirlər o zaman tanına bilər ki, mallar göndərilsin və yaxud xidmətlər göstərilmiş olsun. Eyni zamanda xərclər o zaman tanına bilər ki, mallar və xidmətlər qəbul və ya istehlak edilsin.“Uyğunluq” prinsipinə görə isə alınan resursları birbaşa xərcə deyil, istifadə (istehlak) edildiyi zaman xərcə silmək, gəlirləri isə qazanıldığı zaman tanımaq lazımdır. Bundan başqa dövr ərzində baş vermiş daxilolma və xaricolmaları gəlirlərin və xərclərin baş verdiyi dövrlər üzrə uyğunlaşdırılması da bu prinsipin tələblərindən biridir (2,43). Məsələn, əvvəlcədən ödənilmiş xidmət haqqı o zaman xərcə silinir ki, onu həmin dövrdə müəssisə istehlak etmiş olsun. Yaxud hər hansı mal və xidmətin qarşılığında əvvəlcədən avans kimi alınmış olan məbləğ o zaman gəlirə silinə bilər ki, həmin pul o dövrdə qazanılmış olsun. Qazanana (malın göndərilməsi yaxud xidmətin göstərilməsinə) qədər həmin

məbləğ öhdəlik kimi balansda, xidmətin göstərildiyi dövrdə isə Mənfəət və zərərlər haqqında hesabatda gəlir kimi əks etdirilməlidir.

Onu da qeyd edək ki, beynəlxalq praktikada maliyyə hesabatlarının tərtib olunması “Maliyyə uçotu” və “İdarəetmə uçotu” fənnləri adı altında keçirilir. Vergi uçotu isə mühasibat uçotundan tamamilə ayrı həyata keçirilir (6,11).

Bu gün Azərbaycanda beynəlxalq mühasibat uçotunun nəzəri-praktik əsaslarına aid azərbaycan dilində dərslik və ədəbiyyatlar yetərli səviyyədə deyil. Tərcümə olunan vəsaitlərin əksəriyyəti də məhz IFRS-lərə aiddir. Bu isə tələbə və mühasiblər arasında beynəlxalq mühasibat uçotunun nəzəri əsasları barədə məlumatın az olması tərcümə olunan IFRS-lərin MMUS-nın tətbiqində müəyyən çətinliklər yaradır.

Digər bir çətinlik yeni maliyyə hesabatları ilə vergi hesabatları arasında əlaqənin olmamasından irəli gəlir. Qeyd edək ki, bu məsələ barəsində Dünya Bankının həyata keçirdiyi araşdırma hesabatında, həmçinin mühasibatlıq üzrə beynəlxalq təşkilatların öz hesabatlarında da rast gəlinir. Azərbaycanda mühasibatlığın instisional bazası kifayət qədər beynəlxalq standartlara uyğun olsa da problemin həmin qanunun icra mexanizminin işlənməsindədir. Faktiki olaraq mühasibatlıq vergi məcəlləsində baş verən dəyişikliklərli izləyir və ona yönəlik bir sistemə çevrilib. Halbuki, beynəlxalq praktikada öz əhəmiyyətinə görə vergi orqanı istifadəçilər arasında sonuncu yerlərdən birində durur. Bu da uçotun vəzifələrindən irəli gəlir ki, beynəlxalq praktika məsələyə şirkət maraqları nöqtei-nəzərindən yanaşaraq əsas istifadəçiləri daxildə təsisçi və idarəçilər, xaricdə isə səhmdar və investorlar olmaqla nəzərdən keçirməkdədir.

Beləliklə, qeyd olunan problemlərin həll edilməsi üçün maliyyə hesabatının istifadəçiləri daim mariflәndirilərək, hesabatı oxuyub, rəqəmlərdən nəticələr çıxarmaq bacarığına malik olmalıdır. Bnun üçün ya mühasibi beynəlxalq sistemi öyrənməyə məcbur etmək, yaxud da yeni gənc mütəxəssislərin yetişdirilməsinə şərait yaratmaq lazımdır. Bu gün Azərbaycanın əmək bazarında ən böyük ehtiyac duyulan sahələrdən biri məhz mühasibatlıqdır. Kadr probleminin həll olunması üçün universitetlərdə beynəlxalq mühasibat uçotu fənnlərinin (maliyyə uçotu və idarəetmə uçotu) tədrisinin keyfiyyətli təşkilini həyata keçirmək lazımdır.

Ümumilikdə götürdükdə isə uçot və hesabat sisteminin beynəlxalq slandartlara uyğunlaşdırılması təkcə Azərbaycan Respublikasının problemi deyildir, Avropa Birliyi çərçivəsində bu iş uzun illərdir ki, həyata keçirilməkdədir.

## ƏDƏBİYYAT


1. “Mühasibat Uçotu haqqında” Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli 716 İİQ saylı Qanununu;
2. Abbasov.T.A. “Mühasibat uçotunun beynəlxalq və milli standartlarının əsasları”, Bakı-2010
3. A.Cəfərov “Mühasibat uçotu”, Bakı-2011
4. V.Quliyev, A.Kərimov, R.Fətullayev. “Beynəlxalq uçot və hesabata giriş (GAAP və IFRS əsasında)”, Bakı 2012;
5. Q.R.Rzayev "Beynəlxalq mühasibat uçotu və audit". Bakı, 2000-ci il
6. M.T.İmanova “Mühasibat uçotunda interaktivlik”, Naxçıvan, 2014, 175 s.
7. S.M.Səbzəliyev, S.M.Süleymanov, E.O.Cəfərov «Kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tətbiqinə dair tədris-metodik vəsait» Bakı 2010;
8. S.M.Səbzəliyev, S.M.Süleymanov, N.M.İsmayılov və b. MHBS və MMUS əsasında «Maliyyə hesabatlarının formalaşması prinsipləri» Dərs vəsaiti. Bakı 2010.
9. S.M.Səbzəliyev, S.M.Süleymanov, N.M.İsmayılov «Milli və beynəlxalq mühasibat uçotu praktikasında tətbiq edilən Hesablar Planı və onların xarakterik xüsusiyyətləri» adlı tədris-metodik vəsait. Bakı 2010
10. R.Fətullayev, F.Abbaslı. “Maliyyə uçotu və vergilər”, I nəşr, Dünya Bankı və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Korporativ və Büdcə Sektorunda Hesabatlılıq” layihəsi çərçivəsində “Gtg” nəşriyyatının buraxdığı “Maliyyə uçotu (F3)” kitabı əsasında, Bakı, «Nexia EA MMC», 2013.

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimov1949@gmail.com*

# BƏŞƏRİYYƏTİN QLOBAL PROBLEMLƏRİNDƏN BİRİ ƏRZAQLA TƏMİNATDIR

**Xülasə**

*Tədqiqatda dünyada qlobal tendensiyaların artması və onların təsir dairəsinin genişlənməsi ilə əlaqədar olaraq, ərzaq təhlükəsizliyi problemləri və ərzaq əlçatanlığı istiqamətində beynəlxalq əməkdaşlıq prosesləri araşdırılmışdır.*

**Açar sözlər:** *Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı(FAO), dünya ərzaq bazarı, ərzaq məhsullarının istehsalı, ərzaq təhlükəsizliyi problemləri, beynəlxalq əməkdaşlıq*

Dünya çoxsaylı təhlükəsizlik problemləri ilə-enerji, ərzaq, yoxsulluq, işsizlik, nəqliyyat, ekoloji, demokrafik və s. problemlərlə qarşılaşmışdır. Bu problemlər dünya ölkələri inkişaf etdikcə daha kəskin xarakter almış, ayrı-ayrı ölkələrin hüdudlarından çıxaraq ümumbəşəri problemə çevrilmişdir. Son 50 il ərzində dünya ərzaq bazarında inqilabi dəyişikliklər baş vermiş, ölkələr və beynəlxalq təşkilatlar səviyyəsində yeni mexanizmlər yaradılmış və tətbiq olunmuşdur. Belə ki, 1950-ci illərdə ərzaq əlçatanlığı əsasən istehsal və istehlak anlayışları baxımından ölçülürdü və bir çox amillər nəzərə alınmırdı. Amma, zaman keçdikcə bu istiqamətdə ölkələrin əməkdaşlığı, beynəlxalq səviyyədə məsləhətləşmələr və təşkilatlanmalar nəticəsində bu istiqamətdə daha optimal və obyektiv yanaşmaların axtarışları intensivləşmişdir. 1990-cı illərin sonlarında aydın olmuşdur ki, dünyada ərzaq istehsalının və istehlakının balanslaşdırılması hesabına,
ərzaq əlçatanlığını səmərəli təmin etmək potensialı kifayət deyildir. Bu baxımdan, dünyada istehsal və istehlakın məhdud müqayisəsindən başqa digər amillərin, o cümlədən, maddi imkanı və gəlirləri xeyli aşağı olan, yoxsul şəraitdə yaşayan insanların mühüm ərzaq məhsulları ilə təmin edilməsi və qidalanması problemlərinin həll olunması kompleks, eyni zamanda sistemli yanaşmanı şərtləndirir, dövlətin bu sahədə optimal iqtisadi siyasətini tələb edir və ardıcıl şəkildə təsirli tədbirlərin görülməsinin vacibliyini ortaya çıxarır. Dünyada yoxsulluq içində yaşayanlar hələ də milyonlarladır və bu baxımdan insanların normal qidalanması problemləri, həmçinin keyfiyyətli içməli su ilə təmin olunması məsələləri uzunmüddətli dövr üçün baxılmalı və həll olunmalıdır. Əhali müvafiq tələblərə uyğun səhiyyə xidməti ilə əhatə olunmalı və minimum olaraq ibtidai təhsil pilləsini keçməli, orta təhsil almalı, elementar biliklərə yiyələnməli, peşə bilikləri əldə etməli, işlə təmin olunmalı və maddi təminatlarını ödəmək üçün gəlir əldə etmək imkanına malik olmalıdırlar. Dünyada qlobal tendensiyaların artması və onların təsir dairəsinin genişlənməsi ilə əlaqədar olaraq, XX əsrin 70-ci illərindən başlayaraq ərzaq təhlükəsizliyi problemləri və ərzaq əlçatanlığı istiqamətində beynəlxalq əməkdaşlıq prosesləri nisbətən intensiv fazaya keçmişdir. Xüsusilə, 1974-cü ildə keçirilən Dünya Ərzaq Konfransında bu qeyd olunan problemlər üzrə ciddi diskussiyalar aparılmış və müzakirələr təşkil olunmuşdur.

Bunun nəticəsi olaraq, sonrakı illərdə dünyada mühüm ərzaq məhsullarının istehsalı, bölüşdürülməsi və istehlakçılara çatdırılması, yoxsulluğun, işsizliyin səviyyəsinin azaldılması, kasıbçılıq şəraitində yaşayan əhali təbəqəsinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, ərzaq əlçatanlığının təmin edilməsi məqsədilə ardıcıl tədbirlərin görülməsinə nail olunmuşdur. Amma, bu uzun çəkməmişdir. Belə ki, 1970-1980-ci illərdə dünyada bir çox böhran xarakterli hadisələr baş vermişdir. Xüsusilə, neft böhranının təsiri nəticəsində dünya ölkələrində enerjidaşıyıcılarla təminatda problemlər yaranmış, ərzaq istehsalının genişləndirilməsi proqramlarının əhəmiyyətli hissəsi yarımçıq qalmış və ya zəif templə həyata keçirilmiş, dünya ölkələrinin bu istiqamətdə daha səmərəli əməkdaşlığında çətinliklər ortaya çıxmışdır.

Ümumilikdə, həmin dövrdə dünya iqtisadiyyatında tənəzzül prosesləri güclənmişdi və iqtisadi artım əhəmiyyətli səviyyədə azalmışdı. Bu baxımdan, dünya ölkələri daha optimal və strateji inkişaf istiqamətləri və mexanizmlərinin axtarışında fəallaşmağa

məcbur oldular. Bunlarla əlaqədar olaraq, dünyada Minilliyin İnkişaf Hədəflərinin, daha sonra Davamlı İnkişaf Hədəflərinin hazırlanaraq qəbul edilməsi dünyada mühüm ərzaq məhsulları üzrə problemlərin həllində və ərzaq əlçatanlığının təmin olunmasında tarixi rol oynamışdı.

Dünya ölkələri və beynəlxalq səviyyədə belə bir fikir mütləq şəkildə formalaşdı ki, dünyanın ərzaq əlçatanlığına ciddi ehtiyacı vardır və bununla əlaqədar olaraq, kənd təsərrüfatı sahələrinin hərtərəfli inkişaf etdirilməsi, bu sahədə məhsuldarlığın artırılması vacib şərtlərdəndir. Dünya əhalisi artmağa davam etdikcə kənd təsərrüfatı istehsalını davamlı şəkildə artırmaq, qlobal təchizat zəncirini təkmilləşdirmək, ərzaq itkisi və israfçılığını azaltmaq, aclıqdan, yetərincə qidalanmamaqdan əziyyət çəkən insanların bu sahədəki problemlərinin sistemli şəkildə həllinə nail olmaq vacibdir. Beynəlxalq səviyyədə gücləndirilən əməkdaşlıq münasibətləri belə bir zəmin formalaşdırmışdır ki, dünya ölkələrinin birgə səyi ilə ərzaq təhlükəsizliyi problemlərinin aradan qaldırılmasında və dünya əhalisinin ərzaq əlçatanlığının təmin olunmasında daha yüksək nəticələr əldə etmək mümkündür.

Minilliyin İnkişaf Hədəflərində 2015-ci ildən sonrakı dövrlərdə- yaxın və uzaq perspektivlərdə ərzaq əlçatanlığının təmin edilməsi ilə bağlı aydın və dəqiq strateji hədəflərin olması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Dünyada iqtisadi inkişaf tendensiyaları və xüsusiyyətləri nəzərə alınmaqla, ərzaq əlçatarlığının kompleks və sistemli şəkildə baxılması və həll edilməsi istiqamətində dünya ölkələrinin səylərinin birləşdirilməsi vacib məsələlərdəndir. Belə olduğu təqdirdə, müəyyənləşdirilmiş ərzaq əlçatanlığı hədəflərinə çatmaqda daha yaxşı nəticələrin əldə edilməsini gözləmək mümkündür.

Ümumilikdə, Birləşmiş Millətlərin Minillik Bəyannaməsində müəyyənləşdirilən səkkiz strateji hədəf 2000-ci ilin sentyabr ayında dünya ölkələrinin liderləri tərəfindən yekdilliklə imzalanmışdır.

Minilliyin İnkişaf Hədəfləri çərçivəsində dünya ölkələri qlobal təsirlərin güclənməsi ilə əlaqədar olaraq, insanların həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluq, aclıq, xəstəlik, savadsızlıq, ətraf mühitin pisləşməsi və qadınlara qarşı ayrı-seçkiliklə bağlı problemlər üzrə mübarizə aparmağa, birgə əməkdaşlığın gücləndirilməsinə söz vermişlər. Strateji hədəfi ərzaq əlçatanlığı olan ilk Minilliyin İnkişaf Hədəflərinin 1990-2015-ci illərdə nisbətən uğurlu şəkildə reallaşdırılması nəticəsində, aclıqdan əziyyət çəkmiş insanların sayının yarıbayarı azaldılmasını böyük nailiyyət kimi qiymətləndirmək mümkündür. Yoxsulluq səviyyəsinin, gündəlik qazancları kifayət qədər aşağı olan insanların sayının azaldılması bu istiqamətdə əsas hədəflər kimi qarşıya qoyulmuşdur.

Bunlarla əlaqədar olaraq, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ifrat yoxsulluğun aradan qaldırılması və ərzaq əlçatanlığının keyfiyyətinin artırılması üçün dünya ölkələrinin və beynəlxalq təşkilatların birgə əməkdaşlıq fəaliyyətinin əhəmiyyətli səviyyədə gücləndirilməsini vacib saymışdır. Bu Təşkilatın hesablamalarına görə 2014 - 2016-cı illərdə aclıqdan əziyyət çəkən insanların sayı 793 milyon nəfərə çatmışdır.

Bununla bağlı, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, əhalinin mühüm qida növləri ilə təminat səviyyəsinin yaxşılaşdırılması məsələlərinə daha ciddi önəm verilməlidir. Əhalinin bütün təbəqələrinin maddi və real imkanlarından çıxış etməklə, ərzaq əlçatanlığının daha optimal mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsi prosesləri sürətləndirilməlidir.

Bunlar isə öz növbəsində, dünya səviyyəsində ifrat yoxsulluğun azaldılmasına imkan verəcək, qlobal təsirlərin artması fonunda işsizlik və yoxsulluğun səviyyəsinin tənzimlənməsini sürətləndirəcək və son nəticədə ərzaq əlçatanlığının təminatı üçün yeni imkanlar formalaşdırılacaqdır.

Beynəlxalq təşkilatlarla və dünya ölkələri ilə səmərəli əməkdaşlıqda kifayət qədər maraqlı olan Azərbaycan Respublikası 20 oktyabr 1995-ci il tarixindən FAO təşkilatının üzvü olmaqla və bu təşkilatla kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi istiqamətində geniş həcmli işlər aparır. Azərbaycan Respublikası ölkədə davamlı və dayanıqlı inkişafın təmin edilməsi, milli iqtisadiyyatın inkişafının daha optimal modelləşdirilməsi, yoxsulluq və işsizlik səviyyəsinin

azaldılması, əhalinin gəlirlərinin artırılması və rifahının yaxşılaşdırılması istiqamətində Minilliyin İnkişaf Hədəflərindəki iştirakı ilə balanslı və sosialyönlü iqtisadi siyasət aparır. Azərbaycan rəhbərliyi və hökuməti ölkənin davamlı və dayanıqlı inkişaf təmayüllərinin daha da gücləndirilməsi üçün səylərini daim artırmaqdadır. Davamlı İnkişaf Məqsədlərində nəzərdə tutulan həm də bir-birini tamamlayan məqsədlərin və strateji hədəflərin reallaşdırılması istiqamətində qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatı sahələrinin və aqrosənaye kompleksinin inkişafı strateji hədəflər səviyyəsində kompleks tədbirlər görülməkdədir.

## ƏDƏBİYYAT

1. Eldar Quliyev- Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı - 2018. “Kooperasiya” nəşriyyatı, 480 s.

2. ‘Global Strategic Framework for Food Security and Nutrition’ 39th Session, 15-20 October, FAO, Rome. ‘Technical Background Paper: Measuring Food Insecurity: Meaningful Concepts and Indicators for Evidence-based Policy Making’ Round Table on Monitoring Food Security, FAO, Rome,2011.

**SƏXAVƏT HEYDƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCANDA QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ƏRZAQ BAZARININ İNKİŞAF DİNAMİKASI

## XÜLASƏ

*Elmi məqalədə Azərbaycanda qloballaşma şəraitində ərzaq bazarının inkişafının hüquqi normativ aktlarının qəbul edilməsi, eyni zamanda ölkə əhalisinin ərzaqla təmin edilməsi istiqamətində sistemli tədbirlərin aparılması geniş şərh edilmişdir.*

**Açar sözlər**: *ərzaq bazarı, aqrar əmtəə, kənd təsərrüfatı, qida təhlükəsizliyi, regional inkişaf*

Digər postsovet məkanı ölkələrində olduğu kimi Azərbaycanda da ölkə əhalisinin ərzaq təminatının yaxşılaşdırılması əsas prioritet məsələlərindəndir. Müvafiq problemin həlli hər bir dövlətin maraqlarına uyğundur. Azərbaycanda ərzaq təminatının yüksəldilməsi və vətəndaşların ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə son illər davamlı tədbirlər həyata keçirilmişdir. Ölkənin ərzaq müstəqilliyinin qorunub saxlanılması istiqamətində bir sıra hüquqi normativ aktlar qəbul olunmuşdur. Onlara ölkə prezidentinin 02.03.2001-ci ildə təsdiq etdiyi "Ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramı", 25.08.2008-ci il tarixli "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Qida Təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu (2018), Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019 - 2025-ci illər üçün Dövlət Proqramı (2019) və s. aiddir [1, 25].

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (2018) qeyd edilən sahənin inkişafında mühüm rol oynamışdır. Strateji Yol Xəritəsində Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun yüksək rəqabətqabiliyyətinə və dayanıqlı inkişafına nail olmaq üçün mühüm strateji məqsədlər nəzərdə tutulmuşdur [1, 25].

Əsasən rəqabət üstünlüyü olan aqrar və ərzaq məhsullarının regional və sahəvi inkişafı, bu məhsulların istehsalçılarının istehsal vasitələrinə, informasiya-məsləhət xidmətinə, müxtəlif bazarlara çıxışının asanlaşdırılması, aqrar sahədə fermer tərəfdaşlığının təşəkkülü və inkişaf etdirilməsi, aqrobiznesin və məhsul emalının davamlı inkişaf etdirilməsi, aqrar sahədə elm və təhsilin keyfiyyətinin yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşdırılması, həmçinin ətraf mühitin səmərəli qorunması, mövcud resursların mühafizə edilməsi məqsədilə, iqlim dəyişikliklərinə uyğunlaşan kənd təsərrüfatının inkişafı, həmçinin su və torpaqdan istifadənin səmərəliliyinin yüksəldilməsi üçün innovativ texnologiyaların tətbiqi yolu ilə aqrar sahədə davamlı irəliləyişin təmin olunması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [1,4].

Nəzərdə tutulan məqsədlərlə yanaşı, nəzərdə tutulmuş strateji hədəflərdə də milli ərzaq təhlükəsizliyinin dayanıqlılığının və bununla yanaşı, ölkə əhalisinin ərzağa əlyetərliyi təmin edilməsi istiqamətində sistematik tədbirlərin aparılması planlaşdırılmışdır. Onlara bunlar aiddir:

- Azərbaycan Respublikasında Ərzaq Təhlükəsizliyi üzrə müvafiq Komissiyanın məqsədyönlü şəkildə təşkil olunması imkanlarının dəyərləndirilməsi;
- Mövcud şəraiti və potensial durumu nəzərə almaqla, ölkə əhalisinin ərzaq məhsulları ilə təmin olunmasının davamlılığı baxımından baş verə biləcək risk hallarının düzgün təhlili və dəyərləndirilməsi üçün, ardıcıl yoxlama - monitorinq tədbirlərinin həyata keçirilməsi;
- Daha məntiqli və rasional fizioloji normaların tərtib və təsdiq edilməsi, eyni zamanda buna uyğun olaraq, əhalinin zəruri ərzaq məhsulları üzrə həm cari, həm də perspektiv tələbatının mövcud

həcm və ödəniş səviyyəsinin davamlı şəkildə təhlil edilərək, qiymətləndirilmə sisteminin təşkil edilməsi

- Ərzaq təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyəti prosesində təkrarçılıq hallarının aradan qaldırılması yolu ilə daha səmərəli və etibarlı tənzimləmə sisteminin formalaşdırılması və s [1, 25].

Ölkəmizin təbii-iqlim şəraiti baxımından ərzaq təminatını həyata keçirən sahələr əsasən regionlar üzrə ixtisaslaşmışdır. Ona görə də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə regionlarda ərzaq təminatının yüksəldilməsi, kənd təsərrüfatının sahə strukturunun təkmilləşdirilməsi məqsədəuyğun hesab olunur.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" strateji baxımdan çox əhəmiyyətli olmuşdur [1, 25]. Bu proqramın əsas məqsədi dünya ərzaq bazarlarında olan qeyri-sabitliyin Azərbaycanda ərzaq məhsullarının qiymətlərinə təsirinin azaltmaq, ölkənin ərzaq məhsullarının qiymətlərinin yüksəldilməsinin qarşısını almaq, daxili ərzaq bazarının idxaldan asılılığını aradan qaldırmaqdır [1, 25].

Həyata keçirilmiş proqramın əsas məqsədi ölkə vətəndaşlarının sağlam və məhsuldar həyat tərzi üçün qəbul olunmuş normalara uyğun ərzaq məhsulları ilə təmin etmək olmuşdur. Müvafiq dövlət proqramında aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- ölkədə tədiyyə balansında müsbət saldoya malik olmaq, bu məqsədlə beynəlxalq və xarici ticarət dövriyyəsini inkişaf etdirmək;
- regionlarda ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək;
- vətəndaşları təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmə səviyyəsini yüksəltmək;
- regionlarda ərzaq məhsulları istehsalını artırmaq və s.

Müasir bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinin zərərlə işləməsi, o cümlədən, onlar tərəfindən ərzaq bazarında məhsul satışının səmərəli təşkil olunmasının bir sıra səbəbləri vardır. Onlardan da ən mühümü bazar infrastrukturlarının tam gücü ilə fəaliyyətinin təmin olunmasıdır. Nəzərə almaq lazımdır ki, bazar infrastrukturunun fəaliyyətinin düzgün təşkil olunması istehlakçının və istehsalçının maraqlarına ciddi təsir etmək imkanlarına malikdir. Bu zaman istehsalçı ərzaq bazarında baş verən dəyişikliklər haqqında düzgün məlumatlanmır. Nəticədə ərzaq bazar konyunkturasında istehsalçı təzə baş verən dəyişikliklərə səmərəli reaksiya verə bilmir. İstehlakçıların özləri belə bu prosesdən narazı qalırlar. Onların əsas narazılıqları ərzaq bazarıyla birbaşa əlaqələrinin olmamasıdır. Bunun da əsas səbəbi istehsalçılar və istehlakçılar arasında çoxsaylı aralıq şəbəkələrin olmasıdır. Bu zaman istehsalçı və istehlakçı arasında aralıq şəbəkə gəlirlərin 40-70%-ni mənimsəyə bilirlər. Nəticədə istehsalçı və istehlakçı ərzaq bazarında bu prosesdən zərər çəkirlər [5].

Araşdırmalar göstərir ki, son illər ərzaq məhsulları bazarında aqrar əmtəə istehsalçılarının fəaliyyətində yaranmış problemlər bu sahədə institutsional bazanın geniş şəkildə inkişaf etməməsi ilə bağlıdır. Ərzaq bazarında institutsional bazasının formalaşmasına mane olan amillər müxtəlifdir [1]. Onlara aqrar-ərzaq kompleksində ərzaq resursları fondunun yaradılmamasını, ərzaq fondu vasitəsilə ərzaq bazarlarında baş verən mənfi halların aradan qaldırılması istiqamətində effektiv tədbirlərin həyata keçirilməsi, ərzaq bazarının tənzimlənməsində iqtisadi metodlardan düzgün istifadə olunmaması kimi amilləri göstərmək mümkündür. İnkişaf etmiş Avropa ölkələrinin ərzaq bazarında əsasən istehsalçı tərəf kimi ailə və fermer təsərrüfatları, eləcə də mülkiyyət növlərində asılı olmayaraq digər subyektlər iştirak edirlər [2, 6].

Əksər postsovet məkanı ölkələrində (o cümlədən, Azərbaycanda) islahatların ilkin mərhələlərində fermer təsərrüfatlarının payı yüksək olmamışdır. Transformasiya proseslərinin sonrakı dövrlərində mülkiyyət və torpağın özəlləşdirilməsi nəticəsində aqrar sahə üzrə yeni sahibkarlıq qurumlarının payı artmağa başladı. Nəticədə ərzaq bazarında yeni məhsul istehsalçı şəbəkəsi formalaşmağa başladı [2].

Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə ərzaq bazarları üzrə bazar infrastrukturunun formalaşması prosesi uzun dövrlər ərzində davam etmişdir. Nəticədə ərzaq bazarında təkmil bazar infrastrukturları təşəkkül tapmışıdır. Eyni zamanda ərzaq bazarında əmtəələrin hərəkətliliyi təkmil

xarakterli olmuş, istehsalçılar, emalçılar və istehlakçılar arasında şaquli və üfüqi inteqrasiya münasibətləri yaranmışdır. İnkişaf etmiş Avropa ölkələrində ilkin mərhələlərdə ərzaq məhsulları bazarında topdan satış strukturlarının sahə və regional inhisarlaşma prosesləri müşahidə olunmuşdur. Qeyd olunan proseslərin bəzi çatışmamazlıqları da mövcud olmuşdur. Məsələn; inhisarlaşma prosesi nəticəsində ərzaq bazarında qiymətlərin səviyyəsi artmışdır. Ərzaq bazarında inhisar qiymətlərinin mövcud olması, istehlakçıların yüksək gəlir əldə etməsinə mane olmuşdur. Tədricən dövlətin ərzaq bazarlarının fəaliyyəti nəticəsində ərzaq bazarlarında rəqabət mühiti güclənmiş, inhisarçıların fəaliyyəti zəiflənmişdir.

**Cədvəl 2.1**

**Azərbaycan Respublikasnda kənd təsərrüfatı müəssisələri fəaliyyətinin maliyyə nəticələri**

| **İllər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı, vahid | 1669 | 1701 | 1659 | 1592 | 1608 |
| Ümumi gəlir (faktiki qiymətlərlə), min manat | 91903 | 102723 | 84990 | 119130 | 115025 |
| Xalis mənfəət, min manat | 52283 | 59028 | 39736 | 75426 | 62815 |

Azərbaycan Respublikası üzrə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələrinin təhlili onu göstərir ki, 2016-cı illə müqayisədə 2017-ci ildə aqrar sahə üzrə təsərrüfatların sayı 1% artaraq 1608 vahid olmuşdur [3, 21]. 2013-cü ildə kənd təsərrüfatı müəssisələrində 91903 min manat ümumi gəlir, xalis mənfəət isə 52283 min manat olmuşdursa, 2017-ci ildə bu göstərici müvafiq olaraq artaraq 115025 min manat və 62815 min manat təşkil etmişdir (Cədvəl 2.1).

**Cədvəl 2.2**

**Milli ərzaq bazarında təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətlərlə, mln. manat)**

| **İllər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Bütün təsərrüfat kateqoriyaları | 5244,6 | 5225,8 | 5635,3 | 5632,4 | 6580,0 |
| Bitkiçilik | 2615 | 2776,4 | 2874,2 | 2577,2 | 3019,0 |
| Heyvandarlıq | 2615 | 2776 | 2874,2 | 3055,2 | 3561,0 |

Azərbaycan Respublikasında son illərin təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu üzrə göstəricilərin təhlili göstərir ki, ölkənin ümumi ərzaq bazarı üzrə 2013-cü ildə 5244,6 min manat ümumi məhsul istehsalı həyata keçirilmişdirsə, 2016-ci ildə bu göstərici artaraq 5632,4 min manat olmuşdur [2, 21]. 2017-ci ildə əvvəlki illə müqayisədə bu göstərici 16% artaraq 6580 min manat olmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ildə bitkiçilik sahəsi üzrə istehsal olunmuş ümumi məhsulun həcmi əvvəlki illə müqayisədə artaraq 3019,0 min manat, heyvandarlıq sahəsi üzrə isə 3561,0 min manat olmuşdur (Cədvəl 2.2 və Şəkil 2.1)




**Şəkil 2.1**

**Milli ərzaq bazarında təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətlərlə, mln. manat)**

Aparılmış təhlillər onu göstərir ki, müvafiq proseslər ərzaq bazarına dövlətin təşkilati-institutsional müdaxiləsi nəticəsində bir sıra müsbət nəticələr əldə olunmuşdur. Onlara ölkə regionları üzrə topdansatış bazarlarında inhisarlaşmanın aradan qaldırılması, yeni bazar infrastrukturlarının yaradılması, alternativ emal müəssisələrinin və tədarük infrastrukturlarının formalaşmasını göstərmək mümkündür [1, 6]. Avropa ölkələrində ərzaq bazarının tənzimlənməsi istiqamətində aparılan tədbirlər nəticəsində ərzaq bazarında qiymətlərin səviyyəsi stabil vəziyyətə gəlmişdir. Avropa Birliyi ölkələrində ərzaq bazarları üzrə dövlətin icra etdiyi əsas vəzifələrdən biri onun sərbəst bazar agenti çıxış etməsidir. Bundan başqa dövlət digər infrastruktur sisteminin inkişafına da əlverişli şərait yaratmışdır [3].

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş normativə görə minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak həcmi əmək qabiliyyətli yaşadək əhali, əmək qabiliyyətli yaşda əhali, əmək qabiliyyətli yaşdan yuxarı əhali, orta hesabla bütün əhalinin hər nəfəri üçün fərqlidir. Məsələn, çörək və çörək məhsullarının (una çevirməklə) əmək qabiliyyətli yaşadək əhali üçün illik istehlak həcmi 100,5 kq., əmək qabiliyyətli yaşda əhali üçün 136,8 kq., əmək qabiliyyətli yaşdan yuxarı əhali üçün 107,9 kq., orta hesabla bütün əhalinin hər nəfəri üçün isə 126,2 kq, təşkil etmişdir [4, 21]. Ümumiyyətlə, ölkəmizin orta hesabla bütün əhalinin hər nəfəri üçün istehlak normativ kartof məhsulları üzrə 50,7 kq., tərəvəz və bostan məhsulları üzrə 97,0 kq., meyvə və giləmeyvə 46,0 kq., ət və ət məhsulları 31,5 kq, süd və süd məhsulları (südə çevirməklə) 232,3 kq., balıq və balıq məhsulları 7,7 kq., yumurta 153 ədəd, şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə) 17,4 kq., bitki yağları, marqarin və digər piylər 9,8 kq, kərə yağı 6,7 kq. təşkil edir (Cədvəl 2.3).

## ƏDƏBİYYAT


1. Quliyev E. Aqrar iqtisadiyyat (dərslik), Bakı.: Kooperasiya nəşr., 2015, 250 s.
2. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri, Bakı: Elm, 2002,254 s.
3. Z.Ə.Səmədzadə Dünya iqtisadiyyatının iqtisadi məcmuəsi, Bakı Gənclik 2001, 317 səh.
4. T.A.Abbasov, Mühasibat uçotunun Beynəlxalq və Milli Standartlarının əsaslı, Dərs vəsaiti, Bakı 2010, 524 səh.
5. T.A.Abbasov Büdcədən maliyyələşən təşkilatlarla mun. və hesabatlı, Dərs vəsaiti (CAAP və İRFS əsasında)

**İRADƏ BAĞIROVA**
*Naxçıvan Dövlət Universiteti*
*iradebagirova@yahoo.com*

# MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA TURİZM SEKTORUNUN ROLU VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Məqalədə Azərbaycanın milli iqtisadiyyatının inkişafında xüsusi yeri olan və xidmət sahələri içərisində ən çox gəlir gətirən sahələrdən biri olan turizm fəaliyyətinin son on beş ildə keçdiyi inkişaf yolu və əldə etdiyi uğurlar geniş şəkildə təhlil edilərək araşdırılmışdır.*

*Burada həmçinin, qəbul olunan Dövlət Proqramlarının icrası zamanı turizm sektorunun inkişaf mərhələləri də təhlil edilmişdir.*

**Açar sözlər**: *milli iqtisadiyyat, milli mənafelər, daxili turizm, turizm bazarı, Dövlət Proqramları, investisiya.*

Azərbaycanın sürətli iqtisadi inkişafında sahibkarlığın rolu böyükdür. Ölkə iqtisadiyyatına hər il yatırılan investisiyaların artım həcmi onu deməyə əsas verir ki, neft sektoru ilə yanaşı qeyri-neft sektoru da sürətlə inkişaf edir. Son illərdə ölkə iqtisadiyyatına yatırılan investisiyaların əksəriyyətini özəl sektorlar tərəfindən qoyulan daxili investisiyalar təşkil etmişdir. Bu həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artmış, özəl sektor ölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnmişdir.

Azərbaycan xalqının Ümummillin lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş məqsədyönlü siyasət ölkədə sərbəst bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan milli iqtisadiyyatın formalaşmasına yol açmış, sosial-iqtisadi sabitliyi və dinamik inkişafı təmin etmişdir. Bununla yanaşı, son on beş ildə sahibkarlığın inkişafının dəstəklənməsi üzrə kompleks siyasət tədbirlərinin, o cümlədən konkret dövrlər üçün qəbul edilən dövlət proqramlarının həyata keçirilməsi və işgüzar mühitin yaxşılaşdırılması istiqamətində məqsədyönlü, ardıcıl və sistemli iş təşkil olunmuşdur. Bazar iqtisadiyyatı yolu ilə dinamik inkişaf edən respublikamızda dövlət-sahibkar münasibətlərinin ayrıca təşkilat halında tənzimlənməsi sahibkarlığın davamlı inkişafının təminatı baxımından son dərəcə mühüm əhəmiyyət daşıdığından Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidentinin Yanında Sahibkarlar Şurası yaradılmış və dövlət-sahibkar münasibətləri institusionallaşdırılmışdır.

Sahibkarlıq fəaliyyətinin daha da stimullaşdırılması və günün tələblərinə uyğunlaşdırılması baxımından ölkəmizdə həyata keçirilən səmərəli tədbirlər bu gün də uğurla davam etdirilir.

Sahibkarlıq fəaliyyətinin dövlət səviyyəsində dəstəklənməsi və bu kateqoriyada olan biznesmenlərin milli iqtisadiyyatın müxtəlif sahələrində istehsal, emal, tikinti, turizm və digər xidmət sahələrinin yaradılması, yeni iş yerlərinin açılması istiqamətində gördükləri işlər müstəsna əhəmiyyət kəsb edir. Ölkədə həyata keçirilmiş genişmiqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlıq təbəqəsi formalaşmış ümumi daxili məhsulda (ÜDM-də) özəl bölmənin payı 80%-ə çatmış, sahibkarlıq fəaliyyəti milli iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamağa başlamışdır.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatının mühüm tərkib hissəsi sayılan sahibkarlıq, o cümlədən turizm sahəsi üzrə biznesdə də əksini tapmaqla xidmət bazarında rəqabət mühitinin yaranmasına əhəmiyyətli dərəcədə səbəb olmuşdur. Dünya təcrübəsində turizm sahəsi üzrə biznes iqtisadi tempinə, ümumi daxili məhsulun strukturuna və keyfiyyətinə təsir göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin hələ 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə turizm sənayesinin inkişaf uğurları barədə demişdir: "Biz ölkəmizin turizm imkanlarını daha da geniş şəkildə təbliğ etməliyik. Çünki bizim gözəl təbiətimiz var, istənilən turizm növü Azərbaycanda mövcuddur. Gözəl sahillər, Xəzər dənizi, dağlar, meşələr, xizək turizmi. Artıq infrastruktur da var. Aeroportlar, magistral yollar və bütün bölgələrdə beşulduzlu gözəl hotellər yaradılır". Ölkə başçısının 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxış edərək qeyd etmişdir: "Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu gün Bakı parklar, güllər şəhəridir". Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi Bakı və Azərbaycanın bütün regionları müasir standartlara cavab verən inkişaf etmiş turizm sənayesinə çevrilmişdir.

Qeyd edək ki, turizm sahəsinin inkişafında təbii ki, əsas rollardan biri böyük həcmli investisiyalar hesabına ölkədə inşa edilən, yüksək standartlara cavab verən hotellərdə qonaqlar üçün rahatlığın yaradılması, onların yaxşı istirahət şəraitinin təşkil olunması, nümunəvi xidmət göstərməsidir. Təcrübə göstərir ki, turizm biznesinin inkişaf dinamikası bir çox amillərdən, o cümlədən sahibkarların biznes fəaliyyəti ilə məşğul olmağa hazırlıq səviyyəsindən asılıdır. Belə ki, sahibkarların kifayət qədər peşəkarliq hazırlığı olması turizm biznesinin uğur qazanması ilə nəticələnə bilər.

Turizm sahəsi üzrə biznesdə uğurlu sahibkarların spesifikası biznes fəaliyyəti ilə məşğul olmağa risk edən və öz fəaliyyətinin nəticəsinə görə cavab verməyə hazır olan biznesmenlərin çox cəhətli fəaliyyətindən ibarətdir. Sahibkar eyni zamanda iqtisadçı, marketinq, maliyyəçi, turizm sahəsi üzrə menecer sayılır və adı çəkilən sahələrin hər birini nəzərə almaqla sərbəst qərar qəbul etməyi bacarmalıdır.

Sahibkarlıq fəaliyyətinin Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafında, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin yaxşılaşmasında, xidmətlərin keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli rola malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" mövcud Fərmanlarına əsasən təsdiq olunmuş "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram" larında (2004-2008-ci illər, 2009-2013-cü illər) ölkədə sahibkarlığın inkişaf etdirilməsinə dair nəzərdə tutulan tədbirlər uğurla yerinə yetirilmişdir. ( 3 )

Bununla yanaşı ölkə başçısı 24 fevral 2014-cü il tarixində imzaladığı fərman ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmiş və bu proqramda uğurla icra olunmuşdur. Məlum Dövlət Proqramlarının icrası nəticəsində son on beş ildə ölkənin bütün regionlarında 1 milyon 300 mindən artıq yeni iş yerləri açılmış, yeni istehsal, turizm və digər xidmət sahələri istifadəyə verilmişdir. Aparılan institusional təhlillər göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı sahəsində, xüsusilə də qeyri-neft sektorunda və regionlarda böyük potensial imkanlar daima mövcuddur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xaritəsi" ndə mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də dünya ölkələri arasında cəlbedici turizm məkanlarında birinə çevrilməlidir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan son on beş ildə inkişaf tempini sürətləndirərək, dünyanın aparıcı və inkişafda olan ölkələri sırasında öz mövqeyini möhkəmləndirmiş, mövcud potensial imkanları ilə seçilir. Ötən müddət ərzində əldə olunan nailiyyətlər ölkənin milli maraqlarının zəminində formalaşmış, eləcə də dövlət tərəfindən həyata keçirilən milli strategiya, yürüdülən ictimai, siyasi və mədəni mövqe məhz belə imicin Azərbaycan ətrafında yaranmasına gətirib çıxarmışdır. Azərbaycanın milli iqtisadiyyatının inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılmasını təmin etmişdir. Milli iqtisadiyyatın əsasını təşkil edən neft gəlirlərinin qeyri-neft sektoruna yatırılması sahibkarlıq fəaliyyətinin inkişafı üçün zəmin yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə iqtisadiyyatına neft sektorundan daxil olan

gəlirin bərabərində, eləcə də, ondan daha artıq bir şəkildə gəlir gətirə biləcəyi turizmin inkişafını zəruri hesab etməsi, əlbəttə ki, əsaslı faktora söykənir. Ölkənin mövcud maddi sərvətləri, iqlimin olması Azərbaycanın turizm üçün lazımi şəraitin mövcudluğunu bir daha təsdiqləyir. Qeyd edək ki, qeyri-neft sektorunun yüksəlişi öz növbəsində davamlı iqtisadi inkişafın təmin olunmasını təsdiqləyir. Aparılan araşdırmalar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Hazırda turizm beynəlxalq miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir.

Statistik göstəricilərin təhlili göstərir ki, dünya üzrə ümumi daxili məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür. Göstəricilərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Bununla yanaşı qeyd etmək lazımdır ki, dünya üzrə əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm sahəsində və ya bu sahə ilə bağlı iqtisadiyyatın müxtəlif sektorlarında çalışırlar.

1994-cü ilin sentyabrın 20-də xarici ölkələrin aparıcı şirkətlərinin iştirakı ilə imzalanmış "Əsrin müqaviləsi" ilə Ulu Öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının təməl daşını qoydu. Bu dövrdən başlayaraq ölkənin bütün sahələrində iqtisadi, siyasi, hüquqi islahatların aparılması və dövlətçilik mədəniyyətinin formalaşdırılması sahəsində mühüm proqramların icrasına başlanıldı.

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilmişdir. Bu dövrdə Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf etməyə başladı. Və turizm sahibkarlıq fəaliyyəti regionlarda da geniş vüsət aldı. Statistik göstəricilərə diqqət yetirsək görərik ki, 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı əgər 94 idisə, 2015-ci ildə onların sayı 5,7 dəfə artaraq 536-ya çatmışdır [9 səh. 314]. Qeyd olunduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci illər) təsdiq edilməsi barədə fərmanları turizmin hərtərəfli tərəqqisi üçün möhkəm zəmin yaratdı [3]. Kompleks yeniləşmə xarakter daşıyan bu fərmanlar turizmin tərəqqisi ilə respublikanın regionlarının inkişafı səviyyəsində böyük canlanma yaratdı.

2017-ci ilin aprel ayında "AİTF-2017" 16 –cı Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi" Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilmişdir. Qeyd edək ki, bu sərginin əhəmiyyəti və burada iştirak edən ölkə və şirkətlərinin sayı ildən-ilə artmaqdadır. Əgər 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdırsa, 2017-ci ildə 22 ölkəni təmsil edən 272 şirkət tədbirdə iştirak etmişdir. Bu ölkələrdən gələn 371 şirkət sərgidə ümumilikdə 90-dan çox turizm istiqamətini təqdim etmişdir. Əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti olan Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyada tanınır. Və bu gün ölkəmiz geniş turizm potensialına malik ölkələr sırasındadır. Azərbaycanın zəngin turizm potensialını dünyaya tanıtmasında mühüm rolu olan 2009-cu ildə yaranmış Azərbaycan Turizm Assosiasiyası 100-dən çox turizm şirkətini və 100-dən çox mehmanxana kompleksini özündə birləşdirir.

Son illərin nəticəsi göstərir ki, Azərbaycanın turizm sektoru bütövlükdə, yüksəliş dövrünü yaşayır. 2010-2015-ci illər ərzində Azərbaycanda turizm müəssisələrinin sayında ortalama ildə 4,5 faiz, turizm sahəsində məşğulluq səviyyəsində ilə 6,0 faiz, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 8,5 faiz artım müşahidə edilmişdir. Dünya Səyahət və Turizm Şurasının məlumatına əsasən, Azərbaycanda turizm sektoru birbaşa ümumdaxili məhsulun (ÜDM-in) 2,8 faizini, məşğulluğun isə 2,6 faizini təşkil edir ki, bu da dünyada orta hesabla 3 faiz birbaşa ÜDM və 3,6 faiz məşğulluq göstəricilərindən cüzi fərqlənir. Bu isə gələcək inkişaf potensialından xəbər verir. [5 səh.12]

Aparılan tədqiqatlar onu göstərir ki, artıq Azərbaycanın turizm bazarında böyük nailiyyətlər əldə olunmuşdu. Qeyd etmək lazımdır ki, ölkəmizdə mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi, Azərbaycanın milli-tarixi mədəni və mənəvi irsinin, milli adət-ənənələrini dünyada təbliği, ayrı-

ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr edilərək yayılmasının təmin edilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi vacib şərtlər hesab olunur.

Yeni Dövlət Proqramına uyğun olaraq 2015-2018-ci illər üzrə turizm fəaliyyəti və onun inkişafının əsas istiqamətləri müəyyənləşdirilmiş və qeyd olunur ki, turizm ehtiyatlarının genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması sanatoriya-kurort sərvətlərinin öyrənilməsi və davamlı istismarı, mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişaf etdirilməsi, prioritet turizm növü kimi mədəni turizm, ekoloji turizm və kənd yaşıl turizm sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi, Azərbaycan xalqının tarixi-mədəni irsini,  ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının genişləndirilməsi qarşıya qoyulan əsas məqsədlər sırasındadır.

Qeyd etmək lazımdır ki, son illərdə xarici ölkələrlə turizm əlaqələrinin qurulması istiqamətində aparılan işlərin miqyası da xeyli genişlənmişdir. İkitərəfli və çoxtərəfli əməkdaşlıq bu sahədə öz müsbət nəticələrini verməkdədir. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq Mədəniyyət və Turizm  Nazirliyi Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq təşkilatlarla turizm sahəsində əməkdaşlığın təşkil edilməsi, mövcud proqramlara qoşulma, beynəlxalq tədbirlərdə fəal iştirakın təmin edilməsi, həmçinin yeni təklif və layihələrin hazırlanması, əməkdaşlığa dair sənədlərin imzalanması istiqamətində fəaliyyətini davam etdirmişdir.

Fikrimizcə, turizm sahibkarlıq fəaliyyəti sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin daha da  təkmilləşdirilməsi, turizm zonalarında müvafiq infrastrukturun yaradılması, ölkənin turizm potensialının genişləndirilməsi, respublikanın bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, bütün maliyyə mənbələri hesabına investisiyaların cəlb edilməsi, turizm xidmətlərinin keyfiyyətinin artırılması məqsədi ilə mütərəqqi üsulların tətbiq edilməsi ilə Azərbaycan turizm bazarında turistlərin cəlbediciliyini daha da artırmaq mümkün olacaq.

Müasir şəraitdə turizm bazarının vəziyyəti və inkişaf tendensiyası bir daha təsdiq edir ki, hər növbəti ildə turizm bazarında turistlərin sayının çoxalması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, hotelçilik xidmətinin yaxşılaşması, ulduz mehmanxanalarının sayının getdikcə artması ilə Azərbaycanın bu xidmət sahəsi dünyada tanınır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu, Baku.1999.
2. Azərbaycan Respublikası Prezidentinin "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı. Bakı, 15 sentyabr 2008.
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramlarının (2004-2008, 2009-2013, 2014-2018-ci illər) təsdiq edilməsi haqqında Fərmanı, Bakı-2004. Bakı-2009, Bakı-2014.
4. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020 gələcəyə baxış İnkişaf Konsepsiyası"nın  təsdiqi barədə 29 dekabr 2012-ci il tarixli Fərmanı.
5. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" Bakı-2016.
6. E.M.Hüseynova. Azərbaycan Respublikasında turizm ehtiyatlarının potensial göstəricilərinin rəqabətliliyinin qiymətləndirilməsi və təhlili. Bakı-2010, 982 s.
7. R.M.Kasumov. Beynəlxalq turizm bazarı: nəzəriyyə və təcrübə, Bakı-2011, 203s.
8. C.B.Namazova. İnvestisiyalar. Dərslik, Bakı-2014,423 s.
9. Azərbaycanın Statistik Göstəriciləri. ADSK. Bakı-2016. 822 s.
10. A.A.Azizov.Предпринимательство в туризме Азербайджана. Баку-2012,307 с.
11. Биржаков М.Б. Введение в туризме. Спб: Герда, 2008.

**BƏHRAM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ VƏ YERLİ İSTEHSAL

## XÜLASƏ

*Dünyada ən ciddi iqtisadi təhlükəsizlik problemlərindən biri ölkənin ərzaq təhlükəsizliyi problemidir.Bu baxımdan ölkəmiz də istisna təşkil etmir və bu sahədə dövlətimiz son illər önəmli işlər görmüşdür. Araşdırmada Azərbaycan Respublikasının aqrar sahədə gördüyü işlər, bu sahədə istehsalın hazırkı vəziyyəti qiymətləndirilərək potensial imkanların üzə çıxarılması imkanları əsaslandırılmışdır.*

**Açar sözlər:** *Ərzaq təhlükəsizliyi, Strateji Yol Xəritəsi, ərzaq balansı, idxal və ixrac, resurs təminatı, aqrar sahə.*

Bildiyimiz kimi dünyada istehsal olunan ərzaq məhsullarının 98,5 faizi zərərli və zəhərli məhsullardır. Dövlətimizin iqtisadi siyasətində bu məsələ əsas götrülərək ərzaq təhlükəsizliyi məsələsinə həssasləqla yanaşılır və bu sahədə qəbul edilmiş dövlət proqramlarında həmin problemin həlli prioritet məsələ kimi qoyulmuşdur.

Son illərdə Azərbaycanın sürətli inkişaf dinamikası aqrar sektorda əldə olunan uğurların timsalında daha qabarıq şəkildə nəzərə çarpır. Bütövlükdə, davamlı və hərtərəfli dövlət dəstəyi sayəsində respublikamızda kənd təsərrüfatında əhəmiyyətli artıma nail olunub. Ərzaq təhlükəsizliyi dövlətin iqtisadi inkişaf konsepsiyasının reallaşdırılmasının mühüm istiqamətlərindən biri olmaqla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının intensiv inkişafını özündə birləşdirir və ərzaq məhsullarının sərbəst təminatına imkan verir.

Dövlətin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissələrindən biri olmaqla bərabər qloballaşma şəraitində dövlətin iqtisadi-siyasi qüdrətini özündə əks etdirir. Dörd əsas amilin ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyəti vardır. Bu amillərə istehsal imkanlarının mövcudluğu, istehsalın həyata keçirilməsi, məhsulun keyfiyyətinin və əhalinin alıcılıq qabiliyyətinin təmin edilməsi aiddir. Dövlət ehtiyyat fondlarının yerli istehsal hesabına yaradılmasının ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi iqtisadi əhəmiyyəti vardır. Odur ki, əsas hədəf olmaqla ehtiyyat ərzaq fondunun yaradılmasının və ondan istifadə olunması poblemlərinin öz həllini tapması, yerli istehsalın artmasında mühüm rol oynayır.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında Strateji Yol Xəritəsinin hazırlanması üzrə müvafiq tapşırıqlar verilmişdir.

Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Strateji Yol Xəritəsinin 2016-2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal

potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsal-çıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir.

Azərbaycanın bitkiçilik və heyvandarlıq məhsulları üzrə ayrıayrılıqda ərzaq balanslarına nəzər salaq. Hal-hazırda respublikamızda dövlət ərzaq ehtiyatlarından bəhs etdikdə yalniz Dövlət Taxıl Fondu haqqında danışmaq mümkündür. Əslində isə istehlak səbətinin əsasını təşkil edən bir çox məhsulların ehtiyatı yaradılmalı və bunun vasıtəsilə ərzaq bazarı süni qiymət artımından qoruna bilər.

Azərbaycan Respublikasında illər üzrə ərzaq balanslarına nəzər salsaq görərik ki, dənli taxıl cəmi idxalda 2003-cü ildə 876,8 min ton olmuşdursada, 2013-cü ildə isə bu göstərici 734,7min ton artaraq, 1611,5 min tona çatmışdır. 2017-ci ildə isə əvvəlki ilə nisbətən azalaraq, 1692,2 min ton olmuşdur. Taxıl balansında 2013-ci ildə ilin əvvəlinə qalıq 1414,3min ton və ilin sonuna qalıq isə 1624 min ton olmaqla 209,7 min ton artıq olmuşdur. 2017-ci ildə isə ilin əvvəlinə qalıq 1163.8 min ton, ilin sonuna qalıq isə 1388.1 min ton olmuşdur.

Dənli-paxlalı bitkilər üzrə isə dənlilərdən fərqli olaraq, ilin əvvəlinə qalıq 2003-cü ildə 5,5 min ton, 2008-ci ildə 6,8, 2013-cü ildə 7,5 min ton, 2017-ci ildə isə 6,9 min ton olmuşdur. Dənli-paxlalı bitkilər üzrə istehsal 2003-cü ildə 17,4, 2017-ci ildə isə 26,3 min ton olmuşdur. Dinamikadan aydın olur ki, keçən müddət ərzində istehsal istiqamətində də artım müşahidə olunur.

İdxala nəzərən 2003-cü ildə 6,2, 2017-ci ildə isə 10.8 min ton olmuşdur. Baxmayaraq ki, istehsal artmış amma idxalda da artım müşahidə olunur. Bu da onu qeyd etməyə əsas verir ki, əhalinin tələbatı tam ödənilmir. Bu baxımdan istehsalın artırılması üçün bu sahədə əkin sahələrinin daha da artırılması vacibdir. Bu vəziyyət kartof üzrə 2017-ci ildə (541,6-534.3) 66 min ton çox, tərəvəz bostan üzrə (179,5-189,2) 97 min ton az, meyvə üzrə isə (40,6-46,6) demək olar ki, nəzərə alınmır.

Taxılda ixrac isə 2003-cü ildə 45 min ton olmuşdur. 2017-ci ildə isə ixrac yoxdur. Kartofun idxalı isə 2003-cü ildə 78,6 min ton olmuşdur, 2017- ci ildə isə 139,2 min ton olmuşdur. Kartofun ixracına nəzər salsaq görərik ki, 2003- cü ildə 12,4 min ton, 2015-ci ildə isə 36,7 min ton olmuşdur. Bu da 2003-cü illə müqayisədə 24,3 min ton artım deməkdir.

Meyvə və giləmeyvə məhsullarının göstəricilərinə əsasən qeyd etmək olar ki, 2003-cü ildə idxal 14,8 min ton, 2017-ci ildə isə 74,7 min ton olmuşdur. Bu da qeyd etməyə əsas verir ki əvvəlki ilə nəzərən 59,9 min ton artıqdır. İxraca gəldikdə isə 2003-cü ildə 129,2 min ton, 2008-ci ildə 303,1 min ton, 2013-cü idə 188,3 min ton, 2017-ci ildə isə 182 min ton təşkil etmişdir. Verilənlərə görə 2008-ci ildə ən çox ixrac müşahidə olunmuşdur. Ümumiyyətlə isə əvvəlki illərə nisbətən artım müşahidə olunur. Son illərdə Azərbaycanın regionlarında aqrar sektorda ərzaq məhsulları istehsalının artım dinamikası heyvandarlıqda daha qabarıq şəkildə nəzərə çarpır. Ötən il ölkə əhalisinin heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib.

Aparılan araşdırmalardan məlum olmuşdur ki, Azərbaycan Respublikasında ət istehsalı 2003-cü ildə 134,4 min ton, 2017-ci ildə isə bu rəqəm artaraq 298,6 min ton təşkil edir. Bu da əvvəlki ildən fərqlənərək 164,2 min ton artıq olduğunu göstərir. Ət məhsullarında isə ilin əvvəlinə qalıq göstəricisi 2017-ci ildə əvvəlki ildən az fərqlənir, süddə isə bu göstərici 2003-cü ildə 22,1, 2017-ci ildə isə 164,8 min ton təşkil edir. İllər arasındakı fərq isə 142,7 min ton olduğu müşahidə edilir.

Yumurta üzrə isə ilkin göstərici 2700, 2017-ci ildə isə artaraq, 3100 min ədəd olduğu müşahidə olunur. Bu da əvvəlki ildən 400 min ədəd artıq olduğunu göstərir. Digər tərəfdən 2003-cü ildə ət və ət məhsullarında idxalın çəkisi 29,5 min ton, 2017-ci ildə isə 17,6 min ton olmuşdur. Bu da əvvəlki ilə nəzərən müqayisədə 11,9 min ton aşagi düşdüyünü göstərir.

Dinamikadan 2017-ci ildə 0,8 min ton ət məhsulları ixrac edildiyi müşahidə olunur.

Süd və süd məhsullarının idxalı isə 2003-cü ildə 227,7 min ton, 2017-ci ildə isə artaraq 366,0 min ton olmuşdur. Bu da 2003-cü illə müqayisədə 138,3 min ton artım olduğunu göstərir.

2003-cü ildə yumurta idxalı 6800 min ədəd, 2017-ci ildə isə bu rəqəm azalaraq 5333 min ədəd təşkil edir. Digər tərəfdən qeyd etmək olar ki, 2003-cü ildən fərqli olaraq 2017-ci ildə yumurta ixrac olunmamışdır. Baliq və balıq məhsullarına gəldikdə isə 2003-cü ildə 3,9 min ton, 2017-ci ildə isə 14,8 min ton idxal olunduğu müşahidə olunur. Balıq məhsullarında ixracın çəkisi 2003-cü illə müqayisədə 2017-ci ildə müşahidə edilməmişdir.

İdxal və ixracın həcmi dedikdə, respublikada yaşayan şəxslər və ya fəaliyyət göstərən müəssisələr tərəfindən həyata keçirilən əqdlərin nəticəsində ölkəyə daxil olan və ölkədən çıxarılan məhsulların miqdarı nəzərdə tutulur. Beynəlxalq mütəxəssislərin rəyinə görə, Azərbaycan respublikasında ərzaq təhlükəsizliyi göstəriciləri əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb və orta səviyyələrdə qiymətləndirilir. Araşdırmalar göstərir ki, yerli istehsalın artırılmasında əsas problemlərdən biri, dövlətin iqtisadi maraqlarının qorunması və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün daxili bazarın xarici təsirlərdən qorunmasıdır. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının və onun tələb olunan səviyyəyə çatdırılmasında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və gəlirlərin artırılması yerli məhsulların istehsalının artırılması ilə sıx bağlıdır. Ərzaq təhlükəsizliyinə və dövlətin iqtisadi maraqlarına və siyasi suverenliyinə mənfi təsir göstərən faktorlardan ən əsası ölkə əhalisinin ərzaq təminatında yaranan problemlərdir. Belə ki, ərzaq təminatının yaxşılaşdırılması əhalinin yaşayış səviyyəsini müəyyənləşdirən əsas göstəricilərdən biridir.

Məhz bu baxımdan, dövlətin aqrar siyasətinin uğurla həyata keçirilməsi, kənd təsərrüfatı istehsalının artırılması və onun keyfiyyət göstəricilərinin yüksəldilməsi bazar münasibətləri şəraitindən əhəmiyyətli dərəcədə asılıdır. Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və kənd təsərrüfatı məhsulları istehsalçılarının müasir tələblərə cavab verən maddi-texniki resurslarla təmin edilməsidir. Qeyd edək ki, regionların, o cümlədən rayonlar üzrə torpaqların tərkibini, xüsusiyyətlərini, məhsuldarlığını və sahələr üzrə ixtisaslaşmasının öyrənilməsində resurs təminatının öz həllini düzgün tapması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa ərzaq təhlükəsiliyinin resurs təminatında əmək resurslarından o cümlədən, işçi qüvəsindən səmərəli istifadə edilməsi də mühüm amillərdən biri hesab olunur.

Aparılan araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsində ən başlıca amil istehsalın intensivləşdirilməsidir. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda göstərilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Ölkə əhalisinin etibarlı ərzaq təminatının formalaşdırılmasına təsir edən əsas amillərdən biri də ölkədə yetərli ərzaq ehtiyatlarının yaradılması ilə yanaşı rəqabətədavamlı istehsala nail olmaqdır. Bu baxımdan bazar münasibətləri şəraitində ölkə əhalisinin ərzaq təhlükəsizliyinin yetərli olaraq təmin edilməsi üçün dövlətin ərzaq ehtiyatlarının formalaşdırılmasının mümkün olan bütün səmərəli forma və istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.Dövlətin iqtisadi gücü regionların inkişaf səviyyəsi əsasında qiymətləndirilir.

Daxili ərzaq bazarının təkmilləşdirilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və ölkə əhalisinin etibarlı ərzaq təminatına nail olunması ilə birbaşa bağlıdır.Aqrar məhsullarla ölkə əhalisinin daimi təminatini yaratmaq üçün aqrar infrastrukturun yaradılması faraş məhsulla təminatda mövsümiliyin aradan qaldirılmasına və nəticədə istehsalın iqtisadi səmərəliliyin yüksəlməsinə imkan vermişdir. Bazar mexanizminin aqrar sahədə istehsalın artım tempinə uyğun olaraq təşkilinin indiyədək bir çox ölkələrin timsalında isbat olunmuşdur. Bu baxımdan aparılan tədqiqat göstərilən istiqamətlərdə mövcud olan problemlərin araşdırılmasına yönəlmişdir.

Tədqiqatın əsas məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsində və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi rolu olan resurs təminatının araşdırılması, vacib amillərin müəyyən aspektlərinin öyrənilməsidir. Tədqiqat aparıldıqdan sonra alınan nəticələrə uyğun olaraq qarşıya çıxan mövcud problemlərin həllinə dair təklif və tövsiyyələr hazırlamaqdan ibarətdir.İlk növbədə tədqiqat aparmaq üçün respublikamızda ərzaq məhsulları istehsalının mövcud durumunu və prespektiv inkişaf yollarını aqrar sahədə ərzaq təminatının formalaşdırılması, ərzaq bazarının problemlərinin öyrənilməsi istiqamətində araşdırmağa çalışmışıq. Ərzaq təhlükəsizliyinin

təmin olunmasına təsir edən bir sıra faktorlar var. Bunlardan biri də istehsal prosesidir. Aparılan araşdırma zamanı respublikada əhalinin ərzaq təminatının yerli istehsal hesabına ödənilməsi səviyyəsinin qiymətləndirmişik.Əsasən aşağıda qeyd olunan istiqamətlərdə tədqiqatların aparılması nəzərdə tutulmuşdur:

- ərzaq təhlükəsizliyinin təmin olunmasında yerli istehsalın rolunun artırılması, rəqabətədavamlı yerli istehsalın təşkil olunması, ərzaq ehtiyatının artırılmasının zəruriliyi;
- ərzaq təhlükəsizliyinintəminatına təsir edən əsas amillər, əsas ərzaq məhsullari istehsali ilə özünü təminetmə səviyyəsi;
- ölkə üzrə müxtəlif ərzaq məhsullarını ehtiyatının mövcud vəziyyətinin qiymətləndirilməsi;
- səmərəli ərzaq təhlükəsizliyinin optimal təminatınn həcminin təşkili ilə bağlı əməli təkliflərin hazırlanması.

Ölkənin ərzaq təhlükəsizliyi onun iqtisadi və milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi dövlət üçün mühüm əhəmiyyət kəsb edən və həlli vacib olan sosial-iqtisadi problemlərdən biridir. Qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Belə ki, bu problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların geniş spektrini əhatə edir. Buna görə də dövlət səviyyəsində sosial-iqtisadi sistem ərzaq təhlükəsizliyi ilə sıx əlaqədardır. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin təmini daxili resursların mobilizə edilməsinə əsaslanmışdır.

## ƏDƏBİYYAT


1. Abbasov İsmət Dursun oğlu. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı 2013
2. Abbasov İsmət Dursun oğlu. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı 2011
3. Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Bakı: “İqtisad Universiteti”, 2010
4. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişaf perspektivləri. Bakı 2010
5. Azərbaycan statistik göstəriciləri. Bakı 2018

**MAYİSƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*abbasovaruziya@gmail.com*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ İNKİŞAFIN MÜASİR ASPEKTLƏRİ

**Xülasə**

*Elmi məqalədə dünyada gedən qloballaşma şəraitində ölkəmizin inkişafı ilə bağlı problemlər nəzərdən keçirilmişdir. Qeyd edilmişdir ki, qloballaşmanın milli məkanlara təsiri prosesində dövlətin daxili siyasi inkişafı böyük əhəmiyyət kəsb edir, inteqrasiya proseslərinin təsiri yeni qavrayış, təfəkkür tərzi formalaşdırır.*

*Məqalədə vurğulanır ki, müasir dövrdə dünyamızda baş verən hadisə və proseslərin xarakteristikası onu göstərir ki, bəşəriyyətin gələcəyi qloballaşma ilə müəyyən olacaq. O, milli mədəniyyət və ənənələrin təsir qüvvəsini məhdudlaşdıraraq milli mentalitetlər arasındakı aşılmaz səddləri məhv edəcəkdir.*

***Açar sözlər:*** *qloballaşma, inkişaf strategiyası, dünya təsərrüfat sistemi, müstəqillik, inteqrasiya, əhalinin maddi rifahı, dövlətin gəliri, makroiqtisadi sabitlik.*

Dünya inkişafının müasir mərhələsinin başlıca meyli məhz miqyası getdikcə böyüyən qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur . Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır .

Qloballaşmaya müxtəlif yanaşmalar mövcuddur. Qloballaşmaya neqativ yanaşan bəzi alimlər belə hesab edir ki, o milli mədəniyyəti məhv edir, dövlətin müstəqilliyini inkar edir, cəmiyyətə yad olan istehsal standartlarını zorla yeridir və s. Başqa bir qisim isə qloballaşmanı sivilizasiyaların toqquşması və sivilizasiyaların müharibəsi kimi qəbul edir. Onların fikrincə qloballaşmaya münasibət bütün dünyanı qlobalistlərə və antiqlobalistlərə ayırır ki, bu da qloballaşmanın önündə gedən Amerika Birləşmiş Ştatlarına düşmənləri ilə mübarizədə hegemonluğunu qoruyub saxlamağa imkan verir. Buna baxmayaraq, qloballaşma dünyadakı siyasi proseslərə, beynəlxalq münasibətlərə və hətta etika və mənəviyyata da təsir edir. Lakin qloballaşmanın xalqlara tam olaraq nə verə biləcəyi böyük bir sirr olaraq qalır. Bu gün qloballaşma insanların, xüsusi ilə də elitanın şüurunu və davranışını həqiqətən dəyişir. Qloballaşma əleyhdarları əmindirlər ki, qloballaşma dünya üzərində hökmranlığı ələ almaq üçün düşünülən və işə salınan bir mexanizmdir. Onların belə deməyə əsasları da var — çünki hələlik qlobal iqtisadiyyatdan daha çox varlı və inkişaf etmiş bir neçə dövlət bəhrələnir [4, s.35].

Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. Bu da qanunauyğundur, çünki biz tarixdə ilk dəfə olaraq Şekspirin ritorik "olum, ya ölüm" sualının bəşəriyyət qarşısında duran problem kimi yeni səpkidə səsləndiyi və yeni məna kəsb etdiyi bir dövrə qədəm qoymuşuq. Bu fəsildə biz məhz qloballaşma prosesləri kontekstində ölkəmizin inkişafı ile bağlı problemləri nəzərdən keçirmişik. Sözsüz ki, Azerbaycanın yeni minillikdə inkişafı, bir tərəfdən, ölkənin bir epoxadan digərinə keçidi ile şərtlənmişdir. Lakin bununla yanaşı Sovet İttifaqının tərkibində olmuş keçmiş sosialist respublikası kimi Azerbaycan müstəqillik qazandıqdan sonra industrial eradan, postsovet məkanından mərhələ-mərhələ postindustrial epoxaya keçməyə başlamış, qloballaşan dünyanın bir çox mühüm əlamətləri ile üzləşmişdir. Qloballaşma prosesi yeni hadisə deyildir. Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosiomədəni məkanın bir hissəsi olmağa can atmışdır. Tarix belə nümunələr yaradaraq, bu və ya digər imperiyaya öz hərbi-siyasi və iqtisadi nüfuz dairəsini iki, bəzən də üç

qitəyə genişləndirmək imkanı vermişdir. Üç dünya dininin meydana gəlm əsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratmışdır. İudaizm, xristianlıq, sonra isə islam gerçəkliyin sosio-mədəni, siyasi və iqtisadi qavrayışına təsirin hüdudlarını genişləndirərək, başlıca olaraq, bu və ya digər dinin nümayəndələrinin məskunlaşdığı məkanlar yaratdılar. Lakin dünya tarixində bəşəriyyət hələ heç vaxt bütün dünya məkanının sabit və təhlükəsiz inkişafını təmin etməli olan ümumi siyasi və iqtisadi məkan yaradılmasına könüllü cəhd etmək üçün ümumi məqsədə çatmağa belə yönəlməmişdir. XIX əsrdə başlanan, XX əsrdə fasilələrlə davam edən və hazırda da baş verən ümumdünya inteqrasiya prosesinin tarixi analoqu olmayıb və yoxdur, ona görə də, ümumdünya inteqrasiyasının faydalı və mənfi cəhətlərinə ölçülüb-biçilmiş və əlaqələndirilmiş şəkildə yanaşmaq son dərəcə vacibdir. Sürətlə inkişaf edən və ümumdünya xarakteri alan modernləşmə prosesi kimi qloballaşmanın müzakirəsi ötən əsrin 80-ci illərindən siyasətçilər və alimlər arasında xüsusilə aktuallaşmışdır [1, s.107].

Qloballaşmanın milli məkanlara təsiri prosesində dövlətin daxili siyasi inkişafı böyük əhəmiyyət kəsb edir. İnteqrasiya proseslərinin təsiri yeni qavrayış, təfəkkür tərzi formalaşdırır, sonra isə yeni dövrün bu komponentlərinə həyat verir. Davranışın yeni stereotipləri və formaları meydana gəlir. Demokratik dövlət kimi Azərbaycan hüquqi və demokratik əsasları möhkəmləndirmək istiqamətində irəliləyir.

Azərbaycan 1991-ci ildə müstəqillik əldə edənə kimi keçmiş SSRİ-nin tərkib hissəsi idi. Bildiyiniz kimi, keçmiş SSRİ-nin iqtisadi siyasətinin əsasında ittifaqa daxil olan ayrı-ayrı subyektlərin arasında qarşılıqlı iqtisadi asılılığı artırmaq dururdu. Mərkəzi Moskva hökuməti bunu müxtəlif məhsulların istehsalının ayrı-ayrı hissələrini böyük ölkənin müxtəlif bölgələrində yerləşdirməklə nail olmağa çalışırdı. Məsələn, hər hansı avtomobilin ayrı-ayrı hissələrinin istehsalı müxtəlif subyektlərdə təşkil edilir, daha sonra isə son məhsul tamam müxtəlif yerdə yığılırdı. Başqa sözlə, SSRİ-yə daxil olan subyektlərin müstəqil iqtisadi mövcudiyyəti süni yaradılmış əmək bölgüsü ilə tam məhdudlaşdırılmışdı [2, s.54].

SSRİ-nin bu cür siyasəti müəyyən mənada müasir qloballaşma prosesinin nəticəsi olaraq müxtəlif ölkələrin qarşılıqlı iqtisadi asılılığının artması ilə oxşardır. Sadə bir fərqlə ki, keçmiş SSRİ-də iqtisadiyyat mərkəzləşdirilmiş planlı iqtisadiyyat idi. Müasir qloballaşma prosesinin əsasında isə bazar iqtisadiyyatı, onun əsasında fundamental prinsipləri və bu iqtisadi münasibətlərin genişlənməsi durur. Məhz buna görə ölkəmiz müstəqillik əldə etdikdən sonra digər keçmiş SSRİ ölkələri kimi böyük iqtisadi problemlərlə üzləşdi. Bir çox hallarda bu iqtisadi problemlər və tənəzzül dərin siyasi problemlərlə və regional münaqişələrlə müşayiət olunurdu. Beləliklə, SSRİ dağılandan sonra ölkəmizə dağılmış və natamam iqtisadi infrastruktur və qeyri effektiv dövlət institutları miras qaldı.

Azərbaycan iqtisadiyyatı dedikdə bu termin altında Azərbaycan xalqının, əhalisinin maddi rifahı, güzəranı, dövlətin gəliri, çıxarı, xariclə əlaqələri, onun gücü, əhalinin iqtisadi baxımdan təhlükəsizliyi başa düşülür. Hazırki dövrdə iqtisadiyyat dedikdə çoxları sadəcə bir şey düşünürlər: istehsal üsullarının fərqləndirilməsi xüsusiyyəti. Keçmişdə iqtisadiyyat dedikdə bu anlaşılırdı. Ancaq indi müasir dövrdür. İqtisadiyyat geniş anlayışa çevrilmişdir. Bu gün Azərbaycan iqtisadiyyatı dedikdə onun xalqının maddi rifahı, ordusu, taktikası başa düşülür. Məhz bu səbəbdəndir ki, ulu öndər Heydər Əliyev demişdir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Azərbaycan iqtisadiyyatı daha nələri ifadə edir? İlk baxışda bu anlayış təkcə Azərbaycan adlanan məkanı təmsil etmir. Çox dərinə getmədən sadəcə bunu söyləyə bilərik ki, Azərbaycan nefti 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin iştirakçısı olan ölkələrin iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Odur ki, iqtisadiyyatımız ölkəmizin sütunu olmaqla yanaşı, dərindən düşündükdə, həm də ümumilikdə, dünya iqtisadiyyatının bir hissəni təşkil edir.

Dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1993-cü ildən başlayaraq iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə bölmək olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə

ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir model – Azərbaycan modeli yaranmışdır.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. İqtisadiyyatda mülkiyyətin çoxnövlülüyü təmin olunması istiqamətində həyata keçirilən tədbirlər davamlı iqtisadi inkişafa öz müsbət nəticəsini vermişdir. Belə ki, özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı faktiki olaraq 10 faizdən az olmasına baxmayaraq hazırda onun xüsusi çəkisi 85 faizə çatmışdır.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi - bərpa və dinamik inkişaf dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2 faiz, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır [7, s.141].

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və uğurla icra olunur.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlət başçımızın regionlarımızın sosial-iqtisadi inkişafına dair dövlət proqramları regionların davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun tərəqqisi hesabına aradan qaldırılması üçün geniş imkanlar açmışdır. Regional inkişaf proqramlarının icrasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə bir milyondan çox iş yeri açılmışdır. Yeni iş yerlərinin açılması, müasir standartlara cavab verən müəssisələrin işə salınması nəticəsində ölkə daxilində istehsal olunan malların sayını artırmış, ixracdan asılılığı azaltmışdır. Halbuki, həmin dövrdə Rusiyada işsizlik son həddə çatmışdı.

Qlobal maliyyə-iqtisadi böhranı nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildə də davam etmişdir. Eyni zamanda, Azərbaycan 2009-cu ildə iqtisadiyyatın real artım tempinə görə region ölkələri arasında lider olmaqla yanaşı, müvafiq göstərici üzrə dünya miqyasında da yüksək yerdə qərarlaşmışdır. Belə ki, ilin yekunlarına əsasən, 2009-cu ildə ÜDM-in real artımı 2008-ci illə müqayisədə 9,3 faiz, əhalinin hər nəfərinə düşən ÜDM-nin real həcmi isə 7,9 faiz təşkil etmişdir. ÜDM-nin 64,1 faizi iqtisadiyyatın istehsal, 28,3 faizi xidmət sahələrinin payına düşmüş və bu sahələrdə real artım müvafiq olaraq 10 faiz və 9,1 faiz təşkil etmişdir. 2009-cu ildə neft-qaz sektorunda real artım 14,3 faiz, qeyri-neft sektorunda isə 3,2 faiz olmuş və eləcə də sənaye sektorunda real artım tempi 12,8 faiz, nəqliyyatda 9,3 faiz, rabitədə 13,1 faiz, ticarətdə 9,9 faiz təşkil etmişdir.

Azərbaycanın uğurları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Təsadüfi deyil ki, 2009-2010-cu illər üçün hazırlanmış “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə, MDB ölkələri arasında isə 1-

ci yerə yüksəlmişdir. Eləcə də, “Standard and Poor’s” Beynəlxalq Reytinq Agentliyi tərəfindən ölkə iqtisadiyyatının hazırkı vəziyyəti “Stabil”dən “Pozitiv”ə yüksəldilmişdir.

Növbəti mərhələnin əsas məqsədlərini makroiqtisadi sabitliyin qorunub saxlanılması və iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi təşkil edəcəkdir. Eyni zamanda, iqtisadi artımın keyfiyyətinin prioritetliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə iqtisadiyyatın diversifikasiyası genişləndirilməklə neft sektorundan asılılıq minimuma endiriləcək, innovativ iqtisadiyyata keçid təmin ediləcək, aqrar sektorun inkişafında intensiv üsullara üstünlük veriləcək və iqtisadiyyatın klasterlər üzrə inkişafına nail olunacaqdır. Həmçinin ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlər davam etdiriləcəkdir.

Biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi yolu ilə sahibkarlığın və regionların inkişafı daha da sürətləndiriləcəkdir.

Son illərdə dövlət başçısının yürütdüyü siyasət ölkə iqtisadiyyatını dinamik bir mərhələyə gətirib çıxarmışdır. Qeyri-neft sektorunun sürətli yüksəlişi həm də daxili investisiyaların həcminin artımında özünü göstərir. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur. İqtisadiyyatın bütün sahələrinin inkişafı həm də makroiqtisadi sabitliyin qorunub saxlanılması və maliyyə təhlükəsizliyinin təmini baxımından vacib əhəmiyyət kəsb edir.

Azərbaycanın yeni inkişaf mərhələsinə uyğun olaraq sənayenin təşkilinin ən müasir formalarının tətbiqinin genişləndirilməsi də sənayeləşmə siyasətinin prioritetlərindəndir. Bu baxımdan Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanda müasir sənaye komplekslərinin və texnoparkların, o cümlədən Sumqayıt kimya sənaye və Balaxanı sənaye parklarının yaradılması qeyri-neft sektorunun və xüsusilə də qeyri-neft sənayesinin inkişafını sürətləndirəcək, yerli və xarici investisiyaları stimullaşdıracaq, müasir texnoloji sahələrin inkişafına, yeni rəqabət qabiliyyətli məhsul istehsalına təkan verəcək və iqtisadiyyatın modernləşməsinə və innovativ iqtisadiyyatın formalaşmasına, qeyri-neft ixracının artırılmasına öz müsbət töhfəsini verəcəkdir [1, s.26].

Müasir dövrdə dünyamızda baş verən hadisə və proseslərin xarakteristikası onu göstərir ki, bəşəriyyətin gələcəyi qloballaşma ilə müəyyən olacaq. Qloballaşma əslində yeni bir anlayış, yeni bir proses deyildir. İnsanlar tarix boyu hər zaman inteqrasiyaya, vahid sosiomədəni tərəqqini bir hissəsi olmağa doğru meyl etmişlər. Bəşəriyyətin bu sosiomədəni tərəqqisinin nüvəsində daima inteqrasiya, bütünləşmə ana xətt təşkil etmişdir.

Qloballaşma milli mədəniyyət və ənənələrin təsir qüvvəsini məhdudlaşdıraraq milli mentalitetlər arasındakı aşılmaz səddləri məhv edir. Ümumdünya inteqrasiyasına xidmət edən qloballaşma milli özünəməxsusluğun qorunub saxlanılmasına böyük manelər törədərək qərbləşməyə doğru olan meylləri daha da gücləndirir. Bir çox tədqiqatçılar, araşdırmaçılar XXI əsrin qloballaşma əsri olduğunu dəfələrlə vurğulamış, XXI əsrin məhz qloballaşma əlaməti ilə yadda qalacağını qeyd etmişlər.

## ƏDƏBİYYAT


1. Abbasov N. Mədəniyyət siyasəti və milli mənəvi dəyərlər. Bakı, 2008.
2. Əliyev H. Müstəqillik yolu. Bakı, AU, 1997.
3. Həsənov Ə. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
4. Hüseynov İ., Əfəndiyeva N. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili. Bakı, 2008.
5. Rüstəmov Y. Fəlsəfə. Bakı, 2007.
6. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010.
7. Şükürov A. Qloballaşma : mahiyyəti və prespektivləri. Bakı, 2001.
8. http://www.salaminfo.az (Qloballaşma haqqında).
9. http://www.merkez.az (F. Mustafa. Qloballaşma və mədəniyyət).

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlıt Universiteti*

# MUHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARININ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

*Elmi məqalədə Mühasibat uçotunun Beynəlxalq Standartlarının xüsusiyyətləri eyni zamanda uzunmüddətli aktivlər,öhdəliklər və kapital araşdırılmışdır.Eyni zamanda elmi məqalədə mühasibat uçotunun aparılmasında müstəqil təsərrüfat subyekti prinsipinin mühüm rola malik olması və bu prinsipə görə komersiya təşkilatlarında baş vermiş təsərrüfat əməliyyatları və idarəetmə uçotunun metodiki təşkili geniş şəkildə şərh edilmişdir.*

**Açar sözlər:** *kapital, aktiv,öhdəlik, idarəetmə uçotu, vergi uçotu*

Bazar iqtiyyasiyatı şəraitində iqtisadiyyatımızın sürətli inkişafını təmin etmək üçün mühasibat uçotunun elmi əsaslarla qurulmasının böyuk əhəmiyyəti vardır. Mühasibat uçotunun muasir tələblərə cavab verməsi, onun vaxta qənaət etməsi və uçotun keyfiyyətinin yüksəldilməsi hesab olunur.Bunun üçen uçot müəyyən prinsiplər əsasında qurulmalıdır. Bu zaman uçotun idarə olunması sənədləşməsi, MMU-nun BS-lar əsasında aparılması və proqramların yerinə yetirilməsi üzərində nəzarət xeyli asanlaşır. Uçot prinsipləri mühasibat uçotunun bütün alt sistemlərinin keyfiyyət xarakterlərinin aşkarlanmasına, oxşar və fərqli cəhətlərin aydınlaşdırılmasında mühüm rola malikdir. Əslində prinsiplər mühasibat uçotunun tənliyinə isinadən formalaşdırılır.

Mühasibat uçotunun tənliyi aşağıdakı kimi ifadə olunur.

Kapital+ Öhdəliklər=Aktivlər

Zənnimizcə, aktivlərin və öhdəliklərin müxtəlif növləri mövcuddur.Məsələn;

1) Uzunmüddətli aktivlər
2) Qısa müddətli aktivlər
3) Kapital
4) Uzunmüddətli öhdəliklər
5) Cari və ya qısa müddətli öhdəliklər

Uzunmüddətli öhdəliklər və ya cəlb olunmuş uzun müddətli aktivlər öz dəyərini bir öhdəlik kimi ödəməlidir. Lakin, bir şeyi unutmaq olmaz ki, uzun müddətli aktivlər istehsalata Kapital kimi qoyulduqda o xərc maddəsi kimi özünü maya dəyərinin tərkibində göstərir. Yəni istehlak olunan hissənin dəyərini mənfəətdən deyil gəlirin tərkibindən bir başa xərcə silinir. O, müəssisənin mənfəətinin azalmasında iştirak etmir. Lakin, cəlb olunmuş və ya investisiya kimi qoyulmuş, kreditə götürülmüş, vəsaitlər üzərində alınan faizlər isə bir başa öhdəlik kimi (zərər, ziyan) mənfəətdən silinir. Birinci halda uzunmuddətli öhdəliklər öz dəyərini istehsal prosesində mənfəətdən deyil, gəlirdən xərc maddəsi kimi silinirsə, onu öhdəlik kimi qəbul etməyə bilərik, ikinci halda isə onun üzərində aldığımız faizlər bir başa mənfəətdən silinərsə, yəni mənfəətin azalmasında iştirak edirsə, öhdəlikdir. Uzun müddətli aktivlərin öz xərcini satılan məhsulun maya dəyərində ifadə etməsi buna sübutdur.Deyilənləri nəzərə alsaq mühasibat uçotunun tənliyi aşağıdakı kimi ifadə olunmalıdır

XV+CV-Ö=A

(Xüsüsi vəsaitlər+cəlb olunmuş vəsaitlər-Öhdəliklər=Aktivlər)

Mühasibat uçotunun aparılmasında müstəqil təsərrüfat subyekti prinsipi mühüm rola malikdir. Bu prinsipə görə hesablar planında əks olunan əməliyyatlar ancaq bir müəssisəyə aitdir və bu müəssisənin kammersiya fəaliyyətinə şamil edilməlidir. Əgər müəssisə investisiya yatırır və ya kapitaldan geri alırsa onda mühasibat kitabları sahibkarın şəxsi hesablarının dəyişməsini yox,

Kapital hesabının dəyişməsini əks etdirir. Bu da öz əksini maliyyə hesabatlarında göstərir. Belə hesab olunur ki maliyyə hesabatları maliyyə uçotunun sənədləri əsasında hazırlanır və onun istehsal(balansı) hesabları ilə heç bir əlaqəsi yoxdur. Zənnimizcə bu prinsip mühasibat uçotunun alt sistemləri, istehsal hesabatları və maliyyə hesabatları arasındakı bağlılığı aşkarlamağa imkan verir. Ümumiyyətlə müəssisələrdə əməliyyatları qısaca şərh etsək, ilin əvvəlinə qalıq, dövriyyə, ilin sonuna qalıq kimi dəyərləndirə bilərik və ya bunu təxminən xərclər, istehsal nəticə kimi götürə bilərik. İstehsalda kapital və cari xərclər-yəni hesabat dövründə firmanın fəaliyyətinə aid olan xərclər əsas götürülür. Sonradan cari xərclər kapitalın bir hissəsinə çevrilə bilir. Məsələn, istesal sahələrinin təmirinə görə fəhlələrə ödənilən haqqlar. Burada fəhlələrə ödənilən haqqlar kapital xərclərinə aid edilməlidir, lakin təmir zamanı binanın dəyəri artmadığına görə təmir xərcləri cari dəyər kimi qiymətləndirilməlidir. Cari xərclərin balans maddələrindən birbaşa kapitalda dəyişikliklər haqqında hesabatda öz əksini tapması ardıcıllığını göstərməyə çalışaq. Balans hesabatı hazırlanmamışdan öncə mühasibat balansı hazırlanır. Mühasibat balansı tam səhmana salındıqdan sonra "Ticarət Hesabı" və "Mənfəət və zərər hesabı" və bu iki hesabat əsasında balans hesabatı hazırlanır. Ümumi gəlir ticarət hesabında əks olunur. Zahirən belə görsənə bilər ki, ticarət hesabında xərclərin yalnız bir hissəsi, satışla əlaqədar yəni kommersiya xərcləri göstərilir, lakin, o ticarət hesabı kimi yalnız satış xərclərini deyil müəssisənin gəlirlərini ifadə etdiyinə görə tam maya dəyərini, yəni istehsalla bağlı olan xərcləri də özündə ifadə etmiş olur. Sonrakı mərhələdə ikili yazılış prinsipinə istinad edərək ümumi gəliri "ticarət hesabından "birbaşa" mənfəət və zərər" hesabına silinir. Bundan sonra biz xalis mənfəət və zərəri hesablaya bilərik. Alınan nəticə mənfəət hesabının Dt-dan və ya Kt-dən zərərə və ya mənfəətə uygun olaraq "Kapital" hesabına köçürülür. Kapital hesabı balans hesabatının tərkibində yerləşir..Yəni "Kapıtal" hesabı, istesal hesabatının tərkib hissəsidir. Artiq bu "Kapitalda dəyişmələr haqqında hesabat" da dəyişmələrə səbəb olur.. Beləki zərərlər kapital hesabından çıxılır, xalis mənfəətin bir hissəsi isə kapitalın artırılmasında iştirak edir. Biz burada istesalın uçotu əsasında baş kitabda toplanan debet və kredit qalıqlarının ilkin balansda toplanmasının, düzəldilməsinin, "Ticarət" hesablarında aparılan əməliyyatlar nəticəsində göstərilən ümumi gəlirləri və bu gəlirin ticarət hesabından "mənfəət və zərər"hesabına kecrilməsinin, burada mənfəət və zərərin hesablanmasından sonra Dt və Kt əməliyyatlarına uyğun olaraq "Kapital" hesabına keçirilməsinin və kapital hesabının isə balans hesabatının tərkib hissəsi olduğunun və nəhayət "Kapitalda dəyişiklər haqqında" hesabatda dəyişikliyə gətirib çıxarmasını izah edilmiş olduq. Göründüyü kimi idarə etmə uçotu maliyə uçotunun göstəricilərinə isinad etməyə bilər, lakin maraqlı burasıdır ki, idarəetmə(istehsal) uçotunun bəzi göstəriciləri maliyyə uçotunun tərkib hissəsi kimi fəaliyyət göstərir. Buna baxmayaraq istehsal (idarəetmə) uçotunun müəssisə daxili, qapalı maliyyə uçotunun isə açıq, basqa müəssisə və təşkilatlarla əlaqəli fəaliyyət göstərməsi məhz maliyyə uçotunun istehsal uçotunu məhdudlaşdırması ideyasının yaranmasına səbəb olmusdur. Deyilənlərə nəzər salsaq bir dana əmin olarıq ki, maliyyə uçotu istehsal uçotunu məhdudlaşdırmır onunla yanaşı aparılır və istehsal uçotunun məlumatlarından İstehsal (balans) hesabatları vasitəsi ilə yararlanır. Yəni İstehsal(balans)hesabatları maliyyə uçotu ilə istehsal uçotu arasında əlaqələndirici rol oynayır. Belə ki, maliyyə uçotu sistemində müəssisələrdə istehsal olunmuş aktivlərin balans qiymətləndirməsi həyata keçirilir. Son zamanlar maliyyə və istehsal uçotunun tərkibindən vergi uçotunu fərqləndirirlər. Bu uçotun normativ mənbəyi Azərbaycan Respublikasının Vergi Məcəlləsi hesab olunur. Zənnimizcə vergidən yayınma hallarının qarşısının alınması üçün vergi hesabatlarının hazırlanmasına və maliyyə hesabatlarının ayrıca bölməsində göstərilməsinə böyük ehtiyac vardır. Göründüyü kimi maliyyə, istehsal, vergi uçotu muhasibat uçotun alt sistemlərini təşkil etsədə, onlar müxtəlif keyfiyyət xüsusiyyətlərinə malikdirlər. Belə ki istehsal (idarəetmə ) uçotu müəssisə fəaliyyətində istehsal və məhsulunun maya dəyərinin idarə edilməsinin normativ sistemlərindən ibarətdir deməli, istehsal uçotunun informasiyaları əhəmiyyətli, maliyyə uçotu-muəsisələrinin fəaliyyətini ölçən, emal edən və maliyyə hesabatları formasında təqdim edən informasiyaya və nəzarət sistemidir. Deməli maliyyə uçotunun informasiyaları etibarlı, vergi uçotunun informasiyaları öz şəffaflığı ilə bir-birindən fərqlənir. Mühasibat hesabatlarının yekun informasiyaları onun alt sistemlərinin informasiyaları əsasında formalaşır. Alt sistemlər isə qeyd etdiyimiz kimi mühasibat uçotunun ümumi qayda və prinsiplərinə

(fərziyyə və təsəvvürlərinə) uyğun həyata keçirilir. Yəni uçotun alt sistemləri bu qayda və prinsiplərə tabedir və bu prinsiplərin reallığının təmin olunmasında böyük rol oynayır.. Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, təşkilatlarda məsrəflərin idarə olunmasının uçot sistemi mühasibat (maliyyə) vergi və istehsalat (idarəetmə) uçotunun tələblərini və məsrəflərin idarə olunmasının mühüm şərtini özündə birləşdirir. Bu da maliyyə və idarəetmə uçotunun ümumi mühasibat uçotu pirinsiplərindən özünə məxsus qaydada, yəni fərqli istifadəsini təsdiqləyir. Uçotun alt sistemlərinin fərqli cəhətlərinə cədvəl vasitəsi ilə baxaq.

Uçotun alt sistemlərinin fərqli cəhətləri .

Cədvəl№1

| Göstəricilər | Maliyyə | İdarəetmə | Vergi. |
|---|---|---|---|
| Uçotun mütləq aparılma səviyyəsi | Uçot mütləqdir və xüsusi formalarda aparılmalıdır | Uçotun aparılması məcburi deyil. İdarə rəhbərindən asılıdır | Uçot mütləqdir və qanunvericiliyə uyğun yetirilməlidir |
| Uçotun qanun vericilik bazası | MN- göstəriş lərinə MMUS və əsasnaməyə əsasən | Muhasibat uçotu haqqında qanun və s. | Vergi məcəlləsi və uçotun aparılma qaydaları |
| Uçotun məqsədi | Xarici istifadəçilər üçün | Daxili və xarici istifadəçilər üçün | vergi xidməti orqanları |

Beləliklə deyə bilərik ki, uçot prinsiplərinə uyğun olaraq istehsal (idarəetmə) və maliyyə uçotu xalq təsərrüfatının müxtəlif sahələrinin təsərrüfat həyatını qeydə və uçota alan, daxili və xarici istifadəçilər üçün lazım olan informasiyaların təqdim olunmasına yönəldilən fəaliyyət sistemidir. Lakin unutmaq olmaz ki, istehsal uçotu maliyyə uçotundan fərqli olaraq müəssisə fəaliyyətinin hər bölməsinin planlı qaydada əhatə edir və həmin konkret bölmələrin istehsal məsrəflərini, məhsul növlərini, məsrəf maddələrinin qədərini və s. əsaslı səkildə uçota alaraq gələcək plan və praqnozlar eyni zamanda maliyyə hesabatlarının hazırlanması üçün baza mənbəyi yaradır. Beləliklə, istehsal uçotu uçotun digər növlərindən fərqli olaraq yalnız istehsalın nəticələrini açıqlayır daxili fəaliyyətini maya dəyərinin aşağı salınmasını, rentabellik və mənfəətin qazanılması yollarını, qiymət siyasətini, qiymət strategiyasını, gələcək plan və praqnozlarını bir kommersiya sirri kimi saxlayır. Beləki ki, uçotun alt sistemləri arasında ümumi uçot prinsiplərinə əsaslanan əlaqələr də movcuddur.

Qeyd edək ki, bazar iqtisadiyyatı idarəetmə uçotunun rolunu xeyli dərəcədə artmasına səbəb olmuşdur. Buna görədə idarəetmə uçotunun bir dərs vəsaiti kimi Azərbaycanda tətbiqinə son dövrlərdən başlanmışdır. Bu məqsədlədə Azərbaycanda bir çox uçot alimləri idarə etmə uçotu üzrə dərs vəsaiti hazırlamış və nəzəriyyələr yaratmışdır. Misal olaraq keçmis SSRİ-nin böyük rus alimləri P.S.Bezrukix, İ.A.Lamikin, A.S.Marqulis, İ.S.Rubinov o dövrkü Azərbaycan alimlərindən Ə.S.Fərəcovun, N.H.Namazəliyevin, V.İ.İsayevin nəzəriyyələrini, Müstəqillik qazanıldıqdan sonra Azərbaycan Dövlət İqtisad Universitetinin Muhasibat uçotu kafedrasının, professor Q.Ə.Abbasovun, Ə.A.Sadıqovun, S.M.Səbzəliyevin, Azərbaycan Dövlət Neft Şirkətinin iqtisadiyyat və uçot idarəsinin rəyis müavini iqtisad elmləri doktoru, professor S.M.Osmanovun və başqalarının nəzəriyyələrini Naxçıvan Dövlət Universitetinin "Muhasibat uçotu və maliyyə kafedrasının professoru i.e.d. T.A.Abbasovun. i.e.d. M.S.Bağırovun və s. dərs vəsaitlərini göstərmək olar. Ölkəmizdə idarəetmə uçotuna baxışlar müxtəlifdir. Bəzi alimlərin fikirlərini əsas götürərək idarəetmə uçotu sahəsində baş verən fikir ayrılıqlarını uç qrupda birləşdirməyə cəhd edək. Birinci qrup alimlər idarəetmə uçotunu informasiya toplayan vasitə hesab edirlər. İkinci qrup alimlər idarəetmə uçotuna kənarlaşmaları uçot reystrlərində toplayan vasitə kimi baxırlar. Üçüncü qrup alimlər isə daxili təsərrüfat hesabının tətbiqi qaydası və müəssisə daxili qiymətlərin yaranması və.s kimi dəyərləndirirlər. Zənnimizcə hazırda idarəetmə uçotu daha irəli getmiş, daha əhəmiyyətli məsələləri əhatə etmişdir. Deyə bilərik ki, idarəetmə uçotu operativ uçot məlumatlarından

qaynaqlanaraq daxili təsərrüfat proseslərinin idarə olunmasına yönəldilən plan və faktiki göstəriciləri müqaisə edən kənarlaşmaları nizamlaşdıran, yekun informasiyaları balans hesabatları formasında toplayan və aidiyyəti istifadəçilərə çatdıran əməliyyatlar toplusu kimi baxılmalıdır Əslində idarə etmə (istehsal) uçotuda basqa uçot növləri kimi nəzarət xarakterinə malikdir. Lakin, istehsal uçotu ilə nəzarət yalnız müəssisə daxili fəaliyyəti əhatə edir. İstehsalın idarəetmə uçotu məhsul iş və xidmətlərin formalaşmasına, idarə olunmasına, məsrəflərin uçotunun və onun maya dəyərinin kalkuliyyasını özündə birləşdirir. Bu zaman mühasibat reistrlərində qeyd olunan kənarlaşmaların aşkarlanmasına və aradan qaldırılmasına imkan yaranır. Daha geniş mənada istehsalat uçotuna məsrəflərin hesablanması, uçotu, kalkuliyasiya edilməsi, nəzarət, ticarət, təhcizat, istehsalat, vasitəcilik və.s. fəaliyyətin nəticələrinin müəyyən olunması, kənarlaşmaların müəyyəhləşdirilməsi, aradan qaldırılması sistemi kimi baxılmalıdır. Zənnimizcə bütün bunları nəzərə alaraq deyə bilərik ki, idarəetmə(istehsal) uçotunun metodikası istehsal və kommersiya fəaliyyətinə dair verilən plan və proqnozlardan kənarlaşmaları müəyyən edən göstəricilər haqqında məlumatları müəyyənləşdirmək və onları informasiya kimi təqdim etmək olmuşdur. İdarəetmə (istehsalat) uçotunun metodiki təşkili kənarlaşmaların üç istiqamətdə aradan qaldırılmasına imkan verir.

1) İdarəetmə uçotunun obyektivliyinin metodiki araşdırma zamanı kənarlasmalar haqqında informasiya əldə etmək.

2)Kənarlaşmaların operativ idarə olunması, yəni baş verən anda düzəldilməsi.

3) Kənarlaşmaların istehsalın son nəticəsi məlum olduqdan sonra müəyyənləşdirilməsi. Bu zaman kənarlaşmaların baş vermə səbəbləri, yeri, xarakteri müəyyənləşdirilir düzəldilməsi mümkün olan halda duzəldilir.

Deməli idarəetmə (istehsal) uçotu istehsal və kommersiya fəaliyyətini idarə etməklə yanaşı, həmdə eyni zamanda özünə nəzarət missiyasını həyata keçirir.. Beləki plan və praqnozların yerinə yetirilməsi idarəetmə uçotunun nəzarət obyektinə çevrilir. Zənnimizcə idarəetmə uçotunun metodoloji tətbiqi məhsulun keyfiyyətinə nəzarəti ön plana çəkir. Aydındır ki, bazariqtisadiyyatı şəraitində keyfiyyət rəqabət aləti kimi çıxış edir. Onda deyə bilərik ki, keyfiyyət müəssisələrin metodiki fəaliyyətinin qarşılıqlı əlaqəsinin və dəqiq nəzarətin nəticəsidir. Əgər keyfiyyəti tamamlayan əlamətləri sxemləşdirsək aşağıdakıları alarıq.




Zənnimizcə keyfiyyətin idarə olunmasının bu cür təşkil istehsala məsrəflər və ya maya dəyəri ilə mənfəətin qarsılıqlı əlaqədə olması ilə aydınlaşdırılır. Müəssisələrin fəaliyyətinin optimallaşdırılması səraitində idarəetmə uçotu daim sosial iqtisadi hal kimi (maya dəyəri, qiymət, səmərəlilik, və.s.) fəaliyyət sahəsi genişlənir. Fəaliyyətin tətbiqi metodikasının xüsusiyyətləri daha düzgün istiqamətə yönəlir. Aydındır ki, müəssisələrdə idarəetmə (istehsal) uçotu ilə yanaşı qanunvericiliklə nəzərdə tutulan maliyyə və vergi uçotuda aparılır. Uçot sistemlərinin metodiki tətbiqi zamanı onlar arasında metadoloji fərqlər ortaya çıxa bilər. Zənnimizcə uçot növləri arasındakı metodoloji fərqlər onların müxtəlif məqsəd və vəzifələri yerinə yetirməsi ilə əlaqədardır.




Apardığımız araşdırmalar belə nəticə çıxarmağa imkan verir ki, hazırkı uçot sisteminin özünə məxsus problemləridə mövcuddur. Belə ki, idarəetmə mərkəzlərinin maliyyə və vergi uçotu ilə əlaqələri və onların mərkəzlərə təsiri araşdırılmalı və konkretləşdirilməlidir. Lakin bunun üçün idarə etmə uçotunun ayrıca metodoloji bazasının olmaması və onun tətbiqinin qaydaları haqqında olduqca az informasiyaların olması bu məsələnin aradan qaldırılmasında çətinlik törədən əsas məsələlərdəndir. İdarəetmə (istehsal) uçotunun tətbiqi sahələrində yaranan digər problemlərdə mövcuddur və onlara aitdir. 1) Ümumi istehsal müəssisələrinin iş pirinsirləri haqqında, onların təşkili qaydaları haqqında umumi nizamnamənin olmaması. 2) İdarəetmə uçotunun tətbiqi zamanı ayrıca, əsaslı qanunvericilik bazasının olmaması. 3) Kadr hazırlığının zəif olması. 4) Azərbaycanda müəssisələrin iqtisadi və strateji idarə olunması haqqında Maliyyə Nazirliyi tərəfindən maarifləndirmə işinə zəif yanaşılması və.s. Zənnimizcə bu problemlərin aradan qaldırılması uçot alimləri qarşısında duran əsas vəzifələrdəndir.

## ƏDƏBİYYAT

1. Teymur Abbas oğlu Abbasov. .Mühasibat uçotunun Beynəlxalq və milli standartlarının əsasları. Bakı 2010
2. Teymur Abbas oğlu Abbasov. Mehdi Siyavuş oğlu Bağırov. Mühasibat (idarə etmə) uçotu. Bakı-2007.
3. B.İ.İsayev, Q.Ə.Abbasov, M.C.Haciyeva. Mühasibat uçotunun nəzəriyyəsi. Bakı. Azərnəşr-1998.

**SAMİR HƏZİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR DÖVRDƏ DÖVLƏTİN VƏ MÜƏSSİSƏLƏRİN MALİYYƏ VƏ VERGİ SİYASƏTİ

**Xülasə**

*Maliyyə və vergi siyasəti – bu məsələlər mövcud iqtisadi vəziyyətin ən vacibli həlqəsidir. Bir birindən asılı olmalarına baxmayaraq hər biri ayrı ayrılıqda tədqiq edilməli sahədir. Qloballaşan iqtisadiyyatda mühasibat uçotu maliyyə siyasəti və bilavasitə vergi siyasəti ilə əlaqədardır. Hər iki sahənin eyni vaxtda inkişafı hüququ bazaya əsaslanır, digər tərəfdən isə dövlət və iqtisadiyyat arasındakı incə lakin qırılmaz körpüdən asılıdır. Müəssisələrin maliyyəsi bir cox iqtisadi yöndən dəfələrcə tədqiq edilmişdir, lakin cəmiyyətin və eyni zamanda ölkələrin inkişafı həm maliyyə siyasətinin həmdə vergi siyasətinin müxtəlif yönlərdə inkişaf etməsinə səbəb olmuşdur.*

**Açar sözlər:** *maliyyə, vergi siyasəti, qloballaşma, iqtisadi inkişaf, maliyyə siyasəti, iqtisadi artım*

İqtisadi inkişafa nail olmuş hər bir dövlət öz siyasətini əsasən 5 istiqamətdə qruplaşdırır: iqtisadi sahələr üzrə; sosial sahələr üzrə, milli maraqlar baxımından, hərbi potensial baxımından, geosiyasi. Bu baxımdan maliyyə siyasəti iqtisadi siyasətin tərkib hissəsidir. İqtisadi siyasətin həyata keçirilməsi, cəmiyyətin ümumi inkişaf istiqamətləri maliyyə siyasətinin formalaşması və təşkili səviyyəsindən çox asılıdır. Maliyyə siyasəti dövlətin maliyyə sistemi vasitəsilə həyata keçirdiyi tədbirlərin məcmusudur. Eyni zamanda maliyyə siyasəti maliyyə münasibətləri sistemində dövlətin müvafiq strukturları tərəfindən həyata keçirilən maliyyə tədbirlərinin məcmusudur. Maliyyə siyasətinin digər bir tərifi isə dövlətin maliyyə resurslarının toplanması, yenidən bölüşdürülməsi və istifadəsilə əlaqədar həyata keçirdiyi tədbirlər məcmusudur. Dövlət makroiqtisadi (iqtisadi tarazlığın təmin edilməsi, iqtisadi artım, inkişafın reallaşdırılması) məqsədlərinə çatmaq üçün maliyyə vasitələrindən bəhrələnir. Dövlət gəlirlərinin artırılması, büdcə tarazlığı iqtisadi artıma aparan əsas vasitələrdir, bu vasitələrin təmin olunması isə maliyyə siyasətinin başlıca vəzifələrindəndir. Bu baxımdan cəmiyyətdə qarşıya qoyulan məqsədlərin xarakterindən və həll olunması metodlarından asılı olaraq maliyyə siyasəti iki yerə ayrılır: (ədəbiyyat 3, səh 63)

- *Maliyyə strategiyası* - Maliyyə strategiyası maliyyədən istifadənin əsas istiqamətlərini, maliyyə münasibətlərinin təşkilinin forma və metodlarının dəyişdirilməsini əhatə edir. O, uzunmüddətli perspektivə hesablanan və bir qayda olaraq iri miqyaslı məsələlərin həllini nəzərdə tutan maliyyə siyasətinin uzunmüddətli xəttidir.
- *Maliyyə taktikası* - Maliyyə taktikası isə maliyyə münasibətlərinin və əlaqələrinin forma və metodlarını dəyişdirmək yolu ilə cari vəzifələrin yerinə yetirilməsinə yönəldilir. Maliyyə taktikası maliyyə strategiyasının ən mühüm sahələrində qarşıya çıxan maliyyə məsələlərinin həlli metodlarıdır. Maliyyə strategiyası nisbi sabit olduğu halda maliyyə taktikası çevik olmalıdır. Maliyyə siyasətinin strategiya və taktikası qarşılıqlı surətdə əlaqədardır.

Maliyyə siyasəti çoxtərəflidir və aşağıdakı 3 həlqəni birləşdirir.

1.*Maliyyənin elmi cəhətdən əsaslandırılmış inkişaf konsepsiyasının hazırlanması.* Bu konsepsiya iqtisadi qanunların tələblərini öyrənilməsi, təsərrüfatların inkişafının hərtərəfli təhlili, əhalinin tələbatının, istehsal münasibətlərinin və məhsuldar qüvvələrin inkişafının perspektivlərinin müəyyən edilməsi əsasında formalaşır. O, iqtisadiyyatın durumunun, onun sabitliyi perspektivinin, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının, xalq təsərrüfatının və ölkə əhalisinin maliyyə resurslarına tələbatının təhlili əsasında formalaşır. Bu konsepsiyanın məqsədi cəmiyyətin inkişafı tələbatının ödənilməsi üçün zəruri olan maliyyə resurslarının daha tam səfərbərliyə alınmasından ibarətdir. O, sənaye və kənd təsərrüfatı istehsalının, qeyri-istehsal sferasının və sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradılmasını nəzərdə tutur.

2.*Maliyyədən cari dövrdə və perspektivdə istifadə olunmasının əsas istiqamətlərinin müəyyən edilməsi.* Maliyyə resurslarından istifadənin əsas istiqamətlərinin hazırlanmasının məqsədi onlardan daha səmərəli istifadə edilməsindən ibarətdir. Buna isə hər şeydən əvvəl resursların üstün sahələrə və sosial sferaya bölüşdürmək yolu ilə nail olunur. Az maliyyə məsrəfi ilə daha yüksək nəticələrə nail olmaq həm bütövlükdə dövlət və həm də hər bir təsərrüfat subyekti üçün birinci dərəcəli vəzifə hesab edilir.

3.*Qarşıya qoyulan məqsədə nail olmaq üçün praktiki fəaliyyətin həyata keçirilməsi.* Bunun üçün maliyyə münasibətlərinin təşkili üsullarının məcmusu kimi müəyyən edilən səmərəli maliyyə mexanizminin fəaliyyəti zəruridir. Bu isə özünə aşağıdakıları daxil edir:

- *milli gəlirin bölgüsü metodları;*
- *dövlət büdcə fondlarının yaradılması üsulları (dövlət və yerli);*
- *məqsədli dövlət fondlarının yaradılması metodları;*
- *büdcəyə və məqsədli fondlara tədiyə ödənişlərinin növləri;*
- *maliyyə planlaşdırılması və proqnozlaşdırılması;*
- *maliyyə nəzarəti.*

Bu üç həlqənin birlikdə istifadəsi maliyyə siyasətinin mahiyyətini təşkil edir.

Maliyyə siyasətinin əsas istiqamətləri aşağıdakılardır: fiskal siyasəti (büdcə-vergi) pul-kredit siyasəti, gömrük siyasəti, qiymət siyasəti, valyuta siyasəti, beynəlxalq maliyyə siyasəti.

-*Fiskal siyasət* - hökümətin makroiqtisadi məqsədlərə nail olunması üçün dövləti vergilər və xərclər üzrə məqsədyönlü fəaliyyətidir. Fiskal siyasət maliyyə siyasətinin ən mühüm tərkib hissəsi və ya istiqamətlərindən biridir. Büdcə-vergi siyasəti büdcə gəlirlərinin və xərclərinin formalaşmasının kəmiyyət parametrlərinin və əsas vəzifələrinin müəyyənləşdirilməsi, dövlət borcunun idarə edilməsi üzrə dövlətin məqsədyönlü fəaliyyəti kimi iqtisadi siyasətin əsas alətlərindən biridir.

-Emissiyanın idarə edilməsi vasitəsilə pul dövriyyəsinin sabitliyinin təmin edilməsini, inflyasiyanın və milli valyutanın kursunun tənzimlənməsini, bank fəaliyyətinin və digər maliyyə qurumlarının işinin təşkilini, maliyyə bazarının idarə edilməsini *pul-kredit (monetar) siyasəti* əhatə edir.

-Ölkənin iqtisadi təhlükəsizliyinin və suverenliyinin qotunması məqsədilə gömrük sərhədlərinin müdafiəsi, qaçaqmalçılıq hallarının qarşısının alınması, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi, habelə büdcə gəlirlərinin formalaşdırılması prosesləri isə *gömrük siyasəti* ilə tənzimlənir.

-Strateji məhsulların qiymətlərinin tənzimlənməsi məqsədilə həyata keçirilən tədbirlər sistemi *qiymət siyasəti* ilə həyata keçirilir.

-*Valyuta siyasəti* - milli valyutanın digər valyutalara nisbətən məzənnəsinin qorunması, xarici dövlətlərlə aparılan valyuta əməliyyatlarının tənzimlənməsini əhatə edir. Dünya təsərrüfatı əlaqələri sistemində iqtisadiyyatın daxili və xarici tarazlığını təmin etmək, beynəlxalq ödənişləri müəyyən bir sistem daxilində yerinə yetirmək və tədiyyə balansını tənzimləmək məqsədilə hökümətin həyata keçirdiyi valyuta siyasəti valyuta-maliyyə və kredit münasibətlərinin idarə olunmasını əhatə edir.

-*Bazar iqtisadiyyatı və maliyyə siyasəti.* Ölkənin sosial-iqtisadi inkisaf konsepsiyasına və ortamüddətli maliyyə proqramına uygun olaraq, iqtisadiyyatın inkisafını və nəzərdə tutulan maliyyə siyasətinin həyata keçirilməsini təmin etmək üçün asağıdakı tədbirlərin reallasdırılması nəzərdə tutulur.

Müasir bazar münasibətləri şəraitində iqtisadi fəaliyyətin əsas ağırlığı iqtisadiyyatın aparıcı həlqəsi olan müəssisələrin üzərinə düşür. Cəmiyyətə lazım olan məhsullar və xidmətlər elə bu təsərrüfat subyektlərində ərsəyə gətirilir. Maliyyə sisteminin tərkib hissəsi olan müəssisə və təşkilatların maliyyəsi ictimai təkrar istehsal sistemində, xüsusi pul vəsaitlərinin və dövlətin mərkəzləşdirilmiş maliyyə resurslarının formalaşmasında aparıcı yer tutur. Hər bir ölkənin iqtisadiyyatının və onun iqtisadi inkişafının təməlini, əsas həlqəsini müxtəlif mülkiyyət formalı müəssisələr təşkil edir. Məhsul istehsalı, müxtəlif işlərin görülməsi, çoxsaylı xidmətlərin göstərilməsi kimi həyati əhəmiyyətli proseslər məhz elə müəssisələrdə baş verir.

Milli iqtisadiyyatın inkişafı xeyli dərəcədə ölkədə həyata keçirilən vergi siyasətindəndə asılıdır. Hazırda Azərbaycan Respublikasında bazar iqtisadiyyatının inkişaf etdirilməsi, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilir. Respublikamızda aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarliq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilib. Azərbaycan dölətinin bugünkü vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- *vergi sisteminin normativ-hüquqi bazasının yaradılması, vergi mədəniyyətinin formalaşdırılması;*
- *Vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması;*
- *Vergi yükünün optimal səviyyədə saxlanılması;*
- *Vergi sisteminin idarəetmə orqanlarının fəaliyyətinin digər dövlət orqanları ilə əlaqələndirilməsi;*
- *Sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, sadə və vergi ödəyicisi tərəfindən başa düşülən vergi sisteminin yaradılması.*

Son illər Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasəti aşağıda qeyd olunanlara nail olunması məqsədini güdür:

- *vergilərin sayının azaldılması;*
- *vergi dərəcələrinin azaldılması;*
- *vergi güzəştlərinin minimuma endirilməsi;*
- *hüquqi şəxslərlə fərdi sahibkarlar arasında vergi yükünün bərabərləşdirilməsi;*
- *əlverişli investisiya mühitinin yaradılması;*
- *dağ və ucqar rayonlarda sahibkarlığın stimullaşdırılması;*
- *vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi;*
- *vergidən yayınmaya qarşı səmərəli vergi nəzarətinin təşkili;*
- *vergi idarəçiliyinin təkmilləşdirilməsi.*

Bazar münasibətlərinə keçid şəraitində respublika iqtisadiyyatında gedən islahatlar vergi sistemində islahatların aparılması mexanizmi sahəsində də öz əksini tapıb. Bu istiqamətdə islahatlar ölkə iqtisadiyyatına makro səviyyədə öz təsirini göstərməklə bərabər, sahibkarlıq fəaliyyətinin geniş inkişaf etməsinə, istehsal münasibətlərinin inkişaf etdirilməsinə, bank - pul, kredit sisteminin əlaqəliliyinin daha qabarıq təşkilinə təsir edir. Vergi sistemi sahəsində islahatlar respublikanın müstəqillik qazandığı dövrdən bu günədək davam etməkdədir. Azərbaycanın vergi sistemində islahatların aparılmasında Konstitutsiyamızın tətbiq edilməsi, vergi sisteminin səmərəli fəaliyyətini tənzimləyən qanun və digər qanunvericilikaktlarının qəbulu, ayrı-ayrı vergi növləri, onların yığılması, dərəcələrinin müəyyən edilməsi, stimullaşdırıcı xarakterinin gözlənilməsi, ölkə iqtisadiyyatının inkişafına təsir mexanizminin icra edilməsi ilə bağlıdır. (ədəbiyyat 5, səh 35)

Vergi siyasəti dedikdə, maliyyə resurslarının yenidən bölüşdürülməsi hesabına dövlətin və cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə tələbatlarının təmin olunmasının və həmçinin ölkə iqtisadiyyatının normal inkişaf etdirilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması üzrə dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmuusu başa düşülür. Dövlət vergi siyasətini həyata keçirərkən vergilərə məxsus funksiyalara söykənir və aktiv vergi siyasətinin həyata keçirilməsi üçün bu funksiyalardan istifadə edir. Ölkənin iqtisadi vəziyyətindən və iqtisadi inkişafın müəyyən mərhələsində dövlətin prioritet hesab etdiyi məqsədlərdən asılı olaraq vergi siyasətinin həyata keçirilməsi üçün müxtəlif metodlardan istifadə olunur. Vergi siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla onun həyata keçirilməsinin forma və metodlarından əhəmiyyətii dərəcədə aslıdır. Vergi siyasətinin iqtisadi inkişafa təsirini daha da artırmaq üçün onu elmi cəhətdən əsaslandırmaq tələb olunur və ancaq elmi yanaşma vergi

siyasətinin nisbi müstəqilliyini mohkəmlədə bilər. Təsərrüfat təcrübəsi sübut edir ki, vergi siyasətinin iqtisadiyyatdan ayrılması ciddi çətinliklərə səbəb olur. Vergi siyasətinin təşkilinə elmi yanaşma, onun bütün faktorlarının öyrənilməsi həmin siyasətin qanunauyğunluğunu təmin edir. Bu qanunauyğunluqlara məhəl qoymamaq iqtisadiyyatda böyük itkilərə səbəb olur. Siyasi qərarlar iqtisadi məntiqin qanunlarına uyğun qəbul olunmalı və bütün hesablaşmalar gələcəkdə ola biləcək itkiləri nəzərə almalı, yəni istehsalın uzun müddət stabil işləməsinə zəmin yaratmalıdır. Buna görə iqtisadi və sosial sahələrdə gedən proseslər haqqında dəqiq informasiyaların, bu və ya başqa vergi siyasətinin, tədbirlərin nəticələri böyük rol oynaya bilərlər. İnformasiya və elmi nəticələr vergi siyasətinin formalaşmasının əsas bazası olmalı və siyasətin düzgünlüyünü yoxlamaq üçün burada mütləq maliyyə ehtiyatlarının həcminin artırılmasını və effektliyini nəzərdə tutmalıdır. Maliyyə ehtiyatlarının effektli istifadəsinin uçotunu aparmamaq vəsaitin dağılmasına səbəb ola bilər. Vergi siyasətinin formalaşması mütləq konkret tarixi şərait, o cümlədən sosial-iqtisadi inkişafın hər mərhələsini, daxili və xarici şəraitin xüsusiyyətlərini, dövlətin real iqtisadi və maliyyə imkanlarını nəzərə almalıdır. Nəzərdə tutulmuş xərclərin və maliyyə ehtiyatlarının həcminin bir-birindən asılı olması sadəcə olaraq maliyyə ehtiyatlığının, normallığın sübutu olmalı və təsərrüfatın bütün mərhələlərində eyni dərəcədə saxlanılmalıdır. Əks halda dövlət büdcəsinin kəsiri və dövlət borcları artar, infilyasiya baş verə bilər.

Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin və idarə edilməsinin ən təsirli vəsaitlərindən biri vergilərdir. Dövlətin vergi siyasəti istehsaledici qüvvələrin inkişafına və onun ölkədə səmərəli yerləşdirilməsinə kömək edir. Dövlətin vergi siyasəti başqa ölkələrlə xarici-iqtisadi əlaqələrin möhkəmkənməsinə, birgə tədbirlərin keçirilməsinə şərait yaradır, çünki elmi-texniki tərəqqinin inkişafı bəzi tədbirlərin təklikdə həyata keçirməyə imkan vermir, bu tək dövlətin işi deyil. Vergi siyasətini həyata keçirmək üçün maliyyə mexanizmindən istifadə olunur. Bu mexanizm maliyyə münasibətlərinin, üsulların cəmindən ibarətdir və həmin üsullar cəmiyyət tərəfindən müsbət iqtisadi və sosial inkişafı üçün şərait yaratmaq üçün istifadə olunur. Maliyyə mexanizminə ayrı-ayrı forma və üsullar daxildir və onun strukturu çox mürəkkəbdir. Maliyyə qarşılıqlı əlaqələrin çoxluğu mexanizmin forma və üsullarını qabaqcadan müəyyən edir. Dövlət, onun icraedici və qanunverici orqanlarının iqtisadi qanunlarını, maliyyə vəsaitinin inkişafını, qarşıda duran məsələləri öyrənərkən milli gəlirin, köçürmələrin miqdarını, dövlət vəsaitinin xərclənməsini təyin edir.

Bu gün Azərbaycanın maliyyə siyasəti dövlətin maliyyə resurslarının toplanması, bölüşdürülməsi və istifadəsi ilə əlaqədar həyata keçirdiyi tədbirlərin məcmusundan ibarətdir. Bu siyasət ictimai həyatın bütün tərəflərini, yəni həm iqtisadi, həm sosial və həm də beynəlxalq münasibətləri əhatə edir.

Bazar münasibətlərinə keçidlə əlaqədar həyata keçirilən təşkilati və iqtisadi tədbirlər ölkədə yeni bank və maliyyə sisteminin yaradılmasına, iqtisadiyyatın qeyri dövlət bölməsinin formalaşmasına, əmtəə, xidmət və kapital bazarının fəaliyyətinə şərait yaratdı.

Müasir dövrdə müəssisələrin sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdir. Mənfəət müəssisədə istehsalın genişləndirilməsinin, iqtisadi həvəsləndirmə fondlarının təşkilinin və büdcə gəlirlərinin formalaşmasının əsas mənbələrindən biridir. Bütün bunlar isə müəssisələrdə maliyyə münasibətlərinin daha da təkmilləşdirilməsini tələb edir. Artıq müəssisələr öz maliyyə-təsərrüfat fəaliyyətini bazarın diqqətinə uyğun şəkildə təşkil etmək məcburiyyətində qalmışdır.

Müəssisənin maddi-texniki bazarının möhkəmlənməsi, işçilərin maddi marağının təmin olunması müəssisənin istehsal etdiyi və yaxud göstərdiyi xidmətlərin alıcılar tərəfindən necə qarşılamasından, həmin fəaliyyət növünə olan tələbatın səviyyəsindən asılıdır. Buna görə də müəssisə fəaliyyətini helə qurmalıdır ki, bu həm onlarla geniş təkrar istehsal prosesinin normal gedişinin təmin olunması, həm dövlət qarşısındakı öhdəliklərin yerinə yetirilməsi, həm də müəssisədə çalışanların mənafeyinin qorunmasına imkan vermiş olsun. Bütün bu yuxarıda qeyd olunan vəzifələrin yerinə yetirilməsi müəssisədə maliyyə münasibətlərinin düzgün təşkil edilməsindən, maliyyə xidmətlərinə, maliyyə menecmenti və maliyyə planlaşdırılmasının daha da təkmilləşdirilməsindən, onların bazar münasibətlərinə keçid müasir tələblərinə uyğunlaşdırılmasından asılıdır.

## ƏDƏBİYYAT


1. http://www.maliyye.gov.az/
2. http://www.taxes.gov.az/
3. N.A.Novruzov, Maliyyə, Bakı-2007, 464 səh
4. N.Əhmədov, Maliyyənin əsasları, Bakı-2016, 448 səh.
5. Y.A.Kəlbiyev, Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri, Bakı - 2012, 488 səh.
6. T.A.Abbasov, Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf, Bakı - 2018, 584 səh.
7. M.S.Bağırov, Mühasibat uçotu nəzəriyyəsinin beynəlxalq təcrübəsi, Naxçıvan – 2010
8. Vergi məcəlləsi "Azərbaycan" qəzeti, 30 yanvar 2019-cu il, № 23

**AMAR QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*ammarhuseyn@yahoo.com*

# AZƏRBAYCANDA QLOBALLAŞMA DÖVRÜNÜN TƏLƏBLƏRİNİN KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA TƏSİRİ.

**XÜLASƏ**

*Məqalədə qloballaşmanın əhəmiyyətindən ətraflı bəhs edilmiş, və onun sahibkarlığa təsirindən söz açılmışdı..Sahibkarlığın inkişafında dövlətin hüquqi-iqtisadi tənzimlənmə siyasətindən bəhs edilmiş və bu sahədə imzalanmış qanun və fərmanların əhəmiyyəti göstərilmişdir. Muxtar respublikada həlli vacib məsələlərdən biri kimi bölgələrdə sahibkarlığın inkişafını sürətləndirməkə, əhalinin sosial həyat səviyyəsinin yüksəlməsinə ölkədə işsizliyin və yoxsulluğun azalmasınna nail olmağın yolları geniş şəkildə izah olunmuşdur.*

**Açar sözlər:**,*Qloballlaşma, sahibkarlıq fəaliyyəti, sosial həyat, iqtisadi idarəetmə, maliyyə bazarları, dövlət proqramları, məşğuliyyət.*

Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. Qloballaşmanın əsasını maliyyə bazarlarının təmərküzləşməsi təşkil etsə də, o, milli təsərrüfatlara, siyasətə, mədəniyyətə, hüquq sistemlərinə və s. təsir göstərməyə başlayır. O, qlobal iqtisadi dəyişiklərlə yanaşı, bəşəriyyət üçün bütöv bir problemlər kompleksi yaratmışdır ki, bunlar da vahid qlobal məkana, vahid "qlobal kəndə" keçidin çətinliklərində özünü göstərir. Qloballaşma artıq bəşəriyyətə həqiqətən nəzərə çarpacaq töhfələr vermiş, yeni inkişaf perspektivləri açmış və bütövlükdə dünya tarixinin gedişini sürətləndirmişdir. Şübhəsiz, qloballaşma prosesində dünya iqtisadiyyatı daha tutumlu, daha çevik olur, çünki vahid bir tam təşkil edir, bu isə, insanların sosial-iqtisadi tələbatına güclü təsir göstərir.

Qloballaşmanın mahiyyəti ictimai-iqtisadi, sosial həyatın bütün sahələrində baş verən real proseslər kimi xarakterizə edilir və fəaliyyət dairəsi genişlənir.

Qloballaşma dünya iqtisadiyyatının keyfiyyətcə tam yeni halıdır, müxtəlif mahiyyət kəsb etməklə yanaşı sosial siyasətin ana xəttini formalaşdırır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev deyib ki, gələcəkdə kənd təsərrüfatının inkişafına yeni proqramlar əlavə ediləcək və biz bu sahəyə maksimum dərəcədə diqqət göstərməliyik. Bu, həm təhlükəsizlik, həm iqtisadi, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin demək olar ki, yarısı kənd təsərrüfatı bölgələrində yaşayır. Təhlükəsizlik, iqtisadi və sosial məsələlər ilk əvvəl önəmli istiqamət olan maddi istehsaldan keçir. Azərbaycanda maddi istehsalın sahə quruluşunun təkmilləşmiş istiqamətində aparılan tədbirlər, sərəncamlar, fərmanların qəbul edilməsi bu istiqamətdə yeni müəssisələrin işə salınması və istehsalın genişləndirilməsinə kömək edir. Bu proseslər durmadan genişlənir, sistematik məqsədyönlü xarakter alır.

Azərbaycanın Əsrin Müqaviləsi və daha sonra bir neçə başqa neft və qaz müqavilələri dünyanın iri enerji şirkətlərini onlar üçün yeni olan coğrafi və siyasi məkana gətirdi. Ölkəmizin iqtisadiyyatı getdikcə daha çox qloballaşan dünya iqtisadiyyatına inteqrasiya etməyə başladı. Hər şeydən əvvəl artıq ölkə iqtisa-diyyatında dünya bazarında neft və qazın qiymətləri mühüm faktora çevrildi. Beləliklə, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycanın qarşısında çox mühüm həllediləsi vəzifələr durur. Bu vəzifələrin əsas qayəsi isə ölkə vətəndaşlarının davamlı sosial iqtisadi inkişafını və təhlükəsizliyini təmin edəcək rəqabətə davamlı qabaqcıl iqtisadiyyat qurmaqdır.

Kənd təsərrüfatı, aqrar sahənin inkişafı ilə yanaşı perspektivdə başlıca məsələ sosial-iqtisadi problemlərin həlli üçün sənaye siyasətinin formalaşdırılması və onunla bağlı problemlərin uzlaşdırılması, regionların təbii ehtiyatlardan tam və səmərəli istifadə etməsidir. Azərbaycan

Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Proqramın hazırlanması və həyata keçirilməsi iqtisadiyyatımız üçün modern yanaşma mərhələsi olmalıdır.

Müasir bazar iqtisadiyyatı şəraitində əhalinin həyat səviyyəsinin daima yaxşılaşdırılması prosesi kifayət qədər mürəkkəb və çoxşaxəli siyasi sosial-iqtisadi münasibətlər sistemidir. Əhalinin həyat səviyyəsi əhatə dairəsinə görə mikro, makro və qlobal səviyyələrə bölünür.

"2009-2013-cü illərdə Azərbaycan Respublikasının Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın müzakirəsi zamanı İ.Əliyev deyib: "İndi Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Əlbəttə ki, Azərbaycanda və xüsusilə rayonlarda bu sahədə ixtisaslaşma getməlidir... Bütövlükdə gələcəkdə iqtisadiyyatın bütün sənaye kompleksinin modernləşdirilməsi prosesi daha da sürətlə getməlidir. Respublikada sənayeləşmənin sürətli inkişafı üçün ilk növbədə kiçik, orta sahibkarlığın sistemli, məqsədəuyğun formalaşması mühüm problemdir".

Sahibkarlıq sahələrinin inkişafında vergi sisteminin mühüm iqtisadi, istiqamətverici, qarşılıqlı tərəfdaşlıq əsasında qurulması sahibkarlığın səmərəliliyinin yüksəldilməsinin mühüm amilidir. İnsan kapitalının yeni yaşayış motivlərinin yaranması, əməyə yeni münasibətlər, vergi nəzarətinin sivil qaydada həyata keçirilməsi sahibkarlıq sisteminin formalaşmasının mühüm elementlərindəndir.

Ölkəmizdə keçid iqtisadiyyatının formalaşmasında kiçik və orta sahibkarlıq strategiyası önəmli rol oynayır. Bütövlikdə sahibkarlıq fenomenti bazar iqtisadiyyatının əsas strukturu olub, əsasən xüsusi mülkiyyət formasının təzahürü kimi meydana gəlmişdir. Təsədüfi deyildir ki, hazırda Azərbaycan Respublikasında dövlətin həyata keçirdiyi iqtisadi siyasətin ana xəttini sahibkarlığın ardıcıl inkişaf etdirilməsi təşkil edir.

Kiçik və orta sahibkarlıq subyektləri, adından da göründüyü kimi iri müəssisələr olmasalar da onların iqtisadiyyatda oynadığı rol hər baxımdan iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir. Xüsusən də ümumi daxili məhsulun istehsalının davamlı artırılması, büdcənin vergi ehtiyaclarının ödənilməsi və məşğulluğun artırılması məsələlərində kiçik və orta sahibkarların əvəzedilməz imkanları var. Bu cəhətlərinə görə, dünyanın inkişaf arzusunda olan bütün ölkələrində kiçik və orta sahibkarlara dəstək sahibkarlığa dəstəyin əsas əlaməti sayılır.

Son onilliklərin təsrübəsi təsdiqləyir ki, kiçik və orta sahibkarlar iqtisadi inkişafın əsas təminatçısıdır, məşğulluğun və yeniliklərin vacib mənbəyidir.

Buna görə də kiçik və orta sahibkarların vəziyyətindən danışdıqda daha çox ölkənin iqtisadi və sosial vəziyyəti göz önünə gəlir. Makroiqtisadi əhəmiyyətinə nəzər yetirdikdə bəlli olur ki, inkişaf etmiş ölkələrdə mövcud müəssisələrin 99 faizi, hətta bir qədər də artığı kiçik və orta sahibkarlardır. Onların məşğulluqda payı 50-70 faiz səviyyəsində dəyişir. Ümumi daxili məhsul istehsalında payları isə 50-60 faiz həcmindədir.

Kiçik və orta sahibkarlar sadəcə qabaqcıl ölkələrin deyil, həm də inkişaf etməkdə olan ölkələrin də makroiqtisadi səhnəsində önəmli rola sahibdirlər.

Kiçik və orta müəssisələr bazar subyektləri olmaqla müstəqil hüquqi şəxs kimi müxtəlif fəaliyyət növləri ilə məşgul olurlar. Onlar iri müəssisələrdən fərqli olaraq qeyri-sabitdirlər, yəni müxtəlif fəaliyyət sahələrində bizneslə məşgul olan kiçik müəssisələrin bəziləri ildən ilə sıradan çıxır və yeniləri yaranır. Bu proses daim yeniləşməkdə olan istehsal tələbatından irəli gəlir. Təsərrüfat fəaliyyətinin bir dairəsində kiçik və orta müəssisələri uğursuzluğu səriştəli və təcrübəli sahibkarları digər gəlirli sahələrə istiqamətləndirilməsinə sövq edir.

Kiçik müəssisələrin xüsusi mülkiyyətin bazasında mövcud olub fəaliyyət göstərməsi heç də onların “kiçik” olması mənasını tam ifadə etmir. Əslində kiçik müəssisələrin fəaliyyətini mülkiyyət forması çərçivəsində səciyyələndirmək də düzgün olmazdı. Çünki, istənilən dövlət, idarə, kooperativ, səhmdar, ailə və müəssisələr kiçik ölçülü olaraq təsərüfat vahidləri kimi fəaliyyət göstərə bilirlər. Bu baxımdan kiçik müəssisələri iki meyarla xarakterizə etmək olar:

a) təsərrüfat dövriyyəsinin həcminə görə;
b) müəssisələrdə çalışan işçilərin sayına görə

21 dekabr 2018- ci il tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında 556 saylı qərarına əsasən Kiçik sahibkarların meyarların hədləri müəyyənləşdirilmişdir. Təqdim edilən layihədə «Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları» sahibkarlıq subyektlərinin hər birinin konkret öhdəlikləri müəyyənləşdirir. Qərara əsasən, işçi sayı 1-dən 10-a, illik gəlirləri 200 min manatadək olanlar mikro, işçi sayı 11-dən 50-dək, illik gəlirləri 200 min manatdan 3 milyon manatadək olanlar kiçik sahibkarlıq, işçi sayı 51-dən 200-dək, illik gəlirləri 3 milyondan 30 milyon manatadək olanlar orta sahibkarlıq, işçi sayı 251-dən yuxarı, illik gəlirləri 30 milyon manatdan yuxarı olanlar isə iri subyektlər hesab olunur. Yeni meyarların müəyyənləşdirilməsi sahibkarlığa dövlət dəstəyinin göstərilməsində ünvanlılığın təmin edilməsi, ölkədə dolğun statistik-iqtisadi təhlillərin aparılması baxımından əhəmiyyətlidir.

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların işə olan münasibətini dəyişmiş, onların sahibkarlıqla bağlı maraqlarını daha da gücləndirmişdir. Artıq muxtar respublikada iqtisadiyyatın formalaşmasında özəl sektor, xüsusilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır. İqtisadiyyat sahəsində aparılan islahatlar muxtar respublikada bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına şərait yaratmış, investisiyalar, müasir texnologiyalar və idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın maddi rifahının yüksəldilməsinə yönəldilmişdir. Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmişdir. İdarəetmənin və iqtisadiyyatın bütün sahələrində mühüm əhəmiyyətə malik qanunlar, proqramlar və fərmanlar qəbul edilmişdir. Sahibkarlıq infrastrukturunun zəruri mexanizmləri yaradılmışdır. Sahibkarlara maliyyə, informasiya və məsləhət xidmətləri göstərən strukturlar formalaşmışdır. Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potansialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəldilməsinə təminat verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası». Bakı 2012
2. A.Şəkərəliyev, Q.Şəkərəliyev «Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər» Bakı 2016
3. T.Abbasov Naxçıvan: aqrar sektorun resurs potensialı,aqrar bazar və iqtisadi inkişaf.Bakı 2018, 584s
4. "2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarının xülasəsi" Naxçıvan: Əcəmi 2019
5. Stat.gov.az
6. http://az.trend.az/business/economy/2485849.html
7. http://www.e-qanun.az/framework/27284

**RAUF RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*

# AQRAR SEKTORDA İSTİFADƏ EDİLƏN ƏN SON İNNOVATİV YENİLİKLƏR: ROBOT TEXNOLOGİYALARI VƏ DRONLAR

**Xülasə**

*Məqalədə, dünya ölkələrində aqrar sektorda innovativ yeniliklərin tətbiqi məsələləri, bu istiqamətdə dünya ölkələrinin əldə etdiyi uğurlar, innovativ yeniliklərin kənd təsərrüfatında tətbiqinin üstünlükləri, mövcud vəziyyət və Azərbaycanda kənd təsərrüfatında dronların tətbiqi istiqamətində həyata keçirilən tədbirlər müxtəlif aspektlərdən araşdırılmışdır.*

**Açar sözlər:** *aqrar sektor,robot texnologiyaları,dronlar,yeni texnologiyalar*

Mütəxəssislər tərəfindən aparılan araşdırmalara əsasən əhali artımı nəzərə alınaraq 2050-ci ildə dünya əhalisinin 9 milyardı keçəcəyi proqnozlaşdırılır. Bu artımla əlaqədar olaraq gələcəkdə dünya ölkələri aqrar sektorla bağlı ehtiyac və tələblərin tam şəkildə ödənilməsi problemi ilə qarşı-qarşıya qalacaqlar. Yaranacaq ehtiyacları hərtərəfli və sürətli bir şəkildə qarşılamaq üçün bu sahədə yeni texnologiyalardan istifadə və onun tətbiqinin daha da genişləndirilməsi ən səmərəli vasitələrdən biridir.

Dünya təcrübəsinə əsasən aqrar sektorda istifadə edilən yeni texnologiyaları 4 qrupa bölmək olar:

- Kompüter təchizatlı kənd təsərrüfatı maşınları;
- İnternet bağlantılı vasitələr;
- Robot texnologiyaları;
- Dron və ya pilotsuz uçan aparat (PUA).

Demək olar ki, bugün müxtəlif ölkələrdə kənd təsərrüfatında istifadə olunan traktor, kombayn və digər kənd təsərrüfatı texnikaları kompüter sistemləri ilə təchiz olunmuşdur. Texnikalarla yanaşı internet bağlantılı vasitələr də fermerlərin işini asanlaşdırmışdır. Belə ki, artıq tarlalarda taxıl yarpaqları ağıllı eynək vasitəsilə analiz edilir, traktor üzərinə yerləşdirilən optik cihazlar bitkilərin fotosintez prosesini, su və gübrə ehtiyaclarını, akustik zond isə taxıl içində böcək olub olmadığını müəyyənləşdirir.

Robot texnologiyalarından dünyada yalnız sənayedə və gündəlik həyatda deyil kənd təsərrüfatında da istifadə edilir. Alaq otlarını təmizləyən robotlar olduğu kimi həmçinin torpağı şumlayan robot-traktorlar, robot-qatırlar (yük, meyvə daşıyan), ağıllı sistem vasitəsilə yalnız tarlanın müəyyənləşdirilmiş sahələrinə gübrə səpən robotlar da vardır. Hal-hazırda ABŞ, Avropa ölkələri, Yaponiya, Avstraliya kimi ölkələrdə aqrar sektorda robot texnologiyalarından geniş istifadə edilir və bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilmişdir.

Son illərdə alimlər insanların istehlak etdiyi bütün məhsulların, üçdə birini tozlandıran bal arılarının sayının azalmasının qarşısını almaq yollarını axtarırlar. Ən pis vəziyyətə qarşı hazırlıqlı olmaq istəyən və dünyada arıların kütləvi ölümləri üzərinə hərəkətə keçən bəzi ölkələr alternativ variantlar axtarışına başlamışdır. Bu istiqamətdə ABŞ-ın “Dropcopter” adlı texnologiya şirkəti hazırlamış olduğu robot arı texnologiyasından istifadə edərək dünyada ilk dəfə süni yolla, 121 hektarlıq alma bağında tozlandırma işini müvəffəqiyyətli bir şəkildə həyata keçirmişdir. Robot arılar saatda 16 hektara qədər ərazidə tozlanma aparır və təbii arıların əksinə gecələri də işləyə bilirlər.

Kənd təsərrüfatında əkin sahələrində istehsala zərər verən alaq otlarının təmizlənməsi üçün müxtəlif ölkələrdə robot texnologiyaları hazırlayan firmalar mövcuddur. İsveçrənin “EcoRobotix” şirkətinin hazırladığı yeni robotu bu istiqamətdə hazırlanmış son texnoloji nailiyyətlərdən biri kimi qeyd etmək olar. Robot,üzərində quraşdırılmış bir cüt günəş paneli sayəsində istehsal etdiyi enerji

ilə 12 saat müddətində işləyə bilir. Kamera, sensor və GPS köməkliyi ilə torpaqdakı alaq otlarını aşkar edən robot 2 ədəd "əl" formasında olan strukturu vasitəsilə alaq otlarının üzərinə cüzi miqdarda herbisit tökərək onları təmizləyir. Mexaniki üsulla aparılan dərmanlama ilə müqayisədə iyirmi dəfə az dərman istifadə edən robot, həm dərman xərclərini azaldır, həm də məhsullara bulaşan kimyəvi maddələri azaldaraq insan səhhətinin qorunmasına xidmət edir.

Britaniyanın "Lincoln Universiteti"-ndə və Norveçin "Norveç Sosial Elmlər İnstitutu"-nda çalışan elm adamları isə 14 fermerin görəcəyi işi bir neçə saatda bitirə bilən "Thorvald" adlı robot yaradıblar. Smartfon və konsolla idarə edilən bu robot alaq otlarını təmizləyir, üzərində quraşdırılmış kamera ilə ərazini araşdırır, torpağın nəmliyini və azot miqdarını ölçür. Robot həmçinin bitkiləri müşahidə edərək şəkillərini çəkir, kif göbələklərinin və ziyanvericilərin yaranmasının qarşısını almaq üçün ultrabənövşəyi şüalardan istifadə edir.

Əsasən Avropa ölkələri və Amerikada aqrar sektorda mövsüm ərzində, məhsul əkimi və yığımı zamanı yaranan işçi çatışmazlığı və digər problemlərin həllində də robot texnologiyalarından istifadə öz müsbət nəticələrini verməkdədir. Bu istiqamətdə ABŞ-ın "Case IH" Şirkəti tərəfindən istehsal olunan elektrikli robot traktorlar aqrar sektorda istifadə edilən innovativ yeniliklərdən biridir. Avtonom texnologiyaya malik olan traktorda sürücü kabini yoxdur və digər kənd təsərrüfatı texnikaları ilə qüsursuz bir şəkildə inteqrasiya ola bilir. İstifadəçi, tablet vasitəsilə texnikanı uzaqdan izləyərək istədiyi vaxt iş prosesini tənzimləyə bilir. Traktor, üzərində yerləşən yüksək ayırdetmə dəqiqliyinə malik kameralar və "LİDAR" (lazer skanlaşdırması) sistemi vasitəsilə ərazinin xəritəsini dəqiqləşdirərək uyğun bir yol sxemi müəyyənləşdirir. Daha sonra bağlantılı olduğu digər kənd təsərrüfatı texnikası ilə birlikdə, əvvəlcədən istifadəçi tərəfindən proqramlaşdırılmış şəkildə tarlada iş prosesinə başlayır. Hərəkətli və sabit maneələrdə səsli-görüntülü xəbərdarlıq siqnalı verən traktor istifadəçi tərəfindən növbəti görəcəyi iş prosesi əmri verilənə qədər müvəqqəti olaraq mühərrikin işləməsini dayandırır. Həmçinin traktorda quraşdırılmış sensorlar vasitəsilə məhsulların sağlamlıq və ərazinin su vəziyyəti haqqında məlumatlar da əldə etmək mümkündür. Torpağı şumlama, dərmanlama, məhsul əkmə və yığma kimi proseslərdə klassik üsullara nisbətən işçi, zaman və faydalılıq baxımından çox böyük üstünlük qazandıran robot traktor istehsal xərclərinin azaldılmasına da köməklik edir.

Hollandiya şirkəti tərəfindən Türkiyədə qurulan fermalarda isə artıq müəyyən işlər robotlar tərəfindən həyata keçirilməyə başlayıb. Fermalarda iribuynuzlu heyvanların sağımını tamamilə robotlar həyata keçirir. Robotlar həmçinin heyvanların sağıma gəlmə müddətinə, yediyi yemə, hər sağımdakı ümumi süd miqdarına, xəstəliklər və süddəki bakteriya miqdarına nəzarət edirlər.

Robot rexnologiyaları ilə yanaşı dronlardan da bu gün bir çox inkişaf etmiş ölkələrin kənd təsərrüfatında geniş istifadə olunur. Son illərdə bir sıra ölkələrdə kənd təsərrüfatı işlərində ağır texnikaları artıq dronlar əvəz etməyə başlayıb. Fermerlər üçün kənd təsərrüfatı işlərini xeyli asanlaşdıran bu texnologiyanın bir çox üstünlükləri vardır. Dronlar kənd təsərrüfatında aqromenecment işini həyat keçirməyə, daha keyfiyyətli və bol kənd təsərrüfatı məhsulu istehsal etməyə imkan verir. Eyni zamanda dronlar əkin sahələrinin vəziyyəti haqqında məlumatları çox qısa zamanda toplayıb sistemləşdirməyə və proqnozlar verməyə imkan verir, əkin sahələrində üçölçülü xəritəalma işlərini həyata keçirir, ərazidə olan azot və digər maddələrin miqdarını müəyyən edir, aqrokimyəvi məhsulların bitkilər üzərinə çilənməsini çox dəqiqliklə həyata keçirirlər. Bəzi ölkələrdə hətta əkin sahələrinin suvarılmasında da dronlardan istifadə edilir. Ümumiyyətlə dronların kənd təsərrüfatında tətbiqi bir çox üstünlüklərə malikdir:

-torpaq tədqiqatı və aqrotexniki tədbirlərin daha dəqiq aparılması;

-müşahidələrin aparılması üçün ayrılan zamana qənaət edilməsi;

-nəqliyyat vasitələrindən istifadəyə və yanacağa qənaət edilməsi;

-bitkilərdə zərərvericilərə qarşı dərmanlama işinin istənilən hava şəraitində aparılması,

-əkin sahələrində məşğul olan işçilərin sayını azaldaraq əmək haqqı fonduna qənaət edilməsi;

-yeni texnologiyaların tətbiqi nəticəsində kənd yerlərində iş üçün gənc mütəxəssislərin cəlb edilməsi və s.

Dünyada innovativ texnologiyalardan ən çox istifadə edən ölkələrdən biri olan Yaponiyada, ölkənin qərbində yerləşən Hiroşima Hiqaşi şəhərində yerləşən kənd təsərrüfatı kooperativində yaşlı fermerlərin işini yüngülləşdirmək məqsədilə düyü şitillərinin dron vasitəsilə əkini sınaqdan keçirilib. Sınaq zamanı şitillərin olduğu konteynerin üzərində yerləşən operator iki metr hündürlükdən onları əkin sahəsinə yayıb. Ümumi sahəsi iki min kvadratmetr olan düyü sahəsinə şitillərin əkilməsi cəmi 10 dəqiqə vaxt aparıb. Bu isə, adi halda həmin sahənin əkilməsi üçün lazım olan vaxtdan altı dəfə azdır.

Aqrar sektorda məhsuldarlığın artırılması və keyfiyyətli məhsul əldə edilməsinə təsir edən əsas faktorlardan biri də pestisidlərdən istifadədir. Pestisidlərdən lazım olan faydanı əldə edə bilmək üçün isə onların tətbiqində mütərəqqi texnologiyalardan, xüsusilə də dronlardan istifadə çox böyük önəm daşıyır. Çin istehsalı olan yeni nəsil "DJI Agras MG-1" dronları bu istiqamətdə hazırlanmış ən son texnologiyalar hesab edilir. 10 litrlik maye daşıma həcminə malik dron 10 dəqiqə ərzində 4000-6000 kvadratmetr əraziyə dərman səpə bilir. Saniyədə 8 metr sürətlə uça bilən dron avtomatik, yarı avtomatik və manual şəkildə idarə olunur. Ağıllı uçuş nəzarət sistemi və radarla təchiz edilmiş dron uçuş zamanı əkin sahəsi ilə arasındakı optimal məsafəni qoruyur, xüsusi sistemi sayəsində isə püskürtməni uçuş sürətinə görə nizamlamaqla hər zaman bərabər miqdarda spreyləmə apara bilir. Manual metodla müqayisədə 40 dəfə daha sürətli dərmanlama apara bilən və uçduğu koordinatları yaddaşa qeyd edən dron hər hansı bir səbəblə uçuş yarıda qalarsa, təkrar qaldığı yerdən uçuşa davam edə bilir.

Robot texnologiyaların və dronların dünya ölkələrində müxtəlif sahələrdə sürətlə yer aldığını nəzərə alaraq ölkəmizdə də bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Azərbaycan Milli Elmlər Akademiyasında 2015-2016-cı illərdən başlayaraq dron texnologiyası ilə məşğul olan qruplar yaradılmış, AMEA Yüksək Texnologiyalar Parkı (AMEA YTP) yarandıqdan sonra isə bu qruplar onun ətrafında birləşmişdir. Nəticədə AMEA-nın ilk dronları yaradılmış və aparılan sınaqlardan müvəffəqiyyətlə çıxmışdır. Hazırlanmış bu dronlar yüksəklikdən video-foto çəkilişlərin edilməsi, kənd təsərrüfatında ərazinin spektral analizinin aparılması, kənd təsərrüfatında suvarma və dərmanlama, xəritəçəkmə (3D xəritələrin yaradılması) və bir çox məqsədlərlə istifadə edilə bilər.

Bir məlumatı da qeyd etmək lazımdır ki, hal-hazırda ölkəmizdə dronlardan aqrar təsərrüfatlarda istifadəyə başlanılıb və ilkin sınaqlar yaxşı nəticələr veribdir. Lakin, hələ ölkəmizdə qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorda bu istiqamətdə görüləcək işlər çoxdur və dünyada mövcud olan innovativ texnologiyaların geniş tətbiqinə ciddi ehtiyac vardır.

Ölkəmizdə o,cümlədən Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində bu tipli texnologiyaların gələcəkdə tətbiqi aqrotexniki tədbirlərin daha dəqiq və səmərəli aparılmasına, əkin sahələrində dərmanlama işinin istənilən hava şəraitində həyata keçirilməsinə, məhsuldarlığın artırılmasına, fermer və təsərrüfatçıların xərclərinin azaldılmasına geniş imkanlar yarada bilər. Bütün bunlar isə son nəticədə kənd təsərrüfatının bütün sahələrinin daha da sürətli inkişafına və yerli istehsal hesabına əhalinin təhlükəsiz qida məhsulları ilə təminatına böyük töhfələr verə bilər.

## ƏDƏBİYYAT


1. Əhmədov G.Ə. Kənd təsərrüfatı innovasiyalarının tətbiq istiqamətləri. Bakı-2010.
2. Salahov S.V. Aqrar sahənin innovasiya yönümlü inkişafının konseptual əsasları. "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri"-nə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı-2010.
3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı-"Elm"-2009.
4. Sefa Tarhan ve Mehmet Metin Özgüven. ("CIGR Handbook of Agricultural Engineering Volume VI Information Technology"-Çeviri)-2015.
5. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşryyatı – 2011-522 səh.

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

# AQRAR SAHƏDƏ UÇOTUN TƏŞKİLİ ÜZRƏ TƏNZİMLƏMƏ FƏALİYYƏTİNİN KONSEPTUAL ƏSASLARI

## XÜLASƏ

*Məqalədə əsas tədqiqat obyekti kimi aqrar sahə seçilmişdir. Məzmun etibarı ilə bu sfera daxili vahidləri üzrə özünün əhəmiyyətini qorumaqla yanaşı, özündə baş verən əməliyyatların məzmunu və tərkibi, onların xüsusiyyətləri haqqında məlumatlara malik olmalıdır.*

*Kənd təsərrüfatı sahəsi əhəmiyyəti nəzərə alınaraq, bu sferada olan həqiqi vəziyyət haqda məlumatların əldə olunması, bu əsasda qiymətləndirmə və təhlil işlərinin icrası mühüm əhəmiyyət kəsb etməkdədir. Bu baxımdan təsərrüfat uçotu, onun tərkib elementləri vasitəsilə informasiyaların əldə olunması, bəhs olunan fəaliyyət üzrə zəruri tənzimləmə işlərinin icrası işin əsas qayəsini təşkil etməkdədir.*

*Sahəvi müstəvidə uçot tənzimlənməsinin nümunələrindən olan məqalə özündə mövzu ilə bağlı müxtəlif təsnifləşdirmələri ifadə eməkdədir ki, bu da mövzunun daha aydın mənimsənil-məsinə şərait yaradır.*

**Açar sözlər:** iqtisadi sahə, aqrar sfera, sahəvi tənzimləmə, tənzimləmə siyasəti, mühasibat uçotu, regional tənzmləmə

Müasir iqtisadi şərait məhsul istehsalı və reallaşdırılması sferasında iqtisadi alət və vasitələrin düzgün istifadə olunmasını, onun zəruri hallqrda təkmilləşdirilməsi və yeni, daha mütərəqqi mərhələlərə keçidini şərtləndirir. Bu sırada araşdırma obyektləri sırasında sahə olaraq kənd təsərrüfatının, mexanizm və vasitələr olaraq isə təsərrüfat uçotu və onunla bağlı tənzimləmə vasitələrinin seçilməsi və istifadəsi qayda və qanunauyğunluqları mühüm əhəmiyyət kəsb etməkdədir.

Özünün müstəqilliyinə nail olmuş respublikamız bazar iqtisadiyyatının qaydaları ilə fəaliyyət göstərməkdədir. Belə şəraitdə normal işləyə bilmək üçün ilk növbədə məhsul istehsalı artırılmalı, düzgün bölüşdürülməli və istifadə edilməli, bu pro-seslərə müvafiq qaydada müşahidə və nəzarət təşkil olunmalı, qırılmış iqtisadi əlaqələr bərpa olunmalı, maliyyə-kredit və di-gər mexanizmlər möhkəmləndirilməlidir. Bütün bu proseslərin müşahidə edilməsi təsərrüfat uçotunun köməyi ilə həyata keçirilir.

Təsərrüfat uçotuna tələbat insan cəmiyyətinin inkişafının ən ibtidai mərhələlərində meydana gəlmiş və bütün ictimai-iqtisadi formasiyalarda mövcud olmuşdur. Bu bir tərəfdən insanların malik olduğu əmlakın qeydiyyata alınması ilə şərtlənirdisə, digər tərəfdən əkinçiliyin, maldarlığın, sənətkarlığın, sonda isə ticarətin müstəqil fəaliyyət sferasına çevrilməsi bəlli bölgü və nisbətləri uçota almağı diktə edirdi. Təsərrüfat uçotu bütün içtimai formasiyalarda eyni olmamışdır. İctimai quruluş dəyişdikcə, onun məzmunu həmin qu-ruluşun tələblərinə uyğun olaraq dəyişmiş, təkmilləşmişdir. Hər bir içtimai formasiyada təsərrüfat uçotunun öz məqsədi, vəzifəsi, forması olmuşdur. İnsan cəmiyyəti inkişaf etdikcə uçotun aparılması və maddi istehsal hadisələrinin əks etdirilmə texnikası özünəməxsus qaydada yenilənmişdir.

Problemin "aqrar sahə - uçot – tənzimləmə fəaliyyəti" üçlüyünün vahid məcmu şəklində təzahürü prizmasından nəzərdən keçirilməsi aşağıdakı mühüm məqamlara diqqət yetirməyi tələb edir. Burada ilk məqam – araşdırılan problemin mövcud olan sahə aidiyyatının müəyyən edilməsidir. Yəni, kənd təsərrüfatı - bir tərəfdən özünün ərzaq və emal sənayesinin ehtiyaclarının ödənilməsində mühüm rol oynayan sahədir, digər tərəfdən - onun ümumi əmtəə dövriyyəsi bir sıra

digər sahələrlə müqayisədə daha kiçik həcmlərdə olsa da, sahə üzrə bitkiçilik və heyvandarlıq təyinatlı əmtəələrin növ və çeşid diapozonu kifayət qədər genişdir, rəngarəngdir.

İkinci məqam – mövcud obyektin uçot təyinatlı xarakter və xassələrinin aşkarlanması və qeydiyyata cəlb olunmasıdır. Qeyd olunmalıdır ki, uçot bir tərəfdən özünün obyektinə aydınlıq gətirdiyi halda, digər tərəfdən araşdırma obyektinin ayrı-ayrı yönlərinə hansı ölçülərin tətbiq olunacağı ilə bağlı fikir söyləməyə imkan verir.

Üçüncü məqam – uçot fəaliyyətinin tənzimləmə alət və mexanizmləri ilə sistemli şəkildə nizama salınması və təkmilləşdirilməsidir. Fikirlərin eyni məcmuda birləşdirilməsi araşdırmanın məqsədinin - aqrar sahədə təsərrüfat uçotunun tənzimlənməsinin əsas müddəalarına, məqsədlərinə və digər mühüm məsələlərinin aydınlaşdırılmasına şərait yaradır.

Ümumiyyətlə, cəmiyyət və onun məhsuldar qüvvələri inkişaf etdikcə təsərrüfat uçotu da təkmilləşmiş, onun məzmunu genişlənmiş, texnikası, metodu və elementləri inkişaf etmişdir. Bunlara muvafiq olaraq onun məqsəd və vəzifələri də istehsal vasitələrinə uygun sürətdə inkişaf etmişdir. Nəzərdə saxlamaq lazımdır ki, zamanla (xüsusilə də elmi-texniki tərəqqinin sürətli həyata keçirilməsi dövründə) təsərrüfat uçotunun inkişafı daha sürətlə baş vermişdir.

Mahiyyəti etibarı ilə təsərrüfat uçotu özündə müşahidə, ölçü və uçot kimi üç ünsürün əlaqəli şəkildə fəaliyyətini birləşdirən prosesdir. Belə ki, müşahidə edilmiş təsərrüfat hadisələrinin kəmiyyəti öz xarakterinə uygun olan ölçu ilə ifadə olunduqdan sonra uçota götürülür. Yazili formada qeydəalma həmin məlumatların saxlanmasına, lazim gəldikdə isə onlara təkrarən müraciət olunmasına şərait yaradır.

Sahəvi təsərrüfat uçotunun tənzimlənməsi üzrə mahiyyət və məzmun məsələlərinin açıqlanması, onların əhatəli aydınlaşdırılması mövzu üzrə məqsədlərin müəyyən edilməsi və sistemli şəkildə ifadə olunmasına şərait yaradır. Artıq ölkəmizdə və regional miqyasda bərqərar olmuş qaydalara müvafiq olaraq aşağıdakı işlərin yerinə yetirilməsi məqsədəuyğun hesab edilməkdədir:

- təsərrüfat uçotunun tərkib elementlərinin müəyyənləşdirilməsi;
- təsərrüfat uçotunun tətbiq olunacağı obyektin və onun vahidlərinin müəyyən edilməsi;
- uçot növləri üzrə sistemləşdirmə işlərinin aparılması, onlara qarşı kompleks yanaşmanın təmin olunması;
- təsərrüfat uçotunun göstəriciləri dürüstlüyü və mübahisəsizliyinin təmin edilməsi;
- onların hər biri üzrə fərdi fəaliyyətin təşkili, göstəricilərin hamı tərəfindən başa düşülən, dürüst və zaman aidiyyatı komponentinin olması;
- uçot ardıcıllıq, bir elementin digərini tamamlama ifadələri nəzərə alınmaqla vaxtlı-vaxtında aparılması;
- təsərrüfat uçotunun obyektindən asılı olaraq spesifik xüsusiyyətlərin aşkarlanması;
- təsərrüfat uçotunun istifadə edilən üsullarından, alət və mexanizmlərindən asılı olaraq tən-zimləmə qaydalarının tətbiqi;
- növlər arasında qarşılıqlı əlaqəli fəaliyyətin təmin edilməsi və s.

Uçot məmulatlarının xarakterindən və əldə edilməsi üsullarından asılı olaraq aqrar sahədə təsərrüfat uçotunun operariv, mühasibat vəstatistika növləri tətbiq olunur.

Uçot mürəkkəb məsələləri ona görə həll edə bilir ki, onun növlərinin üçü də bir-birilə sıx əlaqəli olur, biri-birini tamamlayır, uçot məlumatlarından qarşılıqlı istifadə edilir. Operativ və statistik uçot məlumatlarından mühasibat uçotunda istifadə edməsi üçün bütün uçot qaydalara müvafiq təşkil olunmalıdır. Qeyd edilən məsələnin həyata keçirilməsi üçün bir sıra şərtlər də mövcuddur ki, onlardan birincisi – uçotun iqtisadiyyatın ayrı-ayrı sahələrində vahid şəkildə aparılmasından ibarətdir.

İkinci və əhəmiyyətli şərt vahid ilk sənədlərin tətbiqindən ibarətdir. Bütün uçot növlərinin obyekti əsas etibarı ilə eyni faktlardan, hadisələrdən yaxud proseslərdən ibarət olduğu üçün onların əsasını vahid ilk sənədlər təşkil edir. İstehsal yaxud təsərrüfat əməliyyatı əks etdirilən bu sənədlərdə bir sıra zəruri əməliyyatlar olur ki, onlardan da hər üç uçot növündə istifadə etmək mümkündür.

Operativ və mühasibat uçotu məlumatı istehsal prosesinə rəhbərliyi asanlaşdırır, bu prosesin proqnozlara müvafiq nizamlandırılmasına və istiqamətləndirilməsinə kömək edir, habelə istehsal

proqramının yerinə yetirilməsini təmin edən növbəti tədbirləri hazırlamaq üçün baza materialı olur. Statistika, uçot sistemində son mərhələ olmaqla bərabər, mühasibat və operativ-texniki uçot məlumatlarından istifadə edir, bu məlumat yekunlaşdırılır, işlənir və nəticədə bütün iqtisadi sistemin, onun ayrı-ayrı sahələrinin inkişafını xarakterizə edən kəmiyyət göstəriciləri əldə edilir. Qeyd olunan uçot növləri idarəetmədə mühüm əhəmiyyət kəsb etdiyindən, onların ətraflı xarakterizə olunması məqsədəuyğun hesab edilir.

Operativ uçot vasitəsi ilə aqrar subyektlərin, istehsal sahələrinin və vahidlərinin fəaliyyətinə gündəlik rəhbərlik həyata keçirilir. Operativ uçot vasitəsi ilə aqrar subyektlərin idarə olunmasında mühüm rol oynayan material ehtiyatlarının hərəkəti, məhsul buraxılışının növlər və həcmləri, mübadilə məkanlarına aqroməhsulların müstəqil çıxarılması, alıcı subyektlərlə birbaşa bağlanan müqavi-lər və şifahi razılaşmalar üzrə yüklənmiş və ya yüklənərək göndərilməli olan məhsulların miqdar-məbləğ ifadələri və digər zəruri istiqamətlər üzrə informasiyalar əldə olunmaqda və sistemləşdirilməkdədir. Yaranmış vəziyyətdən asılı olaraq operativ uçot informasiyası ya bəlli qaydalara riayət olunmaqla əvvəlcədən hazırlanır, yaxud da hər hansı zərurət əsasında hazırlanır və zəruri instansiyalara təqdim olunur.

Bununla belə əksər hallarda operativ uçot bir qayda olaraq tələb olunduğu hallarda aparılır. Onun təqdim olunması üçün vaxt müəyyən olunmur. Bu isə göstərilən uçot formasını başqa uçot formalarından fərqləndirən birinci göstəricidir. Operativ informasiyanın ikinci fərqi onun istənilən vaxtda, sənədləşdirilmədən, hazırlanıb təqdim olunmasıdır.

Təsərrüfat uçotunun qəbul olunmuş üç forması bir-biri ilə sıx əlaqədə olmaqla biri digərini tamamlayır və vahid təsərrüfat uçotu sistemini təşkil edir. Lakin bu uçot formaları içərisində mühasibat uçotu aparıcı mövqe tutur. Mühasibat uçotunun informasiyaları əsasında müəssisənin bütün təsərrüfat-maliyyə fəaliyyətinə nəzarət təmin edilir və onlardan idarəetmədə əsaslı şəkildə istifadə olunur.

Mühasibat uçotu idarəetmədə mühüm vasitə olmaqla yanaşı planlaşdırmada, müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin tənzimlənməsində, istehsalın daha yüksək səviyyədə təşkil olunmasında əsaslı rol oynayır. Müasir idarəetmə sisteminin bazar iqtisadiyyatı tələblərinə uyğun təşkili bilavasitə mühasibat uçotunun beynəlxalq uçot sistemlərinə uyğun inkişafı və təkmilləşdirilməsi ilə əlaqədardır. Təsadüfi deyildir ki, bir sıra iqtisadi cəhətdən yüksək dərəcədə inkişaf etmiş dünya ölkələrinin iqtisadçı mütəxəssislərinin hesablamalarına görə idarəetmədə istifadə olunan informasiyaların 70%-dən çoxu ancaq mühasibat uçotu məlumatları hesab olunur. Bir qayda olaraq iqtisadi, o cümlədən aqrar subyektlərin bütün əmlakı üzrə informasiyalar mühasibat uçotunda sistemləşmiş şəkildə toplanaraq istehsalat, maliyyə-təsərrüfat fəaliyyəti üzrə istənilən nəticələrin əldə olunmasına şərait yaradılır.

Mövcud olan informasiyaların idarəetmə sistemində faydalı istifadə olunmasını təmin etmək üçün isə uçotun elə bir sistemli təşkili lazımdır ki, o müasir dövrdə dünya ölkələrində istifadə olunmuş qabaqcıl mühasibat uçotu və beynəlxalq standartların metodu və prinsiplərindən istifadə edilməsinə uyğunlaşmaqla, hesablama texnikasından geniş istifadə edilməsinə şərait yaratsın. İdarəetmə, təşkilatlanma sistemində uçot bir sıra vəzifələr yerinə yetirir ki, onlarin içərisində özünün tənziləyici xarakteri ilə malik nəzarət, əmlakın qorunub saxlanması, informasiya və analitik funksiyaları mühüm əhəmiyyət kəsbedır.

İdarəetmənin təkmilləşdirilməsi, müxtəlif mülkiyyət formalarının mövcudluğu, bazar münasibətlərinin formalaşması şəraitində mühasibat uçotunun nəzarət funksiyası daha mühüm şəkil alır. Nəzarət – qarşıda qoyulan məqsədə çatmaq üçün vəzifənin müəyyən olunması prosesidir. Müvafiq proses müəyyən olunmuş tənzimləyici standartları təşkil edir ki, onların icrası qarşıdakı vəzifənin yerinə yetirilməsini ilkin, cari və sonrakı nəzarət formaları üzrə təmin etməyə yönəldilir. İlkin nəzarət təsərrüfat əməliyyatının icra olunmasına qədər aparılmalı, cari nəzarət əməliyyatı icra olunduğu dövrdə, sonrakı nəzarət isə əməliyyatın icra olunmasından sonra aparılmış nəzarət formasıdır.

Əmlakın qorunub saxlanması funksiyasının yerinə yetirilməsi mühasibat uçotunun daha da təkmilləşdirilməsi və onun nəzarət funksiyasının möhkəmləndirilməsi ilə əlaqədardir. Göstərilən vəzifənin yerinə yetirilməsi üçün ilk növbədə subyektin aqrar avadanlıqlarla təminatını ifadə edən

sənədləşmə aparılmalıdır. Bazar iqtisadiyyatının formalaşması, aqrar mülkiyyətçılərin sayının artması və xarici iqtisadi fəaliyyətin inkişafı uçotun əmlakın qorunub saxlanması funksiyasının daha da möhkəmləndirilməsini tələb edir.

Müasir şəraitdə tənzimləmə və idarəetmədə uçotun mühüm funksiyalarından biri – aqrar sahədə informasiyanın hazırlanması və istifadə üçün təqdim olunmasıdır. Uçot-tənzimləmə sistemi aqrar obyektlərdə əmlakın hərəkəti, təsərrüfat əməliyyatları dövründə onun əmələgəlmə mənbələri ilə əlaqədar maliyyə və istehsal-təsərrüfat fəaliyyəti ilə əlaqədar sintetik və analitik informasiyaları cəmləşdirib istifadə olunması üçün hazırlayır. Nəticə etibarı ilə uçot informasiyaları operativ-texniki, statistika uçotunda, planlaşmada, proqnozların tərtibində və ümumiyyətlə aqrosubyektlərin fəaliyyəti üzrə taktika və strategiyanın hazırlanmasında geniş istifadə olunur. Onu da nəzərə almaq lazımdır ki, uçot-tənzimləmə fəaliyyətinin bütün mərhələlərində informasiyaların obyektivlik, doğruluq, vaxtında tərtib olunma vəzifəsi qarşıya qoyulur.

Hazırda idarəetmənin təkmilləşdirildiyi və bazar münasibətlərinin formalaşdığı şəraitdə analitik vəzifə çox vacibdir. Belə ki, etibarlı və hüquqi cəhətdən əsaslandırılmış uçot informasiyaları əsasında müəssisənin və onun tabeçiliyində olan filialların maliyyə, istehsalat-təsərrüfat fəaliyyəti təhlil olunur və hazırlanmış analitik şərhlər əsasında lazımi qərarlar qəbul olunur. Bu vəzifənin yerinə yetirilməsi uçotun bütün bölmələri, o cümlədən mövcud ehtiyatlardan istifadə olunması, məhsul istehsalı, sərf olunmuş məsrəflərin həcmi, qiymətlərin düzgün tərtib olunması göstəricilərinin təhlilinə imkan verir ki, bu da sərbəst bazar iqtisadiyyatı şəraitində əhəmiyyətlidir. Bütün göstəricilərin təhlili və öyrənilməsi ilə hər bir müəssisənin iqtisadiyyatına dair ətraflı analitik informasiyalar əldə olunur ki, bu da idarəetmə sistemi tələblərinin icrasında əsaslı əhəmiyyətə malikdir.

Ölkə iqtisadiyyatı üzrə fəaliyyətin zəruri səviyyədə təşkili bütün tənzimləyici istiqamətlərdə kompleks tədbirlərin yerinə yetirilməsini nəzərdə tutur. Ayrı-ayrı iqtisadi yönlərdə işlərin icrası müvafiq qanunvericilik bazalarının sistemli yaradılmasını özündə əks etdirir. Eyni zamanda aydındır ki, hər bir istiqamətin tənzimlənməsində ilk növbədə həmin sahənin öz qanun və qanunauyğunluqlarının mövcudluğu zəruridir. Məsələn, müstəqil Azərbaycan Respublikasında “Mühasibat uçotu haqqında” Qanun ilk dəfə 1995-ci ildə qəbul olunmuş, sonra isə 2004-cü ildə təkmilləşdiril-mişdir ki, bu da müvafiq sahənin tənzimlənməsinə öz təsirini göstərmişdir.

Mühasibat uçotunun subyektlərin parametrlərinə uyğun sistemlərə keçidi müasir dövrdə daha üstün aktuallıq dərəcəsi qazanmaqdadır. Bu halda aqrar subyektlər üzrə bir sıra məsələlərə izahatverici yanaşmanın təmin olunması zəruridir.Qeyd olunanlarla yanaşı “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununda istifadə olunan digər anlayışlar ölkəmizin Mülki Məcəlləsi və mövcud olan başqa qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir. İkinci şərti mühasibat uçotunun məcburiliyi təşkil edir. Belə ki, ölkəmizin ərazisində mənfəətlə, yaxud mənfəətsiz işləmək məqsədilə sahibkarlıq fəaliyyəti və ya başqa fəaliyyətlə məşğul olan, hüquqi şəxs sayılan yaxud sayılmayan, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən bütün təsərrüfat subyektləri (müəssisələr, təşkilatlar, idarələr və s.) müəyyən edilmiş müvafiq uçot standartları və ya sadələşdirilmiş uçot qaydaları əsasında əsasında mühasibat uçotunu apar-mağa borcludurlar.Növbəti addım olaraq Qanunda mühasibat uçotu sahəsində həyata keçirilən tənzimləmə fəaliyyətindən bəhs olunur. Müvafiq fəaliyyətin tənzimlənməsində bir sıra istiqamətləndirilir ki, burada da böyük rol dövlət tənzimlənməsinə aiddir.

Uçot sahəsində aqrar sahə ilə əlaqəli dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir və ilk növbədə aşağıdakı məsələləri əhatə etməlidir:

1. Kiçik və orta həcmli aqrar sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması qaydalarını hazırlanması və təsdiqi;
2. Aqrar sahənin vahidlərində mövcud olan daşınar və daşınmaz əmlakın, pul və digər formada olan vəsaitlərin dəqiq siyahısını müəyyən etmək məqsədilə qayda və sənəd formalarının, onların tərtibinə dair qaydaların işlənilməsi;
3. İstehsal və sonrakı reallaşdıma proseslərində plan-proqnoz işlərinin, məsrəf norma və normativlərinin məqbul səviyyələrinin

Azərbaycan Respublikasında uçot sahəsində dövlət tənzimlənməsinin əsas məqsədi müxtəlif sahə oriyentasiyasına malik kommersiya və qeyri-kommersiya subyektləri üzrə istifadə mexanizmlərinin, sənədləşmə qaydalarının vahid məcrada həyata keçirilməsini təmin etməkdən, haqqında bəhs olunan işlərin müasir dövrün tələblərinə uyğun olaraq standartlaşdırılmasına nail olmaqdan, bu işlərin dəqiqləşdirilmiş hüquqi-normativ bazasının formalaşdırılmasından və digər ardıcıl biri-digərini tamamlayan və tənzimləyən tədbirlərdən ibarətdir.

Aqrar sahədə fəaliyyət göstərən kommersiya təyinatlı təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi özünəməxsusluğu ilə fərqlənir.

Uçot standartların hazırlanması və qəbul edilməsi qaydaları mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.Eyni zamanda nəzərə alınmalıdır ki, ilkin uçot sənədlərinin, mühasibat uçotu registrlərinin və s. uçot sənədlərinin məzmunu qanunvericiliyə müvafiq olaraq kommersiya sirridir.

Statistik uçot ölkə (region) iqtisadiyyatının, elmin, təhsilin müxtəlif sahələrində baş verən kütləvi əməliyyatları öyrənir. Statistik uçot iqtisadiyyatın vəziyyəti, onun inkişaf tendensiyası, işçi qüvvəsinin hərəkəti, əmtəə-material ehtiyatları, ölkə əhalisinin sayı, onların yaş, cins, ixtisas, aqrar sahədə məşğuliyyətinin səviyyəsi və s. göstəriciləri üzrə informasiyaları toplayır və araşdırma aparır. Statistik uçot vasitəsilə geniş həcmdə müşahidə aparmaqla yanaşı əhalinin vahid uçotu təşkil edilir. Bu məqsədlə statistik uçot mühasibat və operativ uçot informasiyalarından da istifadə edə bilər. Statistik uçot məlumatları əsasında dövlət idarəetmə orqanları tərəfindən proqnozlar müəyyən edilir, iqtisadi siyasət sahəsində qərarlar qəbul olunur, ölkənin iqtisadiyyatının idarə olunması ilə əlaqədar konkret operativ tədbirlər görülür.

Əmlakın mütləq və ya könüllü qiymətləndirilməsinə dair hüquqi əsaslar Azərbaycan Respub-likasının "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanununda müfəssəl şəkildə göstərilir. Eyni za-manda digər qanunların və hüquqi-normativ aktların xidmətlərindən də istifadə olunur ki, onların sırasında nümunəvi olaraq aşağıdakıları göstərmək mümkündür:

-  Azərbaycan Respublikasının aqrar sahəyə aidiyyatı ilə seçilən və ayrı-ayrı əmtəələrə birbaşa aidiyyatı ilə seçilən Qanunları;
-  "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;
-  "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu;
-  "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu;
-  "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu;
-  maliyyə fəaliyyətinin ayrı-ayrı istiqamətlərini xarakterizə edən Azərbaycan Respublikasının Qanunları;
-  Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
-  Azərbaycan Respublikasının Torpaq Məcəlləsi;
-  Azərbaycan Respublikasının Vergi Məcəlləsi və s.

Müstəqil Azərbaycan Respublikasının iqtisadi həyatının inkişafı və tənzimlənməsinə xidmət edən hər cür hüquqi-normativ aktın prinsiplərinə, habelə sivil bazar münasibətlərinin beynəlxalq ənənələrinə müvafiq olaraq obyektlərin ardıcıllıqla nəzərdən keçirilməsi bu fəaliyyət növünün hüquqi tənzimlənməsi üçün önəmli sayıla bilər.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, Qeyrət, 2014, 107s.
4. Rüstəmov. A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avrora, 2013, 406 s.
5. Rzayev İ.K. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı, mövcud vəziyyət və gələcək perspektivlər. Bakı: Elm, 2010, 351 s
6. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416s.

**MƏHSƏTİ ƏSGƏROVA (MƏMMƏDOVA)**
*Naxçıvan Dövlət Universiteti*
*mehsetimemmedova 1974@ gmail*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU.

### XÜLASƏ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında innovasiyaların rolundan danışılır. Muxtar respublikanın sürətli innovativ inkişafından, aparılan köklü islahatlardan, kompleks quruculuq işlərindən, çoxsahəli iqtisadiyyatın inkişafından bəhs edilir.*

**Açar sözlər**: *sosial-iqtisadi inkişaf, innovasiya, innovasiyalı inkişaf, islahatlar,çoxsahəli iqtisadiyyat*

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra öz iqtisadiyyatını bazar iqtisadiyyatının tələbləri doğrultusunda yenidən formalaşdırmağa başladı. İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün ölkə iqtisadiyyatının innovasiya addımlarından istifadə edilərək inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır.İnnovasiya fəaliyyətinin kifayət qədər geniş miqyasda təşkil edilməsi üçün elmi-texniki tərəqqini ehtiva edən istehsal sahələrinin əsaslı transformasiyası ilə bağlı problemlərin həlli vacibdir. Bu problemlər təkcə iqtisadiyyat elminə aid deyil, həmçinin bazar münasibətlərinin tələbləri nəticəsində meydana gəlmiş menecment, marketinq və digər elmi sahələrin də tədqiqat obyektidir.

Azərbaycan Respublikasında bazar münasibətlərinə uyğun milli innovasiya sisteminin yaranması və uğurlu fəaliyyəti aşağıdakı amillərdən əsaslı sürətdə asılıdır:

1. Yeni texnologiyaların, texnikanın, ideya və birliklərin istehsalları olan müəssisələr şəbəkəsinin mövcudluğu
2. Yeni məhsul istehsal edə bilən istehsalat müəssisələri şəbəkəsinin mövcudluğu
3. Qeyd edilən istehsal prosesləri iştirakçılarının maliyyələşdirilməsi sisteminin mövcudluğu
4. Bütün tərəflər arasında münasibətlərin tənzimləməmexanizminin olması və s.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, günü-gündən çiçəklənir. Qarşıya qoyulan bütün vəzifələrin icra olunmsı, çoxsahəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, lazımi islahatların vaxtında aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində muxtar respublika ölkəmizdə liderliyini qorumaqdadır.

Muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır.

“ Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Regional inkişafı Proqramı (2005-2008-ci illər) təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır.

Muxtar Respublikada pozitiv meyllərlə səciyələnən sosial-iqtisadi fəallığın təməlində iqtisadi inkişafın sosial yönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafında iştirakından asılı olaraq maddi rifahın artırılması, iqtisadiyyatın dövlət tənzimlənmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan götürülməsi,

investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və muxtar respublikasının iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.
Muxtar Respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsal yönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallarından istifadə əsasında istehsal potensialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəlməsinə təminat verir.

Azərbaycan Respublikasının Prezidenti əldə olunmuş iqtisadi tərəqqinin davamlılığını təmin etmək, mövcud təbii ehtiyyaqtlardan və əmək potensialından səmərəli istifadənin təşkilini həyata keçirmək məqsədilə 2014-cü il fevralın 27-də "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmişdir.

Böyük sevgi, artan məhəbbət, yüksək vətənpərvərlik hissi ilə təmin edilən bu nailiyyətlər xalqımızın ümummilli lideri böyük Heydər Əliyev ideyalarına sabiqliyin ən gerçək təzahürüdür. Çünki əldə olunan hər bir inkişaf göstəricisi onun əsaslarını yaratdığı milli dövlətçilik siyasətinin tərkib hissəsidir və ona birbaşa olaraq xidmət etməkdir.

Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sədri olduğu və dünyanın yetmiş ölkəsinin beş mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian Evropean Club" 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək bal toplayaraq liderliyə yüksəlib.

Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatında özünə məxsus yer tutan, zəngin mədəniyyəti, qədim tarixi və dövlətçilik ənənələri olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, lakin parlaq inkişaf yolu keçərək ölkəmizin inkişafında hər zaman əhəmiyyətli rol oynamışdır.
Muxtar respublikada iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabət qabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib.

Muxtar respublikada əhalinin qida məhsulları ilə etibarlı təminatı sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biridir.

Sosial-iqtisadi inkişaf dinamikasına diqqət edəndə aydın olur ki, ötən il muxtar respublikanın milli iqtisadi inkişafındakı rolu baxımından olduqca əlamətdar olmuşdur.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni əkin sahələrinin dövriyəyə daxil edilməsi məqsədilə müxtəlif layihələrin həyata keçirilməsi muxtar respublikada aqrar sahənin davamlı inkişafında xüsusi rol oynamışdır.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq tələbatın əsas etibarı ilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş daxili bazarda məhsul bolluğu yaranmışdır.

Həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafına öz təsirini göstərmiş, 2018-ci ildə 480 milyon 21 min 200manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2017-ci illə müqayisədə 4,4 faiz çoxdur.

2018-ci ilin məhsulu muxtar respublikada 61935 hektar sahədə əkin aparılmışdır ki, bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur.Beləki, 32483 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30925 hektarı payızlıq, 1558 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 22632 hektarında buğda, 9851 hektarında isə arpa əkilmişdir. 2017-ci ilə görə taxıl əkini sahəsi 851 hektar artmışdır. 2018-ci ildə taxıl zəmilərindən 97 min 689 ton məhsul tədarük edilmişdir ki, bu da 2017-ci ilin göstəricisindən 4270 ton çoxdur.

2018-ci ildə 3215 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2017-ci ildə əkilmiş sahədən 32 hektar çoxdur.

2018-ci ildə sahələrdən 49574 ton kartof yığılmışdır ki, bu da 2017-ci illə müqayisədə 1,2 faiz çoxdur.

2018-ci ildə 41,5 hektar sahədən 51,5 ton qurudulmuş tütün tədarük edilmişdir ki, bu da 2017-ci ildən 4,6 dəfə çoxdur.

2018-ci ildə 104 min 413 ton dənli paxlalılar, 10523,5 ton dən üçün qarğıdalı, 760,6 ton dən üçün günəbaxan, 85642 ton tərəvəz, 38714 ton ərzaq üçün bostan məhsulları, 55949 ton meyvə, 16222,5 ton üzüm tədarük edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsumi məhsulların ixracına geniş imkanlar yaratmışdır.

2018-ci ildəmuxtar respublikada 990 milyon 67 min manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki,bu da 2017-ci ildən 1,3 faiz çoxdur.İstehsal olunan sənaye məhsulunda özəl sektorun payı 94,7 faiz təşkil etmişdir.

Sənayedə istehsalın həcminin artması nəticəsində 2018-ci ildə 322 milyon 485 min 300 ABŞ dollar dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində yeni heyvandarlıq təsərrüfatlarının yaradılması diqqətdə saxlanmışdır.Belə ki, 2018-ci ildə 17 heyvandarlıq təsərrüfatı yaradılmış, 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatmış, 1 heyvandarlıq təsərrüfatı yaradılması davam etdirilir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə 2 quşçuluq və 1 balıqçılıq təsərrüfatı yaradılmışdır.

İqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafında ailə təsərrüfatlarının da rolu vardır.

Muxtar respublikada arıçılığın inkişafının stimullaşdırılnası, kiçik biznesin dəstəklənməsi və kənd yerlərində məşğulluğun təmin edlməsi üzrə də mühüm tədbirlər həyata keçirilir. İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicə baxımından faydalı olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 boyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdəNaxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrəDvlət Proqramı" təsdiq edilmişdir. 2018-ci ildə arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi də bu sahənin inkişafına stimul yaradır.

Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci ildə ÜDM istehsalı 2 milyard 773 milyon manatdan artıq olmuşdur ki, bu da 2017-ci illə müqayisədə 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ÜDM isə 2017-ci ilə nisbətən 1,9% artaraq 6101,3 manata çatıb.

2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3%, əsas kapitala yönəldilən vəsaitlər 1,1%, kənd təsərrüfatı məhsulu 4,4%, nəqliyyat sektorunda yük daşınası 1,9%, informasiya və rabitə xidmətləri 3,3%, o cümlədən mobil rabitə xidməti 2% artmışdır.

2018-ci ilin sonuna muxtar respublikada 383 növdə məhsul istehsal olunub ki, bunun da 350-si və ya 91, 4%-i tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsinə imkan yaradıb.

Yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında, idxaldan asılılığın azaldılmasında, ən əsası səmərəli məşğulluğun təmin edilməsində mühüm rol oynayır. 2019-cu ilin muxtar respublikada " Ailə təsərrüfatları ili" kimi qəbul olunması da yerli istehsalın həcminin artırılmasına şərait yaradacaq, əhalinin alıcılıq qabiliyyətini daha da yüksəldəcəkdir.

Aparılan təhlillər deməyə əsas verir ki, bu gün bütün sahələrdə qeydə alınmış dinamik inkişaf templəri muxtar respublikanın uzunmüddətli inkişafını, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasını təmin etməkdir.

## ƏDƏBİYYAT


1. T.A.Abbasov "Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf" Bakı 2018-ci il 584 səh.
2. R.Ə.Balayev "Aqrar bölmənin və ərzaq bazarının tənzimlənməsi məsələləri. Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri. (AMEA-nın iqtisadiyyat İnstitutu) Bakı Elm 1998-ci il 498 səh
3. 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi Naxçıvan 2018-ci il 66 səh.
4. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının Dövlət Proqramı.Bakı, 11 fevral 2004-cü il.

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*

# QLOBALLAŞAN İQTİSADİYYATDA AQRAR SAHƏNİN DAVAMLI İQTİSADİ İNKİŞAFI VƏ İXRAC POTENSİALI

**Xülasə**

*Elmi məqalədə iqtisadiyyatın əsas sahələrindən biri olan aqrar sahənin dayanıqlı iqtisadi inkişafı geniş tədqiq edilmişdir. Eyni zamanda elmi məqalədə aqrar sahənin ixrac potensialı və rəqabətqabiliyyətli məhsullar istehsalı geniş tədqiq edilmişdir.*

**Açar sözlər**: *aqrar sahə, dayanıqlı ınkişaf, ixrac potensialı, yeni texnologiyalar.*

Qloballaşma proseslərinin genişləndiyi müasir dövrdə aqrar sahənin davamlı iqtisadi inkişafının təmin olunması, onun xarici ticarət sisteminə inteqrasiyasından çox asılıdır. Xarici ticarətə fəal qoşulan ölkə əhalinin tələbatını dolğun ödəməklə həyat şəraitinin yaxşılaşmasına, məşğulluğunun təmin edilməsinə, yeni texnologiyanın üstünlüklərindən istifadə etməklə qarşıya çıxan problemləri həll etmək imkanlarını əldə etmiş olur.

Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri mühüm əhəmiyyət kəsb edir.

Xarici iqtisadi siyasətin əsas elementləri idxal və ixracın düzgün müəyyən edilməsidir. Respublikamızın hazırda böyük ixrac potensialı vardır. Azərbaycan Respublikasına strateji məhsullar ixracının müəyyən olunması onun gələcək inkişafına xidmət baxımından çox əhəmiyyətlidir.

İqtisadiyyatın bütün sahələrində səmərəliliyin artırılması, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafı dövlətimizin əsas prioritetlərindən biridir. Bu məqsədlə qeyri-neft sektorunun xüsusi çəçisinin ÜDM-da nəzərə çarpacaq dərəcədə artırmaq üçün iqtisadiyyatda yeni islahatların başladılmasının ön plana çəkilməsini zəruri edirdi. Çünki iqtisadi tərəqqiyə nail olmaq üçün islahatlar lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başlatdığı yeni islahatların nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişafa nail oldu.

Son illərdə neftin qiymətinin kəskin aşağı düşməsi iqtisadiyyata öz mənfi təsirini göstərdi. Davamlı iqtisadi inkişafı təmin etmək üçün Prezident İlham Əliyevin iqtisadi islahatlarının mühüm istiqamətlərindən biri də qeyri-neft məhsulları istehsalının və ixracının artırılması və yeni bazarlara çıxarılmasının təmin olunması zərurətə çevrildi və bu sahədə işlər sürətləndirildi.

Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli fərmanı və digər hüquqi sənədlər göstərdi ki, bu sahənin inkişafının yeni mərhələsi başlayıb.

17 aprel 2017-ci ildə ixracatçılarla keçirilən müşavirədə əsas məqsəd rayonlarda qeyri-neft sektorunun inkişafıdır. Həmin müşavirənin yekun nitqində Prezident İlham Əliyev demişdir: "Əminəm ki, bu günkü müşavirədən sonra ixrac potensialınız daha da artacaq və biz daxili tələbatı daha çox yerli məhsullarla təmin edəcəyik. Əminəm ki, 2017-ci ilə yekun vurarkən biz yaxşı dinamikanı görəcəyik. Əlbəttə, qeyd etdiyim kimi, ixracı artırmaq üçün, ilk növbədə daxili tələbat tam ödənilməlidir – həm ərzaq məhsulları, həm də inşaat materialları ilə. Bu istiqamətdə konkret addımlar atılır və atılacaqdır. Növbəti illərdə ixrac yönümlü müəssisələrin yaradılmasına daha böyük diqqət yetiriləcəkdir".

Respublikanın sosial-iqtisadi həyatında qeyri-neft sektorunun prioritet sahələrndən biri kənd təsərrüfatı məhsullarının istehsalı və emalıdır.

Aparılmış məqsədyönlü tədbirlər nəticəsində aqrar sahənin inkişafı üçün əlverişli şərait yaranıb.

Statistik cədvəldən görünür ki, son illər ərzində aparılan islahatlar nəticəsində məhsul istehsalı artıb.

Ölkəmiz "Doing Biznes 2019" hesabatlarına görə ən islahatçı 10 ölkə sırasına daxil edildiyini, dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Beləliklə əvvəlki illə müqayisədə 32 pillə irəliləmiş və 190 ölkə arasında 25-ci yerə yüksəlmişdir.

Ölkəmiz hazırda iqtisadi modernləşmənin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Dünya iqtisadi Forumun dərc etdiyi 2017-2018 Qlobal Rəqabətlilik hesabatında Azərbaycan ölkələri arasında 35-ci yeri tutmaqla MDB dövlətləri arasında 1-ci olmuşdur. Hətta 20-yə daxil olan ölkələrin bir çoxunu iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə geridə qoymuşdur.

Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempə malikdir, Azərbaycanın iqtisadi dayanıqlığının təmin olunmasında, ölkədə yaranmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və bu siyasətin prioritetlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarında müstəsna rolu vardır.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan bitkiçilik və heyvandarlığın inkişafı, əhalinin ərzaq məhsullarına, emal sənayesinin xamala olan təminatın yaxşılaşdırılması, aqrar sahədə idarəetməni təkmilləşdirilməsi istiqamətində bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Aqrar sahənin ixrac potensialının yüksəldilməsi kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, emalı, saxlanması, istehlakçılara çatdırılması və infrastrukturun formalaşmasında aqroparkların yaradılması istiqamətində işlər görülmüş və görülməkdədir.

Proqramda 51 aqroparkın, iri fermer təsərrüfatların yaradılması nəzərdə tutulub. Bunlardan 17-si yaradılıb, ümumi sahəsi 104 min hektardır. Ümumilikdə bütün aqroparkların əhatə etdiyi sahə 200 min hektar olmalıdır. Hazırda təxmini hesablamalara görə aqroparkların istehsal edəcəyi məhsul 800 trilyon 1 milyard manata yaxın olacaqdır.

Ötən ildə bütün sahələrdə sistemli və ardıcıl xarakterli islahatların həyata keçirildiyini, siyasi və iqtisadi idarə etmə metodlarının müasirləşdiyini, ötən ildə makroiqtisadi sabitliyin təmin olunduğunu və ölkəmizin dünyada artan nüfuzunun daha da güclənməsini görürük.

2018-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən ölkəmizdə çoxşaxəli və ardıcıl islahatlar davam etdirilmişdir, qeyri-neft ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər həyata keçirilmiş, regionların tarazlı inkişafı təmin edilmiş, dövlət sahibkar münasibətinin və biznes-investisiya mühütünün təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində olmuşdur. Aparılan təhlillər göstərir ki, iqtisadiyyatın dayanıqlığı artmış, ölkədə mikroiqtisadi sabitlik yaranmışdır.

Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2016-cı ildə təsdiq etdiyi "Strateji yol xəritəsində" Milli iqtisadiyyatın və iqtisadiyyatın 11 əsas sektoru üzrə müəyyən edilmiş dövlət Proqramları müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilmişdir. Görülmüş işlər nəticəsində iqtisadi artımın dayanıqlığı daha da güclənmiş və 2018-ci ildə ÜDM real ifadədə 1,4% artaraq 79,8 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM həcmi 8126 manat təşkil etmişdir.

2018-ci ildə ÜDM qeyri-neft sektorunda 1,8%, o cümlədən qeyri-neft sənayesi 8,5%, informasiya və rabitə 9,3%, turistlərin yerləşdirilməsi sahəsi 7,6%, ticarət sahəsi 3%, kənd təsərrüfatı 4,6%, nəqliyyat və anbar təsərrüfatı 7,8% artmaşdır. İqtisadiyyatın bütün sahələrinə 17238 milyon manat investisiya yönəldilmişdir. Əsas kapitala qoyulmuş vəsaitin 69,7% daxili investisiyalar, 30,3% xarici investisiya təşkil etmişdir. Əsas kapitala qoyulmuş 11289 mln. manat investisiyanın 65,5% qeyri-neft sektoruna, 5648 mln. manat və ya 34,5% neft bölməsinin inkişafına istifadə edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2018-ci ildə xarici ticarət dövriyyəsi 29,2 milyon ABŞ dolları, o cümlədən 18,9 milyin dollar ixrac, 10,3 milyon ABŞ dolları idxal olmaqla, 8,6 milyon ABŞ dolları müsbət ticarət saldosu yaranmışdır. Bu dövrdə qeyri-neft sektoru, keçən ilin müvafiq dövrülə müqayisədə 10,5% artmışdır. 2018-ci ilin 1 dekabr tarixinə haliyyədə kredit təşkilatlarının təqdim etdikləri hesabata əsasən keçən ilin müvafiq dövrünə nisbətən 2,8% artaraq 12564,2 milyon manat artmışdır. Xarici valyutata verilən kreditlərin həcmi

keçən ilə nisbətən 5,9% azalmışdır. 2018-ci ilin 1 dekabra nisbətən banklardakı əmanət keçən ilin müvafiq dövrünə nisbətən 9,5% artaraq (7370,6-8073,5) 8073,5 milyon manat təşkil etmişdir.

2018-ci ilin 1 dekabr tarixinə cəmi depozitlər illik müqayisədə 12%, milli valyutada olan depozitlər isə illik müqayisədə 34,9% artmışdır. 2018-ci ildə əhalinin nominal gəlirləri 92% artaraq 53,7 milyon manat təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən nominal gəlir 8,2% artaraq 5467,4 milyon manata çatmışdır. 2018-ci ildə ölkə iqtisadiyyatında yaradılan əlavə dəyər əvvəlki ilin dövrü ilə müqayisədə 1,8% artmışdır. Qeyri-neft sektorunda kənd təsərrüfatında ÜDM həcmi 8,6% artmışdır. 2018-ci il ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7010 milyon manat təşkil etmişdir ki, bunun da 3186 milyon manatı bitkiçilik, 3824 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşür. Keçən ilin müvafiq dövrləri ilə müqayisədə kənd təsərrüfatı istehsalı 4,6%, o cümlədən bitkiçilik məhsulları üzrə 6,8%, heyvandarlıq üzrə isə 2,7% artmışdır. Bunu aşağıdakı cədvəldə aydın görmək olar.

2014-2018-ci illərdə istehsal olunan məhsullar haqqında məlumat

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2018-ci ildə 2017-ci illə müqayisədə, artım (+), azalma (-) |
|---|---|---|---|---|---|---|
| Cəmi taxıl | 2383,4 | 2999,4 | 3065,1 | 2855,3 | 3061 | 7,2 |
| O cümlədən Dən üçün qarğıdalı | 203,6 | 214,1 | 224,0 | 235,7 | 247,9 | 5,1 |
| Kartof | 819 | 839 | 902 | 913 | 899 | - |
| Pambıq | 41 | 35 | 87,2 | 207,5 | 232,2 | 12,0 |
| Dən üçün günəbaxan | 20,3 | 18,9 | 17,1 | 30,6 | 24,3 | - 0,2 |
| Şəkər çuğunduru | 175,1 | 186,1 | 321,3 | 425,2 | 299,4 | - 0,3 |
| Tütün yar. | 2,9 | 3,5 | 3,5 | 5,2 | 6,3 | 21,1 |
| Meyvə və giləmeyvə | 849,9 | 886,3 | 883,7 | 954,8 | 1010,8 | 5,8 |
| Üzüm | 147,7 | 156 | 135,4 | 152,8 | 556 | 2,1 |
| Çay yarpağı | 474,2 | 580 | 1015 | 775,2 | 868 | 11,9 |
| Diri çəkidə ət | 505, | 515,6 | 523,8 | 540,5 | 556,6 | 2,9 |
| Süd | 1855,8 | 1924,4 | 2009 | 2024,1 | 2084 | 2,9 |
| Yumurta | 1562,7 | 1538,6 | 1609,8 | 1714 | 1774 | 3,5 |
| Yun | 16,8 | 17 | 16,7 | 16 | 15,8 | - 0,1 |
| Yaş çəkidə barama | 0,9 | 0,4 | - | 245,2 | 514 | 2,1 dəfə |

Cədvəlin təhlilindən görünür ki, bitkiçilik və heyvandarlığın bütün sahələri üzrə ilbə il artan templə dinamik inkişafı təmin olunmuşdur. 2018-ci ildə taxıl 3061 min ton və ya keçən ildən 7,2% çox, dən üçün qarğıdalı 247,9 min ton 5,1% çox, pambıq 232,2 min ton və ya 12%, tütün 6,3 min ton və ya 21,1%, meyvə və giləmeyvə 1010,8 min ton və ya 5,8%, üzüm 156 min ton 2,1 faiz çox, çay yarpağı 868 min ton və ya keçən ilin müvafiq dövründən 11,9% çox istehsal olunmuşdur.

Heyvandarlıq məhsulları da illər üzrə artım təmin edilməklə əsas məhsullar üzrə diri çəkidə ət istehsalı 556,6 min ton və keçən ilin müvafiq dövründən 2,9%, süd 2084 min ton 2,9%, yumurta 1774 milyon ədəd və ya 3,5%, yaş çəkidə barama istehsalı 2,1 dəfə çox olmuşdur.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin keçən ilin yekunlarına dair iclasındakı nitqində ölkə iqtisadiyyatını dərindən və hərtərəfli təhlil edərək əldə olunan nəticələri yüksək qiymətləndirmişdir. 2018-ci ilin dərin islahatlar ili olduğunu bildirmişdir. Belə ki, ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və iqtisadi artım 1,4% təşkil etmişdir. Qeyri-neft sektorunda artım 1,8% olmuş, qeyri-neft sənaye məhsulu isə 9,1% artmışdır. Əsas kapitala yönəldilmiş 17,2 milyard manat vəsaitin 11 milyard manatı 65,5% qeyri-neft fondunun payına düşmüşdür ki, bu vəsaitin də 69,7% daxili sərmayələr təşkil etmişdir.

2018-ci ildə inflyasiya 2,3% olduğu halda əhalinin pul gəlirləri 9,2% artmışdır. Ölkədə valyuta ehtiyatı 3 milyard ABŞ dolları artaraq 45 milyard dollar olmuşdur. Xarici borc 3% azalaraq 19% endirilmişdir.

Ötən il büdcənin gəlirləri 31,4 milyard manat, xərcləri 26,3 milyard manat olmuş və ümumi daxili məhsula nisbətən 6,4% büdcə artıqlığı əldə edilmişdir.

Qeyd olunanlarla yanaşı ötən il ərzində 7 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövründən 4,6% çoxdur.

2018-ci il ərzində məhsul istehsalı qeyri-neft sənayesinin əksər bölmələrində, o cümlədən qida məhsullarının istehsalında 1,3%, içki istehsalında 12,2%, tütün məmulatlarının istehsalında 1,6 dəfə çox, toxumçuluq sənayesində 42,2%, dəri və dəridən ayaqqabı istehsalında 23,3%, mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı 9,5 %, kimya sənayesində 1,4%, tikinti materialları istehsalında 146,4%, avtomobil qoşqu və yarım qoşquları istehsalında 31 dəfə, mebel istehsalında 114,7% artımlar olmuşdur.

Ölkədə ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi məqsədilə 2016-2018-ci illər ərzində 292 sahibkarlıq subyektinə 333 investisiya təşviqi sənədi verilibdir. Bununla yanaşı 19 aqropark və iri fermer təsərrüfatı üzrə 32 layihəyə təşviq sənədi verilmişdir. 2019-cu ildə də 10 aqroparkın fəaliyyətə başlaması gözlənilir. 24 aqroparkın və iri fermer təsərrüfatlarının fəaliyyəti üçün işlər aparılır.

Nəticə etibarı ilə bütün bunlar ölkə əhalisinin ərzaq məhsulları ilə tələbatını, özünü təminetmə səviyyəsi müsbət dinamikada öz əksini tapmışdır. Keçən il ərzində ümumi ixracımız 36% artmışdır. Rəqəmlərə baxsaq 19,5 milyard 460 milyon dollar, idxalımız isə 10 milyard 465 milyon dollar təşkil edir. Xarici ticarət balansının müsbət saldosu 8,6 milyard dollar təşkil edir.

Yerli istehsalın qorunması və ixracın təşviqi üzrə məhsulların rəqabət qabiliyyətinin artırılması məhsulların istehsalının stimullaşdırılması, xammal bazarının yaxşılaşdırılmasına idxalı əvəz edən yeni istehsal sahələrinin yaranmasına, ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehlakçı dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 19 sentyabr 2018-ci il tarixli 497 nömrəli sərəncam təsdiq edilmişdir.

Bu sənədin digərlərindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının təşviqi və daxili bazarın təhlil olunmasının irəli sürülməsidir.Bunun üçün aşağıdakılar əsas götürülməlidir:

- idxalı əvəz edən məhsulların dəstəklənməsi və yerli məhsullarla tənzimlənməsinə şəraiti yüksəltmək;
- yerli kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyini artırmaqla, idxal olunan məhsulları sıxışdırıb bazardan çıxarılmasını təmin etmək;
- kənd təsərrüfatı və emal məhsullarının bazarlara çıxış imkanlarının artırılması üçün Skalyaz zəncir (infrastrukturun yeniləşdirilməsi);
- şirkətlərin xarici bazarların araşdırılması və informasiya ilə daim təmin olunması;
- daxili bazarın xarici təsirlərdən qorunması üçün ölkəyə idxal olunan məhsullara vergi, gömrük tariflərini tənzimləmək.

İstehsalçıların daxili və xarici bazarlarda çıxışının yaxşılaşdırılması, yükdaşıma xidmətlərinin inkişafına, o cümlədən istehsalçılar üçün əlverişli şərtlərin təmin edilməsi baxımından xidmətlərin tənzimlənməsi sisteminə böyük ehtiyac vardır. Bu sahədə aşağıdakı işlərin yerinə yetirilməsi aktual bir vəzifədir:

- taxıl, meyvə-tərəvəz və digər məhsulların saxlanması üçün anbarların tikilməsi;
- iri miqyaslı infrastrukturların yaradılması (yollar, limanlar, elektrostansiyalar və s.);
- kənd təsərrüfatı sahəsində elmi-tədqiqat yeniliklərinə investisiyaların cəlb edilməsi;
- ayrı-ayrı məhsul istehsalçıları və əmtəələrin təhcizatçıları arasında qiymətin səviyyəsi, satışın, kapitalın daha gəlirli sahələrə axınını nizamlanması mexanizminin təkmilləşdirilməsi.

Bazarın tənzimlənməsinə iki amil təsir göstərə bilər: inhisar və kölgə iqtisadiyyatı. Bunların da fəaliyyəti normativ və hüquqi aktlarla məhdudlaşdırılmışdır.

Araşdırmalardan aydın olur ki, ölkənin qeyri-neft sektorunun ixrac potensialı ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır.

Azərbaycanın qeyri-neft sektorunun inkişaf meylləri, onun ixrac potensialından istifadəsinin tənzimlənməsi problemləri, xarici ticarətin diversifikasiyalaşdırılması, ixracın stimullaşdırılması ixrac əməliyyatlarının sadələşdirilməsi, genişləndirilməsi bu sahəyə investisiyaların cəlb edilməsi ilə sıx bağlıdır.

Ölkəmizin məhsullarının xarici bazarlara çıxarılması üçün reklam, marketinq məsələlərinə xüsusi diqqət yetirilir.

Azərbaycan Prezidenti 2018-ci il ərzində 24 xarici ölkəyə səfər edib. Həmin ölkələrdə təşkil olunmuş ixrac missiyasında 60-dan çox şirkət 450 çeşiddən çox adda məhsul: "Made in Azerbaijan" brendi altında "Gilan construction materials" qrupunun, "AzNar" konsernin, Azərbaycan şərabları, konservləri, balıq kürüsü, qoz, fındıq, çay, şirniyyat məhsulları ixrac edilir. Son ildə təzə tərəvəz, meyvə, xurma, kartof, pambıq, bitki çayları, piylər və yağlar, üzüm şərabı, bitki yağları və s. ixrac həcminin artırılması istiqamətində işlər görülür və görülməkdədir.

Azərbaycanın zəngin təbiəti və coğrafi iqtisadi şəraiti toplanmış məhsullardan sertifikatlaşdırılmış məhsullara keçid etməyi imkan verir.

Azərbaycan Prezidenti İ.Əliyev yekun nitqində demişdir: "Bu gün qeyri-neft sektorunun inkişafı üçün böyük işlər görülür, addımlar atılır. Neftçala sənaye parkında "Xəzər" avtomobili, Sumqayıt kimya sənaye parkında yeni müəssisələr yaradılıb, Mingəçevir sənaye parkında 2 böyük iplik fabriki, masallı sənaye parkının açılışı olmuşdur. Hacıqabul, Sabirabad sənaye məhəllələrinin yaradılması prosesi gedir. Şəki ipək kombinatında modernləşmə işləri aparılır. Digər infrastruktur layihələr davam etdirilir: yollar çəkilir, içməli su layihələri, meliorativ tədbirlər uğurla icra edilir. 100 min hektardan çox sahə suvarma sistemi ilə təmin edilib, 270-dən çox sub artezian quyusu qazılıb və bu iş davam etdirilməkdədir". Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra indiyədək 22 əsas çoxtərəfli beynəlxalq, ekoloji saziş və konvensiyalar və beynəlxalq əmək Təşkilatlarının 57 konvensiyasına qoşulmuşdur. Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası BUT (UN) Beynəlxalq Parlamentlər arası İttifaq (İPU), Avropa Şurası (CoE), ATƏT (OBSE), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və bir çox xarici dövlətlərlə iki tərəfli və çox tərəfli işgüzar əlaqələr qurmuşdur. Son olaraq göstərmək olar ki, ölkəmizdə həyata keçirilən beynəlxalq və yerli əhəmiyyətli infrastruktur layihələrin reallaşması ölkə büdcəsinə daxilolmaları artıracaq, məşğulluq problemlərinin həllində mühüm rol oynayacaq, əhalinin rifah səviyyəsi xeyli yüksələcək. Dünya dövlətləri ilə qarşılıqlı iqtisadi-siyasi bağlılıq strateji tərəfdaşlığın möhkəmlənməsinə, və ölkənin iqtisadi siyasətinin dayanıqlılığına yönəldilib.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "2018-ci ildə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair Arayışı".
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "2018-ci ildə Qeyri Neft sektorunun inkişafı".
3.İ.D.Abbasov "Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı", Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013.
4.U.Aksoy, İsmet Boz, Həzi Eynala, Yaqub Quliyev "Azərbaycanın orqanik kənd təsərrüfatı", Bakı, 2018.
5. "Azərbaycan Respublikasının dayanıqlı inkişafı üzrə milli əlaqələndirmə şurası", Bakı, 2018.
6.Prezident İ.Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafın yekunları haqqında və qarşıda duran vəzifələrə dair həsr olunan iclas, 09.10.2018-ci il.

**NİHAD MEHBALIYEV**
*Naxçıvan Dövlət Universiteti*
Nihad.mehbaliyev@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## XÜLASƏ

*Elmi məqalədə Naxçıvan Muxtar Respublikasının sosial iqtisadi inkişaf mərhələləri geniş şəkildə araşdırılmışdır. Eyni zamanda elmi məqalədə Naxçıvan Muxtar Respublikasında infrastrukturun yeniləşməsi müasir müəsssisələrin və yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi geniş şəkildə şərh edilmişdir.*

**Açar sözlər:** *infrastruktur,dövlət proqramı, təsərrüfat subyektləri, sənayə və kənd təsərrüfatı sahələri, dinamik inkişaf.*

Qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür. Belə bir şəraitdə ölkəmizlə quru yolu ilə birbaşa əlaqəsi olmayan, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir. Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada uğurla davam etdirilməsidir. Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır.

Ölkəmiz iqtisadiyyatın inkişafında yeni səhifələrin açılması istiqamətində qətiyyətli addımlar atmaqdadır. Bu, qeyri-neft sektorunun davamlı və uzaq gələcəyə istiqamətlənmiş inkişaf tədbirlərindən ibarət olub, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının məqsədyönlü və uğurlu icra mexanizmini özündə əks etdirməklə, sənayeləşmə siyasətinin yüksək perspektivlərə malik olması ilə ifadə olunmaqdadır. Xüsusilə, 2003-cü ildən hüquqi əsasları müəyyən edilən, 2004-cü ildən isə uğurlu icrasına başlanılan "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları" hazırda da üçüncü inkişaf mərhələsində olmaqla, Naxçıvan Muxtar Respublikasında milli iqtisadi maraqlara xidmət edən təkmil bir iqtisadiyyat yaradıb. Qeyd edək ki, təkcə 2004-2008-ci illəri əhatə edən eyni adlı Dövlət Proqramında muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün 57, 2009-2013-cü illər üzrə isə 46 mərhələdə tədbir həyata keçirilib. Bu göstərici hazırda da 2014-2018-ci illər üzrə Dövlət Proqramında 57 mərhələdə uğurla icra olunmuşdur. Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə sağlam şəraitin, məhsuldar nəticələrin, cari və perspektiv inkişaf üçün əlverişli mühitin davamlılığını təmin etmək məqsədilə Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının da müstəsna əhəmiyyəti vardır. Bütün bunların nəticəsidir ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 2003-cü ilə nisbətən məhsul (xidmət) istehsalı 12,3 dəfə, sənaye məhsullarının istehsalı 46,5 dəfə, kənd təsərrüfatı məhsulları 4,8 dəfə, tikintinin həcmi 12,5 dəfə, informasiya və rabitə xidmətləri 10

dəfə, xarici ticarət dövriyyəsi 12,2 dəfə artmışdır. Naxçıvan iqtisadi rayonunda ümumi məhsul (xidmət) istehsalında sənaye məhsulunun xüsusi çəkisi artaraq 2014-cü ildə 32 faiz olmuşdur. İqtisadiyyatın sənayeləşməsini sürətləndirmək yolu ilə muxtar respublikanın güclü sənaye mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi öz nəticəsini verməkdədir. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, bunun nəticəsində yeni iş yerləri yaradılıb. Sənaye məhsulları istehsalının ilbəil sürətlə artması da bu sahədə nəzərəçarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir. Sosial-iqtisadi göstəricilərə aşağıdakı cədvəldə nəzər saldıqda muxtar respublikada sosial-iqtisadi inkişafın sürətlə davam etdiyinin şahidi oluruq.

**Sosial-iqtisadi göstəricilər**

min manat

| Göstəricilər \ İllər | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 168040,4 | 232441,6 | 305796,5 | 405657,3 | 544958,9 | 795763,6 | 973649,3 | 1171305,7 | 1786341,6 | 2103424,3 | 2338927,7 | 2391004,2 | 2467422,4 | 2582361,4 | 2701663 | 2773020,5 |
| Sənaye məhsulu | 17600,3 | 25555 | 41207,3 | 70443,6 | 122679,5 | 164451,9 | 212469,1 | 318564,8 | 680921,2 | 799492,4 | 862870,5 | 891486,4 | 916817,9 | 942944,7 | 967060 | 990067 |
| Əsas kapitala yönəldilən vəsaitlər | 63210,3 | 80196,1 | 126051,7 | 191757,2 | 222948 | 309598,1 | 411522 | 501105,5 | 815572,6 | 982264,7 | 1037748,4 | 924628,6 | 951196,5 | 997609 | 1005761 | 1017079 |
| Kənd təsərrüfatı məhsulu | 71822,1 | 78054,9 | 98255,1 | 109005,1 | 122415,9 | 153417,5 | 185117,2 | 247126,6 | 296117 | 318836 | 337127,2 | 355156,7 | 402991,8 | 429448,4 | 453364,5 | 480021,2 |
| Nəqliyyat sektorunda yük daşınması (min ton) | 5949,1 | 6200 | 7041,2 | 7505,2 | 8041,5 | 8702,1 | 9723 | 11152,7 | 12717,3 | 13952,4 | 15280,2 | 15564,1 | 15898,3 | 16082,7 | 16323,4 | 16628,5 |
| İnformasiya və rabitə xidmətləri | 4366,6 | 6241,1 | 9014,2 | 10441,6 | 16207,6 | 23208,8 | 31119,9 | 36579,3 | 39269,4 | 42474,2 | 45051,9 | 46085,5 | 46908,4 | 48727,2 | 49700 | 51325,1 |
| Pərakəndə əmtəə dövriyyəsi | 99870,2 | 118451,9 | 147971,7 | 199888,2 | 259828,2 | 406448,8 | 484777,5 | 616454,4 | 815248,6 | 975352,6 | 1108699,1 | 1144494,4 | 1276986,7 | 1506343,6 | 1659917,9 | 1702011,3 |
| Əhaliyə göstərilmiş ödənişli xidmətlər | 13961,4 | 21311,3 | 26301,6 | 32328,5 | 50112,9 | 69299,7 | 87255,8 | 107242,3 | 126780,6 | 149734,9 | 180737,6 | 187086,4 | 195829,5 | 213651,4 | 235959,3 | 239897,9 |
| Əhalinin gəlirləri | 170397,3 | 216094,6 | 277318,5 | 358632,5 | 502444,1 | 683826,4 | 913371,6 | 1007483,6 | 1445748,2 | 1623420,9 | 1737057,9 | 1775741,6 | 1804178,6 | 1825591,9 | 1845812,2 | 1866095,8 |
| Hər bir nəfərə düşən gəlirlər (manat) | 457,8 | 574,9 | 729,8 | 933,7 | 1292 | 1733 | 2284 | 2479,9 | 3489,5 | 3839 | 4027,5 | 4058,8 | 4080,9 | 4085,9 | 4092,7 | 4105,8 |
| Orta aylıq əməkhaqqı (manat) | 38,4 | 68 | 86 | 110,2 | 153,9 | 235,2 | 272,3 | 302,6 | 341,4 | 365,1 | 376,6 | 391,3 | 399,5 | 413,2 | 420,1 | 433 |

**Mənbə:** www.statistika.nmr.az

İnkişafın mühüm göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) tərkibində sənayenin ilk yeri tutması da bunu təsdiq edir. Belə ki, muxtar respublikada 2018-ci ilin yanvar-iyul aylarında 1 milyard 505 milyon 444 min 900 manatlıq ÜDM istehsal olunub ki, onun da tərkibində ilk yeri sənaye sahəsi tutur. Həmin dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Onu da qeyd edək ki, hər bir nəfərə düşən ÜDM-in həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 3318 manatı ötüb. Bu, muxtar respublikanın hərtərəfli inkişafının nəticəsidir. Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini verməkdədir. Həyata keçirilmiş belə layihələr arasında sənaye və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 30 layihənin əsası qoyulub. Yaradılan bu müəssisələr hesabına 279 yeni iş yeri açılıb. Bu tədbirlərin davamı olaraq qarışıq yem istehsalı, qaynaq çubuğu, kimyəvi tərkibli tikinti materialları istehsalı, plastik tara, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, plastik səbət, xalça, yun və boyaq bitkilərinin tədarükü, Şahbuz rayonunun Badamlı qəsəbəsində "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni mineral su istehsalı sahəsi, heyvandarlıq, balıqçılıq, quşçuluq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, soyuducu anbar və müxtəlif xidmətlər üzrə 20 sahənin yaradılması davam etdirilib. Həyata keçirilən layihələrin reallaşdırılması məqsədilə cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 25 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 5 milyon 773 min 400 manat maliyyə dəstəyi göstərilib.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları da davamlı olaraq yaxşılaşdırılıb. 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə, ümumilikdə, 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilib.Bu da bir il öncəki göstəricidən 2,3 dəfə çoxdur. Muxtar respublikamızda iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli

istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, həmçinin “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib.

Əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması muxtar respublikada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. Bundan başqa, yüksəkkeyfiyyətli süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Məhz bütün bunların nəticəsidir ki, bu ilin yanvar-iyul aylarında 234 milyon 475 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Sənaye və kənd təsərrüfatı sahələrində istehsalın yüksək sürətlə artması iqtisadi inkişafın mühüm göstəricilərindən hesab edilir. Bu, sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına, fermerlərə göstərilən dövlət dəstəyi nəticəsində mümkün olub. Ümumilikdə, yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq, muxtar respublikada 126 növdə 570 çeşiddə ərzaq, 256 növdə 884 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 382 növdə 1454 çeşiddə məhsul istehsal olunur. 108 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaradıb.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2018-ci ilin yanvar-iyul aylarında 249 milyon 147 min 700 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 221 milyon 145 min 500 ABŞ dolları təşkil edib, 193 milyon 143 min 300 ABŞ dolları dəyərində müsbət saldo yaranıb. Sosial-iqtisadi yüksəlişi ilə diqqətləri üzərinə cəlb edən muxtar respublikamız qədimliyini və tarixiliyini qorumaqla sürətlə inkişaf edir. Ötən illər ərzində inkişaf proseslərinin ardıcıl xarakter alması nəticəsində sənaye məhsulunun həcmi 34,4, əsas kapitala yönəldilmiş investisiyalar 15,9, tikinti-quraşdırma işləri isə 15,2 dəfə artıb, irimiqyaslı infrastruktur layihələri yerinə yetirilib, elektrik stansiyaları istismara verilib, içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri həyata keçirilib. Müasir avadanlıqlarla təchiz edilmiş idman kompleksləri, təhsil və səhiyyə müəssisələri, mədəniyyət və turizm obyektləri inşa edilib, yeni yollar çəkilib, istehsal müəssisələri yaradılıb, 72 mindən çox yeni iş yeri açılıb. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən “Caspian European Club” 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq liderliyə yüksəlib. Aparılan təhlillər göstərir ki, 30 ilə yaxındır, blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olub. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin arzuladığı kimi Naxçıvanın uğurlu sosial-iqtisadi tərəqqisi nəticəsində mümkün olub. Beləliklə, muxtar respublikanın uğurlu sosial-iqtisadi inkişafı ölkəmizin sosial-iqtisadi inkişafında mühüm yer tutur ki, bu da gələcəkdə ölkəmizin beynəlxaq təşkilatların reytinqində daha da yüksək nailiyyətlər qazanmasına müsbət şərait yaradır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan Muxtar Respublikası Ali məclisi. Əcəmi 2014
2. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. Məmmədov Samil. Naxçıvan 80
4. Azərbaycan Respublikası. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı dövlət proqramı.
5. Naxçıvan 2003-2013: “HƏDƏFLƏR, İNKİŞAF, NƏTİCƏLƏR”
6. www.google.az
7. www.statistika.nmr.az

**VÜQAR MƏMMƏDZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

## MODERN DÜNYAMIZDA QLOBALLAŞMA PROSESİNİN TƏZAHÜRÜ

**XÜLASƏ**

*Məqalədə qloballaşma prosesinin təzahür prosesi nəzərdən keçirilmiş, iqtisadi qloballaşma prosesinin təsirləri tədqiq edilmiş, qloballaşma problemi ilə bağlı müzakirələrdən günümüzdə əldə edilən bəzi nəticələrə rəy bildirilmişdir.*

**Açar sözlər:** *qloballaşma, iqtisadi qloballaşma, əməyin keyfiyyəti, iqtisadi inkişaf*

XIX əsrin axırlarında başlayan qloballaşma prosesi, ən geniş mənada, ölkələr arasındakı maneələrin ortadan qalxması nəticəsində ölkələrin bir-birilərinə yaxınlaşması, bütünləşməsi deməkdir. Bu maneələrin növlərindən asılı olaraq, qloballaşma da müxtəlif istiqamətlərdə ola bilər; məsələn, siyasi, iqtisadi, hüquqi qloballaşma və sairə. İqtisadçılar üçün daha maraqlı olan iqtisadi qloballaşmanın özü də üç istiqamətdə ola bilər: beynəlxalq ticarətin sərbəstləşməsi, beynəlxalq kapital hərəkətlərinin sərbəstləşməsi və nəhayət istehsalın qloballaşması (internationalization of production).

İqtisadi qloballaşmanın təsirləri haqqında elmi ədəbiyyatda uzun müddətdən bəri davam edən müzakirələr aparılmaqdadır. Təbiidir ki, müxtəlif iqtisadçılar, hansı "pəncərədən" baxdıqlarından asılı olaraq qloballaşmanın ya xeyrinə, ya da əleyhinə mövqelər ortaya qoymaqdadırlar. Bu gün çox az iqtisadçı uzun müddətdə ticarətin sərbəstləşdirilməsinə və birbaşa xarici investisiyalar nəticəsində istehsalın sərbəstləşməsinə qarşıdır. Əsasən qızğın mübahisələr beynəlxalq kapital hərəkətlərinin sərbəstləşdirilməsi mövzusu ətrafında toplanmışdır. Məqaləmizdə, bu müzakirələrdən günümüzdə əldə edilən bəzi nəticələrin xülasəsinə baxaraq öz rəyimi bildirmək istəyirəm.

Məncə iqtisadi qloballaşma məsələsini, qısaca olaraq, bu beş sual ətrafında təhlil etmək məqsədə daha uyğun olar:

1. Qloballaşma bizim idarəmiz altında olan bir prosesdirmi?

Qloballaşma bu gün elə bir səviyyəyə çatıb ki, bu prosesdə iştirak etmək artıq zəruri hala gəlmişdir. Bu, xüsusilə də bizim kimi kiçik ölkələr üçün daha böyük bir məna kəsb edir. Əlbəttə ki, hər hansı bir ölkənin hökuməti tək tərəfli olaraq bu prosesdə iştirak etməyi rədd edə bilər. Ancaq bu gün telekommunikasiya texnologiyaları elə bir səviyyəyə çatıb ki, belə bir qərarın təsiri məhdud olacaqdır. Bundan başqa, iqtisadi olaraq belə bir qərardan doğacaq daxili və xarici təzyiqlərə tab gətirə bilmək çox çətindir. Həmçinin belə bir siyasət bugünkü dünyada rasional deyildir.

2. İqtisadi qloballaşmanın potensial faydaları nələrdir?

Bizim maraqlandığımız kapital hərəkətlərindəki qloballaşmanın potensial faydaları ilə əlaqədar olan fikirləri aşağıdakı kimi cəmləyə bilərik:

- Beynəlxalq kapital bazarlarına daxilolma ölkələrə istehlaklarını zaman boyunca hamarlaşdırma (consumption smoothing) fürsəti verir.
- Ölkələr ehtiyac duyduqları kapitalı cəlb edərək daha yüksək investisiya səviyyəsinə və iqtisadi artıma nail ola bilərlər. Bundan başqa cəlb edilən kapitalla birlikdə ölkələrə texnoloji "know-how" da daxil olmaqdadır. Bunun nəticəsində də ölkədə məhsuldarlıq artmaqdadır.
- Sərbəst kapital hərəkətləri hökumətləri makro iqtisadiyyatı daha səriştəli idarə etməyə təşviq və məcbur edir.
- Sərbəst kapital hərəkətləri ölkənin daxili maliyyə bazarlarının dərinliyini və genişliyini artırır.

3. İqtisadi qloballaşmanın görünən mənfi təsirləri nələrdir?

Bu mənfi təsirlərin ən əsaslarını aşağıdakı kimi cəmləyə bilərik:

- Böyük miqyaslı kapital hərəkətləri ölkədə makroiqtisadi qeyri-tarazlıq yarada bilər.

- Qısamüddətli kapital hərəkətlərinin köçəri olması ölkə iqtisadiyyatını kövrək vəziyyətə gətirə bilər.

- Kapital marketlərindəki asimmetrik informasiya nəticəsində kapital effektli bir şəkildə hərəkət etməyə bilər.

4. Bütün bunlara baxaraq, bir ölkə kapital hərəkətlərinin müsbət təsirlərindən ən üst səviyyədə faydalanmaq və mənfi təsirlərini minimumda tutmaq üçün nələr etməlidir?

Qloballaşma prosesində iştirak etmək ən rasional variantdırsa, bir ölkə aşağıdakı islahatları aparmağa məcburdur:

- Makroiqtisadi sabitliyi təmin etmək üçün həm dünyadakı, həm də ölkə daxilindəki vəziyyəti nəzərə alan məntiqli maliyyə və pul siyasəti tətbiq etmək;
- Daxili maliyyə sisteminin effektli işləməsini təmin etmək;
- Lazım olan hüquqi və struktur islahatları aparmaq.

5. Qloballaşma prosesində əməyin keyfiyyəti hansı formada dəyişir ?

Günümüzdə getdikcə bütün dünyanı əhatə edən qloballaşma fenomeninə əslində dörd mərhələli tarixi bir prosesdən keçilərək gəlinmişdir: Sənətkarlıq, manufaktura, mexanikləşmə və avtomatlaşdırma.

Sənətkarlıq dövründə əmək ən əhəmiyyətli istehsal vasitəsi olmuş, şəxsi istehlakı üçün məhsul istehsal etməkdə idi. Ayrıca bazarda da əmtəə-əmtəə mübadiləsi keçərli idi. Manufaktura mərhələsində isə, əmək sahibi istehsal etdiyinin bir qismini almaq şərti ilə əməyini satmaqda və ya müəyyən bir əmək haqqı almaqda idi. Mexanikləşmə dövründə əmək sözün əsl mənasında ilk dəfə texnologiya ilə tanış oldu. Karl Marksın ölümündən üç il əvvəl 1880-ci ildə gerçəkləşən məhsuldarlıq (productive) inqilabı fəhləni (proletariatı) işçiyə çevirdi. Avadanlıq və dəzgah böyük ölçüdə əməyi əvəz etməyə başladı. Dolayısı ilə əmək keyfiyyət dəyişdirərək avadanlıq və dəzgahın başında gözləyən, ehtiyatları, nasazlıq və problemləri nəzarətdə saxlayan bir mövqeyə gəldi.

Avtomatlaşdırma mərhələsində isə, daha əvvəl aşağı keyfiyyətli əməyin gördüyü və görə bilmədiyi bütün işləri müasir robotlar artıqlaması ilə yerinə yetirə bilməkdə idilər. 1950-ci illərə gəlindiyində isə, idarəetmə inqilabı gerçəkləşdi. Bu da mavi yaxalı işçinin bəyaz yaxalı işçiyə çevrilməsinə səbəb oldu. A.Tofflerə görə, sənətkarlıq və manufaktura mərhələlərini əhatə edən əkinçilik inqilabı (birinci dalğa) ən əhəmiyyətli istehsal faktoru olaraq torpaq və əməkdən istifadə etməkdə idi.

Mexanikləşmə və avtomatlaşdırma mərhələlərini əhatə edən ikinci dalğa olan sənaye inqilabı isə kapitalı ən əhəmiyyətli istehsal faktoru halına gətirdi.

1990-cı illərdə yaşanan üçüncü dalğa isə istehsal prosesində elmi və biliyi əsas alan informasiya çağını ifadə etməkdədir. Mexanikləşmə dövrünün canlı şahidi olan K.Marks kapitalizmin yüksək inkişaf mərhələsində firmalar arasında ifrat rəqabət olacağını, qazanc hədlərinin düşəcəyini, işçilərin kütləvi şəkildə işdən çıxarılacağını, istehsal artığı yaranacağını və nəhayət, son mərhələdə inqilabın gerçəkləşəcəyini söyləyirdi. Günümüzdə bunların heç birinin gerçəkləşmədiyini gördük. Fikrimizcə, K.Marks əməyin keyfiyyətindəki dəyişikliyi düzgün proqnozlaşdıra bilməyib. Belə ki, əmək artıq bir istehsal faktoru dolayısı ilə sinif olmaqdan çıxmışdır. Çünki əmək yaşanan prosesdə yekcins və standart olmaqdan çıxaraq bilgi işçisi, idarəçi, bəşəri və sosial kapital, fiziki işçi kimi müxtəlif şəkillərə bürünmüşdür. Bilgi işçisi çalışma saatları qeyri-müəyyən, zehni istehsaldan istifadə edən olduqca keyfiyyətli bir əməyi ehtiva edir. İdarəçi, mövcud qurumlarda yerinə yetiriləcəkləri planlaşdıran, təşkil və koordinasiya edən, əhəmiyyətli qərarlar alan üst səviyyəli işçidir. Sosial kapital isə idarəetmə iyerarxiyasının nə qədər yastı və üfüqi olduğunu müəyyənləşdirir. Qurumun təşkilati quruluşunun üfüqi olması iyerarxiyanın aşağı olduğu mənasına gəlməkdədir. Bu da aşağıdakıların zəruri olduğu zaman üstdəkiləri atlayaraq bir üst quruma əlaqə saxlaması deməkdir. Sosial kapitalın inkişaf etmiş olması, çalışan şəxslərin səsvermə və özü ilə əlaqədar qərar alma prosesinə qatıla bilməsi, şəxsi təşəbbüsünü ortaya qoya bilməsi anlamına gəlməkdədir. Çalışanların belə bir bölgüyə getməsi sinif şüurunu ayaqda tutan sendika-lizmi sahibkarlar qarşısında təsirsiz hala gətirməkdədir. Çünki fərqli keyfiyyətlərə sahib işçilərin ortaq maraq və hərəkət sahələri də azalır. Bu baxımdan gələcəyin siniflərinin bilik istehsal edənlərlə istehsal etməyənlər arasında şəkillənəcəyini söyləyə bilərik. Məsələn, ilk kateqoriyaya informasiya

və kommunikasiya texnologiyaları sahələrindəki təşəbbüskarlarla daima özünü yeniləyən, nəzəri araşdırma və tətbiqi inkişaf fəaliyyətlərinə həsr edən, ömür boyu öyrənən işçilər daxil olacaqdır.

Artıq formal təhsilin çox da böyük əhəmiyyəti qalmamışdır. Ömür boyu öyrənmə (learning by living) adlandırılan hadisə, təşkilat daxili (çalışaraq öyrənmə - learning by doing) və xarici təhsili yayğınlaşdırmaqdadır. Yəni dörd illik təhsil prosesinin sonunda əldə edilən universitet diplomu iki il sonra heç bir əhəmiyyət ifadə etməməkdədir. Araşdırmalar 1960-1961-ci illəri əhatə edən iki il ərzində elmin əldə etdiyi yeni icadların o zamana qədər (yəni bizə məlum olan ən qədim tarixdən 1960- cı ilə qədər) əldə ediləndən iki qat daha artıq olduğunu ortaya qoyur. Buna sosial elmlərdə bilik irəliləyişi deyilir. 1959-cu ildə universitetdən məzun olan bir şəxs iki il sonra dünyadan üç dəfə geri qalacaqdır. Eyni şəkildə, bir gündə istehsal edilən bilgini oxumaq 45 gün zaman almaqdadır. Bu fərqin daha sonra iş yerindəki təşkilat daxili təhsillə azaldılmasına çalışılır.

BMT-nin İnsan İnkişafı İndeksindəki təhsil səviyyəsi Azərbaycan kimi ölkələrdəki 11 illik formal təhsili nəzərdə tutmamaqdadır. Çünki az inkişaf etmiş ölkələrdəki təhsilli insan qeyri-məhsuldar, yəni bazarın axtardığı xüsusiyyətlərə sahib olmayan ümumi mədəniyyət məlumatlarına yiyələnmiş işçidir.

ABŞ və Meksika iqtisadiyyatlarındakı nominal əmək haqqı səviyyələri ilə bağlı aparılan geniş bir tədqiqat iki ölkə arasındakı əmək haqqı səviyyələrindəki fərqlərin 80 faizinin Meksikadakı işçilərin məhsuldarlığının aşağı olması (bilik və bacarıq səviyyəsinin aşağı olması) və real alıcılıq qabiliyyətlərindəki fərqliliklərdən ortaya çıxdığını göstərir. Azərbaycanda bu gün bir işçiyə hesablanmış orta aylıq əmək haqqının miqdarı 77 dollar kimi yoxsulluq həddinə yaxındır ki, bu da təqribən 950 dollara ekvivalent bir illik gəliri ifadə etməkdədir. İnkişaf etməkdə olan ölkələrdəki adambaşına düşən milli gəlir 5000 dolların üstündədir. Aradakı fərqin nə qədərinin Azərbaycandakı alıcılıq qabiliyyəti ilə açıqlanacağı vacib deyil. Amma reallıq budur ki, həmin fərqin böyük bölümü yerli işçimizlə dünya işçisi arasında ciddi məhsuldarlıq fərqinin mövcudluğundan ortaya çıxmaqdadır. Bu baxımdan Azərbaycanda ilk iş olaraq sürətlə fərdlərin bilik, bacarıq və qabiliyyətinə söykənən təhsil sisteminə keçməyin zamanı gəlib çatmışdır.

Bütün bu addımların atılması üçün siyasi baxımdan qətiyyətli bir hökumət lazımdır. Ekonometrik araşdırmaların nəticələrinə görə, bu islahatları apara bilən ölkələr kapital hərəkətlərinin müsbət təsirlərindən daha çox faydalanırlar. Ancaq belə ölkələrin sayı çox azdır.

Ölkələrin əksəriyyəti bu islahatları bir neçə dəfə iqtisadi böhrana məruz qaldıqdan sonra məcburən aparırlar. Deməli, qloballaşma prosesinə daxil olan bir ölkənin önündə iki variant var: ya əvvəlcə könüllü olaraq lazım olan islahatları aparacaq, ya da bu islahatları böhranlardan sonra məcburi olaraq aparacaqdır. Joseph E.Stiglitz o nöqtədə haqlıdır ki, BVF ölkələrin bu islahatları aparıb aparmadıqlarına baxmadan onlara kapital hərəkətlərini sərbəstləşdirmək üçün təzyiq edir.

Ölkələr müəyyən müddətə kapital hərəkətlərini məhdudlaşdıra bilərlər. Ancaq bu qiymətli zamanı lazımi islahatları aparmaq üçün xərcləməlidirlər.

Nəticədə qeyd etmək istəyirəm ki, iqtisadi çətinliklərlə üzləşən ölkələrin əksəriyyətində hökumətlər öz siyasi nüfuzlarını itirməmək üçün bütün günahın qloballaşmada olduğunu bəyan edirlər. Çünki bu lazımi islahatları aparmaqdan daha asandır. Ancaq bilməliyik ki, böyük ölkələr və ya beynəlxalq təşkilatlar nə rol oynayırsa oynasın, qloballaşma prosesindən səmərəli bir şəkildə istifadə etmək bizim özümüzdən asılıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər. Bakı, "Avropa" nəşriyyatı, 2015, 332 səh.
2. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt, 2015, 185 səh.
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, 2009, 415 səh.

**ELVİN ƏLİMƏRDANOV**
*"Naxçıvan" Universiteti*
*elvin.alimardanov@mail.ru*

## FƏALİYYƏTƏ ƏSASLANAN MAYA DƏYƏRİ SİSTEMİ

**XÜLASƏ**

*Mühasibat uçotu sistemi özlüyündə maliyyə uçotu və idarəetmə uçotu altsistemlərinə bölünür. Məlumdur ki, idarəetmə uçotunun məqsədi isə müəssisələrin idarəetmə qərarları vermək üçün məhsulun maya dəyərinin hesablanmasını, onların hesablanmasında xərclərin düzgün bölüşdürülməsini və maya dəyərinə təsir mexanizmini öyrənməkdən ibarətdir. İdarəetmə heyətinin səhv qərarlar verməməsi üçün maya dəyərinin düzgün əks etdirilməsi uçot üçün çox əhəmiyyətlidir. Məqalədə maya dəyərinin hesablanmasına xərclərin təsir mexanizmi araşdırılmış və maya dəyərinin düzgün hesablanması üçün ənənəvi və fəaliyyətə əsaslanan maya dəyəri sistemləri geniş tədqiq edilmişdir.*

**Açar sözlər:** *istehsal xərcləri, qeyri-istehsal xərcləri, maya dəyəri xərcləri, birbaşa xammal və material xərcləri, birbaşa əməkhaqqı xərcləri, dolayı istehsal xərcləri*

Təsərrrüfat subyektləri fəaliyyət növünə görə üç yerə ayrılırlar. Ehtiyatları satmaq məqsədilə alıb, üzərinə müəyyən faiz əlavə edib satan müəssisələrə "ticarət müəssisələri", xidmətləri istehsal edərək təqdim edən müəssisələrə "xidmət müəssisələri" deyilir. Xammal və materialları əldə edib, istehsal edib hazır məhsula çevirərək satan müəssisələrə isə "istehsal müəssisələri" deyilir. İstehsal müəssisələri, əldə etdiyi xammal və materialları hazır məhsula çevirmə prosesində çəkdiyi xərclər istehsal xərcləri adlanır.

Ümumiyyətlə maya dəyərinin hesablanmasında nəzərə alınmasına görə xərclər "istehsal xərcləri və qeyri - istehsal xərcləri" olaraq iki yerə ayrılır.

Məhsul istehsalı zamanı həmin məhsul üçün çəkilən xərclər istehsal xərclərinə aid edilir və aşağıdakı xərclərə bölünür.

- Birbaşa xammal və material xərcləri
- Birbaşa əmək haqqı xərcləri
- Dolayı istehsal xərcləri (ümumi istehsal xərcləri)

Müəssisənin normal fəaliyyəti dövründə əmələ gələn və istehsalla birbaşa əlaqəsi olmayan xərclər qeyri-istehsal xərclərinə aid edilir. Qeyri-istehsal xərcləri isə aşağıdakılardan ibarətdir.

İnzibati xərclər - müəssisənin idarəetmə heyətinə verilən əmək haqqı xərcləri, idarəetmə bölməsinə aid edilən əsas vəsaitlərinin amortizasiya xərcləri, idarəetmə binasının təmir və digər baxım xərcləri, bina üçün kənardan alınmış xidmət xərcləri və idarəetmə bölməsi üçün çəkilən digər xərclər.

Kommersiya xərcləri - müəssisənin reklam və satış bölməsi işçilərinin əmək haqqı xərcləri, kommersiya bölməsinə aid edilən əsas vəsaitlərinin amortizasiya xərcləri, kommersiya bölməsi binasının təmir və digər baxım xərcləri, bina üçün kənardan alınmış xidmət xərcləri və kommersiya bölməsi üçün çəkilən digər xərclər.

Paylama xərcləri - istehsal olunan malların sexdən anbarlara daşınması xərci, kənar təşkilatlara daşınması üçün yaranan xərclər, istifadə edilən avtonəqliyyat vasitələrinin amortizasiya xərci, yanacaq xərci və bura aid edilən digər xərclər.

Maliyyə xərcləri - investisiya və dövriyyə kapitalını maliyyələşdirmək üçün çəkilən xərclər və əsasən də faiz xərcləri bura aid edilir. [1, s.136]

Qeyri-istehsal xərcləri müəssisə üçün əhəmiyyətli xərclərdir və əməliyyat fəaliyyətində yaranır. Bu xərclər istehsal olunan məhsulun maya dəyərinə daxil edilməyərək dövri xərc olaraq "Mənfəət (zərər) hesabatında" yer alır.

İstehsal xərcləri istehsal olunan məhsulun maya dəyərinin müəyyən edilməsində əsas rola malikdir. Bu xərclərin cəmi, istehsal olunan malların maya dəyərini müəyyən edir. İstehsal xərcləri maya dəyərinə birbaşa və dolayı şəkildə aid edilir.

Birbaşa xərclər istehsal olunan məhsulun üzərinə birbaşa aid edilə bilən xərclərdir.

Birbaşa xammal və material xərcləri - istehsal olunan məhsulun üzərində ölçülməsi mümkün olan xərclərdir.

Birbaşa əmək haqqı xərcləri - istehsal olunan məhsulun vahidinə görə hesablanmış əmək haqqı xərcləridir.

Dolayı istehsal xərcləri (ümumi istehsal xərcləri) istehsal olunan məhsulun üzərinə birbaşa deyil, dolayı şəkildə aid edilir. Əgər müəssisə tək bir adda və növdə məhsul istehsal edirsə dolayı xərclərin cəmi, istehsal olunan məhsulların miqdarına bölünməklə istehsal olunan məhsulun vahidinin maya dəyərini müəyyən etmək olar. Müəssisə müxtəlif partiyalarla müxtəlif adda, ölçüdə və növdə məhsul istehsal edirsə, bu zaman dolayı xərcləri istehsal olunan məhsula aid etmək üçün müxtəlif aid edilmə (təxsisat) açarlarından istifadə edilir.

Dolayı istehsal xərcləri (ümumi istehsal xərcləri) aşağıda göstərilənlərdən ibarətdir.

Dolayı xammal və material xərcləri - istehsal olunan məhsulun üzərinə birbaşa aid edilməyən xərclərdir. İstehsal binasının təmizlik materialları, istehsal avadanlığının sürtkü yağları, yanacaq və digər xammal və material xərcləri.

Dolayı əmək haqqı xərcləri - istehsal olunan məhsulla birbaşa əlaqəsi olmayan və ölçülməsi mümkün olmayan əmək haqqı xərcləridir. Sexin işçilərinə nəzarət edən nəzarətçinin əmək haqqı, sex mühafizəçisinin əmək haqqı və digər əmək haqqı xərcləri.

Amortizasiya xərcləri - məhsul istehsalı üçün istifadə edilən əsas vəsaitlərin amortizasiyası xərcləridir.

Kənardan alınmış xidmətlər - məhsul istehsalı üçün kənardan cəlb edilmiş xidmət xərcləridir. İstehsal binasının elektrik, qaz, su-kanalizasiya, rabitə, mühafizə və digər kənardan alınmış xidmət xərcləri. [6, s. 205]

Dolayı istehsal xərclərinin istehsal olunan məhsula yüklənməsində "ənənəvi sistem və fəaliyyətə əsaslanan maya dəyəri sistemindən (ABC)" istifadə edilir.

Ənənəvi sistem aşağıdakı xüsusiyyətlərdən ibarətdir.

- Məhsulun maya dəyərində dolayı olan xərclər müəyyən edilir
- Məhsul üçün məsrəf mərkəzləri müəyyən edilir
- Məsrəf mərkəzləri "əsas" və "köməkçi" mərkəzlərə bölünür
- Məsrəflər, əsas və köməkçi mərkəzlər bölüşdürülür *(I bölüşdürmə)*
- Köməkçi mərkəzlərdə olan məsrəflər əsas məsrəf mərkəzlərinə ötürülür *(II bölüşdürmə)*
- Əsas məsrəf mərkəzlərində olan dolayı xərclərin istehsal olunan məhsula bölüşdürülməsi

Fəaliyyətə əsaslanan maya dəyəri sistemini (ABC) aşaşıdakı nümunə əsasında şərh edək.

"X" müəssisəsi "A" və "B" məhsulunu istehsal edir. Müəssisə xaricdən xammal və materialları idxal edib istehsal prosesindən keçirərək hazır məhsula çevirir. Fəaliyyət sahələri və işçi sayı aşağıdakı kimidir.

- Satınalma fəaliyyəti (istehsal üçün lazım olan xammal və materialları zamanında təmin edən ən əhəmiyyətli sahə) - 10 nəfər
- Anbar fəaliyyəti (idxal olunan xammalın istehsal prosesinə qədər bu anbarlarda saxlanılan əsas fəaliyyət sahəsi) - 20 nəfər
- İstehsal fəaliyyəti (məhsulların istehsalının həyata keçirildiyi ən mühüm fəaliyyət sahəsi) - 50 nəfər (45 nəfər (birbaşa), 5 nəfər (dolayı))
- Keyfiyyətə nəzarət (məhsulun bazarda rəqabətinə təsir edəcək və keyfiyyətin nəzrətini təmin edən mühüm sahə) - 6 nəfər
- İnzibati bina - bu faəliyyət sahəsinin xərcləri, dövri xərc olaraq həmin dövrdə "mənfəət (zərər)" hesabatında göstərilir

Birbaşa xammal və material xərcləri

A məhsulu – 10 000 ədəd x 10 = 100 000, B məhsulu – 9 800 ədəd x 9 = 88 200

Birbaşa əməkhaqqı xərcləri

A məhsulu – 10 000 ədəd x 1.80 = 18 000, B məhsulu – 9 800 ədəd x 1.80 = 17 640

Dolayı istehsal xərcləri *(Satınalınma fəaliyyəti)*

- Əməkhaqqı xərcləri – 8 000 AZN
- Bina və avadanlıqların amortizasiyası – 500 AZN
- Enerji və kommunal xərclər – 250 AZN

YEKUN = 8 750 AZN A – 850 saat B – 830 saat TOTAL = 1 680 saat

*Anbar və logistika fəaliyyəti*

- Əməkhaqqı xərcləri – 17 000 AZN
- Bina və avadanlıqların amortizasiyası – 1 000 AZN
- Enerji və kommunal xərclər – 500 AZN

YEKUN = 18 500 AZN A – 53 dəfə B – 52 dəfə TOTAL = 105 dəfə

*İstehsal fəaliyyəti*

- Dolayı əməkhaqqı xərcləri – 4 000 AZN
- Bina və avadanlıqların amortizasiyası – 18 000 AZN
- Enerji və kommunal xərclər – 1 250 AZN

YEKUN = 23 250 AZN A – 740 maşın s. B – 728 maşın s. TOTAL = 1 468 s.

*Keyfiyyətə nəzarət*

- Dolayı əməkhaqqı xərcləri – 5 000 AZN
- Bina və avadanlıqların amortizasiyası – 1 500 AZN
- Enerji və kommunal xərclər – 300 AZN

YEKUN = 6 800 AZN A – 2 525 ədəd B – 2 475 ədəd TOTAL = 5 000 ədəd

A və B məhsulunun maya dəyəri

*Satınalınma fəaliyyəti*

*(*8 750 AZN / 1 680 saat = 5.21) A = 850 x 5.21 = 4 427 B = 830 x 5.21 = 4 323

*Anbar və logistika fəaliyyəti*

18 500 AZN / 105 dəfə = 176.19 A = 53 x 176.19 = 9 338 B = 52 x 176.19 = 9 162

*İstehsal fəaliyyəti*

23 250 AZN / 1 468 m.s. = 15.84 A = 740 x 15.84 = 11 720 B = 728 x 15.84 = 11 530

*Keyfiyyətə nəzarət*

6 800 AZN / 5 000 ədəd = 1.36 A = 2 525 x 1.36 = 3 484 B = 2 475 x 1.36 = 3 366

"A" MƏHSULU

Birbaşa xammal və material – 100 000 AZN, Birbaşa əməkhaqqı xərcləri – 18 000 AZN

Dolayı xərclər (*Satınalınma fəaliyyəti* – 4 427, *anbar və logistika* – 9 338, *istehsal fəaliyyəti* – 11 720, *keyfiyyətə nəzarət* – 3 434, YEKUN = 146 919 AZN)

Vahidinin maya dəyəri – 146 919 / 10 000 = 14.69 AZN

"B" MƏHSULU

Birbaşa xammal və material – 88 200 AZN, Birbaşa əməkhaqqı xərcləri – 17 640 AZN

Dolayı xərclər (*Satınalınma fəaliyyəti* – 4 323, *anbar və logistika* – 9 162, *istehsal fəaliyyəti* – 11 530, *keyfiyyətə nəzarət* – 3 366, YEKUN = 134 221 AZN)

Vahidinin maya dəyəri – 134 221 / 9 800 = 13.70 AZN

## ƏDƏBİYYAT

1. E. S. Həsənov, E. Y. Əlimərdanov. "Mühasibat uçotu". Naxçıvan-2019, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 364 səh.

2."Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının konseptual əsasları". Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nəşri. Bakı, 2010, 284 səh.

3.İ.e.d., prof. Q. R. Rzayev. "Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı". "Adiloğlu" nəşriyyatı, Bakı, 2004, 176 səh.

4.Anadolu Üniversitesi. "Genel muhasebe-2". "Anadolu Üniversitesi Web-Ofset tesisleri" baskısı, Eskişehir, Ocak – 2013.

5.Prof. Dr. H. Kamil Büyükmirze. "Maliyet ve yönetim muhasebesi"."Gazi kitabevi" 19-cu baskı, Ankara, 2014.

6.Dr. Öztin Akgüç. "Finansal yönetim". "Avcıoğlu basım yayın". İstanbul, 2010.

7.www.maliyye.gov.az

8.www.e-muhasib.az

9.www.principlesofaccounting.com

10.www.ifrs.org

**RÖYA SULTANOVA**
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVAN MUXTAR RESPUBLIKASINDA ƏRZAQ TƏHLÜKƏSIZLIYININ TƏMIN OLUNMASI ISTIQAMƏTLƏRI

## XÜLASƏ

*Məqalədə ərzaq təhlükəsizliyinin təmin olunmasından söhbət açılır. Qeyd edilir ki, kənd təsərrüfatı inkişaf etmədən, əhalinin ərzaq məhsullarına olan tələbatı ödənilmədən ərzaq təhlükəsizliyi təmin edilə bilməz. Buna görə də ərzaq təhlükəsizliyi ilə bağlı olan bir sıra beynəlxalq təşkilatların adları çəkilir və bu təşkilatların gördüyü işlər tədqiq edilir. Burada habelə BMT-nin Beynəlxalq ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) haqqında məlumatlar verilir.*

*Habelə məqalədə Azərbaycan Respublikasında və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərdən danışılır. Bu sahədə ölkə prezidenti tərəfindən təsdiq edilmiş Dövlət Proqramlarından söhbət açılır.*

**Açar sözlər:** *ərzaq təhlükəsizliyi, aqrar sektor, fizioloji norma, ərzaq istehlakı, ərzaq qıtlığı.*

XX əsrin axırları və XXI əsrin əvvəllərində əsası qoyulan bütün uğurlar Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır və uğurlar ölkə prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də davam etdirilir. Təbii və iqtisadi ehtiyatlardan səmərəli istifadə etmək, regionların sosial-iqtisadi inkişafını sürətləndirmək, əhalinin məşğulluq səviyyəsini yüksəltmək və işsizliyi aradan qaldırmaq, yoxsulluq səviyyəsini azaltmaqla yanaşı ərzaq təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzində durmuşdur. Son illərdə ölkəmizdə həyata keçirilən aqrar islahatlar bu sahədə bazar münasibətlərinin formalaşmasına, aqrar sektorun təşkilati və iqtisadi əsaslarının dəyişməsinə səbəb olmuşdur. Yeni iqtisadi münasibətlər şəraitində qarşıda duran mühüm vəzifələrdən biri istehsalın səmərəliliyinin yüksəldilməsi və aqrar sektorun rəqabətqabiliyyətliliyinin artırılmasıdır.

Dövlət tərəfindən kənd təsərrüfatının güzəştli şərtlərlə maliyyələşdirilməsi bu sahənin rəqabət qabiliyyətinin artırılması və investisiya və cəlbediciliyi baxımından mühüm rol oynayır.

Qeyd etmək lazımdırdır ki, hər bir dövlətdə ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizlik strategiyasının tərkibində xüsusi yer tutur. Dünyada ərzaq təhlükəsizliyi problemi XX əsrin 70-ci illərində BMT-nin Beynəlxalq ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) tərəfindən qaldırılmışdır.

Məlum olduğu kimi bütün dövrlərdə və bütün səviyyələrdə insdanların həyat tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Cəmiyyətin inkişafının müxtəlif inkişaf pillələrində qidalanma səviyyəsi ayrı-ayrı ölkələrdə xeyli fərqlənmiş, ehtiyatların müxtəlifliyi, insanların sayı və s. ilə əlaqədar bəzi ölkələrdə bu və ya digər məhsul azlığı əmələ gəlmişdir. Ərzaq problemini həll etmək üçün ticarət əlaqələri genişləndirilmiş, məsələnin dərinləşməsinin qarşısını almaq üçün təşkilatlar yaradılmış, əlaqələr formalaşdırılmış, normal qidalanma problemləri ilə əlaqədar hüquqi əsaslar yaradılmışdır.

Qeyd etmək lazımdır ki, 1994-cü ildə FAO tərəfindən ərzaq təhlükəsizliyinə dair xüsusi proqram qəbul edilmişdir. Bu proqramda yeyinti məhsullarının istehsal səviyyəsinin artırılması və aclıq çəkən insanların azaldılması əsas məqsəd qoyulmuşdur. Həmin proqrama 106 ölkə qoşulmuşdur ki, bundan da 44 ölkə Afrika, 27 ölkə Latın Amerikası, 14 ölkə Sakit okeanın qərb hissəsindən və 13 ölkə Asiyadan olmuşdur. FAO-nun 20-dən şox regional proqramları müxtəlif ölkələrdə fəaliyyət göstərir.

Hazırda beynəlxalq aləmdə ərzaq təhlükəsizliyini təmin etmək üçün geniş işlər aparılır. Bu məsələ ilə FAO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Beynəlxalq Ticarət Təşkilatı (BTT) və İqtisadi Tərəfdaşlıq və İnkişaf Təşkilatı (İTİT) məşğul olurlar.

Dünyanın bir çox ölkələrində hazırda ərzaq təhlükəsizliyi konsepsiyası mövcuddur. Ölkədə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə ərzaq təminatı sahəsində problemlərin aradan qaldırılmasını, ərzaq təhlükəsizliyinin kəmiyyəti, keyfiyyəti, iqtisadi-sosial sapektlərini, ərzaq

təhlükəsizliyi siyasətini, bu sahədə hüquqi-normativ və təşkilati tədbirlər proqramlarının əsaslarını müəyyən edir. Əlbəttə ki, bu konsepsiyanın məqsədi ölkənin ərzaq müstəqilliyinənail olmaq, əhalinin bütün kateqoriyalarının sabit surətdə keyfiyyətli ərzaq məhsulları əldə edilməsinə şərait yaratmaqdan və fövqəladə hallar üçün ərzaq təminatını təşkil etməkdən ibarətdir. Əvvəlki dövrlərdə olduğu kimi bu gün də bütün dünyada, o cümlədən Azərbaycanda ərzaq təhlükəsizliyi problemi olduqca aktualdır. Ona görə ki, istehlak mallarının bir hissəsi xarici ölkələrdən idxal olunur. Çünki, ASK-nın inkişafı əhalinin artan tələbatını hələlik kifayət qədər ödəyə bilmir.

Alimlər belə hesab edirlər ki, dünya əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək üçün bütöv bir sistem olaraq dünya artan tələbatları ödəmək üçün kifayət edən qədər ərzaq məhsulları istehsal etməlidir. Bunun üçün ticarət maneəsiz olaraq, stabil qiymətlərlə həyata keçirilməlidir ki, ölkələr zəruri hallarda öz istehsallarını idxalın hesabına tamamlaya bilsinlər. Bu, dünyanı gözlənilməz istehsal böhranlarından və qiymətlərin artımından sığortalamaq məqsədilə zəruri ehtiyatların ayrıca bir sisteminin funksionallaşmasını nəzərdə tutur.

Ərzaq məhsulları istehsalı və istehlakının uyğunluğu btün hallarda ərzaq təhlükəsizliyinin təmin olunması demək deyildir. Yuxarıda qeyd etdiyimiz yeni konsepsiyanın müəyyənedici elementi bazarda ərzaq məhsullarının (yerli, idxal) mövcudluğu deyil, istənilən insanın ərzaq məhsullarına olan tələbini təmin etmək üçün imkanlar yaradan maddi və iqtisadi şəraitin təmin olunmasıdır.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, milli ərzaq təhlükəsizliyi həm də dünya ərzaq təhlükəsizliyinin bir elementidir. Bu baxımdan ölkənin ərzaq təhlükəsizliyi rifahı dünya ərzaq bazarının stabilizatoru və kənd təsərrüfatı istehsalının tətbiqi üçün qeyri-əlverişli təbii-iqlim şəraitinə malik ölkələrdə ərzaq təhlükəsizliyinin təmin olunması mənbəyi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, son illər ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində xeyli iş görülmüşdür. Belə ki, torpaq vergisindən başqa kənd təsərrüfatı bütün digər vergilərdən azad olunmuşdur. Respublikamızda ərzaq təhlükəsizliyi üzrə tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən milyonlarla manat vəsait ayrılmışdır. Bütün bu görülən tədbirlər ölkədə aqrar sektorun inkişafına, ərzaq məhsullarının artmasına və bir çox məhsullar üzrə ərzaq təhlükəsizliyinin təmin olunmasına gətirib çıxarmışdır.

Aparılan tədqiqatlar sübut edir ki, istehlak olunan kənd təsərrüfatı xammalının və ərzaqın ümumi həcmində yerli istehsal taxıl üzrə 90 faiz, kartof – 95, şəkər -80, bitki yağı – 80, ət və ət məhsulları, süd və süd məhsulları – 85-90, balıq və balıq məhsulları üzrə - 80 faizdən az olmadıqda özünü özünütəminetmə səviyyəsi yüksək olduğundan xarici təsirlərə məruz qalmır.

Yerli istehsalın həcmi bu parametrlər nəzərə alınmaqla əhalinin sayı və adambaşına düşən əsas ərzaq məhsullarına (çörək və çörək məmulatları, ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, bitki yağı, kartof, meyvə və giləmeyvə, tərəvəz və bostan məhsulları, balıq və balıq məhsulları, qənd və şirniyyat məhsulları) fizioloji normalar əsasında hesablanaraq müəyyən olunur. Ümumdünya Səhiyyə Təşkilatının təsdiq etdiyi fizioloji normalara əsasən gündəlik qidanın ümumi enerjisi 3126 kkalori təşkil etməlidir. FAO-nun hesablamalarına görə gündə 1760-1836 kkalori qəbul edilməsi ölkədə kifayət qədər qida maddəsinin qəbul edilməsinin və ya aclığın göstəricisidir. Bu göstərici 2010-cu ildə dünyada 2860 kkalori, Azərbaycan Respublikasında isə 2001-ci ildə 2221 kkalori, 2010-cu ildə isə 2588 kkalori təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, FAO-nun son illər dünya ölkələri üzrə apardığı hesablamalarda, Azərbaycan Respublikasında adambaşına gündəlik istehlak edilmiş məhsulların enerji tutumunun 2010-cu ildə 3346 kkalori olması qeyd edilir.

Ərzaq təhlükəsizliyinin çox böyük siyasi və sosial-iqtisadi əhəmiyyət kəsb etməsini nəzərə alaraq ölkəmizdə bir sıra konkret tədbirlər həyata keçirilmiş və hazırda bu işlər davam etdirilir. Belə ki, 2001-ci ildən başlayaraq ərzaq təhlükəsizliyi, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramları qəbul edilmişdir. Bundan əlavə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" uğurla yerinə yetirilmişdir.

Bunlardan əlavə ölkə prezidenti İlham Əliyevin Sərəncamları ilə 2004-cü ildən başlayaraq qəbul olunmuş 3 Dövlət Proqramları da çox müvəffəqiyyətlə yerinə yetirilmişdir. Bu Proqramlarda

nəzərdə tutulmuş tədbir də əsasən işsizliyin aradan qaldırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəldilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtlərdən biri olan ölkə əhalisinin maddi durumunda müsbət dəyişikliklər baş vermişdir. Əgər 2005-ci ildə ölkə əhalisinin 29,3 faizi yoxsulluq həddində yaşamışdırsa bu rəqəm 2011-ci ildə 7,6 faiz və 2018-ci ildə isə 5,0 faiz olmuşdur. Bu da 2005-ci ilə nisbətən 2018-ci ildə yoxsulluq səviyyəsinin təxminən 6 dəfə azalması deməkdir.

Ərzaq təhlükəsizliyi problemi dünya ölkələri tərəfindən iqtisadiyyatın prioritet istiqaməti kimi həmişə diqqətdə saxlanılır və qlobal problem kimi daimi müzakirə predmetinə çevrilmişdir. Ərzaq təhlükəsizliyinin bir çox növləri vardır ki, bunu da aşağıdakı sxemdə göstərmək olar:




Sxem 1. Ərzaq təhlükəsizliyinin bir çox növləri

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təhlili və onun inkişafının proqnozlaşdırılmasının zəruriliyi və həyatı əhəmiyyəti bir sıra obyektiv və subyektiv amillərlə şərtlənir:

1.Ölkənin müharibə vəziyyətində olması;

2.Azərbaycanın siyasi və iqtisadi maraqlarını bir sıra qonşu dövlətlərin imperiya maraqları ilə toqquşması;

3.Əkinə yararlı torpaq sahələrinin 20 faizinin işğal altında olması və 1 milyondan çox əhalisinin qaçqın və köçgün vəziyyətə düşməsi;

4.Bazar iqtisadiyyatı modeli əsasında inkişaf strategiyasının seçilməsi ilə əlaqədar olaraq, milli iqtisadiyyatın transformasiyası prosesindən irəli gələn çətinliklər, çatışmamazlıqlar və s.

Yuxarıda deyilənlərdən məlum olur ki, ölkəmizdə ərzaq təhlükəsizliyi probleminin həlli daxili və xarici amillərlə şərtlənir.

Ümumiyyətlə Azərbaycanda olduğu kimi onun regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Bu baxımdan da muxtar respublikada aqrar sektorun inkişafına dövlət qayğısı getdikcə gücləndirilir. Elə bunun nəticəsidir ki, kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır.

Bunu aşağıdakı dinamikadan daha aydın görmək olar:




Cədvəl məlumatlarının təhlili göstərir ki, muxtar respublikada 2018-ci ildə 480 milyon 21 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuş və 2007-ci illə müqayisədə istehsal 3,9 dəfə artmışdır. Təbii ki, burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif

Talıbovun 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbul olunması da son 22 ildə kənd təsərrüfatı məhsullarının sürətli inkişafını təmin etmişdir.

Qeyd etmək lazımdır ki, muxtar respublikada cəmiyyətin hər bir üzvünün ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi hökumətin daim diqqət mərkəzində saxlanılır. Elə bu baxımdan da muxtar respublikada görülən işləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: "Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".

## ƏDƏBİYYAT


1. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, "Elm", 2005.
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, "Sabah", 2008, 452 s.
3. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, 2001.
4. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, 2007, 602 s.

**ÜLVİ BAXIŞLI**
*Naxçıvan Dövlət Universiteti*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA YENİ İQTİSADİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASI VƏ SAHİBKARLIQ

**XÜLASƏ**

*Bazar münasibətlərinin inkişaf etdiyi, bazar iqtisadiyyatının formalaşdığı bir cəmiyyətdə sahibkarlıq fəaliyyəti bu prosesin əsas hərəkətverici qüvvəsidir. Azərbaycan hökuməti sovet müstəmləkəsindən qurtulduqdan, öz müstəqilliyini əldə etdikdən sonar sahibkarlıq fəaliyyəti ölkədə bazar münasibətlərinin düzgün formada inkişafının, ölkə əhalisinin maddi rifah halının və sosial – mənəvi səviyyəsinin yüksəldilməsinin, cəmiyyətin sosial sabitliyinin, ölkənin iqtisadi suverenliyinin və siyasi müstəqilliyinin, zəngin resurs ehtiyatına malik olan respublikanın bu ehtiyatlarından və intellektual mülkiyyətdən daha səmərəli istifadənin, gələcək nəsillərin maraq və mənafelərinin qorunmasının, iqtisadi fəaliyyət subyektlərinin psixikasında mühüm və ciddi dəyişikliklərin aparılmasının, həmçinin bu subyektlərə yeni prinsip və metodlardan istifadənin, yeniliklərə əsaslanan istehsalın inkişafının təmin edilməsinin, bazar prinsipləri üzərində qurulan təsərrüfat mexanizminin yaradılmasının vacib şərtidir.*

**Açar sözlər:** *bazar iqtisadiyyatı, sahibkarlıq fəaliyyəti, sosial-iqtisadi inkişaf, iqtisadi artım.*

Bazar münasibətlərinin inkişaf etdiyi, bazar iqtisadiyyatının formalaşdığı bir cəmiyyətdə sahibkarlıq fəaliyyəti bu prosesin əsas hərəkətverici qüvvəsidir. Azad bazar iqtisadiyyatına məxsus olan sərbəst və müstəqil iqtisadi sahədə fəallığı ancaq sahibkarlıq fəaliyyəti prosesində meydana çıxır. Bazar iqtisadiyyatının mövcudluğu şəraitində mülkiyyətin müxtəlif formalarının yaranması insanlarda sahibkarlıq hissini gücləndirir, mülkiyyətə münasibəti dəyişdirir və məhsul istehsalını artırmağa maraq yaratmış olur. Yeni iqtisadi münasibətlər mərhələsinə keçid edən ölkəmiz bu mərhələyə çox da qısa vaxt ərzində və asan yolla gəlməmişdir. Respublikamız qazanmış olduğu sosial - iqtisadi sahədə nailiyyətlərə və göstərdiyi artım templərinə ölkənin yerli resurs potensialından səmərəli istifadə edilməsi və sosial bərabərlik prinsipinə uyğun ədalətli bölüşdürülməsi, xüsusilə də düşünülmüş və məqsədə uyğun şəkildə xalis iqtisadi strategiyanın həyata keçirilməsilə nail olub. Müstəqilliyini yenicə qazanmış ölkəmizin dinamik templərlə sosial-iqtisadi tərəqqisini özündə əks etdirən inkişaf planının hazırlanması və icra edilməsi yalnız Heydər Əliyevin xalqın çoxsaylı təkidi ilə növbəti dəfə hakimiyyətə dönüşündən sonar mümkün oldu. Azərbaycan Respublikası 1991-ci ildə öz dövlət müstəqilliyinə qovuşduqdan sonra əsaslı şəkildə hakimiyyətdə quruculuq işlərinin və ümumiləşdirilmiş islahatların həyata keçirilməsi, yeni dövrün formalaşan tələbatına müvafiq təsərrüfat formasının yaradılması, ölkədə iqtisadiyyatın əsaslandığı azad bazar münasibətlərinin formalaşdırılması və digər dəyişikliklər zərurətə çevrilmişdir.

Azərbaycan 90-cı illərin əvvələrəində ağır sosial-iqtisadi-siyasi fəlakətlərlə üz-üzə qalmışdır. Yenicə müstəqilliyə qədəm qoymuş digər sovet sosialist respublikalarında olduğu kimi Azərbaycanın da qarşısında yeni dövrün siyasi,

İqtisadi, hüquqi və sosial qanunauyğunluqları dururdu. Ümummilli lider ölkəyə sahiblik etdikdən, hakimiyyətdə olduqdan sonra ölkə daxilində siyasi cəhətdən sabit vəziyyət yaradıldı, atəşkəs elan edildi, geniş əhatə dairəsinə malik iqtisadi islahatlar həyata keçirildi. Yürüdülən məqsədyönlü bu siyasət nəticəsində maliyyə siyasətində stabillik əldə edildi, ölkəyə cəlb edilən investisiyanın həcmində ildən ilə artım baş verdi, əhalinin rifah səviyyəsi yüksəldi.

Azərbaycan müstəqilliyə qədəm qoyduqdan sonra müstəqil və liberal bazar iqtisadiyyatına söykənən iqtisadi inkişaf yolunu 90-cı illərdə 2 əsas mərhələyə bölməq məqsədəuyğun olardı: Birinci mərhələ 1991 - 1993 cü illəri əhatə edən iqtisadiyyatın mövcud durumunda tənəzzül

mərhələsi, ikinci mərhələ isə 1995 –ci ildən başlayaraq davamlı olan dinamik inkişaf mərhələsidir. Belə ki, birinci mərhələnin iqtisadi vəziyyətini həmin dövrün makroiqtisadi durumuna uyğun olaraq söyləmək olar ki, milli iqtisadiyyatın inkişafı göstəricisi hər il aşağı düşür, ümumdaxili məhsulun həcmi kəskin surətdə azalırdı. ÜDM-in həcmi orta hesab göstəricisi ilə hər il 16.5 faiz azalırdı. Həmin dövrdə tənəzzül meylləri iqtisadiyyatın aparıcı sahəsinə çevrilən sənayedə müşahidə edilirdi. Azərbaycanın bu dövrdə milli gəlirinin və milli iqtisadiyyatının 70%-ə yaxını bilavasitə əhəmiyyətli şəkildə sənaye sahələri ilə əlaqədar idi ki, buradan da mövcud vəziyyətin nə dərəcədə gərgin bir hal aldığını müəyyən etmək olar. Azərbaycan 1993-cü ildə öz istehsal potensialının 2/3-ni rahatlıqla söyləmək olar ki, itirmiş və ÜMG -in əldə edilməsi səviyyəsi yox dərəcəsinə qədər düşmüşdür. Ölkə miqyasında istehsal sahələrinin əksər hissələrinin sıradan çıxması, bəzi istehsal sahələrində xammal çatışmazlığı və satış bazarlarının yoxluğu bir problem olaraqdanölkənin bu kimi hallarla üzləşməsi iqtisadiyyatı defolt vəziyyətinə salmışdır. İnflyasiyanın həddi 1012,3 faizə çatmış, ölkədə qiymət indeksi və bazara nəzarəti tamamilə itirmiş, maliyyə nəzarəti sistemi sıradan çıxmışdır.

Ölkə 1993-cü ildə hiperinflyasiya (inflyasiyanın ən yüksək həddi) mərhələsində özünün ən yüksək həddinə, 1763,5 faizə çatmışdır. Həmin dövrdə büdcə kəsirinin ÜDM-ə nisbəti 1991-ci ildəki 0,2 % - dən 1993-cü ildəki mövcud göstəriciyə - 15% - ə qədər artmışdır. Xarici ticarət sahəsində isə edilən dövriyyənin həcmi 1992-1994-cü illərdə 42% azalmış, ölkə iqtisadiyyatına 1994- cü ildə belə götürdükdə bir manat da olsun xarici investisiya qoyulmamışdır. Lakin bu ağır iqtisadi vəziyyət, iqtisadi tənəzzül dövrü çox da uzun müddət çəkmədi. H.Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə vəziyyət müsbət istiqamətdə dəyişdi. Beləliklə, 1994-cü ildən birmənalı olaraq mənfi təzahürlü planlı iqtisadiyyatdan daha çevik liberal bazar iqtisadiyyatına keçmək üçün mühüm strateji xarakterli qərarlar qəbul olundu. Liberal iqtisadiyyat çoxsistemli tədbirlər kompleksini əks etdirməklə islahatların yüksək inkişaf dinamikasının təminatı üçün kompleks proqramlar həyata keçirilməlidir. Bu modelin komponentlərini həyata keçirməyi qarşısına məqsəd qoyan ölkə rəhbərliyi 1994-cü ildən başlayaraq dövlətin mülkiyyətində olan torpaqları kəndlilərə verməklə, MDB məkanında bu istiqamət daxilində islahat keçirən ilk respublika olaraq tarixə düşmüşdür. Həmçinin ölkədə özəlləşdirmə prosesinin reallaşdırılması iqtisadiyyatın strukturunda əhəmiyyətli keyfiyyət irəliləyişlərinin yaradılması ilə liberal iqtisadiyyat modelinin formalaşması üçün ciddi şərait yaranmışdır. Qeyd edilən şəraitdə planlı iqtisadi sistemdən liberal iqtisadisadiyyata keçid iqtisadi transformasiyanın sürətlənməsi ilə daha da geniş vəziyyət almışdır. İqtisadi sistemin vacib sahəsi hesab edilən neft sektoru ilə yanaşı, başqa sahələrdə də irimiqyaslı islahatların icrasına başlanıldı. Bazar iqtisadiyyatına əsaslanan sistemə uyğun qanunvericilik sisteminin yaradılması, büdcə, vergi, bank sisteminin formalaşdırılması, aqrar sektordaəsaslı islahatların aparılması zəruriliyi, özəlləşdirmənin geniş miqyas alması, əlverişli sahibkarlıq şəraitinin yaradılmasının nəticəsi kimi bazar iqtisadi sisteminə keçirildi və ölkə ərazisindəsahibkar sinfinin formalaşmasının əsası qoyuldu.

Sahibkarlıq fəaliyyəti sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının mühüm komponentlərindən biridir. Sahibkar üçün əsas fərdi xüsusiyyətlər aşağıdakılardır: sahibkar açıq fikirli olmalı; həyata müsbət baxışlarla baxmalı; hadisələrin gedişinə obyektiv yanaşmalı; problemi həll etməyi bacarmalı; cəsurolmalı; riskə getməyi bacarmalı; rəqabəti sevməli; işgüzar olmalı; qərar qəbul etməyi bacarmalı; özünü inkişaf etdirməli və etdiyi səhvlərdən nəticə çıxarmağı bacarmalıdır. Bir insanın sahibkar kimi formalaşması üçün gözlənilən xüsusiyyətlərə aiddir: Riskə getmə qabiliyyəti – 10,8 %, özünə güvən – 9,43%, yaradıcılıq qabiliyyəti – 9,3%, liderlik – 7,81%, ünsiyyət bacarıqları – 7,67%, təşkilatçılıq bacarığı – 7.61%, razılıq qabiliyyəti – 7,44%, düzgün işçi qrupunun yaradılması – 7,14%, təşəbbüs göstərmə qabiliyyəti – 5,93%, idarəçilik qabiliyyəti – 5,73%, fərdi əlaqələr – 4,95%, maliyyə biliyi – 4,66%, lazımi sərmayə qoyuluşu - 4,33%, diqqətlilik - 4,03%, iş təcrübəsi – 3,13% .

Respublika müstəqillik yoluna qədəm qoyduqdan sonra sahibkarlıq fəaliyyətin inkişaf səviyyəsinin yüksəldilməsi üçün mühüm vəziyyət formalaşmışdır. Bu dövrdə sahibkarlığın inkişafını üç mərhələdə birləşdirmək olar :

***Birinci mərhələ və ya 1993-cü ilə qədər olan dövr.*** İqtisadi sahədəislahatların sistemli şəkildə, müəyyən qanunauyğunluqla və bir-birini tamamlaması məqsədilə həyata keçirilməsi

iqtisadi yüksəlişin mühüm şərtidir. Kəskin mövqeyi ilə seçilən, radikalizmin geniş yayıldığı iqtisadi dəyişkənliklər mərhələsində tətbiq edilən iqtisadi sahədə tədbirlərin hər birinin inkişafda yerinin düzgün formada müəyyənləşdirilməsi və onların həyatiləşdirilməsi prosesində məntiqi ardıcıllığa riayət edilməsi bu sahədə əsaslı islahatların nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərən əsas məsələlərdən biridir.

Azərbaycan reallığına nəzər saldıqda, müstəqillik illərinin ilk dövrlərində vəziyyətin qənaətbəxş olmaması aydın görünür. Respublika iqtisadiyyatında formalaşmış vəziyyətin xüsusiyyətləri nöqteyi nəzərindən sahibkarlıq prosesinin maddi əsasını təşkil edən özəlləşdirmə, xüsusən də qiymətlərin liberallaşdırılmasını üstələməli idi. Lakin ölkə iqtisadiyyatında obyektiv və subyektiv səbəblər ölkəni dövlət mülkiyyətinin inhisarlaşması şəraitində müstəqil qiymətlərin yaranması prosesi ilə qarşılaşdırmışdır. Burada obyektiv səbəb kimi "rubl" dan istifadə edən dövlətlərin bu prosesə başlanması, subyektiv səbəb kimi isə ölkənin milli valyutaya keçid mərhələsinə hazırsızlığı, iqtisadi cəhətdən sərhədlərin təşəkkül tapmasındakı ləngimələr göstərmək olar. Bazar iqtisadi sisteminə keçid mərhələsində tətbiq edilən strateji xarakterli işlərdən olan özəlləşdirmə prosesi fiskal tədbirlərə müqayisədə geri plana ötürüldü. Yaradılmış olan bu stiuasiyalı vəziyyətlə əlaqədar olaraq maliyyə sabitliyi ilə istehsal prosesinin aktiv vəziyyətə gətirilməsi və dövriyyədə saxlanılan pul kütləsinin artırılması vasitəsilə mövcudluğu diqqətə alındıqda, bu addımların faktiki olaraq nəticə verməyəcəyi aydın görünürdü.

***İkinci mərhələ və ya 1993-2002-ci illəri əhatə edən dövr.*** Sahibkarlığın inkişafının bu mərhələsini şərti olaraq iki dövrə ayırmaq olar: 1993cü ildən 1996-cı ilə qədər davam edən birinci mərhələ ölkənin makroiqtisadi sabitliyinin yenidən bərpası – bərqərar olması ilə müəyyən edilir. Birinci mərhələ Azərbaycanın tarixində öz ağır nəticələri ilə yadda qaldı. Törədilən kütləvi qətliyamlar, ölkənin 20 faiz torpaqlarının zəbt edilməsi, insanların yurdyuvalarından didərgin düşmələri, önsanların rayonlardan mərkəzə axın etmələri vəziyyəti gərginləşdirmişdir. İkinci mərhələ ümumiyyətlə Heydər Əliyevin rəhbərliyi altında uğurlu siyasətlə xarakterizə olunur. Ölkə rəhbərliyinin həyata keçirmiş olduğu bu kimi işlər nəticəsində ölkə siyasi və makroiqtisadi sabitliyini təmin etmiş və iqtisadi yönümlü tədbirlərin icrası üçün əsas olmuşdur. Bu mərhələdə sahibkarlığın inkişafı səviyyəsinin müəyyənləşdirilməsi üçün bir sıra tədbirlərin icra edilməsinə baxmayaraq, bu istiqamətdə əsaslı dönüş 1996-cı ildən etibarən müşayət edildi. Ölkə ərazisində iqtisadi və sosial islahatların və iqtisadiyyatın inkişafının şaxələndirilməsi modelinin həyati önəm kəsb etməsi və səmərəli olması özünü iqtisadiyyatın bugünkü inkişaf səviyyəsində göstərir. Bu model əsasında yaradılmış olan siyasət əsaslı şəkildə keyfiyyət dəyişikliklərinə səbəb oldu: yüksək inflyasiya səviyyəsi normallaşdırılmış, büdcə kəsiri ümum daxili məhsulun 2-3% səviyyəsinə endirilmişdir. Təbiq edilən iqtisadi siyasətə əsasən iqtisadi böhran dövrünü yaşayan respublikamızda makroiqtisadi sahədə sabitlik əldə edilmiş və dinamik inkişafı göstəricisi ilə xarakterizə olunan iqtisadiyyata sahib olunmuşdur. Belə ki, 1996-cı ildən əvvəlki iqtisadi göstəricilərlə müqayisədə 1996-cı ildən ÜDM-in səviyyəsində artım sürəti 1,3%, 1997-ci ildə artım sürətin 5,8%, 1998-ci ildən 2004-cü ilə qədər olan dövrə nəzər yetirsək iqtisadi artımda 10%-ə qədər bir artımın olduğunu müşahidə edərik.

***Üçüncü mərhələ və ya 2002-ci ildən sonrakı mərhələ.*** Bu mərhələ H.Əliyevin 2002-ci ilin aprel-may ayları daxilində yerli və xarici sahibkarlıq subyektlərinin vasitəçiliyi ilə görüşü kimi yadda qalmışdır. Sahibkarlara dövlət dəstəyi və qayğısının təcəssümü hesab edilən qeyd olunan görüşlər və bu görüşlərin nəticəsi olaraq sahibkarlıq mühitinin inkişafının sürətləndirilməsi məqsədilə avqust və sentyabr aylarında imzalanmış olan hüquqi əhəmiyyətli sənədlər sahibkarlığın formalaşdırılmasının yeni mərhələsini yaratdı. Beləliklə, üçüncü mərhələnin əsas iqtisadi nəticələri aşağıdakılardır:

sahibkarlığın istehsal yönümlü inkişaf meylinin formalaşması, regionlarda işgüzar fəaliyyətin canlandırılması, sahibkarların cəmiyyətdə mövqeyinin gücləndirilməsi aid edilir. Sahibkarlığın inkişafının üçüncü mərhələsinin əsas iqtisadi tələblərinə: məşğulluğu təmin etməklə işsizliyin səviyyəsinin azaldılmasının təmin edilməsi, regional potensialın sənaye, turizm və aqrar sahə istiqamətində reallaşdırılması, ixrac potensialının genişləndirilməsi, yeniliklərin yaradılması istiqamətində sahibkarlığın inkişafı və təşəkkülü aiddir.

Sahibkarlıq fəaliyyətinin yüksək templərlə inkişafının təmini, düzgün formada istiqamətləndirilməsi, həlli vacib hesab edilən əsas problemlərin həll edilməsi ilə əlaqəli yollarının müəyyən edilməsi ilə sahibkarların fəaliyyətinə stimul verilməsi, işsizliyin mövcud səviyyəsinin azaldılması, rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi kimi məsələlər hər zaman ölkədə diqqət mərkəzində dayanır və sahibkarlıq fəaliyyəti istiqamətində hüquqi bazanın tənzimlənməsində dövlətin tənzimləmə siyasəti mühüm xarakter daşıyır. Respublika miqyasında tətbiqi nəzərdə tutulan tənzimləmə siyasəti bilavasitə kiçik sahibkarların hüquq və mənafelərinin pozulması hallarının məhdudlaşdırılması və sahibkarlıq subyektlərinin fəaliyyətlərinin həvəsləndirilməsi istiqamətində tətbiq edilir.

Bazar iqtisadiyyatının geniş təşəkkül tapdığı xarici təcrübələrdən aydındır ki, sahibkarlıq münasibətlərinin dövlət tərəfindən tənzimlənməsinin geniş bir sistemi mövcuddur və buraya da inzibati, təşkilati-hüquqi, büdcə təşkili, vergilər, gömrük rüsumları və başqa sahələrdə həyata keçirlən tədbirlər məcmusu daxildir. Həmin tədbirlər isə sahibkarlığı gələcəkdə həllini gözləyən problemləryönəltmək, iqtisadiyyatın özəl bölməsinin formalaşdırılması və inkişafının qarşılanması sahəsində əlverişli iqtisadi - sosial şərait yaratmaq, kəskin rəqabətin genişləndiyi şəraitdə sahibkarlıq subyektlərinin ilkin dövrlərdə bu fəaliyyətə davam gətirə bilməsi və möhkəmlənməsi üçün iqtisadi mühitin yaradılması zərurətindən formalaşır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Sahibkarlıq fəaliyyəti haqqında qanun, Bakı,1992-2015. Əlavə və dəyişikliklərlə birlikdə
2. Azərbaycan Respublikası Regionların sosial – iqtisadi inkişafı Dövlət proqramı,2004-2008,2008-2013,2013-2018 –ci illər
3. Azərbaycan 2020: "Gələcəyə baxış" inkişafı konsepsiyası
4. Əhmədov M., Hüseynov A. "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları",Bakı-2011, səh-215.
5. Əhmədov M., Hüseynov A. "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları",Bakı-2011, səh-215.
6. www.stat.gov.az
7. www.economy.gov.az

**ABDULA ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## AZƏRBAYCANDA BEYNƏLXALQ MÜHASİBAT UÇOTUNA KEÇİDİN MÜASİR PROBLEMLƏRİ

### XÜLASƏ

*Elmi məqalədə Azərbaycanda Beynəlxalq mühasibat uçotuna keçidin zəruriliyi və şərtləri geniş tədqiq edilmişdir.Elmi məqalədə əsasən maliyyə hesabatlarının beynəlxalq standartları və milli mühasibat uçotu standartları geniş şərh edilmişdir.*

**Açar sözlər:** *təsərrüfat subyekti,mühasibat uçotu,milli standartlar,istehsal, təsərrüfat, maliyyə hesabatları*

Hər bir təsərrüfat subyektinin fəaliyyətini hərtərəfli öyrənmək və ondan əldə edilən nəticələri ictimai, sosial, iqtisadi və digər istiqamətlərdə araşdırmaq, araşdırılan məsələlərə dair əsaslandırılmış qərarlar çıxarmaq üçün mühasibat uçotunun məlumatlarından geniş istifadə edilir. Burada mühasibat uçotunun düzgün qurulması ən mühüm məsələrdən biridir. Məlumdur ki, mühasibat uçotuna ümumi hüquqi və metodiki rəhbərlik Azərbaycan Respublikasının hökuməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabineti 20 fevral 2003-cü il tarixli 29 saylı «Beynəlxalq mühasibat uçotu standartlarına keçmək məqsədi ilə Milli mühasibat uçotu standartlarının 2003-2007-ci illərdə hazırlanması va tətbiqi üzrə proqram haqqında» qərar qəbul etmişdir. Bu qərarda mühasibat uçotunun normativ hüquqi bazasının va metodiki təminatının müasir informasiya texnologiyasının tələblərinə uyğunlaşdırılması, beynəlxalq mühasibat uçotu sisteminin tələblərinə uygun mütəxəssislərin hazırlanması müəyyən olunmuş və həmin dövrdən onların mərhələ-mərhələ yerinə yetirilməsi həyata keçirilməyə başlamışdır. Bu normativ sənədlərə yaxın on-on beş il ərzində Azərbaycanda uçot sisteminin qurulması və təkmilləşdirilməsinə dair Azərbaycan Respublikası Maliyyə Nazirliyinin uçot siyasəti şöbəsinin metodoloji şurası tərəfindən qəbul olunmuş prinsipləri əhatə edən mühasibat uçotunun Konsepsiyası da daxildır. Hal-hazırda Azərbaycanda mühasibat uçotunun dördsəviyyəli normativ-hüquqi aktina əsaslanan hüquqi və metodoloji tənzimlənməsi sisteminin təkmillşdirilməsi üzrə intensivn iş aparılır. Birinci səviyyə-Azərbaycanda mühasibat uçotunun vahid hüquqi və metodoloji normalarla təşkili və aparılmasını təyin edən Azərbaycan Respublikası prezidentinin qanun və fərmanları eləcə də Azərbaycan Respublikası Naxirlər Kabinetinin qərarlarını əhatə edir. Digər qanunlarda əhatə olunan normalar, mühasibat uçotu və hesabatına aid olan məsələlər, Respublikanın «Mühasibat uçotu haqda» qanununa müvafiq olmalıdır. İkinci səviyyə- mühasibat uçotu üzrə Respublika hökuməti tərəfindən müəyyən edilən icraedici orqanların təsdiq etdiyi əsasnamələri (milli standartları) özündə birləşdirir. Üçüncü səviyyə–hazırlanan metodiki göstərişlərdən təlimatlardan, təkliflərdən və onların məzmununu özündə əks etdirən anoloji sənədlərdən ibarətdir. Sözü gedən səviyyəyə aid aktlar birinci və ikinci səviyyəyə aid sənədləri inkişaf etdirməklə icraedici orqanlar, nazirliklər və digər orqanlar tərəfindən hazırlanır və təsdiq olunur. Buraya təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun hesablar planı və onların tətbiqinə dair təlimat aid edilir. Dördüncü səviyyə – ayrı-ayrı əmlak, öhdəlik və mütləq xarakterli təsərrüfat əməliyyatlarının mühasibat uçotunun təşkili və aparılmasını əhatə edir. Burada təşkilatda onun rəhbərinin qəbul edilmiş uçot siyasəti dairəsində təsdiq etdiyi daxili istifadə üçün nəzərdə tutulan iş sənədləri aid edilir. Sözü gedən sənədlər, onların məzmunu və statusu, qruluş prinsipi və öz aralarındakı əlaqə, eləcə də hazırlanma və təsdiqi qaydası təşkilatın rəhbəri tərəfindən müəyyən edilir. Son illərdə Azərbaycanda mühasibat uçotunun aparılması sistemində xeyli

dəyişikliklər, əlavələr və dəqiqləşdirmələr aparılmışdır. Buna görə müəssisənin uçot siyasətini hazırlayarkən mühasibat uçotu haqda Azərbaycan Respublikası Qanununa, digər Respublika Qanununa, Respublika Prezidentinin fərmanlarına, Respublika Hökumətinin qərarlarına və Respublika Maliyyə Nazirliyinin göstərişlərinə, əmrlərinə, təlimatlarına, məktublarına və digər normativ sənədlərə xüsusi ilə yeni hesablar planına əsaslanmalıdır.

Geniş xüsusiyyətlərə malik olan mühasibat uçotu dörd müstəqil hissədən: mühasibat uçotunun nəzəriyyəsindən, maliyyə (mühasibat) uçotundan, idarəetmə uçotundan və vergi uçotundan ibarətdir. Mühasibat uçotunun nəzəriyyəsi-bütövlükdə mühasibat uçotu sisteminin təşkili üzrə nəzəri, metodoloji və praktiki məsələ və problemləri öyrənən elmdir. Tanınmış Amerika alimləri olan Xendriksen E.S.və Van Breda M.F mənfəətin hesablanması metodunun təhlilinə əsaslanaraq mühasibat uçotunun nəzəriyyəsini özünəməxsus tərzdə izah edərək, onu bütün təsərrüfat və qeyritəsərrüfat subyektlərinin həm ictimai, həm sosial, həm də iqtisadi fəaliyyətlərini əsaslandırılmış şəkildə hərtərəfli əhatə edən maliyyə (mühasibat), idarəetmə və vergi uçotunun əsas aparıcı qolu hesab etmişlər.

Bazar münasibətlərinə keçidlə ilə əlaqədar olaraq mühasibat uçotunun nəzəri prinsiplərinə və metodologiyasına, mövcud baxışlara əsaslı surətdə yenidən baxılmalıdır. İnzibati amirlik sistemi dövründə makroiqtisadiyyatın idarə edilməsi zamanı mövcud olan uçot metodlarının tətbiqi qeyri-mümkündür. Təsərrüfatçılığın isə həlqəsi olan kommersiya müəssisələrinin fəaliyyətini səmərəli qurmaq üçün düzgün qərarların qəbul edilməsi həlledici rol oynayır. Bunu isə yalnız mükəmməl informasiya təsərrüfatı olduqda həyata keçirmək olar. Bu baxımdan iqtisadi idarəetmənin ən mühüm amillərindən biri kimi mühasibat uçotunun rolu əvəzedilməzdir. Eyni zamanda bazar iqtisadiyyatı şəraitində müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti haqqında informasiya kənar istifadəçilər üçün də mühüm əhəmiyyətə malikdir. Bu informasiyanın toplanması, işlənilməsi və ümumiləşdirilməsi məhz mühasibat uçotu vasitəsilə həyata keçirilir.

Mühasibat uçotunun vəzifələrinə: 1.Müəssisənin fəaliyyəti və əmlakı haqqında tam və düzgün informasiya hazırlamaq; 2.İstehsal-təsərrüfat fəaliyyəti zamanı baş verə bilən neqativ halların qarşısının alınması üzərində nəzarət; 3.İstehsaldaxili ehtiyyatların aşkara çıxarılması və onların səmərəli istifadəsi-daxildir.

Müasir dövrdən fərqli olaraq əvvəlki dövrün mühasibat uçotu fərdi sahibkarı lazımi informasiyalarla təmin etmiş, bütün məlumatlar gizli şəkildə saxlanılmış; həmin dövrdə mülkiyyətçi və təşkilatın əmlakı arasında heç bir məhdudiyyət qoyulmamış; təşkilatda hesabat və onlar arasındakı dövr haqqında heç bir anlayış olmamış; çoxlu pul vahidinin mövcudluğu mühasibatlıqda ikili yazılışdan istifadəni ləngitmişdirmişdir. Bütün bunlar uçot registrlərində aparılan yazılışları xüsusilə, mal haqda məlumatları (çəki, ölçü, ölçü vahidi, qiymət) təsviri xarakterizə etməklə öz işini yekunlaşdırırdı. Ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu prosesi davamlı olaraq həyata keçirilir. Ölkəmizin iqtisadiyyatının planlı iqtisadiyyat sistemindən bazar iqtisadiyyatı sisteminə keçirilməsi yolunda böyük işlər görülmüşdür.

Məhsul istehsalı (yerinə yetirilən iş və xidmətlər), satışı və onlara çəkilən məsrəflərin uçot-hesabat sənədlər kompleksi zəngin və çoxşaxəlidir. Bura daxildir: mühasibat uçotu məlumatları, Statistika Komitəsinin hazırlayıb təsdiq etdiyi statistik hesabat blankları, Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuş maliyyə hesabatları və vergi bəyannamələri. Həmin uçot-hesabat və statistik formalarda sintetik göstəricilər öz əksini tapır. Ona görə də məhsul istehsalı (yerinə yetirilən iş və xidmətlər), satışı və məsrəflərə dair əməliyyatların yekun sintetik göstəriciləri müqayisə olunan zaman informasiya mənbələri kimi aşağıdakılar istifadə olunur: müəssisənin balans məlumatları və bu balansa əlavə olunan «Müəssisələrin, təşkilatların vəsaitlərinin tərkibi və onların yaranması» haqqında, «Mənfəət və zərərlər» haqqında hesabat, «Kapitalda dəyişikliklər haqqında hesabat», mühasibat uçotu hesablar planının 202 №-li «İstehsalat məsrəfləri və onun subhesabları», 721 №-li «İnzibati xərclər», 204 №-li «Hazır məhsul», 205 №-li «Mallar», 206 №-li «Satış məqsədilə saxlanılan digər aktivlər», 221 №-li «Kassa», 223 №-li «Bank hesablaşma hesabı», 211 №-li «Alıcı və satıcıların qısamüddətli debitor borcları» adlı sintetik hesabların debet və kredit məlumatları, onların analitik məlumatlarını əks etdirən jurnal-orderlər və onların dövriyyə cədvəllərinin məlumatları xammal və əsas materiallar yeni yaradılan məhsulun əsasını təşkil edir,

yəni xammal və material olmasa, konkret növ məhsul istehsal etmək mümkün deyil. Xammal və materialların tərkibində satın alınmış yarımfabrikatlar, komplektləşdirici məmulat və detallar xüsusi qrup təşkil edir ki, bunlar da emalın müəyyən mərhələsini keçmiş, lakin hələ hazır məhsula çevrilməmiş olurlar.

Məhsulların (işlərin, xidmətlərin) satışından alınan pul vəsaiti ya onun dəyəri ödənilməklə (pul vəsaitləri bankın hesablarına ya da təşkilatın kassasına daxil olduqda), ya da onun göndərilməsi (işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi) və malalana (sifarişçiyə) hesablaşma sənədlərini təqdim etməklə hesablanılır. Torpaq, tikili və avadanlıqların, azqiymətli və tez köhnələn əşyaların və qeyrimaddi aktivlərin satışından əldə edilən mənfəət (zərər), buraxılış qiymətlərilə onların satışından əldə edilən vəsait və onların qalıq dəyəri, habelə onların satışı ilə əlaqədar olan xəclər və əlavə dəyər vergisi arasındakı fərq kimi hesablanır. Maddi sərvətlərin və digər Aktivlərin satışından əldə edilən mənfəətin (zərər), buraxılış qiymətləri ilə onların satışından alınan vəsait və həmin aktivlərin əldə edilməsinə, satışına çəkilən xərclər və əlavə dəyər vergisi arasındakı fərq kimi müəyyənləşdirilir. Balans mənfəətinin əsas hissəsini məhsulların, işlərin və xidmətlərin satışından əldə edilən mənfəət təşkil edir. Müəssisənin sərəncamında qalan mənfəət (xalis mənfəət), özündə balans mənfəəti və onun hesabına həyata keçirilən vergi ödəmələri arasındakı fərqi əks etdirir. Göstərilən mənfəət müəssisənin sərəncamında qalır və əməyin ödənilməsi üçün ehtiyat fondunun, ictimai ehtiyaclar üçün ehtiyat fondunun, yığım fondunun, istehlak fondunun və təsis sənədlərinə əsasən müəssisənin məsləhət bildiyi digər xüsusi fondların yaradılmasına yönəldilir. Müəssisələr təsərrüfat fəaliyyəti prosesində maliyyə nəticələri əldə edirlər ki, bu da təsərrüfat ilin sonunda formalaşan mənfəət və ya zərər kimi özünü göstərir.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanununa əsasən müəssisə illik mühasibat hesabatının tərtibindən əvvəl (1 oktyabrdan tez olmayaraq) əmlak və öhdəliklərin mövcud vəziyyətinin tamamilə başdan-başa yoxlanması məqsədi ilə inventarizasiya keçirilməlidir. Inventarizasiya zamanı faktiki əmlakın uçot məlumatlarından kənarlaşan məbləği müvafiq qaydada tənzimləşdirilir və bu iş hesabat tərtib olunanadək başa çatdırılmalıdır. İllik hesabat tərtib edilənədək onun məlumatlarının düzgünlüyünü təmin etmək məqsədilə aşağıdakı şərtlərə əməl olunmalıdır: -hesabat dövründə bütün təsərrüfat əməliyyatlarının və balans maddələrinin inventarizasiyanın nəticəsi uçotda tam əks etdirilməlidir; -hər ayın əvvəlinə analitik uçot məlumatlarının sintetik hesablar üzrə dövriyyə və qalıqlara yoxlanması; - mühasibat hesabatları və balansları məlumatlarının sintetik və analitik uçot məlumatlarına uyğunluğu yoxlanmalıdır. Bu işlərlə yanaşı seçmə yolu ilə ilkin uçot sənədlərinin ötən ildə müəssisədə tətbiq edilən uçot siyasətinin qüvvədə olan qanunvericiliyə uyğunluğu, vergitutma məqsədilə məhsulun maya dəyərinin düzgünlüyü də yoxlandıqdan sonra uçot registrləri müəyyən edilmiş ardıcıllıqla bağlanır və baş kitab tərtib edilir.

## ƏDƏBİYYAT


1. Milli mühasibat uçotu standartları. Qanun 2008.
2. T.Abbasov "Mühasibat uçotunun Beynəlxaiq və Milli standartlarının əsasları" (CAAP v İRFS əsasları).Dərs vəsaiti. Bakı 2010 -423 səh.
3. T.Abbasov "Büdcədən maliyyələşən təşkilatlarda uçot və hesabat" ((CAAP v İRFS əsasları).Dərs vəsaiti. Bakı 2014- 423 səh.
4. S.M.Səbzəliyev,V.M. Quliyev "Xidmət sahələrində mühasibat (maliyyə) uçotu". Bakı 2015

## MÜNDƏRİCAT


1. **Saleh Məhərrəmov.** Dünya iqtisadiyyatı, qloballaşma və mühasibat uçotunun beynəlxalq standartları………………………………………………………………… 3
2. **Teymur Abbasov.** Qloballaşan innovasiyalı iqtisadiyyatda mühasibat uçotunun aktual problemləri…………………………………………………………………….. 5
3. **Ağarza Rüstəmov.** Qloballaşma şəraitində aqrar sahə məhsullarının dünya bazarına çıxarılmasının sürətləndirilməsi və xarici təcrübədən istifadə……………………… 8
4. **Zəhmət Şahverdiyev.** Naxçıvan regionunda aqrar məsələlərin tədqiqinə dair……………… 10
5. **Nazim Əhmədov.** Regional siyasət və dövlətin tənzimləyici rolu………………………... 16
6. **Mehdi Bağırov.** Təsərrüfat subyektlərinin maliyyə vəsaitləri haqqında məlumatlandırma və maliyyə hesabatları üzrə izahat təyinatlı sənədlərin hazırlanması……………………... 20
7. **Əşrəf Ələkbərov.** Qloballaşma şəraitində iqtisadi inkişafda investisiyaların rolu………….. 25
8. **Ceyhun Mahmudov.** İqtisadi qloballaşma prosesi və regional tarazlı inkişaf: qarşılıqlı əlaqə və asılılıq……………………………………………………………………….. 28
9. **Nuriyyə İbrahimova.** Qloballaşan iqtisadiyyata məhsulun istehsalı və satışının iqtisadi təhlili……………………………………………………………………………32
10. **Mehriban İmanova.** Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçid və qarşıya çıxan problemlər……………………………………………………………... 35
11. **Dilsuz Qasımov.** Bəşəriyyətin qlobal problemlərindən biri ərzaqla təminatdır……………... 38
12. **Səxavət Heydərli.** Azərbaycanda qloballaşma şəraitində ərzaq bazarının inkişaf dinamikası. 41
13. **İradə Bağırova.** Milli iqtisadiyyatın inkişafında turizm sektorunun rolu və əsas istiqamətləri…………………………………………………………………….45
14. **Bəhram Həsənov.** Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi siyasəti və yerli istehsal...................................................................................................... 49
15. **Mayisə Abbasova.** Qloballaşma şəraitində iqtisadi inkişafın müasir aspektləri................. 53
16. **Kəmalə Təhməzbəyova.** Muhasibat Uçotunun Beynəlxalq Standartlarının xüsusiyyətləri....57
17. **Samir Həziyev.** Müasir dövrdə dövlətin və müəssisələrin maliyyə və vergi siyasəti............ 62
18. **Amar Qasımov.** Azərbaycanda qloballaşma dövrünün tələblərinin kiçik və orta sahibkarlığın inkişafına təsiri............................................................................................ 67
19. **Rauf Rəhimov.** Aqrar sektorda istifadə edilən ən son innovativ yeniliklər: robot texnologiyaları və dronlar................................................................................................ 70
20. **Həsən Abbasov.** Aqrar sahədə uçotun təşkili üzrə tənzimləmə fəaliyyətinin konseptual əsasları...................................................................................................................... 73
21. **Məhsəti Əsgərova (Məmmədova).** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında innovasiyaların rolu............................................................................... 78
22. **Əbdülhüseyn Zamanov.** Qloballaşan iqtisadiyyatda aqrar sahənin davamlı iqtisadi inkişafı və ixrac potensialı.............................................................................................. 81
23. **Nihad Mehbalıyev.** Naxçıvan muxtar respublikasının sosial-iqtisadi inkişaf mərhələləri...... 86
24. **Vüqar Məmmədzadə.** Modern dünyamızda qloballaşma prosesinin təzahürü...................... 89
25. **Elvin Əlimərdanov.** Fəaliyyətə əsaslanan maya dəyəri sistemi........................................... 92
26. **Röya Sultanova.** Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətləri................................................................................................. 95
27. **Ülvi Baxışlı.** Qloballaşma şəraitində Azərbaycanda yeni iqtisadi münasibətlərin formalaşması və sahibkarlıq........................................................................................... 99
28. **Abdula Abdullayev.** Azərbaycanda beynəlxalq mühasibat uçotuna keçidin müasir problemləri.............................................................................................................. 103

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Samir Tarverdiyev |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı redaktor: | Səfa Quliyeva |
| Aparıcı korrektor: | Roza Abdullayeva |

Yığılmağa verilib: 25. IV. 2019
Çapa imzalanıb: 08. V. 2019
Formatı: 60/90, 32/1, həcmi 6,25 ç/v
Sifariş № 123, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7000. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı*
**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61
**E-mail:** *elmi hisse@email.com*